# KİTABXANA İŞİNƏ DAİR RƏSMİ SƏNƏDLƏR

## (Qanun və qanun qüvvəli normativ hüquqi sənədlər toplusu)

**4-cü təkmilləşdirilmiş nəşri**



Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

AZƏRBAYCAN
MİLLİ
KİTABXANASI

# KİTABXANA İŞİNƏ DAİR RƏSMİ SƏNƏDLƏR

## (Qanun və qanun qüvvəli normativ hüquqi sənədlər toplusu)

4-cü təkmilləşdirilmiş nəşri

**BAKI – 2026**

**UOT** 02(094.1) (479.24)
**KBT** Ч73:X620

**Tərtibçi müəllif:** **Kərim Tahirov**
*Professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Elmi redaktor:** **Ədibə İsmayılova**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Əməkdar mədəniyyət işçisi*

**Kitabxana işinə dair rəsmi sənədlər**: (Qanun və qanun qüvvəli normativ hüquqi sənədlər toplusu) /tərt.müəl. K.Tahirov; elmi red. Ə.İsmayılova. – 4-cü təkmilləşdirilmiş nəşri. – Bakı, 2026. – 332 s.

Kitabda mədəniyyət, kitabxana və nəşriyyat işinə dair Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Respublikası Prezidentinin bu sahə üzrə imzaladığı fərman və sərəncamlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kitabxana işinə dair kollegiya qərarları və əmrləri toplanmışdır.

Kitab kitabxana ictimaiyyəti və bütövlükdə mədəniyyət işçiləri üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 611 70 0

**©Azərbaycan Milli Kitabxanası, 2026**

# Giriş

Son illər Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlər sırasında kitabxana işinin təşkili, idarə edilməsi, xüsusən kitabxanalarda elektron kataloqun, elektron kitabxananın formalaşması, oxuculara informasiya xidmətində yeni iş üsullarının tətbiqi, virtual xidmətlərin təşkili, kitabxanada həyata keçirilən bir sıra proseslərə müasir texnologiyaların tətbiq edilməsinə başlanması və s. dövlətimizin kitabxana işi sahəsindəki siyasətinin prioritet istiqamətinə çevrilmişdir.

30 ildən artıq bir müddət ərzində müstəqillik şəraitində yaşayan Azərbaycan Respublikası qanunların aliliyinin təmin olunduğu hüquqi dövlət quruculuğu istiqamətində ciddi addımlar atmaqdadır. Bu şəraitdə bütün sahələrdə olduğu kimi, kitabxana işi sahəsində də müasir dövrlə səsləşən, kitabxana-informasiya sahəsində mövcud problemlərin sistemli həllinə yönəldilmiş qanunların, dövlət proqramlarının, fərman və sərəncamların və digər rəsmi sənədlərin qəbul edilməsi, onlardan irəli gələn tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, Azərbaycanda ilk dəfə Ulu Öndər Heydər Əliyevin imzaladığı 12 mart 1999-cu il tarixli Fərmana əsasən "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu (29 dekabr, 1998) qüvvəyə minmişdir.

Ulu öndərin işinin və ideyalarının layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin və ədəbiyyatının inkişafında tamamilə yeni bir mərhələnin əsasını qoymuş bir sıra fərman və sərəncamlar imzalamışdır: 12 yanvar 2004-cü il

tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam, 27 dekabr 2004-cü il tarixli "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" Sərəncam, 20 aprel 2007-ci il tarixli "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncam, 24 avqust 2007-ci il tarixli "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" Sərəncam, 6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi barədə" Sərəncam və s.

Bu rəsmi sənədlərin toplu halında nəşr olunaraq kitabxana ictimaiyyətinə çatdırılması mühüm əhəmiyyət kəsb edir və kitabxana fəaliyyətinin hüquqi təminatında vacib rol oynayacaqdır.

Respublikamızda idarə tabeçiliyindən asılı olmayaraq bütün kitabxanalarda çalışan kitabxanaçıların, bütövlükdə kitabxana ictimaiyyətinin stolüstü kitabına çevriləcək bu toplunun 4-cü təkmilləşdirilmiş nəşrində kitabxana işinə və əlaqədar sahələrə dair rəsmi sənədlər - qanunlar, Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman və sərəncamlar, Nazirlər Kabinetinin qərarları, Mədəniyyət Nazirliyinin əmrləri öz əksini tapmışdır.

Nəşrlə bağlı rəy və təkliflərini Azərbaycan Milli Kitabxanasına göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı ş., Xaqani küç. 57;
**E-mail:** contact@anl.az

# I FƏSİL
# QANUNLAR

## "Mədəniyyət haqqında"
## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında dövlət mədəniyyət siyasətinin məqsəd və prinsiplərini, mədəniyyət fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, mədəniyyət sahəsində hüquqi, təşkilati, iqtisadi və sosial təminatları müəyyən edir, mədəni sərvətlərin yaradılması, toplanması, tədqiqi, təbliği və qorunması sahəsində yaranan münasibətləri tənzimləyir.

### I FƏSİL
### Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

**1.0.** Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.0.1.** mədəniyyət – ədəbiyyat və incəsənət daxil olmaqla, cəmiyyətin və ya sosial qrupların maddi, mənəvi, intellektual və emosional xüsusiyyətlərini müəyyənləşdirən, insanların həyat tərzini, birgə yaşayış qaydalarını, mənəvi dəyərlər sistemini əhatə edən xüsusiyyətlərin məcmusu;

**1.0.2.** mədəniyyət fəaliyyəti (mədəniyyət sahəsində fəaliyyət) mədəni sərvətlərinin yaradılması, yayılması, qorunması, bərpası, mənimsənilməsi və təşviqi, həmçinin mədəniyyət xidmətlərinin göstərilməsi və təşkili sahəsində fəaliyyət;

**1.0.3.** mədəniyyət sahəsində dövlət siyasəti – mədəni irsin və mədəni sərvətlərin yaradılması, müəyyən edilməsi, qorunması,

inkişafı və təbliği sahəsində həyata keçirilən tədbirlərdə dövlətin rəhbər tutduğu məqsədlər, prinsiplər, normalar, konsepsiya, strategiya və dövlət proqramlarının məcmusu;

**1.0.4.** mədəniyyət məhsulları – kommersiya dəyərindən asılı olmayaraq, səciyyəvi xüsusiyyətləri, istifadə növləri və ya məqsədləri baxımından mədəni özünüifadə formalarını ehtiva edən insan fəaliyyətinin nəticələri;

**1.0.5.** mədəniyyət xidmətləri – şəxslərin mədəni-mənəviestetik ehtiyaclarının ödənilməsi məqsədilə göstərilən xidmətlər və yaradılan şərait;

**1.0.6.** mədəniyyət məkanı – mədəni sərvətlərin və ənənələrin yaranma və yayılma dairəsi;

**1.0.7.** mədəni məzmun – mədəni özünəməxsusluqdan yaranan və ifadə olunan ənənələr və mədəni dəyərlər;

**1.0.8.** mədəniyyət sənayesi – mədəniyyət məhsullarının və xidmətlərinin istehsalını və realizə edilməsini təmin edən fəaliyyət sahəsi;

**1.0.9.** bədii dəyər – bədii yaradıcılıq fəaliyyətinin nəticəsi olan mədəniyyət, ədəbiyyat və incəsənət əsərlərinin estetik əhəmiyyətini formalaşdıran xüsusiyyətlər;

**1.0.10.** milli mədəni irs – Azərbaycan xalqına məxsus, ümumazərbaycan əhəmiyyəti kəsb edən, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu;

**1.0.11.** qeyri-maddi mədəni irs – şəxslərin, qrupların və cəmiyyətin özünün mədəni irs nümunələri kimi qəbul etdikləri ənənələr, təsvir və ifadə formaları, bilik və bacarıqlar, onların yaradılmasında istifadə olunan alətlər, əşyalar, artefaktlar və mədəniyyət məkanları;

**1.0.12.** maddi mədəni irs – daşınmaz və daşınar mədəni irs;

**1.0.13.** daşınmaz mədəni irs – daşınmaz arxeoloji, memarlıq, bağ-park, monumental, xatirə abidələri, dekorativ-tətbiqi sənət nümunələri, o cümlədən mədəniyyət, memarlıq, bədii, etnoqrafiya, təbiət abidələri və tarixi qoruqlar, mədəniyyət məkanları, məqbərələr, arxeoloji komplekslər, memarlıq ansamblları, dini ocaqlar və etnoparklar;

**1.0.14.** daşınar mədəni irs – tarixi, təbii, arxeoloji, sənədli, etnoqrafik, kulinar, bədii, elmi-tədqiqat, rəsm, incəsənət, kinematoqrafiya, numizmat, filatelist, heraldik, biblioqrafiya, epiqrafiya, estetik, etnoloji və antropoloji daşınar sərvətlərin məcmusu;

**1.0.15.** mədəni irs nümunələri – özündə bir xalqın, milli azlığın maddi və qeyri-maddi mədəni irs nümunələrini əks etdirən mədəni sərvətlərin məcmusu. Bura yeraltı, yerüstü və sualtı mədəni irs nümunələri aiddir;

**1.0.16.** sualtı mədəni irs – insan varlığının bütövlükdə və ya qismən, daimi və ya vaxtaşırı su altında qalan mədəni, tarixi və ya arxeoloji izləri;

**1.0.17.** təbii irs – universal dəyərə malik fiziki və bioloji birləşmələrdən ibarət təbiət abidələri, geoloji və fizioqrafik birləşmələr, heyvan və bitki arealı olan zonalar, təbii zonalar;

**1.0.18.** dekorativ-tətbiqi sənət – müxtəlif məmulatlar üzərində bədii əsərlərin yaradılmasına yönəlmiş maddi mədəni irs yaradıcılığı sahəsi;

**1.0.19.** mədəni özünüifadə müxtəlifliyi (mədəni müxtəliflik) ayrı-ayrı qrupların və cəmiyyətlərin mədəniyyətlərinin öz ifadəsini tapdığı, qruplar və cəmiyyətlər arasında və onların daxilində ötürülən müxtəlif formalar. Mədəni müxtəliflik yalnız dünya mədəni irsinin ifadə olunduğu, artırıldığı və ötürüldüyü müxtəlif mədəni özünüifadə vasitələrinin tətbiqi ilə deyil, həmçinin hansı vəsaitlərdən və texnologiyalardan istifadə edilməsindən asılı olmayaraq, bədii yaradıcılığın müxtəlif növlərinin, mədəni özünüifadə məhsullarının istehsalının, yayılmasının və onlara yiyələnmənin köməyi ilə meydana gəlir;

**1.0.20.** mədəni özünüifadə – ayrı-ayrı şəxslərin, qrupların və ya cəmiyyətlərin yaradıcılığının nəticəsi olan və mədəni məzmun daşıyan ifadə forması;

**1.0.21.** mədəni sərvətlər – mənəvi və estetik ideallar, əxlaq normaları və nümunələri, dillər, dialektlər və ləhcələr, milli adət və ənənələr, tarixi toponimlər, folklor, bədii sənət və peşələr, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət əsərləri, nəşriyyat məhsulları, mədəniyyət sahəsində elmi tədqiqatların nəticələri və

metodları, tarixi-mədəni əhəmiyyətə malik binalar, tikililər, əşyalar, tarixi-mədəni əhəmiyyətli unikal təbii ərazilər və obyektlər, məqbərələr, qoruqlar, arxeoloji komplekslər, arxeoloji və numizmatik xarakterli əşyalar;

**1.0.22.** milli kulinariya nümunələri – bir millətin mədəniyyətinə məxsus texnoloji, forma, naxış, əşya, avadanlıq və resept komplekslərini özündə birləşdirən ərzaq, içki və qida məhsullarının hazırlanmasına yönəlmiş insan fəaliyyətinin nəticələri;

**1.0.23.** sosial əhəmiyyətli tədbirlər – mədəniyyət günləri, festivallar, baxış, müsabiqə, təqdimat, yubiley və xatirə tədbirləri, eləcə də mədəniyyət və incəsənət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi məqsədilə keçirilən mədəniyyət tədbirləri;

**1.0.24.** yaradıcılıq fəaliyyəti – mədəni sərvətlərin yaradılmasına yönəlmiş fəaliyyət;

**1.0.25.** yaradıcı şəxs – mədəni sərvətlərin yaradılması, o cümlədən mədəniyyət sahəsində pedaqoji və ya elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan fiziki şəxs.

**Maddə 2. Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, bu Qanunun 20.2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının qanunlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

## II FƏSİL
## Mədəniyyət siyasətinin dövlət tənzimlənməsi

**Maddə 3. Mədəniyyət sahəsində dövlət siyasətinin əsas istiqamətləri**

**3.1.** Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasəti Azərbaycan Respublikasının daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir.

**3.2.** Azərbaycan Respublikasının dövlət mədəniyyət siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

**3.2.1.** dövlət mədəniyyət sisteminin idarə olunması və bu sahədə fəaliyyətin əlaqələndirilməsi;

**3.2.2.** mədəniyyət sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərin, dövlət, özəl və bələdiyyə mədəniyyət təsisatlarının hüquqlarının qorunması və yaradıcılıq fəaliyyətinin həyata keçirilməsinin təmin edilməsi;

**3.2.3.** mədəniyyət sahəsində ixtisaslı kadrların hazırlanması və onların peşəkarlıq səviyyəsinin artırılması;

**3.2.4.** mədəni sərvətlərin qorunması və artırılması;

**3.2.5.** mədəniyyət fəaliyyəti subyektlərinin sosial müdafiəsi və görkəmli mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi;

**3.2.6.** milli mədəniyyətin müasir dünya mədəniyyətindən bəhrələnməsinə, milli ənənələrin inkişafına, əhalinin mənəvi tələbatının ödənilməsinə xidmət edən mədəniyyət əsərlərinin yaradılmasının stimullaşdırılması;

**3.2.7.** milli mədəni irsin müəyyən edilməsi, sistemləşdirilməsi və inkişafı;

**3.2.8.** milli mədəni irs nümunələrinin və mədəniyyət obyektlərinin yaradılması, qorunması və təşviqi;

**3.2.9.** milli mədəni irsin inkişafının maliyyə mənbələri ilə təmin edilməsi;

**3.2.10.** dünya mədəni irsi sahəsində maarifləndirilmənin aparılması;

**3.2.11.** şəxslər, dövlət orqanları, bələdiyyələr və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın qurulmasının və inkişafının təmin edilməsi;

**3.2.12.** mədəni, ekoloji, bioloji və idman turizminin inkişaf etdirilməsi və təşviqi;

**3.2.13.** mədəniyyət sahəsində avtomatlaşdırmanın və ən qabaqcıl rabitə, informasiya, elektron idarəetmə və kommunikasiya texnologiyalarının tətbiq olunması və inkişafı;

**3.2.14.** mədəniyyətlərarası dialoqun qurulmasının təmin edilməsi və təşviqi;

**3.2.15.** mədəniyyət, o cümlədən əyləncə sənayesinin inkişaf

etdirilməsi, mədəniyyətin müxtəlif formalarının rəqabətə davamlılığının dəstəklənməsi;

**3.2.16.** mədəniyyət sahəsində inhisarçılığın qarşısının alınması.

**Maddə 4. Mədəniyyət sahəsində dövlət siyasətinin prinsipləri**

**4.0.** Mədəniyyət sahəsində dövlət siyasəti aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

**4.0.1.** tarazlılıq – mədəniyyət sənayesi ilə mədəniyyət məhsullarının və xidmətlərinin bazarları arasında balansın yaradılması, mədəniyyət cəmiyyətlərinin fəaliyyətinin inkişafının təmin edilməsi;

**4.0.2.** bərabərlik – hər kəsin öz mədəniyyət və yaradıcılıq hüquqlarının və imkanlarının bərabər şərtlər əsasında həyata keçirilməsinin təmin olunması;

**4.0.3.** demokratiklik – əhalinin azad düşüncə ruhunda tərbiyələndirilməsi, mədəniyyət sahəsinin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində hüquq və azadlıqların genişləndirilməsi, estetik düşüncə azadlığının təmin edilməsi, yeni mədəniyyət təşkilatlarının yaradılmasının stimullaşdırılması;

**4.0.4.** humanistlik – dünyəvi dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin prioritet kimi qəbul olunması;

**4.0.5.** inteqrasiya – dünya mədəniyyətindən təcrid olunmamaqla, dünya mədəniyyətinin universal dəyərlərini qəbul edərək, milli mədəniyyətin dünyada tanıdılması, zənginləşdirilməsi və inkişafının təmin edilməsi;

**4.0.6.** keyfiyyətlilik – mədəniyyət sahəsində məhsulların və xidmətlərin ən qabaqcıl standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğunun təmin olunması;

**4.0.7.** dünyəvilik – dünyəvi dəyərlərin yaradılması, qorunması və inkişafının təmin olunması;

**4.0.8.** səmərəlilik – mədəniyyət sahəsində yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkil edilməsi;

**4.0.9.** varislik – mədəni sərvətlərin, bu sahədə bilik və təcrübənin sonrakı nəsillərə ötürülməsi;

**4.0.10.** istedad amili – fitri istedada malik şəxslərin yaradıcılıq nailiyyətlərinin artmasına xüsusi qayğının göstərilməsi.

**Maddə 5. Mədəniyyət sahəsində dövlətin vəzifələri**

**5.1.** Mədəniyyət sahəsində dövlətin vəzifələri aşağıdakılardan ibarətdir:

**5.1.1.** mədəniyyət sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, o cümlədən sahə üzrə normativ hüquqi aktların və standartların, dövlət proqramlarının, tədbirlər planlarının, strategiyaların və konsepsiyaların qəbul edilməsi;

**5.1.2.** milli mədəniyyətin bərpa edilməsi, qorunması, inkişafı və təşviqinə yönəlmiş tədbirlərin görülməsi;

**5.1.3.** insanların Azərbaycan və dünya mədəniyyət nümunələrinə və mədəni sərvətlərə sərbəst yiyələnmələri üçün sosial əhəmiyyətli tədbirlərin təşkili;

**5.1.4.** istedadlı şəxslərin peşəkar inkişafına dəstəyin göstərilməsi;

**5.1.5.** mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və təcrübə mübadiləsinə şərait yaradılması;

**5.1.6.** beynəlxalq tədbirlərdə Azərbaycan mədəniyyətinin təqdim edilməsi və təşviqini təmin edən tədbirlərin görülməsi;

**5.1.7.** mədəniyyət fəaliyyətində beynəlxalq təşkilatların, bələdiyyələrin, fiziki və hüquqi şəxslərin, o cümlədən qeyri-kommersiya qurumlarının iştirakının dəstəklənməsi;

**5.1.8.** milli mədəniyyət obyektlərinin təsnifatının təsdiqi;

**5.1.9.** mədəniyyət sahəsində dövlət reyestrinin aparılması;

**5.1.10.** mədəniyyət sahəsinin inkişafında xidmətlərə və töhfələrə görə mədəniyyət işçilərinə və yaradıcı şəxslərə həvəsləndirmə tədbirlərinin təşkili;

**5.1.11.** milli mədəniyyətin bütün sahələrində zəruri infrast-

rukturun, şəraitin, maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi;

**5.1.12.** xarici dövlətlərin mədəniyyət tədbirlərinin keçirilməsinə müvafiq dəstəyin göstərilməsi;

**5.1.13.** xarici dövlətlərdə Azərbaycan mədəniyyət mərkəzlərinin yaradılması, inkişafı və fəaliyyətlərinin əlaqələndirilməsi;

**5.1.14.** xarici dövlətlərdə Azərbaycan mədəniyyəti tədbirlərinin keçirilməsi;

**5.1.15.** mədəniyyətin inkişafı istiqamətində digər tədbirlərin həyata keçirilməsi.

**5.2.** Mədəniyyət sahəsində dövlət siyasətinin prioritet istiqamətlərinin müəyyən edilməsi və onun əsasında məqsədyönlü layihələrin, dövlət proqramlarının, strategiyaların və tədbirlər planlarının qəbul edilməsi və icrasına nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Mədəniyyət sahəsində tədbirlərin hazırlanması və icrası işi mədəniyyət sahəsində fəaliyyət göstərən şəxslərlə əməkdaşlıq şəraitində həyata keçirilir.

**5.3.** Mədəniyyət sahəsində dövlətin vəzifələri aşağıdakı fəaliyyət sahələrini əhatə edir:

**5.3.1.** mədəni irs – maddi və qeyri-maddi mədəni irs;

**5.3.2.** incəsənət fəaliyyəti;

**5.3.3.** mədəniyyət sənayesi (kinematoqrafiya, nəşriyyat, o cümlədən elektron nəşriyyat işi, memarlıq və dizayn, multimedia, kulinariya və reklam);

**5.3.4.** mədəniyyət xidmətləri (muzeylərin, tarix və mədəniyyət əhəmiyyətli parkların və qoruqların fəaliyyəti);

**5.3.5.** xalq yaradıcılığı.

## III FƏSİL
## Mədəniyyət sahəsində əsas insan və vətəndaş hüquq və azadlıqları

### Maddə 6. Hüquq və azadlıqların təminatı

**6.1.** Azərbaycan Respublikasında hər kəsin mədəniyyət sahəsində hüquq və azadlıqları, beynəlxalq hüququn prinsip və normaları rəhbər tutulmaqla təmin edilir.

**6.2.** Dövlət cinsindən, irqindən, dilindən, dini və siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, sosial mənşəyindən, sağlamlıq imkanlarından, ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər bir şəxsin mədəniyyət sahəsində öz hüquq və azadlıqlarını həyata keçirməsinə təminat verir.

**6.3.** Mədəniyyət sahəsində dövlət tərəfindən aşağıdakı bərabərliklər təmin edilir:

**6.3.1.** dövlətin ərazisində yaşayan xalqların, milli azlıqların mədəniyyətlərinin, hüquq və azadlıqlarının bərabərliyi;

**6.3.2.** dövlətin ərazisində yaşayan xalqların, milli azlıqların öz mədəniyyətlərini qorumaq, öz mədəniyyət kimliklərini müəyyən etmək, mədəni sərvətlərini bərpa etmək, gücləndirmək və inkişaf etdirmək bərabərliyi.

**Maddə 7. Mədəni həyatda iştirak etmək hüququ**

**7.1.** Azərbaycan Respublikasında mədəni həyatda iştirak etmək hüququ dövlət tərəfindən təmin edilir.

**7.2.** Hər kəs öz mədəniyyət kimliyini və ona uyğun həyat tərzini müəyyən etməkdə, yaradıcılıq fəaliyyətini seçməkdə, mədəni sərvətlərin yaradılmasında, mədəni nemətlərdən bərabər istifadə etməkdə tam sərbəstdir.

**Maddə 8. Mədəni özünəməxsusluq hüququ**

**8.1.** Hər kəsin öz milli mədəni özünəməxsusluğunu qoruyub saxlamaq, mədəniyyət kimliyini müəyyən etmək, mənəvi, estetik və digər dəyərlərini sərbəst seçmək hüququ vardır.

**8.1.** Mədəniyyət cəmiyyətləri öz mədəni özünəməxsusluğunu təbliğ etmək və inkişaf etdirmək və öz tarixi mədəniyyət məkanlarını bərpa etmək hüququna malikdir.

**8.2.** Dövlət istənilən mədəniyyət cəmiyyətinin özünəməxsusluğunun qorunmasına və inkişafına dəstək göstərir.

**Maddə 9. Yaradıcılıq azadlığı**

Azərbaycan Respublikası Konstitusiyasının 51-ci maddəsinin I hissəsinə uyğun olaraq hər kəsin yaradıcılıq azadlığı vardır. Azər-

baycan Respublikasında istənilən şəxs öz maraqlarına və bacarıqlarına uyğun peşəkar əsasda və azad yaradıcılıq (həvəskar) əsasında istənilən yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq özünün yaradıcılıq fəaliyyətinin nəticələrini müəlliflik hüququ ilə qorumaq, mədəni sərvətləri nümayiş etdirmək, bu Qanunun tələbləri nəzərə alınmaqla, mülkiyyətində olan mədəni sərvətləri satmaq, bağışlamaq, habelə həmin məqsədlər üçün xarici ölkələrə aparmaq hüququna malikdir.

**Maddə 10. Xaricdə mədəniyyət fəaliyyəti hüququ**

**10.1.** Azərbaycan Respublikasının vətəndaşları bu Qanuna və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xaricdə mədəniyyət fəaliyyəti ilə məşğul ola bilərlər.

**10.2.** Azərbaycan Respublikası öz vətəndaşlarının xaricdə mədəniyyət fəaliyyəti ilə məşğul olmasına dəstək göstərir.

**10.3.** Azərbaycan Respublikası vətəndaşlarının xarici dövlətlərin ərazisində mədəniyyət fəaliyyəti həm fərdi qaydada, həm də təşkilat vasitəsilə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə digər hal nəzərdə tutulmamışdırsa, həmin dövlətlərin qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

**Maddə 11. Mədəniyyət sahəsində mülkiyyət hüququ**

**11.1.** Hər kəsin mədəniyyət sahəsində mülkiyyət hüququ dövlət tərəfindən qorunur.

**11.2.** Hər kəsin öz yaradıcılıq fəaliyyətinin nəticələrinə və qanuni əldə etdiyi mədəniyyət məhsullarına mülkiyyət hüququ vardır.

**11.3.** Mədəniyyət məhsullarının və xidmətlərinin əldə edilməsi, istifadəsi və barəsində sərəncam verilməsi bu Qanunun 20.2-ci maddəsinə uyğun olaraq tənzimlənir.

**Maddə 12. Mədəni sərvətlərlə xarici ticarət**

Mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublika-

sının ərazisindən tranzitlə keçirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 13. Mədəniyyət sahəsində sahibkarlıq hüququ**

Azərbaycan Respublikasında hər bir şəxs bu Qanunun 20.2-ci maddəsinə uyğun olaraq mədəniyyət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

**Maddə 14. Mədəniyyət müəssisələrindən və mədəni sərvətlərdən istifadə etmək hüququ**

**14.1.** Azərbaycan Respublikasında mədəniyyət müəssisələrindən və mədəni sərvətlərdən istifadə etmək hüququ dövlət tərəfindən təmin edilir.

**14.2.** Bu Qanunun 14.1-ci maddəsinin icrasını təmin etmək məqsədilə dövlət tərəfindən:

**14.2.1.** milli mədəniyyətin dünya mədəniyyətinə inteqrasiyasını, mədəniyyətlərarası dialoqların inkişafını və vahid mədəniyyət məkanının qurulmasını təmin etmək məqsədilə milli mədəniyyət sahəsində müvafiq layihələr həyata keçirilir;

**14.2.2.** mədəniyyət sənayesinin inkişafına yönəlmiş investtisiya layihələri həyata keçirilir və ya investisiya mühitinin yaxşılaşdırılması məqsədilə həmin investisiyaların qoyuluşuna əlverişli mühit yaradılır;

**14.2.3.** əhalinin mədəniyyət müəssisələrindən və mədəniyyət məkanlarından istifadə imkanlarının sadələşdirilməsinə yönəlmiş layihələr həyata keçirilir;

**14.2.4.** aztəminatlı əhalinin, əlillərin və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların, müharibə iştirakçılarının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada mədəni sərvətlərdən güzəştli istifadəsi təmin edilir;

**14.2.5.** iqtisadi, sosial, hüquqi, elmi-texniki, müasir texnologiya və digər tədbirlər vasitəsilə uşaq və gənclərin mədəniyyət fəaliyyətini və mədəni sərvətlərdən bəhrələnmələrini stimullaşdıran layihələr həyata keçirilir;

**14.2.6.** mədəniyyət sahəsində ümumi estetik tərbiyənin, təhsilin, o cümlədən əlavə təhsilin gücləndirilməsi məqsədilə müvafiq layihələr həyata keçirilir;

**14.2.7.** bu Qanuna uyğun olaraq mədəniyyət sahəsində dövlət reyestri və monitorinqi aparılır, dövlət nəzarəti həyata keçirilir;

**14.2.8.** mədəniyyət sahəsində səyyar fəaliyyətin inkişafına dair layihələr həyata keçirilir;

**14.2.9.** mədəniyyət sahəsində müasir informasiya və kommunikasiya texnologiyaları tətbiq edilir;

**14.2.10.** mədəniyyət fəaliyyətinə dair standartlar qəbul edilir və tətbiqinə nəzarət həyata keçirilir;

**14.2.11.** mədəniyyət sahəsində sahibkarlığın inkişafına dair tədbirlər görülür;

**14.2.12.** dövlət mədəniyyət siyasətinin həyata keçirilməsinə dövlət nəzarəti təmin edilir;

**14.2.13.** əhali mədəniyyət sahəsi barədə məlumatlandırılır.

**Maddə 15. Mədəniyyət sahəsində təhsil hüququ**

**15.1.** Azərbaycan Respublikasında hər bir şəxs “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mədəniyyət sahəsində təhsil almaq və elmi fəaliyyətlə məşğul olmaq hüququna malikdir.

**15.2.** Mədəniyyət sahəsində elmi tədqiqatların aparılmasına dövlət tərəfindən şərait yaradılır.

**15.3.** Dövlət mədəniyyət müəssisələrindən və mədəni sərvətlərdən elm və təhsil məqsədləri üçün istifadəyə şərait yaradılır.

**15.4.** Mədəniyyət sahəsində təhsil və elmi müəssisələrin yaradılması, onların maddi-texniki bazasının gücləndirilməsi və mədəniyyət sahəsində beynəlxalq təcrübə və biliklərin tətbiq edilməsi dövlət tərəfindən dəstəklənir.

**15.5.** Azərbaycan Respublikasında mədəniyyət sahəsində pedaqoji və elmi tədqiqat fəaliyyəti yaradıcılıq fəaliyyətinə bərabər tutulur.

**Maddə 16. Mədəniyyət sahəsində qeyri-hökumət təşkilatları**

**16.1.** Azərbaycan Respublikasında mədəniyyət sahəsində qeyri-hökumət təşkilatlarının yaradılması "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq həyata keçirilir.

**16.2.** Azərbaycan Respublikasında hər bir şəxs istənilən birliyə öz mənsubiyyətini müstəqil müəyyən edir və birliyin fəaliyyətində bərabər əsasda iştirak edir.

**16.3.** Dövlət, mədəniyyət sahəsində həyata keçirilən tədbirlərin təşkilində və icrasında mədəniyyət sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, o cümlədən yaradıcılıq birlikləri ilə əməkdaşlıq edir.

**Maddə 17. Mədəniyyət sahəsində məlumat azadlığı**

**17.1.** "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə əməl olunmaqla, hər kəsin mədəniyyət sahəsində istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

**17.2.** Bu Qanunun 17.1-ci maddəsinin tələblərinə əməl olunmaqla, mədəniyyət sahəsində məlumat mübadiləsi kütləvi informasiya və digər yayım vasitələri ilə aparıla bilər.

**17.3.** Azərbaycan mədəni irsinin və mədəni sərvətlərinin təbliğ edilməsinə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kütləvi informasiya vasitələri tərəfindən informasiya dəstəyi göstərilir.

## IV FƏSİL
## Mədəniyyət sahəsində fəaliyyət və onun subyektləri

**Maddə 18. Mədəniyyət fəaliyyətinin subyektləri**

Azərbaycan Respublikasında mədəniyyət fəaliyyətinin subyektləri dövlət orqanları, fiziki, o cümlədən yaradıcı şəxslər, hüquqi şəxslər, həmçinin mədəniyyət müəssisələri və qeyri-hökumət təşkilatları ola bilərlər.

**Maddə 19. Mədəniyyət müəssisələrinin təsis edilməsi və fəaliyyətinə xitam verilməsi**

**19.1.** Mədəniyyət müəssisələrinin yaradılması və fəaliyyətinə xitam verilməsi bu Qanunun 20.2-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

**19.2.** Mədəniyyət müəssisələri Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş istənilən təşkilati-hüquqi formada yaradıla bilər.

**19.3.** Mədəniyyət müəssisəsinin təsis sənədlərində onun mədəniyyət fəaliyyətinin istiqamətləri göstərilməlidir.

**Maddə 20. Mədəniyyət sahəsində fəaliyyət istiqamətləri**

**20.1.**Mədəniyyət sahəsində fəaliyyət istiqamətlərinə aşağıdakılar aiddir:

**20.1.1.** milli mədəni irsin aşkarlanması, qorunması, təbliği və təşviqi;

**20.1.2.** maddi və qeyri-maddi mədəni irsin qorunması, təbliği və təşviqi;

**20.1.3.** tarix və mədəniyyət abidələrinin qorunması, təbliği və təşviqi;

**20.1.4.** tarixi memarlıq qoruqlarının fəaliyyəti;

**20.1.5.** təbii irsin qorunması, təbliği və təşviqi;

**20.1.6.** peşəkar və həvəskar yaradıcılıq fəaliyyəti;

**20.1.7.** audiovizual əsərlərin yaradılması və yayımlanması;

**20.1.8.** kinematoqrafiya fəaliyyəti;

**20.1.9.** teatr-konsert fəaliyyəti;

**20.1.10.** poliqrafiya, nəşriyyat işi sahəsində fəaliyyət;

**20.1.11.** kulinariya fəaliyyəti;

**20.1.12.** mədəni-asudə vaxtın təşkili üzrə fəaliyyət;

**20.1.13.** estetik tərbiyə sahəsində fəaliyyət;

**20.1.14.** mədəniyyət və incəsənət sahəsində təhsil və pedaqoji fəaliyyət;

**20.1.15.** mədəniyyət sahəsində elmi tədqiqat fəaliyyəti;

**20.1.16.** muzey və qalereya fəaliyyəti;

**20.1.17.** mədəni maarifçilik və kitabxana fəaliyyəti;

**20.1.18.** mədəniyyət mərkəzlərinin, klublarının və parklarının fəaliyyəti;

**20.1.19.** mədəniyyət sahəsinin təşviqi məqsədilə məlumatlandırma fəaliyyəti;

**20.1.20.** folklor yaradıcılığının təbliği və təşviqi;

**20.1.21.** qastrolların təşkili fəaliyyəti;

**20.1.22.** dekorativ-tətbiqi yaradıcılıq fəaliyyəti;

**20.1.23.** ədəbi yaradıcılıq fəaliyyəti;

**20.1.24.** maarifləndirmə və təbliğat fəaliyyəti;

**20.1.25.** teleradio yayımı fəaliyyəti;

**20.1.26.** sirk fəaliyyəti.

**20.2.** Azərbaycan Respublikasında mədəniyyət sahəsində fəaliyyət istiqamətləri üzrə münasibətlər "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Nəşriyyat işi haqqında", "Kinematoqrafiya haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Kitabxana işi haqqında", "Muzeylər haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Televiziya və radio yayımı haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

**20.3.** Mədəniyyət sahəsində fəaliyyət istiqamətlərinin bərabər əsasda inkişafına dövlət tərəfindən şərait yaradılır.

**Maddə 21. Mədəniyyət sahəsində təşkilati fəaliyyət**

**21.1.** Fiziki şəxslər, hüquqi şəxslər, o cümlədən qeyri-kommersiya qurumları, bu Qanunun 20.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla, mədəniyyət sahəsində aşağıdakı təşkilati fəaliyyətləri həyata keçirə bilərlər:

**21.1.1.** Azərbaycan mədəniyyətinin, milli mədəni irsin təbliği, təşviqi və inkişafı məqsədilə incəsənət və bədii tədbirlərin təşkili, yaradıcılıq müsabiqələrinin, sərgilərin, yaradıcılıq gecələri-

nin, mədəniyyət və incəsənət təqdimatlarının, festivalların, konfrans və simpoziumların təşkili;

**21.1.2.** uşaqların, gənclərin estetik, etik və mənəvi tərbiyələndirilməsi məqsədilə seminar, tədris, dəyirmi masa və digər aidiyyəti tədbirlərin təşkili;

**21.1.3.** əhalinin milli və dünya mədəniyyət nailiyyətlərindən bəhrələnməsini asanlaşdıran tədbirlərin təşkili;

**21.1.4.** mədəniyyət sahəsində istedadların müəyyən edilməsi, onların yaradıcılığının inkişaf etdirilməsi ilə bağlı tədbirlərin təşkili;

**21.1.5.** yaradıcı şəxslərin hüquqi, sosial və iqtisadi maraqlarının təmin edilməsi ilə bağlı tədbirlərin təşkili;

**21.1.6.** folklor nümunələrinin yaradılması, qorunması, təbliği və təşviqi ilə bağlı tədbirlərin təşkili;

**21.1.7.** xalq yaradıcılığının inkişafı və təbliği, mədəniyyətin inkişafında xalq ənənələrindən yaradıcı şəkildə istifadə edilməsi, tarixi abidələrin qorunub saxlanılması və zənginləşdirilməsi ilə bağlı tədbirlərin təşkili;

**21.1.8.** bəşəri dəyərlərin təbliği ilə bağlı tədbirlərin təşkili;

**21.1.9.** pedaqoji kollektivlərlə birgə uşaq və gənclərin vətənpərvər, mədəni və intellektual inkişafı, mənəvi-etik və estetik tərbiyəsi ilə bağlı tədbirlərin təşkili;

**21.1.10.** Azərbaycan Respublikasında yaşayan xalqların adət-ənənələrinin tanınması, təbliği və qorunması tədbirlərinin təşkili.

**21.2.** Mədəniyyət sahəsində həyata keçirilən təşkilati fəaliyyət müvafiq icra hakimiyyəti orqanı tərəfindən koordinasiya edilir.

**Maddə 22. Mədəniyyət sahəsində fəaliyyətin xüsusiyyətləri**

**22.1.** Mədəniyyət təşkilatları mədəniyyət məhsullarının istehsalı və mədəniyyət xidmətlərinin göstərilməsi ilə məşğul ola bilərlər.

**22.2.** Azərbaycan Respublikasında mədəniyyət sahəsində əqli mülkiyyət, o cümlədən müəlliflik hüququ və əlaqəli hüquq-

ların həyata keçirilməsi və qorunması "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" və "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

**22.3.** Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

**22.4.** Azərbaycan Respublikasının milli mədəni irsinə aid sərvətlər bank zəmanəti kimi istifadə edilə bilməz.

**22.5.** Milli mədəni irsə aid, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə məxsus mədəni sərvətlərin hüquqi və fiziki şəxslər tərəfindən kommersiya və qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi müvafiq icra hakimiyyəti orqanının razılığı ilə həyata keçirilir.

**Maddə 23. Dövlət mədəniyyət müəssisələrinə xüsusi statusların verilməsi**

**23.1.** Dövlət mədəniyyət müəssisələrinə tarixi və mədəni roluna, yaradıcılıq fəaliyyətinin əhəmiyyətinə, fondlarının zənginliyinə, nadirliyinə, milli dəyərlərin qorunması və təbliği sahəsində nailiyyətlərinə görə müvafiq icra hakimiyyəti orqanı tərəfindən milli, akademik, beynəlxalq və respublika əhəmiyyətini təsdiq edən status verilir.

**23.2.** Milli statusa malik mədəniyyət təsisatlarının fondları və əmlakı milli sərvət hesab olunur və xüsusi əhəmiyyətli obyektlər kimi dövlət tərəfindən qorunur.

**23.3.** Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## V FƏSİL
## Yaradıcı şəxslər

**Maddə 24. Yaradıcı şəxslər**

**24.1.** Hər kəs peşəkar və ya həvəskar yaradıcılıq fəaliyyəti ilə məşğul ola bilər.

**24.2.** Azərbaycan Respublikasında yaradıcılıq fəaliyyəti dövlət tərəfindən dəstəklənir.

**24.3.** Peşəkar yaradıcılığın inkişafı məqsədi ilə dövlət tərəfindən iqtisadi tədbirlər həyata keçirilir.

**24.4.** Peşəkar yaradıcılığın meyarları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 25. Yaradıcı şəxslərin dövlət təminatı**

**25.1.** Müvafiq icra hakimiyyəti orqanı tərəfindən mədəniyyətin inkişafında, təbliğində və təşviqində xüsusi xidmətləri olan yaradıcı şəxslərə, festival və müsabiqə qaliblərinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada fəxri adlar, təqaüdlər, mükafatlar verilir.

**25.2.** Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətləri olan şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq orden və medallarla təltif edilirlər.

**25.3.** Mədəniyyətin inkişafında xidmətləri olan mədəniyyət işçilərinin, yaradıcı şəxslərin və kollektivlərin bioqrafiyası, peşə və yaradıcılıq fəaliyyətləri barədə məlumat bazası müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılır.

## VI FƏSİL
## Mədəniyyət sahəsində dövlət tənzimləməsi

**Maddə 26. Mədəniyyət sahəsində dövlət reyestri sistemi**

**26.1.** Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət reyestri sistemi dedikdə bu sahədə reyestrlər, kataloqlar,

uçot sistemləri, mədəniyyət əmlakının siyahıları və məlumat topluları nəzərdə tutulur.

**26.2.** Mədəniyyət sahəsində dövlət reyestri sistemi mədəniyyət obyektlərinin kəmiyyət və keyfiyyət göstəricilərindən ibarət məlumat toplusudur.

**26.3.** Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısı və mədəni sərvətlərin mühafizə siyahısı mədəniyyət sahəsində dövlət reyestri sisteminə daxildir.

**26.4.** Mədəni sərvətlərin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

### Maddə 27. Mədəniyyət sahəsində dövlət monitorinqi

**27.1.**Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**27.2.** Mədəniyyət sahəsində dövlət monitorinqinin məqsədi mədəniyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsinin cari vəziyyətinin öyrənilməsi, çatışmazlıqların və həyata keçiriləcək dövlət mədəniyyət siyasəti istiqamətlərinin və mədəniyyət siyasəti tədbirlərinin müəyyən edilməsidir.

**27.3.** Mədəniyyət sahəsində dövlət monitorinqi mədəni sərvətlərin istifadəsinin və cari vəziyyətinin, mədəniyyət sənayesinin vəziyyətinin, mədəniyyət məhsullarının və xidmətlərinin kəmiyyətinin və keyfiyyətinin, maddi və qeyri-maddi mədəni irs obyektlərinin vəziyyətinə və istifadə qaydalarına riayət olunmasının, milli azlıqların mədəni müxtəlifliklərinin vəziyyətinin, mədəniyyət sahələrində kadr, maddi və texniki təchizatın cari vəziyyətinin, mədəniyyət sahəsində elm və təhsil müəssisələrində təhsil prosesinin və tədris proqramlarının müşahidələrindən ibarətdir.

**Maddə 28. Mədəniyyət sahəsində rəsmi statistikanın aparılması**

**28.1.** Mədəniyyət sahəsində məlumatların obyektivliyinin və müqayisəliliyinin təmin edilməsi məqsədi ilə rəsmi statistika aparılır.

**28.2.** Azərbaycan Respublikasında mədəniyyət sahəsində rəsmi statistikanın aparılması, o cümlədən məlumatların yığılması, işlənməsi, bazada yerləşdirilməsi, ötürülməsi və yayılması "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 29. Mədəniyyət sahəsində elektron məlumat sistemi**

**29.1.** Mədəniyyət sahəsində dövlət siyasətinin təmin edilməsi, dövlət reyestrinin və dövlət monitorinqinin aparılması, mədəniyyət sahəsində fəaliyyət göstərən subyektlər arasında münasibətlərin inkişafı məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən mədəniyyət sahəsində elektron məlumat sistemi yaradılır.

**29.2.** Mədəniyyət sahəsində elektron məlumat sistemi dövlət orqanları, bələdiyyələr, fiziki və hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları arasında mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin qurulmasına, mədəniyyət fəaliyyəti subyektləri arasında məlumat mübadiləsinin aparılmasına və mədəniyyət sahəsində səmərəli idarəetmənin təmin olunmasına xidmət edən kompleks proqram təminatıdır.

**29.3.** Mədəniyyət sahəsində elektron məlumat sistemi özündə yerli və mərkəzi elektron məlumat sistemlərini ehtiva edir.

**29.4.** "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət sirri haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla, mədəniyyət sahəsində elektron məlumat sistemi ümumi istifadə üçün açıq və alınması məhdudlaşdırılan məlumatlardan ibarətdir.

**29.5.** Mədəniyyət sahəsində elektron məlumat sisteminin tərkibi, təşkili və idarə olunma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## VII FƏSİL
## Mədəni sərvətlər və Azərbaycan Respublikasının mədəni irsi

**Maddə 30. Mədəni sərvətlər**

**30.1.** Mədəni sərvət dedikdə aşağıdakılar başa düşülür:

**30.1.1.** hər bir xalqın mədəni irsi üçün əhəmiyyəti olan daşınar və ya daşınmaz sərvətlər (memarlıq, incəsənət və ya tarixi, dini və ya dünyəvi abidələr; arxeoloji qazıntı yerləri; tarixi və ya bədii əhəmiyyət kəsb edən memarlıq ansamblları; incəsənət əsərləri; bədii, tarixi və ya arxeoloji əhəmiyyəti olan əlyazmalar, kitablar və digər əşyalar; elmi kolleksiyalar; kitab və arxiv materiallarının, yaxud yuxarıda göstərilən sərvətlərin reproduksiyalarının mühüm kolleksiyaları);

**30.1.2.** Bu Qanunun 30.1.1-ci maddəsində göstərilmiş, əsas məqsədi daşınar mədəni sərvətlərin saxlanması və ya sərgilənməsi olan binalar (muzeylər, kitabxanalar, arxivlər, habelə daşınar mədəni sərvətləri silahlı münaqişə zamanı saxlamaq üçün istifadə olunan sığınacaqlar);

**30.1.3.** Bu Qanunun 30.1.1-ci və 30.1.2-ci maddələrdə qeyd olunmuş mədəni sərvətlərin cəmləşdiyi mərkəzlər.

**30.2.** Mədəni sərvətlərə aşağıdakılar aiddir:

**30.2.1.** təsviri sənət əsərləri, o cümlədən lövhələr, şəkillər, rəsmlər, qravürlər, estamplar, litoqrafiyalar, naxışlar, heykəltəraşlıq əsərləri, orijinal bədii toplular və montajlar;

**30.2.2.** kino, xüsusi əhəmiyyətli televiziya, radio, video materialları, fotoəsərlər və fotomateriallar, dizayn işləmələri və memarlıq layihələri;

**30.2.3.** əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profilli arxivlər və arxiv sənədləri, not yazıları, məktublar, elmi-tarixi yadigarlar, nadir nəşrlər;

**30.2.4.** tətbiqi-sənət əsərləri xalılar və xalça məmulatları, qızıl, platin, gümüş, qiymətli daşlar, mis və gildən hazırlanmış əşyalar, keramika məmulatı;

**30.2.5.** səhnə və ekran əlbisələri, dekorları, butaforiya və rekvizitləri;

**30.2.6.** qədim nadir kolleksiyalar və otuz ildən çox tarixi olan muzey əhəmiyyətli əşyalar (o cümlədən mebel, musiqi alətləri və s.);

**30.2.7.** şifahi xalq yaradıcılığı nümunələri;

**30.2.8.** arxeoloji komplekslər, arxeoloji və numizmatik xarakterli əşyalar;

**30.2.9.** memarlıq abidələri, tikili nümunələri, xatirə yerləri və məqbərələr;

**30.2.10.** park və təbii landşaft obyektləri;

**30.2.11.** flora və fauna, mineralogiya, anatomiya nümunələri və paleontologiya baxımından maraqlı muzey əşyaları.

**30.3.** Mədəni sərvətlər dövlətin, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin, qeyri-hökumət təşkilatlarının, o cümlədən ictimai və yaradıcılıq birliklərinin mülkiyyətində ola bilər.

**30.4.** Mədəniyyət nümunələrinin Azərbaycan Respublikasında milli mədəni sərvətlərə aid edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən ekspertiza yolu ilə müəyyən edilir. Milli mədəni sərvətin mülkiyyətçisi onun lazımi saxlanılmasını və mühafizəsini təmin etməyə borcludur.

**30.5.** Azərbaycan Respublikasında yaşayan milli azlıqların mədəniyyət nümunələri Azərbaycan Respublikasının milli mədəni sərvətlərinin tərkib hissəsidir.

**30.6.** Azərbaycan Respublikasında yaşayan milli azlıqların mədəni sərvətləri dövlət tərəfindən qorunur.

**Maddə 31. Milli mədəni arxivlər**

**31.1.** Kitabxana, muzey, foto, kino və digər arxiv və fondların yaradılması və mühafizəsi bu Qanunun 20.2-ci maddəsinə və “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**31.2.** Milli kitabxana, muzey, foto, kino arxiv və fondlarının vahidliyi və toxunulmazlığı dövlət tərəfindən təmin edilir.

**31.3.** Dövlət mülkiyyətinə aid, bu Qanunun 31-ci maddəsin-

də nəzərdə tutulmuş arxivlərin (fondların) özgəninkiləşdirilməsi qadağandır.

**Maddə 32. Mədəni irs nümunələri**

**32.1.** Milli mədəni irsə muzey, incəsənət, audiovizual, (o cümlədən kino), teatr, kitabxana, əlyazma, arxiv, folklor, arxeologiya, etnoqrafiya, memarlıq, dekorativ-tətbiqi sənət nümunələri və tarix-mədəniyyət qoruqları aiddir.

**32.2.** Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi bu Qanunun 20.2-ci maddəsinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 33. Daşınmaz mədəni irs**

**33.1.** Azərbaycan Respublikasında daşınmaz mədəni irs abidələri yerləşdirildiyi və ya inşa olunduğu məkanlarda qorunur.

**33.2.** Azərbaycan Respublikasında daşınmaz mədəni irsə aşağıdakılar aiddir:

**33.2.1.** milli mədəni irs üçün önəmli olan memarlıq, arxeoloji, mədəniyyət və tarixi, dini və dünyəvi abidələr, o cümlədən tarixi və bədii maraq kəsb edən arxeoloji, təbii ərazilər və arxitektura kompleksləri, incəsənət əsərləri;

**33.2.2.** daşınar mədəni sərvətlərin qorunması və ya nümayişini həyata keçirən bina və tikililər, muzeylər, kitabxanalar və arxivlər, müharibə şəraitində mədəni sərvətlərin mühafizəsini təmin edən sığınacaqlar;

**33.2.3.** mədəni sərvətlərin toplandığı yerlər.

**33.3.** Daşınmaz mədəni irs abidələrinin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Həmin siyahılara daxil edilən mədəni irs abidələrinin və qoruqların mühafizə zonaları və qoruqların sərhədləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 34. Sualtı mədəni irs**

**34.1.** Azərbaycan Respublikasının ərazi sularında sualtı mədəni sərvətlərin sualtı mədəni irs nümunələrinə aid edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**34.2.** Sualtı mədəni irsə öz təbii və arxeoloji mühiti ilə birgə suyun altında olan aşağıdakılar aiddir:

**34.2.1.** obyektlər, tikililər və onların qalıqları, artefaktlar və paleontoloji qalıqlar;

**34.2.2.** gəmilər, uçuş və nəqliyyat vasitələri və ya onların hissələri, onların yükü və içindəki digər əşyalar;

**34.2.3.** qədim tarixi əşyalar.

**34.3.** Sualtı mədəni irs nümunələrindən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 35. Milli mədəni irs obyektləri**

**35.1.** Nadir tarixi, arxeoloji, bədii, elmi, estetik dəyərlərə malik olan və Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət daşıyan mədəni irs obyektlərinin müəyyən edilməsi və qorunması bu Qanunun 20.2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir.

**35.1.** Xüsusi əhəmiyyət daşıyan mədəniyyət obyektlərinin milli mədəni irs obyektlərinə aid edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**35.2.** Azərbaycan Respublikasının milli mədəni irs obyektləri başqa dövlətlər tərəfindən mənimsənilə bilməz.

**Maddə 36. Qeyri-maddi mədəni irs**

**36.1.** Azərbaycan Respublikasında qeyri-maddi mədəni irs nümunələri dövlət tərəfindən qorunur.

**36.2.** Qeyri-maddi mədəni irs nümunələrinin qorunması özündə eyniləşdirmə, sistemləşdirmə, saxlanma, mühafizə, yaxşılaşdırma, nəsildən-nəslə ötürülmə daxil olmaqla mədəni irsin müxtəlif aspektlərinin bərpası istiqamətində keçirilən fəaliyyətlərlə təmin edilir.

**36.3.** Qeyri-maddi mədəni irsin müəyyən edilməsi, sistemləşdirilməsi və təşviqi məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən mədəniyyət sahəsində dövlət reyestri sisteminə daxil olan, qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestri aparılır.

**36.4.** Qeyri-maddi mədəni irs özündə aşağıdakıları ehtiva edir:

**36.4.1.** diyarşünaslıq (adət və ənənələr, bayram və mərasimlər, tarixi rəmz nümunələri və sirlər);

**36.4.2.** folklor (ifaçılıq, musiqi və rəqslər, şifahi yaradıcılıq, oyun və tamaşalar);

**36.4.3.** sənətkarlıq (tətbiqi sənət, ənənəvi dekorativ sənət, milli təsviri yaradıcılıq).

**Maddə 37. Milli kulinariya nümunələri**

**37.1.** Azərbaycan Respublikasında milli kulinariya nümunələ rinin sistemləşdirilməsi, qorunması, təbliği müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**37.2.** Kulinariya nümunələrinin milli mədəni irsə aid edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 38. Milli mədəni irsin mühafizəsinə dair öhdəliklər**

**38.1** Azərbaycan Respublikasında milli tarixi, təbii və mədəni irs obyektlərini, o cümlədən tarix, təbiət və mədəniyyət abidələrini qorumaq hər kəsin borcudur.

**38.2.** Azərbaycan Respublikasında təbiət komplekslərinin, tarixi ərazilər və mədəni irs abidələrinin qoruq elan edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**38.3.** Milli mədəni irsin mühafizəsi sistemi dövlət orqanları və bələdiyyələr tərəfindən həyata keçirilən qanuni hüquqi, madditexniki və təşkilati tədbirlərdən ibarətdir.

**38.4.** Milli mədəni irs obyektlərinin sahiblərinə həmin obyektlərin mühafizəsini təmin etmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən təminatlar verilir.

**38.5.** Milli mədəni irs obyektlərinin mühafizəsi mədəniyyət sahəsində dövlət reyestri sistemi vasitəsilə təmin edilir.

**Maddə 39. Mədəni sərvətlərin mühafizəsi**

**39.1.** Mühafizə məqsədilə mədəni sərvətlərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilir.

**39.2.** Mühafizənin qabaqlayıcı dərəcəsi tətbiq edilmiş mədəni sərvətlərin müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmadan sökülməsi, məhv edilməsi, parçalanması, yeni quruluşa salınması, başqa yerə köçürülməsi və zahiri görkəminin dəyişdirilməsi qadağandır.

**39.3.** Mühafizənin konservasiya dərəcəsi, istifadədən tamamilə çıxarılmalı və ya müvafiq icra hakimiyyəti orqanının nəzarəti altında məhdud dairədə istifadə edilməli olan mədəni sərvətlərə aid edilir.

**39.4.** Mühafizənin bərpa dərəcəsi, ilkin mədəniyyət təyinatına qaytarılması üçün bərpa işlərinə ehtiyacı olan mədəni sərvətlərə şamil edilir. Mühafizənin bərpa dərəcəsi tətbiq olunana qədər obyekt barədə konservasiya dərəcəsi müəyyən edilə bilər.

**39.5.** Xüsusi mühafizə dərəcəsi Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil olan mədəni sərvətlərə şamil edilir.

**39.6.** Mühafizə dərəcəsi olan mədəni sərvətlərin mülkiyyətçisi və ya istifadəçisinin müvafiq icra hakimiyyəti orqanı ilə münasibətləri mühafizə müqaviləsi ilə müəyyən olunur.

## VIII FƏSİL
## Mədəni sərvətlərdən istifadənin tənzimlənməsi

**Maddə 40. Mədəniyyət obyektlərindən istifadə rejimi**

**40.1.**Dövlət və bələdiyyə mülkiyyətində olan mədəniyyət obyektlərinin istifadəsi öz tarixi və bədii təyinatına uyğun və bu Qanunda müəyyən edilmiş qaydada həyata keçirilir.

**40.2.** Dövlət və bələdiyyə mülkiyyətində olan mədəniyyət obyektləri digər şəxslərin istifadəsinə və ya idarəçiliyinə verildiyi halda, mədəniyyət obyektlərinin təyinatına uyğun istifadə edilməsi təmin olunmalıdır.

**40.3.** Tarixi, arxeoloji, şəhərsalma, arxitektura və monumental sənət abidələrinin, təbii-landşaft obyektlərinin mühafizəsini təmin etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin obyektlərin mühafizə zonaları müəyyən edilir.

**40.4.** Azərbaycan Respublikasının ərazisində arxeoloji qazıntıların aparılmasına və arxeoloji mədəni sərvətlərin tədqiqi məqsədi ilə onlarla təmasda elmi tədqiqat işlərinin yerinə yetirilməsinə icazə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən verilir və müvafiq icra hakimiyyəti orqanında qeydə alınır. Bu maddədə qeyd olunan işləri aparan (yerinə yetirən) şəxs müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada Azərbaycan Milli Elmlər Akademiyasına və müvafiq icra hakimiyyəti orqanına aparılmış tədqiqat işləri barədə hesabat verir.

**40.5.** Dövlət mühafizəsində olan mədəniyyət obyektlərində aparılan bərpa, təmir-tikinti, rekonstruksiya və konservasiya işlərinin layihələri müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır. Layihə üzrə işlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin edilmiş mütəxəssisin iştirakı ilə həyata keçirilir.

**40.6.** Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, konservasiyası, təmir-tikintisi, rekonstruksiyası, ərazilərinin abadlaşdırılması "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılır.

**40.7.** Dövlət və bələdiyyə mülkiyyətində olan mədəniyyət obyektlərinin istifadəsi nəticəsində əldə edilən gəlir mədəniyyət obyektinin qorunmasına, bərpasına və saxlanılmasına sərf edilməlidir.

### Maddə 41. Mühafizə olunan mədəni sərvətlərin siyahısı

**41.1.** Mühafizə olunan mədəni sərvətlərin siyahısının aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**41.2.** Mühafizə olunan mədəni sərvətlərin siyahısına daxil

edilən hər bir mədəni sərvətə müvafiq icra hakimiyyəti orqanı tərəfindən şəhadətnamə verilir.

**Maddə 42. Mədəni sərvətlərin ixracı**

**42.1.** Mədəni sərvətlərin ixracının mümkünlüyü müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş mədəni sərvətin mühafizə şəhadətnaməsi ilə müəyyən edilir.

**42.2.** Sərgi, qastrol səfərləri, bərpa işləri, prezentasiya, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi halları istisna olmaqla, Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş mədəni sərvətlərin Azərbaycan Respublikasının ərazisindən aparılması qadağandır.

**42.3.** Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 43. Mədəniyyət sahəsində qadağalar**

**43.0.** Mədəniyyət sahəsində aşağıdakı hərəkətlərə yol verilmir:

**43.0.1.** Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına və milli maraqlarına zərər vura biləcək təbliğatın aparılmasına;

**43.0.2.** müharibənin, sosial, irqi, milli, dini, təbəqə, nəsil üstünlüyünün təbliğinə və təşviqinə yönəlmiş çağırışların səsləndirilməsini nəzərdə tutan mədəniyyət tədbirlərinin keçirilməsinə;

**43.0.3.** zorakılığın, pornoqrafiyanın, narkomaniyanın təbliğinə və təşviqinə yönəlmiş çağırışların səsləndirilməsini nəzərdə tutan mədəniyyət tədbirlərinin keçirilməsinə;

**43.0.4.** milli mədəni irs nümunələrinin Azərbaycan Respublikasının ərazisindən qanunsuz aparılmasına;

**43.0.5.** irqindən, milliyyətindən, dinindən, dilindən, sosial mənşəyindən, qulluq mövqeyindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq mədəniyyət sahəsində əsas insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasına;

**43.0.6.** mədəni və təbii irsin tarixi və bədii təyinatı ilə bir araya sığmayan tərzdə istifadə edilməsinə;

**43.0.7.** "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməklə, mülkiyyətçisinin və ya istifadəçisinin razılığı olmadan mədəni sərvətlərin nüsxələndirilməsi, habelə onlardan turizm, ekskursiya və reklam məqsədilə istifadə edilməsinə;

**43.0.8.** mədəni sərvətlərin sökülməsi, məhv edilməsi, parçalanması, yeni quruluşa salınması, başqa yerə köçürülməsi və zahiri görkəminin dəyişdirilməsinə.

## IX FƏSİL
## Mədəniyyət sahəsinin maliyyə-iqtisadi tənzimlənməsi

### Maddə 44. Mədəniyyət sahəsinin maliyyə-iqtisadi təminatı

**44.1.**Azərbaycan Respublikasında mədəniyyət sahəsinin aşağıdakı maliyyə mənbələri vardır:

**44.1.1.**dövlət büdcəsindən ayırmalar;

**44.1.2.**yerli büdcədən ayırmalar;

**44.1.3.** mədəniyyət sahəsində fəaliyyətdən əldə olunan gəlir;

**44.1.4.** digər qanuni maliyyə mənbələri.

**44.2.** Mədəniyyət sahəsinin dövlət büdcəsindən maliyyələşdirilməsi mədəni irsin qorunması və inkişafının əsas təminatıdır. Həmin maliyyə təminatı "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**44.3.** Mədəniyyət sahəsinin inkişafı məqsədilə, mədəniyyət sahəsində fəaliyyət göstərən subyektlərə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi güzəştləri tətbiq edilir.

### Maddə 45. Mədəniyyət sahəsində layihələrin maliyyələşdirilməsi

**45.1.** Müvafiq icra hakimiyyəti orqanı mədəniyyət müəssi-

sələrinin bərpası, maddi-texniki bazasının gücləndirilməsi, kadr potensialının bilik və bacarıqlarının artırılması məqsədilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq layihələrin maliyyələşdirilməsini həyata keçirir.

**45.2.** Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**45.3.** Mədəniyyət sahəsində ədəbiyyat, incəsənət, dizayn, arxitektura, musiqi, xoreoqrafiya, teatr və sirk, kino, muzey və kitabxana, rəssamlıq və heykəltəraşlıq, xalq yaradıcılığı, folklor istiqamətlərinin inkişafında və mədəniyyət sahəsində təhsil və elmi araşdırmalar üzrə layihələrin həyata keçirilməsində dövlət maliyyələşdirilməsi məqsədəuyğun xarakter daşıyır.

**Maddə 46. Mədəniyyət sahəsində xeyriyyəçilik fəaliyyəti**

Mədəniyyət sahəsində xeyriyyəçilik və sponsorluq fəaliyyəti "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Qrant haqqında", "Televiziya və radio yayımı haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirilir.

**Maddə 47. Mədəniyyət sahəsində özəlləşdirmə məsələləri**

**47.1.** Dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət əmlakının özəlləşdirilməsi qadağandır. Həmin əmlakın siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**47.2.** Bu Qanunun 47.1-ci maddəsində qeyd olunan əmlakın bələdiyyələr tərəfindən özgəninkiləşdirilməsinə yol verilmir.

**47.3.** Dövlət mədəniyyət müəssisələrinin və onlara məxsus mədəni sərvətlərin, o cümlədən dövlət mülkiyyətində olan kitabxana, klub, arxiv, muzey, incəsənət fond və arxivlərinə aid mədəniyyət obyektlərinin, tarix və mədəniyyət abidələrinin, mədəniyyət müəssisələrinin yerləşdiyi binaların və ərazilərin özəlləşdirilməsi "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**47.4.** "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, mədəniyyət obyektlərinin özəlləşdirilməsinə aşağıdakı şərtlərdən birinə riayət olunmaqla, icazə verilir:

**47.4.1.** mədəni sərvətlərin bərpası, qorunması və təbliği əsas fəaliyyət kimi müəyyən olunduqda;

**47.4.2.** mədəniyyət məhsullarının istehsalı və ya xidmətlərinin göstərilməsi əsas fəaliyyət kimi müəyyən olunduqda;

**47.4.3.** əhaliyə mədəniyyət məhsullarının və xidmətlərinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş güzəştlərlə təqdim olunması əsas fəaliyyət kimi müəyyən olunduqda.

### Maddə 48. Mədəniyyəti maliyyələşdirmə fondları

**48.1.**Mədəniyyət sahəsinin maliyyələşdirilməsinə əlavə vəsaitin cəlb edilməsi məqsədilə mədəniyyəti maliyyələşdirmə fondları müvafiq icra hakimiyyəti orqanı tərəfindən "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yaradılır.

**48.2.** Bu Qanunun 48.1-ci maddəsində nəzərdə tutulmuş məqsədlə hüquqi və fiziki şəxslər tərəfindən mədəniyyəti maliyyələşdirmə fondları yaradıla bilər.

**48.3.** Mədəniyyəti maliyyələşdirmə fondları öz fəaliyyətlərini şəffaflıq, aşkarlıq, bərabərlik və səmərəlilik prinsiplərinə uyğun həyata keçirirlər.

## X FƏSİL
## Beynəlxalq əməkdaşlıq

### Maddə 49. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq

**49.1.**Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının mədəniyyət sahəsində həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətidir.

**49.2.** Mədəniyyət sahəsində beynəlxalq təşkilatlarla və dövlətlərarası əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilir.

**49.3.** Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın məqsədi beynəlxalq mədəni sərvətlər bazarında Azərbaycan Respublikasının mövqeyinin möhkəmlənməsi və genişləndirilməsidir.

**49.4.** Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq şəxslərin bilik və bacarıqlarının, təcrübə və nailiyyətlərinin beynəlxalq səviyyədə mübadiləsinin stimullaşdırılması prinsipi əsasında həyata keçirilir.

**Maddə 50. Beynəlxalq əməkdaşlıq sahəsində dövlət mədəniyyət siyasətinin prioritetləri**

**50.1.** Azərbaycan Respublikası mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsini prioritet istiqamət kimi qəbul edir.

**50.2.** Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın əsas istiqamətləri aşağıdakılardır:

**50.2.1.** beynəlxalq təşkilatlarla əməkdaşlıq vasitəsilə milli mədəniyyətin xarici ölkələrdə təbliği;

**50.2.2.** mədəni sərvətlərin birgə istehsalının stimullaşdırılması;

**50.2.3.** mədəniyyətlərarası dialoqun dəstəklənməsi;

**50.2.4.** xarici dövlətlərin mədəni irslərinin qorunması, bərpası və inkişafının dəstəklənməsi;

**50.2.5.** dünya mədəni irs obyektlərinin qorunması, bərpası və inkişafının dəstəklənməsi;

**50.2.6.** yeni texnologiyaların beynəlxalq mübadiləsi;

**50.2.7.** ən qabaqcıl təcrübələrin beynəlxalq mübadiləsi;

**50.2.8.** beynəlxalq informasiya sistemlərinin tətbiqi.

**Maddə 51. Xarici dövlətlərdə mədəniyyət fəaliyyəti**

**51.1.** Azərbaycan Respublikası xarici dövlətlərdə Azərbaycan mədəniyyətinin qorunması, təbliği və inkişafı məqsədilə tədbirlərin görülməsini təmin edir.

**51.2.** Azərbaycan Respublikası xaricdə yaşayan azərbaycanlılarla mədəni əlaqələr yaradır və inkişaf etdirir, onların mədə-

niyyət mərkəzlərinin, fondlarının və mədəniyyət sahəsində digər təsisatlarının məqsədyönlü fəaliyyətinə köməklik göstərir.

**51.3.** Azərbaycan mədəniyyətinin qorunması və inkişafı məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən xarici dövlətin ərazisində təsis edilən mədəniyyət mərkəzləri öz fəaliyyətini Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə digər hal nəzərdə tutulmamışdırsa, həmin dövlətin qanunvericiliyinə uyğun olaraq həyata keçirirlər.

**Maddə 52. Azərbaycan xalqının xarici dövlətlərdə milli mədəni və təbii irsi**

**52.1.** Azərbaycan Respublikası Azərbaycan xalqının xarici dövlətlərin ərazisində yerləşən (olan) milli mədəni və təbii irsinin aşkarlanması, bərpası və qorunması istiqamətində məqsədyönlü siyasət həyata keçirir.

**52.2.** Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında digər dövlətlərin ərazisində Azərbaycan Respublikasından qeyri-qanuni yolla çıxarılmış milli mədəni irs nümunələrinin geri qaytarılmasına dair məqsədyönlü siyasət həyata keçirir.

**52.3.** Azərbaycan Respublikasının ərazisindən qeyri-qanuni yolla çıxarılmış milli mədəni irs nümunələri yerləşdiyi ölkədən, yerdən, çıxarıldığı vaxtdan və şəraitdən asılı olmayaraq Azərbaycan Respublikasına qaytarılmalıdır.

**Maddə 53. Azərbaycan xalqının milli mədəni və təbii irsinin beynəlxalq mühafizəsi**

Azərbaycan Respublikası Azərbaycan xalqının milli mədəni və təbii irsinə zərərin vurulmasının və ya zərərin vurulması təhlükəsinin qarşısını almaq məqsədilə, tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, beynəlxalq yardımın göstərilməsini və ya beynəlxalq gücləndirilmiş mühafizə statusunun verilməsini tələb edir.

**Maddə 54. Azərbaycan Respublikasına məxsus mədəniyyət təsisatlarına xarici dövlətlər tərəfindən maliyyə vəsaitinin ayrılması**

Azərbaycan Respublikasına məxsus mədəniyyət təsisatlarına xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən maliyyə vəsaitinin ayrılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

**Maddə 55. Beynəlxalq mədəniyyət təşkilatlarının Azərbaycan Respublikasının ərazisində fəaliyyəti**

Beynəlxalq mədəniyyət təşkilatlarının Azərbaycan Respublikasının ərazisində fəaliyyəti Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və bu Qanunla tənzimlənir.

## XI FƏSİL
## Yekun müddəalar

**Maddə 56. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.

**Maddə 57. Keçid müddəalar**

Bu Qanun qüvvəyə mindiyi gündən "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 1998-ci il 6 fevral tarixli 430-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 223; 2001, № 11, maddə 688; 2002, № 5, maddə 245, № 12, maddə 706; 2006, № 12, maddə 1016; 2011, № 2, maddə 71) ləğv edilir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 21 dekabr 2012-ci il*

# "Kitabxana işi haqqında"
# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirilmə mənbələrini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir.

## I. FƏSİL
## Ümumi müddəalar

### Maddə 1. Əsas anlayışlar

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

**Kitabxana** - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut;

**kitabxana işi** - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi kitabxana sisteminin təşkili və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, hüquqi və fiziki şəxslərə kitabxana, informasiya və biblioqrafiya xidməti qaydalarını, kitabxanaçı-biblioqraf kadrların hazırlanmasını, kitabxanaların inkişafının elmi-metodik təminatını əhatə edən fəaliyyət sahəsi;

**kitabxanaçı** - kitabxana işi sahəsində fəaliyyət göstərən müvafiq ixtisaslı mütəxəssis;

**sənəd** - informasiyanın mətn, səsyazma və təsvir formasında

qeydə alınan, müəyyən zaman və məkan daxilində informasiyanın verilməsi və ya qorunması məqsədini daşıyan maddi obyekt;

**kitabxana fəaliyyəti** - oxucuların sərbəst surətdə informasiya almaq hüququnu təmin etmək, onların kitablara, dövri nəşrlərə və kitabxana fondunu təşkil edən digər sənədlərə olan tələbatını ödəmək məqsədilə həyata keçirilən fəaliyyət;

**mərkəzləşdirilmiş kitabxana sistemləri** - eyni sistemə aid olan kitabxanaların vahid strukturda könüllü birləşməsi;

**kitabxana fondu** - ictimai istifadə məqsədilə kitabxananın vəzifələrinə uyğun şəkildə formalaşmış çap əsərləri və digər məlumat daşıyıcılarının məcmusu.

### Maddə 2. Kitabxana işi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi

Kitabxana işi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, Azərbaycan Respublikasının digər müvafiq qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

### Maddə 3. Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri

Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

kitabxanalarda mühafizə olunan mədəni sərvətlərdən və informasiya vasitələrindən istifadənin hamı üçün açıq olması;

milli sərvət olan kitabxanalara dövlət qayğısı, onların fondlarının toxunulmazlığı və üstün maliyyələşdirilməsi.

Kitabxana işi sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

kitabxana işinin inkişafına dair Dövlət Proqramının hazırlanması və həyata keçirilməsi;

kitabxana fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının qəbul və tətbiq edilməsi;

kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (internetdən və s.) istifadə və milli fondların həmin sistemlərdə əks olunması;

milli və dünya mədəniyyəti sərvətlərinə yiyələnməyə yönəldilən informasiya sisteminin yaradılması;

dövlət kitabxana fondlarının mühafizəsi və inkişafı, dövlət kitabxanalarının milli və xarici ədəbiyyatla ardıcıl təchizatı sisteminin yaradılması;

xarici ölkə kitabxanalarında saxlanılan milli sərvət hesab olunan nadir kitabların və əlyazmaların (imkan olmadıqda surətlərinin) Azərbaycan Respublikasına qaytarılmasının təmin olunması; dövlət kitabxana binalarının tikilməsi, əsaslı təmiri, dövlət kitabxanalarının müasir avadanlıq və texniki vasitələrlə təchiz edilməsi;

kitabxana işinə dair elmi tədqiqatların və metodik tədbirlərin həyata keçirilməsinə köməklik göstərilməsi;

kitabxana kadrları hazırlayan və ya onların ixtisasının artırılmasını həyata keçirən təhsil müəssisələrinin yaradılması və fəaliyyətinin təşkili;

təbii fəlakət, silahlı münaqişə və müharibə zamanı kitabxana fondlarının mühafizəsinin təmin olunması;

qeyri-dövlət kitabxanalarının inkişafına şərait yaradılması; kitabxana işinə dair dövlət standartlarının müəyyən olunması; kitabxana fondlarının statistik uçotunun aparılması.

**Maddə 4. Kitabxana fəaliyyətinin əsas istiqamətləri**

Kitabxana fəaliyyətinin əsas istiqamətləri sənəd-informasiya fondlarının formalaşmasından, mühafizəsindən və bu materialların hüquqi və fiziki şəxslərə istifadəyə verilməsindən, kitabxanalarda toplanıb saxlanılan informasiya vasitələrinin mübadiləsinə imkan verən vahid informasiya məkanının yaradılmasından ibarətdir.

## II FƏSİL
## Kitabxana sistemi

**Maddə 5. Kitabxana sisteminin təşkilinin əsasları**

Azərbaycan Respublikasında kitabxana sistemini ərazi, idarə, idarələrarası, sahəvi, sahələrarası və kompleks xidmət prinsiplərinə əsaslanan universal, ixtisaslaşdırılmış dövlət və qeyri-dövlət kitabxanaları təşkil edir.

**Maddə 6. Kitabxana sisteminin tərkibi**

Azərbaycan Respublikasında kitabxana sisteminin tərkibinə dövlət və qeyri-dövlət kitabxanaları daxildir.

Dövlət kitabxanalarına aşağıdakılar daxildir: Milli Kitabxana;

Naxçıvan Muxtar Respublikasının dövlət kitabxanası;

şəhər, rayon, qəsəbə, kənd kitabxanaları (kütləvi, elmi, xüsusi kitabxanalar, gənclər, uşaqlar, korlar üçün və sair kitabxanalar) və onların filialları, mərkəzləşdirilmiş kitabxana sistemləri;

respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar; dövlət idarə, müəssisə və təşkilatlarının kitabxanaları;

Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası və onun filialları;

dövlət təhsil müəssisələrinin kitabxanaları.

Qeyri-dövlət kitabxanalarına aşağıdakılar daxildir: bələdiyyə kitabxanaları;

ictimai birliklərin kitabxanaları; özəl və digər kitabxanalar;

xarici hüquqi və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş kitabxanalar.

**Maddə 7. Milli Kitabxana**

Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə nəşr olunmuş Azərbaycan haqqında və Azərbaycan

müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitabsaxlayıcısıdır.

Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq sahəsində elmi-tədqiqat işləri üzrə aparıcı müəssisə və əlaqələndirici, ölkənin bütün kitabxanaları üçün metodik mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya və informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir.

Milli Kitabxana müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən təsdiq olunan əsasnaməyə uyğun fəaliyyət göstərir.

Milli Kitabxananın fondu və əmlakı milli sərvət hesab olunan və xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur.

Milli Kitabxana statusuna malik olan kitabxanaların işçilərinin əməkhaqlarına müvafiq əlavələr müəyyən edilir.

Milli Kitabxananı ləğv etmək, mülkiyyət formasını dəyişmək qadağandır.

Milli Kitabxanaya əvəzsiz və müddətsiz istifadə üçün qanunvericilikdə müəyyən olunmuş torpaq sahəsi verilə bilər.

**Maddə 8. Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar**

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar elm sahəsinə görə ixtisaslaşdırılan, milli və xarici ədəbiyyat fondlarına malik olan baş kitabxana-biblioqrafiya və informasiya müəssisələridir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar müvafiq sahədə fəaliyyət göstərən digər kitabxanalar üçün informasiya, kitabxanalararası abonement və metodik mərkəz funksiyasını yerinə yetirir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların fəaliyyəti bu Qanunla və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların, Azərbaycan Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının və onun filiallarının, Bakı Dövlət Universitetinin kitabxanasının işçilərinin əməkhaqlarına müvafiq əlavələr müəyyən edilir.

Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların statusu müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

**Maddə 9. Kitabxanaların digər informasiya orqanları ilə əlaqələri**

Kitabxanalar sənəd-informasiya ehtiyatlarından səmərəli istifadə məqsədilə elmi-texniki və digər informasiya orqanları, arxivlər, başqa idarə və müəssisələrlə qarşılıqlı əlaqə yaradır. Bu əlaqələr birgə fəaliyyət proqramları və müqavilələr əsasında həyata keçirilir.

**Maddə 10. Kitabxanaların yaradılması və yenidən təşkili**

Dövlət və qeyri-dövlət kitabxanaları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş qaydada yaradılır və yenidən təşkil olunur.

Dövlət kitabxanalarının müvəqqəti olaraq köçürülməsinə müstəsna hallarda (təbii fəlakət, silahlı münaqişə, müharibə təhlükəsi və s.) müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yol verilir.

**Maddə 11. Kitabxanaların özəlləşdirilməsi və icarəyə verilməsi**

Tipindən, tabeçiliyindən asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən kitabxanaların (kitabxanalarda saxlanılan sərvətlərin, onların yerləşdiyi binaların və sahələrin) özəlləşdirilməsi və icarəyə verilməsi profilinə müvafiq olaraq qanunvericiliyə uyğun həyata keçirilir.

## III FƏSİL
## Kitabxana fondu

**Maddə 12. Kitabxana fondunun tərkibi**

Kitabxana fondunun tərkibinə kitab, jurnal, qəzet, digər çap məhsulları, audiovizual və texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və başqa informasiya daşıyıcıları daxildir.

Kitabxana fondları universal, sahəvi, çoxsahəli, ixtisaslaşdırılmış ola bilər.

**Maddə 13. Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu**

Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu kitabxanalararası əlaqələndirilmiş komplektləşdirmə, qarşılıqlı istifadə, depozitar mühafizə və mübadilə prinsipləri əsasında təşkil edilən, məlumat-axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir.

Kitabxanalarda olan nadir və qiymətli nəşrlər, xüsusi kolleksiyalar qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil edilir və xüsusi rejimdə mühafizə olunur. Onların mühafizəsi lazımi qaydada təmin edilmədikdə, müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən digər kitabxanaya verilə bilər.

Azərbaycan Respublikası Dövlət Kitabxana Fondu dövlət mülkiyyətidir.

**Maddə 14. Kitabxana fondlarının təchizi**

Kitabxanalar dövlət və qeyri-dövlət nəşriyyatları tərəfindən buraxılan, profilinə uyğun çap məhsullarını və digər informasiya daşıyıcılarını birinci növbədə almaq hüququna malikdir.

Bu hüquq müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş qaydada kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları, ayrı-ayrı şəxslərlə aparılan müvafiq əməliy-

yatlar, məcburi nüsxələrin alınması, abunə, bağışlama və vərəsəlik əsasında miras qalmış nəşrlərin verilməsi, habelə beynəlxalq və ölkədaxili kitab mübadiləsi yolu ilə təmin edilir.

Təhsil müəssisələrinin kitabxanalarının dərsliklərlə komplektləşdirilməsi, müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Təhsil Nazirliyi) tərəfindən müəyyən olunmuş qaydalarla tənzimlənir.

Müvafiq icra hakimiyyəti orqanları tabeçiliyində olan kitabxana fondlarının yeni nəşrlərlə komplektləşdirilməsinə vəsait ayırırlar.

**Maddə 15. Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı**

Milli Kitabxana, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının (Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin kitabxanaları) kitabxanaları, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar və Bakı Dövlət Universitetinin kitabxanası müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş qaydada ölkədə nəşr edilən çap məhsullarının məcburi nüsxələrini almaq hüququna malikdir.

Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından Milli Kitabxanaya 4 pulsuz məcburi nüsxə, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanalarına, respublika əhəmiyyətli elmi sahəvi kitabxanalara, Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına və Bakı Dövlət Universitetinin kitabxanasına profilinə uyğun olaraq 2 pulsuz məcburi nüsxə, Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyaları isə 2 pulsuz məcburi nüsxə göndərməlidirlər.

**Maddə 16. Kitabxanaların mübadilə fondları**

Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil olmayan çap məhsulları və digər materiallar müəyyən olunmuş qaydada bir kitabxanadan digərinə əvəzsiz verilə bilər.

Qeyri-profil, dublet, nisbətən az istifadə edilən, habelə mübadilə fondu üçün ayrılan çap əsərləri və kitabxananın digər sənədləri həmin fonda verilir.

Müvafiq icra hakimiyyəti orqanları beynəlxalq və ölkədaxili kitab mübadiləsini həyata keçirən kitabxanaların mübadilə fondları üçün əlavə kitab alınmasına vəsait ayırırlar.

**Maddə 17. Depozitar kitabxanalar**

Dövlət kitabxanalarında oxucular tərəfindən nadir hallarda istifadə edilən, lakin elmi, tarixi və bədii əhəmiyyətini saxlayan nəşrlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada depozitar fondlara verilir.

**Maddə 18. Dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və onlardan istifadə edilməsi**

Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydalara uyğun həyata keçirilir.

**Maddə 19. Dövlət kitabxana fonduna vurulmuş ziyana görə məsuliyyət**

Dövlət kitabxana fonduna vurulmuş ziyana görə hüquqi və fiziki şəxslər yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla vurulmuş ziyanın 10 misli həcmində maddi məsuliyyət daşıyırlar.

İtirilmiş və yararsız vəziyyətə salınmış çap əsərləri və digər materiallar kitabxana ilə razılıq əsasında başqa müvafiq çap əsərləri və materiallarla əvəz edilə bilər. Bu qayda Azərbaycan Respublikasının milli mədəni sərvətlər reyestrinə daxil edilən nadir nüsxələrə şamil edilmir.

Nadir nüsxələr fonduna vurulan zərərə görə məsuliyyət mövcud qanunvericiliklə tənzimlənir.

Dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və istifadə qaydalarının pozulmasına görə kitabxana işçiləri qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## IV FƏSİL
## Kitabxana xidmətinin təşkili

### Maddə 20. Kitabxana xidməti və onun vəzifəsi

Kitabxanalar çap əsərlərindən və digər informasiya daşıyıcılarından səmərəli istifadə etmək məqsədilə kompleks kitabxana, biblioqrafiya və informasiya xidmətləri göstərir.

Bu xidmətlər abonentləri ədəbiyyat və informasiya ilə təmin etmək, informasiya daşıyıcılarının seçilməsində kömək göstərmək məqsədi daşıyır.

Kitabxana xidməti abonement, qiraət zalı, kitabxanalararası və beynəlxalq abonement, biblioqrafiya, elmi-texniki informasiya, fərdi və kütləvi, yazılı və şifahi, stasionar və qeyri-stasionar, qiyabi, kompleks vasitələrlə təşkil edilir.

Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir.

### Maddə 21. Kitabxanaların hüquqları

Kitabxanaların hüquqları aşağıdakılardır:

nizamnamələrində göstərilən məqsəd və vəzifələrin həyata keçirilməsi üsullarını və formalarını müəyyənləşdirmək;

kitabxana fondunun komplektləşdirmə mənbələrini müəyyənləşdirmək;

köhnəlmiş və ya yararsız hala düşmüş kitabları qanunvericilikdə müəyyən olunmuş qaydada kitabxananın fondundan çıxarmaq; fiziki və hüquqi şəxslər tərəfindən kitabxanaya dəymiş ziyanın ödənilməsini qanunvericilikdə müəyyən olunmuş qaydada tələb etmək;

kitabxana birliklərinin yaradılmasında iştirak etmək; beynəlxalq kitabxana təşkilatları ilə əlaqə yaratmaq, kitabxana, biblioqrafiya və informasiya sahəsinə keçirilən tədbirlərdə iştirak etmək.

**Maddə 22. Kitabxanaların vəzifələri**

Kitabxanalar oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını, habelə məlumat əldə etmək azadlığını təmin etməli, onların kitabxana fondlarından tam istifadə etməsi üçün hər cür şərait yaratmalıdırlar.

**Maddə 23. Kitabxanalardan istifadə sahəsində oxucuların hüquq və vəzifələri**

Azərbaycan Respublikasında hər kəsin kitabxanalardan istifadə etmək hüququ vardır.

Kitabxanalardan istifadə qaydaları və göstərilən xidmətlər kitabxanaların nizamnamələri və müvafiq normativ hüquqi aktları ilə müəyyənləşdirilir.

Oxucuların kitabxanalardan istifadə hüquqlarını məhdudlaşdırmaq qadağandır.

Oxucular kitabxanalardan istifadə qaydalarına əməl etməli, kitab fonduna qayğı ilə yanaşmalı, çap materiallarının və digər vasitələrin itirilməsinə və ya yararsız hala salınmasına yol verməməlidirlər.

## V FƏSİL
## Kitabxana işinin idarə olunması

**Maddə 24. Kitabxana işinə dövlət idarəetməsi**

Azərbaycan Respublikasında kitabxana işinə dövlət idarəetməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

**Maddə 25. Kitabxana işində ictimaiyyətin iştirakı**

Dövlət və qeyri-dövlət orqanları, kitabxana işi sahəsində ictimai birliklər, hüquqi və fiziki şəxslər, kitabxana fondlarının zənginləşdirilməsi, oxuculara xidmət işinin təkmilləşdirilməsi, kitabxanaçılıq proqramlarının və tədbirlərinin hazırlanması və həyata keçirilməsində iştirak edirlər.

**Maddə 26. Kitabxana işinin elmi-metodik və kadr təminatı**

Mülkiyyət formasından asılı olmayaraq kitabxanaların elmi-metodik təminatı Milli Kitabxana və elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar tərəfindən həyata keçirilir.

Elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar kitabxanaşünaslığa, biblioqrafiyaya və informasiyaya dair metodik materiallar nəşr edir, kitabxanaçılıq nəzəriyyəsi və təcrübəsində mütərəqqi iş üsullarını ümumiləşdirib tətbiq edir, kadrların ixtisasının artırılmasını təmin edir.

Kitabxanaların kadr təminatında müvafiq peşə-ixtisas təhsili olan şəxslərə üstünlük verilir. Müstəsna hallarda müvafiq peşəixtisas təhsili olmayan, ancaq yüksək təcrübəyə və kitabxanada çoxillik iş stajına malik olan mütəxəssislər də kitabxanada işləyə bilərlər.

**Maddə 27. Kitabxanaların maliyyələşdirilməsi**

Dövlət kitabxanaları və büdcədən maliyyələşdirilən təşkilatların tabeçiliyində olan kitabxanalar dövlət büdcəsi vəsaitləri, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları və qanunvericilikdə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Dövlət kitabxanaları maliyyələşdirilərkən büdcədən kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilməli və bu vəsait müntəzəm olaraq artırılmalıdır. Ayrılmış vəsait kitabxanaların sərəncamında qalır və onların nizamnamə fəaliyyətini həyata keçirmək üçün istifadə edilir.

İdarə, müəssisə və təşkilatların, habelə ictimai birliklərin kitabxanaları təsisçilərinin vəsaitləri hesabına maliyyələşdirilir.

**Maddə 28. Dövlət kitabxanalarının büdcədənkənar vəsaitləri** Dövlət kitabxanalarının işinin genişləndirilməsi, maddi-tex niki bazasının möhkəmləndirilməsi və əməyin stimullaşdırılması məqsədilə nizamnamələrində göstərilən qaydada təsərrüfat fəaliyyəti və pullu xidmət əsasında büdcədənkənar fondlar formalaşdırılır.

Dövlət kitabxanalarında pullu xidmət yalnız əlavə əmək sərfi tələb edən və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən xüsusi xidmət növlərinə aid edilir.

**Maddə 29. Kitabxanaların inkişaf fondu**

Kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə dövlət və qeyri-dövlət inkişaf fondları təsis edilə bilər. Bu fondlar təsisçilərin payları, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları, qanunvericilikdə müəyyən olunmuş qaydada keçirilən lotereya və digər məqsədli kommersiya tədbirlərindən daxil olan vəsaitlər hesabına yaradılır.

**Maddə 30. Kitabxanaların maddi-texniki təchizatı**

Kitabxanalar kitab fondunun saxlanılması və oxuculara xidmət etmək üçün xüsusi layihə ilə tikilmiş binalarla və kitabxana işini avtomatlaşdırmaq üçün zəruri vasitələrlə təmin edilməlidirlər.

**Maddə 31. Kitabxanaların əmlakı və təsərrüfat fəaliyyəti**

Kitabxana onun mülkiyyətində olan və ya idarəçiliyinə verilmiş əmlakdan Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq istifadə edir.

Xidmət fəaliyyətini genişləndirmək məqsədilə dövlət kitabxanalarına torpaq sahələri və əlavə binalar ayrıla bilər. Kitabxanalar qanunvericilikdə müəyyən olunmuş qaydada nizamnamələrinə uyğun olaraq təsərrüfat fəaliyyəti ilə məşğul ola bilərlər. Bu fəaliyyətdən əldə edilən vəsait bütövlükdə kitabxananın sərəncamında qalır.

**Maddə 32. Kitabxana işçilərinin sosial müdafiəsi**

Dövlət kitabxana işçilərinin sosial müdafiəsinə təminat verir. Kitabxana işçilərinin əməkhaqları elm və təhsil sahələri işçilərinin əməkhaqlarından aşağı olmamalıdır.

Kitabxanaların statusu, spesifik xüsusiyyətləri nəzərə alınmaqla işçilərə əməkhaqqından əlavə digər ödənişlər tətbiq edilə bilər.

Müvafiq icra hakimiyyəti orqanları, müəssisə, idarə və təşkilatlar öz tabeçiliyində olan kitabxanaların işçilərinə əlavə kompensasiyalar müəyyən edə bilərlər.

Kitabxana işçiləri öz peşə və sosial hüquqlarını təmin etmək məqsədilə qanunvericilikdə müəyyən olunmuş qaydada ictimai birliklər yarada bilərlər.

## VI FƏSİL
## Yekun müddəaları

**Maddə 33. Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq**

Kitabxana işi sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr əsasında həyata keçirilir.

Kitabxanalar və kitabxana işi sahəsində ictimai birliklər beynəlxalq kitabxana təşkilatları, xarici ölkələrin kitabxanaları və kitabxana işi sahəsində ictimai birlikləri ilə əməkdaşlıq edə bilərlər.

**Maddə 34. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasında təqsirli olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Heydər Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 dekabr 1998-ci il*

# “Nəşriyyat işi haqqında”
# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun nəşriyyat işinin ümumi prinsiplərini müəyyən edir, nəşriyyat fəaliyyətinin təşkili və həyata keçirilməsi ilə əlaqədar nəşriyyat işinin subyektləri arasında münasibətləri tənzimləyir, onların hüquq və vəzifələrini müəyyən edir.

## I. FƏSİL
## Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları istifadə edir:

**nəşriyyat** - əsas fəaliyyət sahəsi müəllifə sifariş verməklə və ya müəllifin (müəlliflik hüququ sahibinin) sifarişi ilə nəşriyyat məhsullarının hazırlanması, istehsalı və (və ya) yayımından ibarət olan ixtisaslaşmış mədəniyyət müəssisəsi;

**dövlət nəşriyyatı** - dövlət təşkilatlarının təsis etdiyi və yaxud onların təşkilat strukturlarına daxil olan nəşriyyatlar və nəşriyyat bölmələri;

**qeyri-dövlət nəşriyyatları** - xüsusi mülkiyyət və ya bələdiyyə mülkiyyəti əsasında yaradılmış nəşriyyatlar;

**nəşriyyat işi** - nəşriyyat məhsullarının hazırlanması, istehsalı və yayımı ilə məşğul olan hüquqi və fiziki şəxslərin təşkilati-yaradıcılıq və istehsalat-təsərrüfat fəaliyyətini əhatə edən ictimai münasibətlər sahəsi;

**naşir** - nəşriyyat məhsulunun istehsalını maddi-texniki cəhətdən təmin edən (maliyyələşdirən) nəşriyyat və yaxud əsas fəaliyyəti bu sahə ilə əlaqədar olmayan fiziki və ya hüquqi şəxs;

**nəşriyyat məhsulu** - çap üsulundan və formasından asılı ol-

mayaraq nəşriyyatların (naşirlərin) sifarişi ilə istehlakçı üçün nəzərdə tutulan kitab, broşür, albom, plakat, buklet, açıqca, elektron nəşrlər və digər nəşriyyat məhsullarının məcmusu;

**çap məhsulu** - poliqrafiya müəssisələrində çap texnikası vasitəsilə hazırlanan dövri mətbu nəşrlər, nəşriyyat məhsulları (elektron nəşrlərdən başqa) və bütün növlərdən olan poliqrafiya məhsullarının məcmusu;

**nəşriyyat məhsulunu istehsal edən** - nəşriyyatın (naşirin) sifarişi əsasında nəşriyyat məhsulunun tirajının, yaxud tirajın bir hissəsinin istehsalını və buraxılışını təmin edən fiziki və ya hüquqi şəxs;

**yayıcı** - nəşriyyatla (naşirlə) müqavilə bağlamaqla, yaxud digər qanuni əsaslarla nəşriyyat məhsullarının yayılmasını və satışını həyata keçirilən fiziki və ya hüquqi şəxs;

**sifarişçi** - maliyyə obyektlərini üzərinə götürməklə nəşriyyat məhsulunun hazırlanmasını, istehsalını və yayımını sifariş edən fiziki və ya hüquqi şəxs;

**tiraj** - nəşr nüsxələrinin miqdarı;

**kitabın beynəlxalq standart nömrəsi (İSBN)** - hər hansı nəşriyyatın kitabının və ya broşürünün beynəlxalq standart eyniliyini müəyyən edən nömrə;

**nəşr** - nəşriyyat prosesindən keçirilərək texniki vasitələrin köməyilə sayı çoxaldılan yazılı və audiovizual formada bir dəfə, yaxud dəfələrlə yayılan nəşriyyat məhsulu;

**redaktə** - nəşriyyat (naşir) tərəfindən müəllifə (müəlliflərə və tərtibçilərə) verilmiş sifariş əsasında, yaxud müəlliflərin özünün təqdimatı ilə nəşriyyata daxil olmuş əsərin müəllifin razılığı ilə elmi, ədəbi, texniki və bədii cəhətdən təkmilləşdirilməsi, ixtisar, dəyişiklik, əlavə və düzəlişlər etməklə nəşrə hazırlanması;

**nəşriyyat redaksiyası** - nəşriyyat məhsullarının hazırlanması ilə məşğul olan, əsərləri çap üçün hazırlayan əsas struktur bölmə;

**redaktor** - nəşriyyatlarda çalışan, yaxud müqavilə əsasında kənardan cəlb olunan, nəşriyyat əlyazmasının mətnini elmi, ədəbi, texniki və bədii cəhətdən işləyib nəşrə hazırlayan aparıcı mütəxəssis;

**nəşriyyat proqramı** - nəşriyyatın nizamnaməsinə, istiqamətinə uyğun olaraq nəşriyyatın (naşirin) tərtib və təsdiq etdiyi rüblük, illik və çoxillik tematik layihə;

**zəruri nəşrlər** - siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən və dövlət ehtiyaclarını təmin etmək üçün nəzərdə tutulan üstün nəşrlər;

**nəşriyyat işinin subyektləri** - nəşriyyatlar (naşirlər), müəlliflər, poliqrafiya müəssisələri, nəşriyyat məhsullarının sifarişçiləri və yayıcıları.

**Maddə 2. Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

**Maddə 3. Nəşriyyat işi sahəsindədövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri**

Nəşriyyat işi sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

nəşriyyat işi sahəsində sərbəstliyin təmin edilməsi;

nəşriyyat işinin maddi-texniki bazasının, təşkilati, hüquqi və elmi əsaslarının möhkəmləndirilməsinə, milli kitab nəşrinin inkişafına yardım edilməsi.

Nəşriyyat işi sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

nəşriyyat işinin inkişafına dair dövlət proqramının hazırlanması və həyata keçirilməsi;

nəşriyyat işi sahəsində inhisarçılığın qarşısının alınması;

əhalini, təhsil müəssisələrini və kitabxanaları latın əlifbası ilə nəşr olunmuş kitablara təmin etmək məqsədilə xüsusi dövlət proqramının hazırlanması və həyata keçirilməsi;

Azərbaycan xalqının klassik irsi və milli-mənəvi sərvətləri sayılan əsərlərin dövlət sifarişi əsasında nəşrinin həyata keçiril-

məsi, bu məqsədlə güzəştli kreditlər və dövlət tərəfindən qrantların ayrılması;

nəşriyyatların maddi-texniki bazasının genişləndirilməsinin, poliqrafiya sənayesinin inkişafının, nəşriyyat məhsullarının satışının stimullaşdırılması və kənd yerlərində kitab yayımının təmin edilməsi;

idarə, müəssisə və təşkilatların dövlət dilində olan zəruri nəşrlərlə təmin edilməsi;

milli-mədəni sərvətləri əks etdirən kitabların dünya miqyasında təbliği məqsədilə onların tərcüməsi, nəşri və yayılmasının stimullaşdırılması;

mətbuatın dövlət statistikasını aparmaqla, əhalinin və bazarın nəşriyyat məhsullarına olan tələbatını, ehtiyaclarını və təkliflərini öyrənməklə nəşriyyatların işinin istiqamətləndirilməsi;

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq nəşriyyatlar arasında dövlət satınalmaları keçirtməklə dövlət sifarişli dərsliklərin nəşrinin təmin edilməsi;

uşaq ədəbiyyatı, dərslik, elmi-texniki ədəbiyyat, tərcümə ədəbiyyatı, lüğət və ensiklopediyaların, yazılı və şifahi mədəniyyət abidələrinin nəşrinə əlavə güzəştlərin müəyyən edilməsi;

milli universal ensiklopediya nəşrinin dövlət vəsaiti hesabına həyata keçirilməsi;

qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının fəaliyyəti, habelə səhiyyə, elm və əhalinin sosial müdafiəsi ilə bağlı nəşriyyat məhsullarının istehsalının dövlət sifarişi əsasında həyata keçirilməsi;

Azərbaycan Respublikasını xarici ölkələrdə təbliğ etmək məqsədilə xarici dillərdə buraxılan zəruri nəşrlərin dövlət tərəfindən maliyyələşdirilməsi.

Nəşriyyat işi sahəsində dövlət siyasətini müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

**Maddə 4. Nəşriyyat işinin sərbəstliyi**

Nəşr üçün nəzərdə tutulmuş əsərlərin, əlyazmaların və digər materialların senzurasına yol verilmir.

Nəşriyyat materiallarının müəllif deyilərsə, dövlət orqanlarının, müəssisə və təşkilatların, ictimai birliklərin, siyasi partiyaların, habelə vəzifəli şəxslərin nəşrə hazırlanan materialların qabaqcadan onlarla razılaşdırılmasını tələb etmək və yayılmasını qadağan etmək hüququ yoxdur.

Nəşriyyatlar, poliqrafiya müəssisələri, yayıcılar tematik plan və proqram hazırlamaqda, mövzu və müəlliflər seçməkdə, nəşrlərin tirajını, qiymətini və ticarət əlavələrini (güzəştlərini) müəyyən etməkdə (dövlət proqramları əsasında hazırlanan, maliyyələşdirilən nəşrlərdən başqa), öz aralarında və digər hüquqi və fiziki şəxslərlə əlaqə formalarını müəyyənləşdirməkdə tam sərbəstdirlər.

Materialların hazırlanması zamanı tərcümə və müəllif mətnlərində müəlliflik hüququnu qorumaq şərtilə ixtisarlara və redaktəyə yol verilə bilər.

**Maddə 5. Nəşriyyat işinin sərbəstliyindən sui-istifadənin yolverilməzliyi**

Nəşriyyat işinin subyektlərinin hazırladıqları, istehsal etdikləri və yaydıqları nəşriyyat məhsullarında dövlət sirlərini yaymağa, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla devirməyə, yaxud dəyişməyə, ölkənin təhlükəsizliyinə, dövlətin bütövlüyünə qəsd etməyə, müharibəni, zorakılığı, milli, irqi, dini müstəsnalığı, dözülməzliyi, sosial ədavəti təbliğ etməyə, habelə pornoqrafik xarakterli materialları nəşr etməyə və yaymağa, böhtan atmağa və digər qanun pozuntularına çağırışlara yol verilmir.

## II FƏSİL
## Nəşriyyat işinin təşkili və həyata keçirilməsi

**Maddə 6. Nəşriyyat işi sahəsində fəaliyyətin təşkilati hüquqi formaları**

Nəşriyyat işi sahəsində fəaliyyət mülkiyyətin bütün növlərinə əsaslanan müxtəlif təşkilati-hüquqi formalarda həyata keçirilə bilər.

**Maddə 7. Nəşriyyat işi subyektlərinin dövlət qeydiyyatı**

Nəşriyyat (naşir), çap məhsullarını hazırlayan və yayıcı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət qeydiyyatına alınırlar. (Çıxarılıb)

**Maddə 8. Təsisçi (həmtəsisçi)**

Hüquqi və fiziki şəxslər nəşriyyatların, poliqrafiya və kitab ticarəti müəssisələrinin təsisçiləri (həmtəsisçiləri) ola bilərlər. Xarici hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının bağladığı dövlətlərarası müqavilələrdə müəyyənləşdirilmiş hallarda təsisçi (həmtəsisçi) ola bilərlər.

Təsisçi ilə onun təsis etdiyi nəşriyyat, poliqrafiya, yaxud kitab ticarəti və təchizat müəssisəsi arasındakı münasibətlər nizamnamə, təsis müqaviləsi və mövcud qanunvericiliklə tənzimlənir.

Təsisçi nəşriyyatın tematikasını və (və ya) ixtisaslaşmasını müəyyənləşdirir, onun nizamnaməsini təsdiq edir, qanunvericilikdə nəzərdə tutulan hallarda məhkəmədə iddiaçı və ya cavabdeh kimi iştirak edir.

Təsisçi eyni zamanda nəşriyyat məhsulunun naşiri, istehsalçısı və yayıcısı ola bilər.

**Maddə 9. Nəşriyyatın (naşirin) hüquq və vəzifələri**

Nəşriyyatın (naşirin) aşağıdakı hüquqları vardır:

nəşriyyat məhsulu buraxılışının proqramını tərtib və təsdiq etmək;

nəşriyyat proqramını və müqavilə öhdəliklərinin yerinə yetirilməsini təmin edəcək göstəriciləri müəyyənləşdirib öz redaksiyaları və digər struktur bölmələri arasında paylaşdırmaq;

nizamnaməsində göstərilən fəaliyyət istiqamətlərinə (ixtisas yönünə) uyğun olaraq hər hansı bir mövzuda bədii, bədii-publisistik, ictimai-siyasi və elmi xarakterli əsərlərin yaradılması ilə bağlı sifariş almaq və vermək;

müəlliflərlə müəllif müqavilələri bağlamaq;

müəlliflərin əsərlərindən başqa ölkələrdə və xarici müəllif-

rin əsərlərindən Azərbaycan Respublikasında istifadə edilməsi üçün müəlliflərin icazəsi ilə xarici hüquqi və fiziki şəxslərlə müəllif müqavilələrinin bağlanmasında vasitəçi kimi iştirak etmək;

xarici ölkələrin hüquqi və fiziki şəxsləri ilə qanunvericiliyə uyğun olaraq müqavilələr bağlamaq;

çap məhsulunun hazırlayanı və yayıcısı qismində çıxış etmək;

Azərbaycan Respublikasının qanunvericiliyinə və öz nizamnaməsinə müvafiq olaraq digər istehsalat-təsərrüfat fəaliyyətini həyata keçirmək;

nəşriyyat tərəfindən hazırlanmış elmi, bədii və incəsənət əsərlərini müəyyən edilmiş qaydada dövlət mükafatlarına, ictimai və beynəlxalq mükafatlara təqdim etmək;

müəyyən edilmiş qaydada beynəlxalq təşkilatların işində iştirak etmək, öz nəşrlərini milli və beynəlxalq müsabiqələrə, sərgilərə, yarmarkalara təqdim etmək.

Nəşriyyatın (naşirin) aşağıdakı vəzifələri vardır:

istehlak ehtiyaclarının ödənilməsini təmin etmək;

öz məhsullarını dövlət standartlarına müvafiq tərtib etmək;

müəlliflik hüququna, dövlət standartlarının və beynəlxalq

standartların tələblərinə, nəşriyyat işini tənzimləyən normativ hüquqi aktlara əməl etmək;

nəşriyyat məhsulları haqqında dövlət hesabatını və məlumatı müəyyən olunmuş qaydada təqdim etmək.

Nəşriyyat (naşir) qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlardan da istifadə edir və vəzifələr daşıyır.

Poliqrafiya müəssisələri nəşriyyat məhsulu sayılmayan digər çap məhsullarının istehsalını qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirirlər.

Müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, nəşriyyat öz məhsullarının buraxılışına görə tam məsuliyyət daşıyır.

Nəşriyyat dövri mətbu orqanın təsisçisi kimi çıxış etdikdə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun normalarına əməl etməlidir.

**Maddə 10. Nəşriyyat məhsullarının istehsal edənin hüquq və vəzifələri**

Poliqrafiya müəssisələri, istifadəsində poliqrafik, surətçıxarma və ya müvafiq texniki vasitələr olan digər hüquqi və fiziki şəxslər nəşriyyat məhsullarını istehsal edə bilərlər.

Nəşriyyat məhsullarını istehsal edən poliqrafiya müəssisələri nəşriyyatdan və naşirlərdən daxil olan sifarişlər əsasında nəşriyyat məhsullarının istehsalını və buraxılışını həyata keçirə bilərlər.

Sifarişlərin yerinə yetirilməsinin şərtləri və müddəti tərəflər arasındakı müqavilə ilə müəyyən edilir.

Nəşriyyat məhsullarını istehsal edən poliqrafiya müəssisəsi poliqrafiya sahəsində dövlət standartlarına və beynəlxalq standartlara, texniki şərtlərə və normativ hüquqi aktlara əməl etməlidir.

Qanunvericilikdə nəzərdə tutulmuş hallardan başqa nəşriyyat məhsulunu istehsal edən poliqrafiya müəssisəsi nəşrin hazırlanmış tirajını və ya onun bir hissəsini, nəşrin orijinal nüsxəsini, maket və fotoları və ya çap formalarını sifarişçinin icazəsi olmadan başqasına verə, habelə nəşrin əlavə və təkrar tirajını çap edə bilməz.

**Maddə 11. Sifarişçinin hüquq və vəzifələri**

Hər bir hüquqi və fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada nəşriyyat məhsulunun sifarişçisi ola bilər.

Sifarişçi qismində müəlliflər (həmmüəlliflər), tərtibçilər (həmtərtibçilər) və tərcüməçilər redaksiya-nəşriyyat işlənməsi, hazırlanması və buraxılışı üçün aşağıdakı materialları nəşriyyata (naşirə) təqdim edə bilər:

belletristik, ictimai-siyasi, reklam, məlumat, tədris, elmi, tətbiqi və texniki səciyyəli əsərlər;

çıxışlar, mühazirələr, nitqlər, məruzələr, moizələr; mətnli və mətnsiz musiqi əsərləri;

dram, musiqili dram əsərləri;

tətbiqi sənət əsərləri;

fotolar, illüstrasiyalar, xəritələr, planlar, eskizlər;

tərcümələr, işləmələr, annotasiyalar, icmallar, xülasələr,

əsərlərin digər işləmələri və əsasında törəmə əsərlər yaradılan, orijinalın məzmununa ziyan vurmayan folklor işləmələri;

almanaxlar, antologiyalar, ensiklopediyalar və digər toplular; digər əsərlər.

Sifarişçi nəşrin dilini, həcmini, tirajını müəyyən edir və onun istifadə və yayımı qaydasını müstəqil həll edir.

Naşir nəşriyyat məhsulunu hazırlayana (poliqrafiya müəssisəsinə) öz məhsulunun hazırlanmasını, yayıcıya isə həmin məhsulun yayılmasını sifariş edə bilər.

Verilmiş sifarişlərin icra şərtləri, tərəflərin hüquq və vəzifələri müəllif (həmmüəllif) və ya sifariş obyektinin mülkiyyətçisi olan şəxs, sifarişçi, naşir, çap məhsulunu hazırlayan və yayıcı arasında qanunvericiliyə uyğun bağlanmış müqavilə ilə müəyyən edilir.

**Maddə 12. Xüsusi şərtlər**

Naşir, müəllif, çap məhsulunu hazırlayan poliqrafiya müəssisəsi və onun yayıcısı olan kitab ticarəti təşkilatları öz müqavilə öhdəliklərində Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan xüsusi şərtlər də müəyyən edə bilərlər.

**Maddə 13. Mühafizə prinsipli sənədlərin nəşri**

Dövlət əhəmiyyətli sənədlərin, qiymətli kağızların, nömrəli çap məhsullarının nəşrinin qaydaları və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 14. Nəşrdən imtina**

Müqavilə öhdəliklərinin pozulma faktının məhkəmə tərəfindən müəyyənləşdirildiyi hallardan başqa, heç kəs nəşriyyatı (naşiri) çapından imtina olunmuş əlyazmaları, yaxud digər materialları çap etməyə məcbur edə bilməz.

**Maddə 15. Müəllif nəşrləri**

Vətəndaşlar və təşkilatlar öz əlyazmalarını və digər materialları öz hesablarına və müəllif redaktəsi ilə çap etdirə bilərlər.

**Maddə 16. Nəşriyyat məhsulunun buraxılışı**

Nəşriyyat məhsulunu istehsal edənlər (poliqrafiya müəssisəsi, digər hüquqi və fiziki şəxslər) nəşriyyatın (naşirin), yaxud onun nümayəndəsinin razılığı olmadan nəşriyyat məhsulunu buraxa bilməzlər.

**Maddə 17. Nəşriyyat işi sahəsində reklam**

Nəşriyyat məhsullarında reklamın verilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

Uşaq ədəbiyyatı, dərsliklər, dövlət əhəmiyyətli zəruri nəşrlər, ensiklopediyalar pulsuz və yaxud güzəştli şərtlərlə reklam oluna bilər.

**Maddə 18. Buraxılış məlumatı**

Hazır məhsulun hər nüsxəsində aşağıdakı məlumatlar olmalıdır:

nəşriyyatın və çap məhsulunu hazırlayanın adı, ünvanı, xüsusi razılığın nömrəsi və verilmə tarixi;

buraxılış yeri və ili;

əlyazmanın yığıma verdiyi və çapa imzalandığı tarix;

hesab-nəşriyyat həcmi;

fiziki həcmi;

formatı;

səhifələrin sayı;

kağızın tipi;

şriftin növü (qarnituru);

çap üsulu;

tiraj;

qiyməti, yaxud "müqavilə qiyməti ilə" və ya "pulsuz" qeydi.

Nəşriyyat məhsullarında beynəlxalq kitab kodu, müəlliflik hüququnu göstərən nişan (işarə), standarta uyğun annotasiya, kitab təsnifatı göstəriciləri də qeyd olunmalıdır.

Buraxılış məlumatı olmayan nəşrlərin çap olunmasına yol verilmir.

**Maddə 19. Nəşriyyat işi sahəsində əqli mülkiyyət hüququ**

Nəşriyyat məhsulunun hazırlanması və istehsalı prosesində bədii və texniki tərtibatla əlaqədar yaradılmış məhsul üzərində əqli mülkiyyət hüququ nəşriyyata (naşirə) məxsusdur.

**Maddə 20. Naşirlərin, çap məhsullarını hazırlayanların və yayıcıların məsuliyyəti**

Nəşriyyat və nəşriyyat işinin subyektləri:

müəlliflik hüququ ilə qorunan əsərlərin müəlliflik müqaviləsi olmadan istehsalına;

naşirlik fəaliyyətinin dayandırılması haqqında qərar qəbul olunduqdan sonra işin davam etdirilməsinə;

dövlət standartlarını pozmaqla məhsul istehsal edilməsinə görə inzibati və maddi məsuliyyət daşıyır.

Nəşr olunmuş, müəlliflik hüququ ilə qorunan obyektlərin hüquq sahibinin icazəsi olmadan həmin obyektlərin tam, yaxud qismən surətinin çıxarıldığı (çap edildiyi) hallarda zərər çəkən hüquq sahibinin hüquqlarının bərpası Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təmin edilir.

Nəşriyyat hüququ olmayan təşkilatlardan qəbul edilmiş nəşrlərin poliqrafiya müəssisələri tərəfindən çapına, kitab ticarəti müəssisələri tərəfindən yayımına, həmçinin dövlət standartlarını pozaraq buraxılış məlumatları olmadan nəşrinə yol vermiş fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 21. Nəşriyyat fəaliyyətinə xitam verilməsi**

Nəşriyyat fəaliyyətinə:

təsisçinin qərarı ilə;

bu Qanunun 5-ci maddəsinin tələbləri pozulduqda, habelə qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda məhkəmənin qərarı ilə xitam verilə bilər.

**Maddə 22. Məcburi nüsxələr**

Nəşriyyat məhsulunu və digər çap məhsullarını hazırlayan

müəssisə sifarişçinin hesabına buraxılmış hər bir nəşrin pulsuz məcburi nüsxələrini Azərbaycan Respublikasının Milli Kitabxanasına, Kitab Palatasına, Azərbaycan Mətbuat Şurasına, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının və qanunvericilikdə nəzərdə tutulmuş digər orqanların kitabxanalarına, ödənişli nüsxələri isə müəyyən edilmiş qaydada müvafiq idarə, müəssisə və təşkilatlara göndərir.

Məcburi nüsxələr nəşrin ümumi tirajına daxildir.

**Maddə 23. Nəşriyyat məhsullarının yayım qaydası**

Müəlliflik müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, çap məhsulunun yayımı naşir, yaxud onun nümayəndəsi buraxılışa icazə verdikdən sonra mümkündür.

Nəşriyyat məhsulunun yayımı aralarındakı razılaşmaya əsasən təsisçi, naşir, nəşriyyat məhsulunu hazırlayan və müəllif tərəfindən, yaxud müqavilə və ya digər qanuni əsaslarla hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilə bilər.

**Maddə 24. Nəşriyyat işinin maliyyələşdirilməsi**

Nəşriyyat işinin subyektləri:

dövlət büdcəsindən qanunvericilikdə müəyyən edilmiş ayırmalar;

təsisçinin vəsaiti;

sponsorun vəsaiti;

hüquqi və fiziki şəxslərin ianələri;

dövlət və ictimai təşkilatlardan ayrılmış qrantlar;

nəşriyyatların (naşirlərin) sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlər;

qanunvericiliklə qadağan olunmayan digər vəsaitlər hesabına maliyyələşdirilə bilərlər.

**Maddə 25. Dövlət Kitab Palatası**

Azərbaycan Respublikasında buraxılmış bütün çap məhsulları növlərinin toplanmasını, onların biblioqrafik qeydiyyatını və kataloqlaşdırılmasını, nəşriyyat fəaliyyəti sahəsində inkişafın dinamikasını göstərən statistik materialların hazırlanmasını və mət-

buatın dövlət statistikasının aparılmasını Kitab Palatası həyata keçirir. Kitab Palatası öz nizamnaməsi əsasında fəaliyyət göstərir və dövlət büdcəsindən maliyyələşdirilir.

Kitab Palatası özəlləşdirilə bilməz.

**Maddə 26. Azərbaycan Milli Ensiklopediyası**

Azərbaycan Milli Ensiklopediyası Azərbaycan xalqının tarixi inkişaf mərhələlərini, milli-mənəvi sərvətlərini, həmçinin dünya elmi və mədəniyyəti nailiyyətlərini özündə əks etdirməklə yaradılan, büdcədən maliyyələşdirilən universal, milli, elmi nəşriyyat müəssisəsidir.

Azərbaycanın elmi və mədəni sərvətlərini özündə əks etdirən Azərbaycanın Milli Ensiklopediyası Azərbaycan xalqının milli sərvətidir.

Azərbaycan Milli Ensiklopediyası:

dövlət proqramına uyğun olaraq milli-universal və sahə ensiklopediyalarının, ensiklopedik məlumat və sorğu kitablarının, müxtəlif lüğətlərin nəşrini həyata keçirir;

öz fəaliyyətini genişləndirmək və inkişaf etdirmək üçün qanunvericiliklə müəyyən olunmuş qaydada hüquqi və fiziki şəxslərlə müqavilələr bağlayır;

ölkədə universal və sahə ensiklopediyalarının, ensiklopedik məlumat ədəbiyyatının nəşrini koordinasiya edir;

Azərbaycanı təbliğ edən informasiyaları toplayır, hazırlayır və onların ölkə daxilində və xaricdə yayılmasını təmin edir, informasiya mübadiləsi ilə məşğul olur;

ensiklopedik nəşrlərdə bağlı beynəlxalq tədbirlərdə, sərgi və yarmarkalarda iştirak edir.

Dövlət təşkilatları, elmi müəssisələr Azərbaycan Milli Ensiklopediyasının, digər ensiklopedik nəşrlərin hazırlanması üçün zəruri olan sənəd və məlumatları, başqa informasiyaları təqdim etməlidirlər.

**Maddə 27. Kitabxana Kollektoru**

Kitabxana Kollektoru aşağıdakı vəzifələri həyata keçirir:

dövlət proqramına uyğun olaraq nəşr olunmuş kitab məhsul-

ları ilə dövlət və qeyri-dövlət kitabxanalarının fondlarını zənginləşdirir;

elm və təhsil müəssisələrinin, dövlət təşkilatlarının, idarə və müəssisələrin, özəl qurumların, icra hakimiyyəti orqanlarının, bələdiyyələrin sifarişləri əsasında nəşriyyat məhsullarını əldə edərək onların kitabxanalarının təchiz olunmasına köməklik göstərir;

kitabxanaların və oxucuların nəşriyyat məhsullarına olan tələbatını öyrənir, bu sahədə sosioloji sorğular aparır və onun nəticələri barədə əlaqədar təşkilatlara məlumat verir;

öz fəaliyyətini genişləndirmək və inkişaf etdirmək üçün mülkiyyət formasından asılı olmayaraq qanunvericiliklə müəyyən olunmuş qaydada hüquqi və fiziki şəxslərlə müqavilələr bağlayır; xarici ölkələrin kitabxana kollektorları ilə əməkdaşlıq edir, qanunvericilikdə müəyyən olunmuş qaydada nəşriyyat məhsullarının ölkəyə gətirilməsini və xaricə göndərilməsini təmin edir.

## III FƏSİL
## Yekun müddəaları

### Maddə 28. Beynəlxalq əməkdaşlıq

Nəşriyyat işi sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əsasən həyata keçirilir.

Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət olarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

### Maddə 29. Bu Qanunun pozulmasına görə məsuliyyət

Qanunu pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Heydər Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 may 2000-ci il*

# “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 158; 2002, № 5, maddə 245; 2003, № 12 (I kitab), maddə 674; 2007, № 5, maddə 442, № 6, maddə 596) 6-cı maddəsinin ikinci hissəsinin yeddinci abzasına, 8-ci maddəsinin dördüncü hissəsinə və 15-ci maddəsinin ikinci hissəsinə birinci halda “Azərbaycan” sözündən sonra “Milli” sözü əlavə edilsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 mart 2016-cı il*
*№ 174-VQD*

## “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alır:

“Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78; 2015, № 11, maddə 1282) 24.4-cü maddəsi ləğv edilsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 sentyabr 2016-cı il*
*№ 313-VQD*

# "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alır:

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78; 2015, № 11, maddə 1282; 2016, № 11, maddə 1751) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 30.2.6-cı maddədə "otuz ildən çox tarixi" sözləri "1960-cı ildən əvvəlki dövrə aid" sözləri ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 30.2-1-ci maddə əlavə edilsin:

"30.2-1. Kütləvi və seriyalı istehsal olunan və ya 1960-cı ildən etibarən yaradılan, yaxud yaradılma tarixindən asılı olmayaraq, bu Qanunun 30.4-cü maddəsində nəzərdə tutulan ekspertizanın nəticəsinə əsasən mühafizə olunan mədəni sərvətlərin siyahısına daxil edilməyən mədəniyyət məhsulları (suvenirlər daxil olmaqla) mədəni sərvətlərə aid edilmir.".

**3. 41.2**-ci maddə aşağıdakı redaksiyada verilsin:

"41.2. Müvafiq icra hakimiyyəti orqanı bu Qanunun 30-cu maddəsində göstərilən mədəni sərvətləri mühafizə olunan mədəni sərvətlərin siyahısına daxil edir və onlara mühafizə şəhadətnaməsi verir.".

**4.** Aşağıdakı məzmunda 41.3-cü və 42.1-1-ci maddələr əlavə edilsin:

"41.3. Müvafiq icra hakimiyyəti orqanı mühafizə olunan mədəni sərvətlərin siyahısını öz rəsmi internet saytında yerləşdi-

rilməklə onun mütəmadi yenilənməsini və rəsmi nəşrlərdə dərc edilməsini təmin etməlidir.

42.1-1. Bu Qanunun 30.2-1-ci maddəsində nəzərdə tutulan mədəniyyət məhsullarının üzərində qeyd olunmuş seriya nömrəsi, istehsalçının adı və ya müəllif barədə məlumat, məhsulun yaradılma tarixi, yaxud ekspertizanın nəticəsinə dair arayış onların ixracı üçün əsasdır.”.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 oktyabr 2017-ci il*
*№ 815-VQD*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

**(Bu Məcəllə Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il 96-VQ nömrəli Qanunu ilə təsdiq edilmişdir)**

**(çıxarış)**

## FƏSİL 32

## İnformasiyadan istifadə edilməsi, onun yayılması və mühafizəsi qaydaları əleyhinə olan inzibati xətalar

**Maddə 392. Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı ilə bağlı tələblərin pozulması**

Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı ilə bağlı "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərin pozulmasına görə -

vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər yeddi yüz manat məbləğində cərimə edilir.

## "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 158; 2002, № 5, maddə 245; 2003, № 12, I kitab, maddə 674; 2007, № 5, maddə 442, № 6, maddə 596; 2016, № 3, maddə 430) aşağıdakı dəyişikliklər edilsin:

1. 12-ci maddənin birinci hissəsində birinci halda "və" sözü ", elektron və digər" sözləri ilə əvəz edilsin.

2. 15-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər (qəzet və jurnal redaksiyaları istisna olmaqla) buraxdığı çap məhsullarının:

- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) kitabxanasına 3 pulsuz məcburi nüsxəsini;

- profilinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) kitabxanalarına 2 pulsuz məcburi nüsxəsini göndərməlidirlər.

Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyaları buraxdığı qəzet və jurnalların 2 pulsuz məcburi nüsxəsini bu maddənin birinci hissəsində göstərilmiş kitabxanalara göndərməlidirlər.

Sifarişçi ilə nəşriyyat (naşir) arasında bağlanmış müqavilədə nəzərdə tutulduğu halda bu maddədə müəyyən edilmiş məcburi nüsxələrin elektron variantları da kitabxanalara təqdim edilir.

Kitabxanaların pulsuz məcburi nüsxələrlə (o cümlədən onların elektron variantları ilə) təchizatı qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Kitabxana fondunun tərkibinə daxil olan obyektlərdən istifadə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir".

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 fevral 2019-cu il.*

## “Nəşrlərin beynəlxalq mübadiləsinə dair” Konvensiyanın təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alır:

YUNESKO-nun 1958-ci il 3 dekabr tarixli “Nəşrlərin beynəlxalq mübadiləsinə dair” Konvensiyası Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti,*
*Bakı şəhəri, 5 may 2020-ci il*
*№ 81-VIQ*

## Nəşrlərin beynəlxalq mübadiləsinə dair

# KONVENSİYA
**3 dekabr 1958-ci il**

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş Konfransı 1958-ci il noyabrın 4-dən dekabrın 5-dək Paris şəhərində keçirilən 10-cu sessiyasında,

fikir və biliklərin dünya xalqları arasında sərbəst yayılmasında nəşrlərin beynəlxalq mübadiləsinin inkişafının vacibliyinə əmin olaraq,

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Nizamnaməsində nəşrlərin beynəlxalq mübadiləsinə verilən əhəmiyyəti nəzərə alaraq,

nəşrlərin mübadiləsi ilə bağlı yeni beynəlxalq konvensiyaya zərurət olduğunu etiraf edərək,

hazırkı sessiyanın gündəliyinin 15.4.1-ci bəndində qeyd olunan nəşrlərin beynəlxalq mübadiləsinə dair təkliflərlə tanış olaraq,

doqquzuncu sessiyada bu təkliflərin beynəlxalq konvensiya vasitəsilə beynəlxalq tənzimləmə predmeti olmasına qərar verərək,

1958-ci il dekabrın üçüncü günündə bu Konvensiyanı qəbul edir.

### Maddə 1
### Nəşrlərin mübadiləsi

Bu Konvensiyanın müddəalarına uyğun olaraq, razılığa gələn dövlətlər hökumət orqanları, eyni zamanda kommersiya məqsədi daşımayan təhsil, elm, texnika və ya mədəniyyət profilli qeyri-hökumət qurumları arasında nəşrlərin mübadiləsini təşviq etmək və asanlaşdırmaq öhdəliyini öz üzərinə götürürlər.

## Maddə 2
## Nəşrlərin mübadiləsinin əhatə dairəsi

**1**. Bu Konvensiyanın məqsədinə uyğun olaraq, yenidən satışı nəzərdə tutulmayan aşağıdakı nəşrlər bu Konvensiyanın 1-ci maddəsində göstərilən orqanlar və qurumlar arasında istifadə oluna və mübadilə obyekti kimi xidmət edə bilər:

**(a)** təhsil, hüquqi, elmi-texniki, mədəniyyət və informasiya sahəsi üzrə nəşrlər, məsələn: kitablar, qəzetlər və dövri nəşrlər, xəritələr və planlar, reproduksiyalar, fotoşəkillər, mikrosurətlər, musiqi əsərləri, Brayl nəşrləri və digər təsviri materiallar;

**(b)** Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş Konfransı tərəfindən 1958-ci il dekabrın üçüncü günündə qəbul edilmiş dövlətlər arasında rəsmi nəşrlərin və hökumət sənədlərinin mübadiləsi haqqında Konvensiyada nəzərdə tutulan nəşrlər.

**2**. Bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş Konfransı tərəfindən 1958-ci il dekabrın üçüncü günündə qəbul edilmiş dövlətlər arasında rəsmi nəşrlərin və hökumət sənədlərinin mübadiləsi haqqında Konvensiyaya əsasən aparılan mübadilələrə heç bir təsir göstərmir.

**3**. Bu Konvensiya məxfi sənədlərə, sirkulyar məktublara və açıqlanmayan digər sənədlərə şamil edilmir.

## Maddə 3
## Mübadilə xidmətləri

**1.** Razılığa gələn dövlətlər milli mübadilə xidmətinə, belə mübadilə xidməti olmadıqda mərkəzi mübadilə orqanına və orqanlara bu Konvensiyanın 1-ci maddəsində göstərilən orqanlar və qurumlar arasında nəşrlərin mübadiləsini inkişaf etdirmək və əlaqələndirmək üçün aşağıdakı funksiyaları həvalə edə bilərlər:

**(a)** nəşrlərin beynəlxalq mübadiləsinin asanlaşdırılması, xüsusən ehtiyac yarandıqda mübadilə olunacaq materialların ötürülməsi;

**(b)** öz ölkələrində və xaricdə orqanlar və qurumlar üçün

mübadilə imkanları barədə məsləhət və informasiyanın verilməsi;

**(c)** məqsədəuyğun olduqda, dublikatların (materialların surətlərinin) mübadiləsinin təşviq edilməsi.

**2.** Lakin bu Konvensiyanın 1-ci maddəsində göstərilən orqanlar və qurumlar arasında mübadilənin inkişafı və əlaqələndirilməsinin milli mübadilə xidməti və ya mübadilə mərkəzlərində cəmləşdirilməsi arzuolunmaz hesab edildikdə, bu maddənin 1-ci bəndində göstərilən hər hansı və ya bütün funksiyalar digər səlahiyyətli orqan və ya orqanlara həvalə edilə bilər.

## Maddə 4
## Göndərilmə qaydası

Göndərilmə aidiyyəti orqanlar və qurumlar arasında ya birbaşa, yaxud milli mübadilə xidmətləri və ya mübadilə orqanları vasitəsilə həyata keçirilə bilər.

## Maddə 5
## Nəqliyyat xərcləri

Göndərilmə birbaşa mübadilə tərəfləri arasında baş tutduqda, razılığa gələn dövlətlər tərəfindən xərclərin ödənilməsi tələb olunmur. Göndərilmə mübadilə orqanı və ya orqanları vasitəsilə həyata keçirildikdə, razılığa gələn dövlətlər göndərilmə ilə bağlı yalnız təyinat məntəqəsinə qədər olan xərcləri, göndərilmə dənizlə baş tutduqda isə təyinat limanındakı gömrük məntəqəsinə qədər qablaşdırma və çatdırılma xərclərini ödəyirlər.

## Maddə 6
## Tariflər və daşınma şərtləri

Razılığa gələn dövlətlər istifadə olunan nəqliyyat növündən (poçt, avtomobil nəqliyyatı, dəmir yolu, çay və dəniz nəqliyyatı, hava poçtu və ya hava nəqliyyatı) asılı olmayaraq, mübadilə mərkəzlərinin ən əlverişli tariflərdən və daşınma şərtlərindən istifadəsini təmin etmək üçün bütün zəruri tədbirləri görürlər.

**Maddə 7**
**Gömrük və digər güzəştlər**

Razılığa gələn hər bir dövlət bu Konvensiyaya, eyni zamanda tətbiq olunan hər hansı bir razılaşmaya əsasən öz mübadilə mərkəzlərini idxal və ixrac edilən nəşr məhsullarına olan gömrük rüsumundan azad edir və gömrük və digər prosedur qaydalarının icrası zamanı onlara ən əlverişli şəraiti yaradır.

**Maddə 8**
**Mübadilənin beynəlxalq əlaqələndirilməsi**

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatına onun Nizamnaməsində mübadilənin beynəlxalq əlaqələndirilməsi ilə bağlı üzərinə qoyulmuş funksiyaların yerinə yetirilməsinə kömək göstərilməsi üçün razılığa gələn dövlətlər bu Konvensiyanın işi ilə bağlı illik hesabatları və 12-ci maddəyə uyğun olaraq bağlanılmış ikitərəfli müqavilələrin surətlərini təşkilata göndərirlər.

**Maddə 9**
**İnformasiya və tədqiqatlar**

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı razılığa gələn dövlətlərdən 8-ci maddənin tətbiqi ilə əlaqədar qəbul etdiyi məlumatları dərc edir və bu Konvensiyanın işinə dair tədqiqatlar hazırlayır və nəşr etdirir.

**Maddə 10**
**UNESCO tərəfindən dəstək**

**1**. Razılığa gələn dövlətlər bu Konvensiyanın tətbiqindən irəli gələn hər hansı bir texniki məsələdə dəstək üçün Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatına müraciət edə bilərlər. Təşkilat öz proqramı çərçivəsində və imkanları daxilində, xüsusilə də milli mübadilə xidmətlərinin yaradılması və təşkilinə dəstək göstərir.

**2.** Təşkilat öz təşəbbüsü ilə razılığa gələn dövlətlərə bu barədə təkliflər vermək səlahiyyətinə malikdir.

**Maddə 11**
**Əvvəllər bağlanılmış müqavilələrə münasibət**

Bu Konvensiya razılığa gələn dövlətlər tərəfindən beynəlxalq müqavilələr üzrə əvvəllər qəbul edilmiş öhdəliklərə təsir etmir.

**Maddə 12**
**İkitərəfli müqavilələr**

Zərurət yaranarsa və ya arzu olunarsa, razılığa gələn dövlətlər bu Konvensiyaya əlavələr etmək və onun tətbiqindən irəli gələn ümumi maraq doğuran məsələləri tənzimləmək məqsədilə ikitərəfli müqavilələr bağlayırlar.

**Maddə 13**
**Dillər**

Bu Konvensiya ingilis, fransız, rus və ispan dillərində tərtib edilmişdir və hər dörd mətn eyni hüquqi qüvvəyə malikdir.

**Maddə 14**
**Ratifikasiya və qəbuletmə**

**1**. Bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatına üzv dövlətlər tərəfindən onların konstitusiya qaydalarına uyğun olaraq ratifikasiya və ya qəbul edilir.

**2.** Ratifikasiya və ya qəbuletmə sənədləri Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoruna saxlanılmaq üçün təhvil verilir.

**Maddə 15**
**Qoşulma**

**1**. Bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının İcra Şurasından qoşulmaq üçün dəvət almış, təşkilata üzv olmayan bütün dövlətlər üçün açıqdır.

**2.** Konvensiyaya qoşulma Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoruna qoşulma haqqında müvafiq sənədin təhvil verilməsi yolu ilə həyata keçirilir.

**Maddə 16**
**Qüvvəyəminmə**

Bu Konvensiya üçüncü ratifikasiya, qəbuletmə və ya qoşulma haqqında sənədin saxlanılmağa verildiyi tarixdən on iki ay sonra və yalnız o tarixdə və ya ondan öncə müvafiq sənədlərini təqdim etmiş dövlətlərə münasibətdə qüvvəyə minir. Ratifikasiya, qəbuletmə və ya qoşulma haqqında öz sənədini saxlanılmağa verən hər hansı digər dövlətə münasibətdə bu Konvensiya, onun ratifikasiya, qəbuletmə və ya qoşulma haqqında sənədinin saxlanılmağa verildiyi tarixdən on iki ay sonra qüvvəyə minir.

**Maddə 17**
**Konvensiyanın ərazi əhatəsi**

Razılığa gələn hər bir dövlət ratifikasiya, qəbuletmə və ya qoşulma zamanı və ya bundan sonra istənilən vaxt Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoruna ünvanlanan bildirişlə bu Konvensiyanın beynəlxalq əlaqələri üçün cavabdeh olduğu ərazilərin hamısına və ya hər hansı birinə şamil ediləcəyini bəyan edə bilər. Qeyd olunan bildiriş qəbul edildiyi tarixdən on iki ay sonra qüvvəyə minir.

**Maddə 18**
**Denonsasiya**

**1**. Razılığa gələn hər bir dövlət bu Konvensiyanı öz adından və ya beynəlxalq əlaqələrinə görə cavabdeh olduğu hər hansı bir ərazi adından denonsasiya edə bilər.

**2.** Denonsasiya barədə Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoruna yazılı sənəd göndərməklə məlumat verilir.

**3**. Denonsasiya bu haqda sənədin qəbul edilməsindən on iki ay sonra qüvvəyə minir.

**Maddə 19**
**Bildirişlər**

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru təşkilata üzv olan dövlətlərə, 15-ci

maddədə qeyd edilən təşkilata üzv olmayan dövlətlərə, habelə Birləşmiş Millətlər Təşkilatına 14-cü və 15-ci maddələrdə nəzərdə tutulmuş ratifikasiya, qəbuletmə və qoşulma haqqında sənədlərin saxlanılmağa verilməsi, həmçinin 17-ci və 18-ci maddələrdə nəzərdə tutulan bildiriş və denonsasiyalar barədə məlumat verir.

**Maddə 20**
**Konvensiyaya yenidən baxılma**

**1.** Bu Konvensiyaya Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş Konfransı tərəfindən yenidən baxıla bilər, lakin yenidən baxılmanın yekunları yalnız yenilənən Konvensiyaya tərəf olan dövlətlər üçün məcburidir.

**2.** Baş Konfrans bu Konvensiyanın bütövlüklə və ya qismən yenidən baxılması ilə əlaqədar yeni bir konvensiya qəbul etdiyi və yeni konvensiyada başqa halın nəzərdə tutulmadığı təqdirdə, bu Konvensiya yenilənmiş konvensiya qüvvəyə mindiyi tarixdən etibarən ratifikasiya, qəbuletmə və ya qoşulma üçün bağlı elan edilir.

**Maddə 21**
**Qeydiyyat**

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq, bu Konvensiya UNESCO-nun Baş direktorunun müraciətinə əsasən Birləşmiş Millətlər Təşkilatının Katibliyi tərəfindən qeydiyyata alınır.

Bu Konvensiya 1958-ci il dekabrın beşinci günündə Paris şəhərində Baş Konfransın onuncu sessiyasının Prezidenti və Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru tərəfindən iki autentik nüsxədə imzalanmışdır, onlar saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının arxivinə təhvil verilir və təsdiq edilmiş əsl nüsxələr 14-cü və 15-ci maddələrdə göstərilən bütün dövlətlərə, həmçinin Birləşmiş Millətlər Təşkilatına çatdırılır.

## UNESCO-nun "Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyası üzrə Azərbaycan Respublikasının

## BƏYANATI

Azərbaycan Respublikası bəyan edir ki, UNESCO-nun "Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyasının müddəaları Ermənistan Respublikasına münasibətdə Azərbaycan Respublikası tərəfindən tətbiq edilməyəcəkdir.

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində (Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonu) UNESCO-nun "Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyasının müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermir (Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin sxematik xəritəsi əlavə olunur).*

*Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,*
*2020. – № 4. – S.1012*

# II FƏSİL
# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMAN VƏ SƏRƏNCAMLARI

## 2.1. Fərmanlar

### "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- Qüvvədə olan qanunvericilik aktlarının "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- həmin Qanunun 18-ci maddəsində nəzərdə tutulmuş dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydalarını təsdiq etsin;

- bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlərə dair digər müvafiq normativ-hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

- "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- öz səlahiyyətləri daxilində "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

- "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin üçüncü hissəsində, 8-ci maddəsinin beşinci hissəsində, 10-cu maddəsinin ikinci hissəsində, 13-cü maddəsinin ikinci hissəsində, 14-cü maddəsinin ikinci hissəsində, 15-ci maddəsinin birinci hissəsində (ikinci halda), 17-ci maddəsində, 18-ci maddəsində, 28-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

- həmin Qanunun 15-ci maddəsinin birinci (birinci halda) və ikinci hissələrində göstərilən "müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları" dedikdə, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin kitabxanaları nəzərdə tutulur;

- həmin Qanunun 24-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Mədəniyyət Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

- həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir.

**Heydər Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 mart 1999-cu il №115*

## “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

“Nəşriyyat işi haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

“Nəşriyyat işi haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

“Nəşriyyat işi haqqında” Azərbaycan Respublikası Qanununun 13-cü maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti öz səlahiyyətləri daxilində həyata keçirirlər;

həmin Qanunun 1-ci maddəsinin on doqquzuncu abzasında nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiy-

yətlərini Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi həyata keçirir;

həmin Qanunun 3-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

həmin Qanunun 18-ci maddəsinin birinci hissəsinin ikinci abzasında "xüsusi razılıq" dedikdə Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli 637 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının siyahısı"nın 27-ci bəndinə müvafiq surətdə verilmiş xüsusi razılıq (lisenziya) nəzərdə tutulur; (Çıxarılmışdır)

həmin Qanunun 22-ci maddəsinin birinci hissəsində "müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları" dedikdə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin kitabxanaları nəzərdə tutulur.

**Heydər Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 avqust 2000-ci il*
*№ 384*

## “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** altı ay müddətində:

**1.1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.3.** həmin Qanunun 12-ci maddəsinə uyğun olaraq, mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.4.** həmin Qanunun 14.2.4-cü maddəsinə uyğun olaraq, mədəni sərvətlərdən aztəminatlı əhali, əlillər və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, müharibə iştirakçıları tərəfindən güzəştli istifadə qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.5.** həmin Qanunun 22.3-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən mu-

zey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.6.** həmin Qanunun 23.3-cü maddəsinə uyğun olaraq, mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.7.** həmin Qanunun 24.4-cü maddəsinə uyğun olaraq, peşəkar yaradıcılığın meyarlarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.8.** həmin Qanunun 26.4-cü maddəsinə uyğun olaraq, mədəni sərvətlərin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.9.** həmin Qanunun 27.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqinin həyata keçirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.10.** həmin Qanunun 29.5-ci maddəsinə uyğun olaraq, mədəniyyət sahəsində elektron məlumat sisteminin tərkibini, təşkilini və idarə olunması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.11.** həmin Qanunun 32.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.12.** həmin Qanunun 34.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazi sularında sualtı mədəni sərvətlərin sualtı mədəni irs nümunələrinə aid edilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.13.** həmin Qanunun 34.3-cü maddəsinə uyğun olaraq, sualtı mədəni irs nümunələrindən istifadə qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.14.** həmin Qanunun 38.4-cü maddəsinə uyğun olaraq, milli mədəni irs obyektlərinin sahiblərinə həmin obyektlərin mühafizəsini təmin etmək məqsədi ilə verilən təminatları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.15.** həmin Qanunun 39.1-ci maddəsinə uyğun olaraq, mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.16.** həmin Qanunun 40.4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində arxeoloji qazıntılar aparan və arxeoloji mədəni sərvətlərin tədqiqi məqsədi ilə onlarla təmasda elmi tədqiqat işlərini yerinə yetirən şəxs tərəfindən aparılmış tədqiqat işləri barədə hesabat verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.17.** həmin Qanunun 42.3-cü maddəsinə uyğun olaraq, sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.18.** həmin Qanunun 45.2-ci maddəsinə uyğun olaraq, qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.19.** həmin Qanunun 47.1-ci maddəsinə uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət əmlakının siyahısını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.20.** həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** üç ay müddətində həmin Qanunun 21.2-ci, 22.5-ci, 23.1-ci maddələrində, 26.4-cü maddəsində ikinci halda, 27.1-ci maddəsində ikinci halda, 29.1-ci maddəsində, 30.4-cü maddəsinin birinci cümləsində, 33.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 35.2-ci, 36.3-cü, 37.1-ci, 37.2-ci, 38.2-ci, 39.2-ci, 39.3-cü, 39.6-cı, 40.3-cü maddələrində, 40.4-cü maddəsinin birinci cümləsində, ikinci cümləsində ikinci halda, 40.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 41.1-ci, 41.2-ci, 42.1-ci, 45.1-ci, 47.4.3-cü, 48.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini, 5.1-ci və 14.2-ci maddələrində nəzərdə tutulmuş vəzifələri həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

**2.1.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun 5.2-ci maddəsinin birinci cümləsində (mədəniyyət sahəsində dövlət siyasətinin prioritet istiqamətlərinin müəyyən edilməsi və onun əsasında dövlət proqramlarının və strategiyaların qəbul edilməsi və icrasına nəzarət üzrə), 25.1-ci maddəsində hər iki halda nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**2.2.** həmin Qanunun 5.2-ci maddəsinin birinci cümləsində (mədəniyyət sahəsində məqsədyönlü layihələrin və tədbirlər planlarının qəbul edilməsi və icrasına nəzarət üzrə), 12-ci, 14.2.4-cü, 22.3-cü, 23.3-cü, 24.4-cü maddələrində, 26.4-cü mad-

dəsində birinci halda, 27.1-ci maddəsində birinci halda, 29.5-ci, 32.2-ci, 34.1-ci, 34.3-cü, 38.4-cü, 39.1-ci maddələrində, 40.4-cü maddəsinin ikinci cümləsində birinci halda, 42.3-cü, 45.2-ci, 47.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

**2.3.** həmin Qanunun 5.2-ci maddəsinin birinci cümləsində (mədəniyyət sahəsində məqsədyönlü layihələrin və tədbirlər planlarının qəbul edilməsi və onların icrasına nəzarət üzrə), 25.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 fevral 2013-cü il*

# “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

“Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanını “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1375-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

“Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 122) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bəndə “25.1-ci maddəsində hər iki halda” sözlərindən sonra “, 40.4-cü maddəsinin birinci cümləsində birinci halda və ikinci cümləsində ikinci halda” sözləri əlavə edilsin.

2. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

“2.4. həmin Qanunun 40.4-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş elmi təşkilat Azərbaycan Milli Elmlər Akademiyasıdır.”.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 may 2016-cı il*
*№ 904*

# "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 313-VQD nömrəli Qanununun tətbiqi və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 313-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1**. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3**. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 2, maddə 122; 2016, N 5, maddə 865) 1.1.7-ci yarımbəndi ləğv edilsin, 2.2-ci bəndindən ", 24.4-cü" sözləri çıxarılsın.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 noyabr 2016-cı il*

## "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 122; 2016, № 5, maddə 865, № 11, maddə 1811) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.1. 2.2**-ci bənddə "32.2-ci," sözlərindən sonra "33.3-cü maddəsinin birinci və ikinci (qoruqların sərhədlərinin və mühafizə zonalarının müəyyən edilməsi üzrə) cümlələrində," sözləri əlavə edilsin.

**1.2. 2.3**-cü bənddə "25.3-cü maddəsində" sözlərindən sonra ", 33.3-cü maddəsinin ikinci cümləsində ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mədəni irs abidələrinin mühafizə zonalarının müəyyən edilməsi üzrə), 40.3-cü maddəsində ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mədəni irs abidələrinin mühafizə zonalarının müəyyən edilməsi üzrə)" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3**. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 iyun 2017-ci il №1469*

# “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 815-VQD nömrəli Qanununun tətbiqi və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikasının 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 815-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2**. Müəyyən edilsin ki, "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 41.2-ci və 41.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**4.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikasının 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 2013, № 2, maddə 122; 2016, № 5, maddə 865, № 11, maddə 1811; 2017, № 6, maddə 1085) aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 1.2-ci bənddən "41.2-ci, " sözləri çıxarılsın;

**4.2.** 2.3-cü bənddə "nəzərdə tutulmuş" sözlərindən əvvəl ", 41.2-ci və 41.3-cü maddələrində" sözləri əlavə edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 noyabr 2017-ci il*

# “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.**Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.**“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin birinci və ikinci bəndlərində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.**“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin dördüncü hissəsinə uyğun olaraq, kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4**.Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.5**.mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.6.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2**. Müəyyən edilsin ki, "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin:

**2.1.**birinci hissəsinin birinci və ikinci bəndlərində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**2.2.**dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 mart 2019-cu il № 593*

# "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 593 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

**1.**"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 167; 2002, № 8, maddə 482; 2006, № 9, maddə 743; 2007, № 6, maddə 601) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin birinci və ikinci bəndlərində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

**1.2**. üçüncü və dördüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 7-ci maddəsinin üçüncü hissəsində, 8-ci maddəsinin beşinci hissəsində, 10-cu maddəsinin ikinci hissəsində, 13-cü maddəsinin ikinci hissəsində, 15-ci maddəsinin dördüncü hissəsində, 17-ci, 18-ci maddələrində, 28-ci maddəsinin

ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 15-ci maddəsinin birinci hissəsinin birinci bəndində nəzərdə tutulmuş "orqanın (qurumun) kitabxanası" və ikinci bəndində nəzərdə tutulmuş "orqanın (qurumun) kitabxanaları" Azərbaycan Respublikası Nazirlər Kabinetinin həmin Qanunun 15-ci maddəsinin dördüncü hissəsinə uyğun olaraq təsdiq etdiyi kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı qaydasında müəyyən edilirlər;";

**1.3**. ikinci–yeddinci abzaslar müvafiq olaraq 2.1–2.6-cı bəndlər hesab edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin birinci bəndində nəzərdə tutulmuş "orqanın (qurumun) kitabxanası"nı və ikinci bəndində nəzərdə tutulmuş "orqanın (qurumun) kitabxanaları"nı, onların hər birinin adını göstərməklə, həmin Qanunun 15-ci maddəsinin dördüncü hissəsinə uyğun olaraq təsdiq etdiyi kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı qaydasında bir ay müddətində müəyyən edərək Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 dekabr 2019-cu il № 8*

## 2.2. Sərəncamlar

### "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasında milli-mənəvi dəyərlərin qorunmasını təmin edən müasir mədəniyyət modelinin yaradılması, mədəniyyət sahəsində sistemli və dayanıqlı inkişafın təmin olunması məqsədilə qərara alıram:

1. "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" (bundan sonra – Konsepsiya) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:

2.1. Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini həyata keçirsin;

2.2. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 yanvar 2026-cı il*

*Azərbaycan Respublikası Prezidentinin*
*2026-cı il 14 yanvar tarixli Sərəncamı*
*ilə təsdiq edilmişdir*

# "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası

## 1. Qısa xülasə

Hüquqi, dünyəvi və demokratik dövlət, sosial rifah və mədəni müxtəliflik prinsiplərinin dərin kök saldığı müasir Azərbaycanda mədəniyyətin intibahı dövrün regional və qlobal çağırışları müstəvisində mühüm əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında yeni milli ideologiyanın və buna əsaslanan yeni mədəniyyət siyasətinin formalaşdırılmasını şərtləndirir.

"Azərbaycan mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası (bundan sonra – Konsepsiya) qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla, Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün dövlət mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və mədəniyyət sahəsi ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədidir.

Sağlam mədəni və yaradıcı həyat tərzi fərdin, cəmiyyətin, dövlətin, habelə xalqın inkişafına hər zaman əhəmiyyətli təsir göstərmişdir. Mədəniyyətin həyat tərzinin tərkib hissəsi olması bu inkişafın əsas amillərindəndir. Azərbaycan mədəniyyətinin müasir modeli fərdin mədəni həyatda daha geniş və yaradıcı iştirakına şərait yaratmaqla, dövlətin sosial, siyasi, iqtisadi və digər sahələrdə qarşısına qoyduğu strateji məqsəd və hədəflərə daha

sürətlə çatmasına imkanlar açır. Bu model Azərbaycan Respublikasında dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin bərqərar olması, ölkənin rəqabətli insan kapitalı və innovasiyalar məkanına çevrilməsi üçün əsas vasitələrdən biri kimi çıxış edir.

Azərbaycan mədəniyyətinin müasir modeli qlobal çağırışlara cavab verməklə yanaşı, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasını təmin edən mədəniyyət modelidir. Bu məqsədlə Konsepsiya milli mədəniyyətə yeni strateji baxışı şərtləndirir. Konsepsiyanın uğurla həyata keçirilməsi və müasir mədəniyyət modelinin işlək olması üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, idarəetmə formasının, müasir sosial-iqtisadi yanaşmanın və ahəngdar fəaliyyətin təmin edilməsi zəruridir.

Azərbaycan Respublikasının mədəniyyət siyasəti dövlət siyasətinin tərkib hissəsi olmaqla, mədəni həyatın təmin edilməsi üçün əlverişli mühit yaradılmasına, milli-mənəvi dəyərlərin qorunmasına, mədəniyyətin tərbiyə potensialına və şəxsiyyətin formalaşması prosesində mədəniyyətdən istifadəyə əsaslanan istiqamətdir. Mədəniyyət sahəsində dayanıqlı inkişafa və Konsepsiyada müəyyən edilən məqsədlərə nail olmaq üçün bu sahədə dövlət siyasətinin mərkəzləşdirilmiş və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi zəruridir.

Konsepsiya çərçivəsində Azərbaycan mədəniyyətinin müasir modeli aşağıdakıları nəzərdə tutur:

**1.** mədəniyyətin həyat tərzinin ayrılmaz tərkib hissəsinə çevrilməsini;

**2.** mədəniyyətin fundamentallığını qorumaqla, fərqli müasir alətlər vasitəsilə bu sahənin funksionallığının təmin edilməsini;

**3.** mədəniyyətin elm, təhsil və innovasiyalarla qarşılıqlı əlaqəsinin təmin edilməsini;

**4.** Azərbaycan cəmiyyətinin mədəni müxtəlifliyinin və birliyinin qorunmasını;

**5.** mədəniyyətin bütün sahələrini inkişaf etdirməklə, Azərbaycan mədəniyyətinin

potensialından tam istifadə edilməsini;

**6.** mədəniyyətə hərtərəfli əlçatanlığın (coğrafi, rəqəmsal, fiziki, iqtisadi və s.) təmin edilməsini;

**7.** qloballaşma şəraitində milli kimliyin və milli-mənəvi dəyərlərin qorunmasını;

**8.** sürətli rəqəmsallaşma mühitində ənənəvi ünsiyyətin qorunmasını;

**9.** Azərbaycan mədəniyyətinin beynəlxalq mədəni mübadilədə iştirakının genişləndirilməsini. Bu məqsədlə mədəniyyət sahələrindən, habelə mədəniyyətin funksionallığının artırılmasına xidmət edən əsas alətlərdən (mədəni və yaradıcı sənaye, mədəniyyət diplomatiyası, rəqəmsallaşma və s.) səmərəli istifadə ilə bağlı davamlı və hədəfli fəaliyyətin həyata keçirilməsi zəruridir.

Konsepsiyada mədəniyyətin aşağıdakı əsas sahələri əhatə olunur:

1. Azərbaycan dili;
2. davranış mədəniyyəti;
3. bilgi mədəniyyəti;
4. ədəbiyyat;
5. incəsənət;
6. mədəni irs.

Konsepsiyada "Azərbaycanın mədəniyyət dəyərləri" aşağıdakıları əhatə edir:

1. milli-mənəvi dəyərlər;
2. tolerantlıq;
3. Azərbaycan dili;
4. fərdilik və özünəməxsusluq;
5. əlçatanlıq;
6. dövlət rəmzlərində təsbit edilən dəyərlər;
7. tarixi şüur, dövlətçilik, milli həmrəylik;
8. hüququn aliliyi, ədalətlilik, bərabərlik, azadlıq və digər ümumbəşəri dəyərlər.

Konsepsiyanın aşağıdakı mərhələlərdə tədbirlər planları əsasında həyata keçirilməsi nəzərdə tutulur:

1. birinci mərhələ: 2026–2030-cu illər;
2. ikinci mərhələ: 2031–2035-ci illər;
3. üçüncü mərhələ: 2036–2040-cı illər.

Növbəti mərhələ üzrə tədbirlər planı əvvəlki mərhələ üçün

tədbirlər planının nəticələrinin qiymətləndirilməsi əsasında tərtib edilir.

Konsepsiya çərçivəsində aşağıdakı dövlət proqramlarının layihələrinin hazırlanması nəzərdə tutulur:

1. Azərbaycan dilinin və ədəbiyyatının inkişafı ilə bağlı dövlət proqramı;
2. Azərbaycanın mədəni və təbii irsinin qorunması ilə bağlı dövlət proqramı;
3. İncəsənətin inkişafı ilə bağlı dövlət proqramı;
4. Audiovizual sənayenin inkişafı ilə bağlı dövlət proqramı;
5. Davranış mədəniyyətinin və bilgi mədəniyyətinin inkişafı ilə bağlı dövlət proqramı;
6. Mədəni və yaradıcı sənayenin inkişafı ilə bağlı dövlət proqramı.

Bundan əlavə, Konsepsiyanın əsas hədəflərindən biri də Azərbaycanın öz tarixi coğrafiyasına mədəni qayıdışını, Azərbaycan xalqının məhv edilən və dağıdılan tariximədəni irsinin bərpasını təmin etmək, birləşdirici amil kimi Azərbaycan dilinin regional rolunun bərpasına nail olmaqdır. Təşkilatlanmış mədəni iştirakçılıq Azərbaycan Respublikasının regional maraqlarının səmərəli şəkildə təmin edilməsində və qonşu ölkələrlə dostluq münasibətlərinin gücləndirilməsində mühüm rol oynayacaqdır.

## 2. Qlobal trendlər

BMT Baş Assambleyasının 2015-ci il sentyabrın 25-də təsdiq etdiyi 17 dayanıqlı inkişaf məqsədindən və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də (bundan sonra – 2030 Gündəliyi) "şəhərləri və yaşayış məntəqələrini inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı etmək" adlı 11-ci dayanıqlı inkişaf məqsədinin 11.4-cü "Dünyanın mədəni və təbii irsinin qorunması və mühafizə edilməsi üçün səyləri gücləndirmək" hədəfində mədəniyyət ilk dəfə qlobal səviyyədə davamlı inkişaf amili olaraq tanınmışdır. 2030 Gündəliyinin dayanıqlı inkişaf məqsədləri və hədəflərinin milli

və yerli səviyyədə həyata keçirilməsinə mədəniyyətin töhfəsinin ölçülməsi və izlənilməsi məqsədilə UNESCO tərəfindən 22 tematik göstərici müəyyən edilmişdir.

Mədəni özünüifadə müxtəlifliyinin qorunması müasir dövrdə mədəniyyətin qlobal funksiyaları sırasında yer alır. Mədəniyyətlərarası hörmət və sülh mədəniyyəti naminə əhatəli və tarazlı mədəni mübadilənin genişləndirilməsində cəmiyyətin bütün təbəqələrinin iştirakı zəruridir. Bu səbəbdən mədəniyyətlərarası dialoq təşviq edilməli, mədəni fəaliyyət, mədəniyyət məhsulları və xidmətləri özünəməxsusluq, dəyər və məna daşıyıcısı kimi tanınaraq, onların səciyyəvi xüsusiyyətləri qorunmalıdır. Bu baxımdan UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" 2005-ci il 20 oktyabr tarixli Konvensiyasından irəli gələn tədbirlərin icrası bu Konsepsiyanın əsas məqsədlərindəndir.

UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyasının

İcrası ilə əlaqədar hazırladığı "İnkişaf üçün mədəni ifadələrin müxtəlifliyini təşviq edən onillik" (2015) və "İnkişaf üçün yaradıcılığı inkişaf etdir" (2018) adlı hesabatlarında mədəniyyətin yeni vəzifələri və bu sahədəki çağırışlar vurğulanmışdır.

BMT-nin "İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası"na (bundan sonra – Çərçivə Konvensiyası), Çərçivə Konvensiyasına dair Kioto Protokoluna və Paris Razılaşmasına uyğun olaraq UNESCO 2017-ci ildə qəbul etdiyi "İqlim dəyişmələri ilə əlaqədar etik prinsiplərə dair bəyanat"da üzv dövlətləri və onların mərkəzi, yerli dövlət və özünüidarə orqanlarını, icmaları, fərdləri, elmi və beynəlxalq təşkilatları qərar qəbul etmə və fəaliyyətləri zamanı mədəniyyətə əsaslanan, iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş 6 prinsipə – ədalət, davamlı inkişaf, həmrəylik, qərarların qəbulunda elmi bilik və dürüstlük, ehtiyatlı yanaşma və zərərin qarşısının alınması prinsiplərinə əməl etməyə çağırmışdır.

Türk Dövlətləri Təşkilatının "Türk Dünyası 2040 Vizyonu" sənədində türk dünyası ölkələrinin ortaq mədəni irsinin qorun-

ması, təbliği və mədəni fəaliyyətin inkişaf etdirilməsinin vacibliyi qeyd olunmuşdur.

Çərçivə Konvensiyasının Tərəflər Konfransının 2024-cü il noyabrın 11–22-də Bakı şəhərində keçirilmiş 29-cu sessiyasında (COP29) Azərbaycan Respublikası "İqlim üçün mədəniyyət" (C4C) təşəbbüsünü irəli sürmüşdür. Bu təşəbbüsün məqsədi ənənələrin, incəsənətin və irsin davamlı təcrübə və dəyərləri necə inkişaf etdirə biləcəyini vurğulayaraq, mədəniyyəti müsbət iqlim fəaliyyəti üçün təsirli qüvvəyə çevirməkdir.

Azərbaycan Respublikası mədəniyyət sahəsində dövlət siyasətini qeyd edilən qlobal trendləri nəzərə almaqla həyata keçirir.

## 3. Mövcud vəziyyətin təhlili

2003–2025-ci illər ərzində Azərbaycan Respublikasında mədəniyyət sahəsində əhəmiyyətli işlər görülmüşdür.

Azərbaycan mədəniyyətinin inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" uğurla icra olunmuşdur.

Kinematoqrafiyanın və kino sənayesinin inkişafına dövlət dəstəyi göstərilmiş, akademik, milli və aparıcı teatrların sayı artmış, ölkə ərazisində 100-dən artıq beynəlxalq festival, xarici ölkələrdə isə 60-dan çox Azərbaycan mədəniyyəti günləri, 100-dən artıq yubiley və digər mədəniyyət tədbirləri keçirilmişdir.

Qeyd olunan illərdə ölkədə mədəniyyət sahələri üzrə fəaliyyət göstərən yaradıcılıq ittifaqlarına və birliklərinə davamlı dövlət qayğısı göstərilmişdir.

Mədəni irsin qorunması sahəsində də mühüm işlər görülmüş, 2003–2023-cü illər ərzində Azərbaycanın 4 mədəni və təbii irsi – Qobustan qaya sənəti mədəni landşaftı (2007-ci il), Xan sarayı ilə Şəki şəhərinin tarixi mərkəzi (2019-cu il), Hirkan meşələri (2023-cü il) və Xınalıq Köç yolu (2023-cü il) UNESCO-nun "Dünya irsi siyahısı"na daxil edilmiş, bununla da həmin siyahıda Azərbaycanın mədəni və təbii irsinin sayı 5 olmuşdur. Bakı şəhə-

ri (2017-ci il), Şəki şəhəri (2018-ci il) və Lənkəran şəhəri (2019-cu il) UNESCO-nun "Yaradıcı Şəhərlər Şəbəkəsi"nə daxil edilmişdir. Azərbaycanın 24 qeyri-maddi mədəni irs nümunəsi UNESCO-nun "Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"nda (22 nümunə) və "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısı"nda (2 nümunə) yer almışdır. Azərbaycan üzrə "Tibb və farmakologiyaya aid orta əsrlər əlyazmaları" adı altında 3 əlyazma (Rüstəm Cürcaninin "Zəxireyi-Nizamşahi", Əbülqasim Zəhravinin "Əl-məqalətus-səlasim", Əbu Əli ibn Sinanın "Əl-qanun fit-tibb" əsərləri) 2005-ci ildə, Məhəmməd Füzulinin "Divan"ının surəti 2017-ci ildə, Xurşidbanu Natəvanın "Gül dəftəri" – illüstrasiyalı şeirlər albomu" 2023-cü ildə UNESCO-nun "Dünya yaddaşı reyestri"nə daxil edilmişdir.

Ölkədə fəaliyyət göstərən muzey və qalereyalarda 42700-dən artıq sərgi təşkil olunmuş, ölkə üçün xüsusi əhəmiyyət kəsb edən 36 eksponat xaricdən geri qaytarılmış, 20085 eksponat bərpa olunmuşdur.

Həmçinin, ölkədə yeni muzey və rəsm qalereyaları yaradılmış, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 dekabr tarixli 2316 nömrəli Sərəncamı əsasında Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin açılışı olmuşdur. İşğaldan azad edilmiş ərazilərdə İşğal və Zəfər muzeyləri komplekslərinin təməli qoyulmuşdur.

Mədəniyyət sahəsində təhsil fəaliyyətini həyata keçirən müəssisələr yaradılmış, habelə son 20 il ərzində 60-dan çox mütəxəssis dövlət dəstəyi ilə xarici təhsil müəssisələrində mədəniyyət ixtisasları üzrə təhsil almışdır.

2003–2024-cü illərdə Azərbaycanda mədəniyyət sahəsində 14 qlobal və 100-dən artıq regional tədbir keçirilmişdir. Mədəniyyətlərarası dialoqu genişləndirmək məqsədilə "Bakı Prosesi" qlobal mədəni təşəbbüsü, ümumdünya mədəniyyətlərarası dialoq forumlarının da daxil olduğu həmin tədbirlər nəticəsində Azərbaycan Respublikası beynəlxalq müstəvidə mədəni-siyasi nüfuz sahibinə çevrilmişdir. Beynəlxalq əməkdaşlığın inkişafı məqsədilə 6 xarici ölkədə (Almaniya, Avstriya, Fransa, İtaliya, Özbəkis-

tan, Türkiyə) Azərbaycan mədəniyyət mərkəzi yaradılmışdır. Müxtəlif illərdə Azərbaycan Respublikasının 3 şəhəri İslam Dünyasının Mədəniyyət Paytaxtı (Bakı – 2009-cu il üçün, Naxçıvan – 2018-ci il üçün, Şuşa – 2024-cü il üçün), 2 şəhəri Türk Dünyasının Mədəniyyət Paytaxtı (Şəki – 2016-cı il üçün, Şuşa – 2023-cü il üçün) elan edilmişdir.

Həmçinin, dövlətin mədəniyyət siyasətinə ictimai dəstək olaraq Heydər Əliyev Fondu tərəfindən mədəniyyət sahəsində milli və beynəlxalq proqram və layihələr (Milli Muğam Müsabiqəsi, "Muğam aləmi" Beynəlxalq Musiqi Festivalı, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı və s.) həyata keçirilmiş, insanların yaradıcı potensialının aşkara çıxarılmasına, qabiliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradılmışdır.

Azərbaycan mədəniyyətinin sahələr üzrə inkişafı və mahiyyətcə zənginləşdirilməsi ilə bərabər, mədəniyyət infrastrukturu da inkişaf etdirilmişdir. Mədəni və yaradıcı sənayenin (bundan sonra – MYS) iqtisadi və sosial təsirlərinin qiymətləndirilməsi və Ümumi Daxili Məhsulda (bundan sonra – ÜDM) payının ölçülməsi üçün beynəlxalq praktikaya uyğun metodologiya müasir təmayüllərdəndir. Azərbaycanda hazırda bu sahədə metodoloji işlər davam etdirilir. İlkin hesablamalara əsasən, MYS-nin ÜDM-dəki payı 2018-ci ildə 0,6 faiz, 2019-cu ildə 0,8 faiz, 2020-ci ildə 0,9 faiz, 2021-ci ildə 0,69 faiz, 2022-ci ildə 0,6 faiz, 2023-cü ildə 0,72 faiz, 2024-cü ildə isə 0,8 faiz təşkil etmişdir.

MYS-nin qeyri-neft sektorunda payı 2021-ci il (1,1 faiz) ilə müqayisədə artaraq, 1,2 faiz təşkil etmişdir. 2024-cü ildə MYS-nin ölkənin mal ixracında payı 2022-ci illə müqayisədə 2,5 dəfə artmışdır.

MYS subyektlərinin ümumi sayı və MYS ilə məşğul olan hüquqi şəxslərin sayı 2022-ci illə müqayisədə artmışdır.

2003-cü ildən etibarən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının müvafiq metodik göstərişlərinə istinadən, milli iqtisadiyyatın strukturuna və statistikasına uyğunlaşdırılaraq, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflik

hüququ və əlaqəli hüquqlara əsaslanan iqtisadiyyatın (bundan sonra – yaradıcı iqtisadiyyat) ÜDM-də payının ölçülməsinə imkan verən metodika tətbiq edilməkdədir. Həmin metodikaya görə, yaradıcı iqtisadiyyat "müəlliflik hüququnun əsas sahələri", "qarşılıqlı asılılıq münasibətlərində olan sahələr", "müəllif hüququna qismən əsaslanan sahələr" və "köməkçi sahələr" olmaqla, 4 fəaliyyət qrupunu əhatə edir. Qeyd edilən metodikaya uyğun Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində aparılan hesablamalara əsasən, bütövlükdə yaradıcı iqtisadiyyatın ÜDM-də payı getdikcə artmaqdadır: bu pay 2010-cu ildə 3,5 faiz, 2023-cü ildə 5,2 faiz təşkil etmişdir.

Mədəniyyət sisteminin ümumi təhlili göstərir ki, ölkədə mədəniyyət sahəsində əldə edilmiş nailiyyətlərlə bərabər çağırışlar da mövcuddur.

Həmin çağırışlar aşağıdakılardır:

**1. Mədəniyyət sahəsində idarəetmə ilə bağlı çağırışlar:**

**1.1.** mədəniyyət sahəsində uzunmüddətli və dayanıqlı hədəflərə hesablanmış vahid dövlət siyasətinin həyata keçirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi, geniş ictimai iştirakçılığın təmin edilməsi;

**1.2**. insan resurslarının inkişafı, sahələr üzrə ixtisaslaşmanın təmin edilməsi, mədəniyyət sahəsində təhsilin məzmununun, ixtisasların və peşələrin, işə qəbul qaydalarının müasirləşdirilməsi;

**1.3.** maliyyə mənbələrinin diversifikasiyası, mədəniyyət sahəsində təşviq mexanizmlərinin yaradılması, dövlət–özəl tərəfdaşlığı və digər layihələr hesabına investisiyalar cəlb edilməsi, maddi-texniki bazanın gücləndirilməsi, rəqəmsallaşma səviyyəsinin artırılması;

**1.4.** beynəlxalq təcrübə nəzərə alınmaqla, əqli mülkiyyət hüquqlarının səmərəli qorunması sahəsində qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, müasir təsir mexanizmlərinin yaradılması və təşviqi;

**1.5.** Azərbaycan mədəniyyəti barədə yerli və beynəlxalq səviyyədə vahid kommunikasiya siyasətinin həyata keçirilməsi, so-

sial medianın imkanlarından və müasir texnologiyalardan istifadənin genişləndirilməsi;

**1.6.** mədəniyyətin elm, təhsil və innovasiyalara inteqrasiyası, mədəniyyətlə bağlı elmi araşdırmaların dairəsinin, sayının və keyfiyyətinin artırılması, bu məqsədlə təşviq mexanizmlərinin yaradılması;

**1.7.** cəmiyyətdə nəsillərarası və digər dialoqun genişləndirilməsi, yüksək yaradıcı nailiyyətləri olan şəxslərin ictimai rolunun artırılması;

**1.8**. ümumi təhsil, xüsusilə ibtidai təhsil fənləri üzrə dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin məzmununun Azərbaycanın mədəniyyət dəyərlərinə uyğunluğunun təmin edilməsi;

**1.9**. Azərbaycan mədəniyyətinə qarşı törədilmiş qanunsuz əməllər (mədəni sərvətlərin dağıdılması, talan edilməsi, mənimsənilməsi, xaricə satışı və digər şəkildə ölkədən qanunsuz çıxarılması), habelə vurulmuş zərər barədə məlumatın beynəlxalq səviyyədə yayılması, dəymiş zərərin əvəzinin tələb edilməsi və digər məsuliyyət məsələlərinin həlli istiqamətində əlaqələndirilmiş siyasi, hüquqi, diplomatik, iqtisadi və digər tədbirlərin həyata keçirilməsi.

**2. Azərbaycan dili ilə bağlı çağırışlar:**

Azərbaycan dilinin inkişafı, o cümlədən beynəlxalq aləmdə təbliği və təşviqi ilə bağlı əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, Azərbaycan dilində elmi, elmi-publisistik və bədii əsərlərin sayının və keyfiyyətinin artırılması.

**3. Davranış mədəniyyəti və bilgi mədəniyyəti ilə bağlı çağırışlar:**

**3.1.** Azərbaycanda davranış mədəniyyəti və bilgi mədəniyyəti ilə bağlı sistemli araşdırma və təhlil aparılması, bu sahələrin mədəniyyətin tərkib hissəsi kimi dövlət siyasətinin əsas istiqamətləri olaraq müəyyən edilməsi;

**3.2.** ictimai yerlərdə davranış, cəmiyyətdə dialoq, məişət

davranışı, nitq, etiket, gigiyena, estetik zövqlər və davranış mədəniyyətinin digər formalarına dair cəmiyyətin üzvləri arasında əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, geniş maarifləndirmə və təbliğat aparılması;

**3.3.** bilgi mədəniyyətinin funksionallığının artırılması, imkanlarının və təsirlərinin araşdırılıb qiymətləndirilməsi, elmi etikanın təşviq olunması;

**3.4**. davranış mədəniyyətinin və bilgi mədəniyyətinin tərkib hissəsi olaraq əqli mülkiyyət mədəniyyətinin gücləndirilməsi.

**4. Ədəbiyyat və incəsənətlə bağlı çağırışlar:**

**4.1.** Azərbaycan ədəbiyyatının və incəsənətinin araşdırılması, inkişafı və beynəlxalq aləmdə təbliği məqsədilə müasir yanaşmalara əsaslanan sistemli fəaliyyətin həyata keçirilməsi;

**4.2**. ölkədə peşəkar sənət mühitinin zənginləşdirilməsi və peşəkar sənət əsərlərinin keyfiyyətinin artırılması;

**4.3.** nəşriyyat işi ilə bağlı dəyər zəncirinin təkmilləşdirilməsi;

**4.4.** kitabxana sistemində nəticələrə hesablanmış yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması, infrastrukturun təkmilləşdirilməsi və xidmətlərin keyfiyyətinin artırılması;

**4.5.** əqli mülkiyyət hüquqlarının qorunmasının gücləndirilməsi.

**5. Mədəni irsin qorunması ilə bağlı çağırışlar:**

**5.1.** nəticələrə hesablanmış yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması;

**5.2.** mədəniyyət əmlakının siyahılarının yenilənməsi, abidələrin balans mənsubiyyəti, sərhədləri və mühafizə zonalarının dəqiqləşdirilməsi, mədəni irsin qorunması və idarə edilməsinin qabaqcıl təcrübəyə uyğunlaşdırılması;

**5.3**. daşınar mədəni sərvətlərin yaradılması, qeydiyyatı və mühafizəsi işinə və dövriyyəsinə dair qaydaların təkmilləşdirilməsi.

**6. MYS ilə bağlı çağırışlar:**

**6.1.** MYS-nin iqtisadiyyata inteqrasiyası məqsədilə ÜDM-də payının ölçülməsi üçün normativ baza yaradılması, beynəlxalq təcrübəyə uyğun metodologiyanın müəyyən edilməsi;

**6.2.** MYS-yə xüsusilə birbaşa xarici investisiyaların həcminin artırılması və diversifikasiyası, peşəkar "təşkilatlanma mühiti"nin (klasterləşmə, yaradıcı sənaye parkları, qovşaqlar, inkubatorlar və digər ekosistem) gücləndirilməsi;

**6.3.** yaradıcı istedadların MYS-yə girişini asanlaşdıran, eləcə də təşviq edən təhsil və inkubasiya fəaliyyətinin həyata keçirilməsi, MYS ilə təhsil sahələri arasında sıx əməkdaşlığın qurulması;

**6.4.** mədəniyyət məhsulları və xidmətlərinin istehsal coğrafiyasının və əhatə dairəsinin genişləndirilməsi, keyfiyyətinin və rəqabət qabiliyyətinin artırılması;

**6.5.** rəqabətədavamlı və müasir audiovizual sənayenin, o cümlədən kino sənayesinin yaradılması, audiovizual sənayedə dəyər zəncirinin formalaşdırılması.

**7. Mədəniyyət diplomatiyası ilə bağlı çağırışlar:**

**7.1.** Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə təbliği və Azərbaycanın "yumşaq gücü"nün artırılması üçün mədəniyyət diplomatiyasından geniş istifadə olunması;

**7.2.** hədəfli və dayanıqlı beynəlxalq mədəni mübadilənin sistemli şəkildə aparılması;

**7.3.** keyfiyyətli mədəniyyətlərarası dialoq üçün yeni alətlərin işlənilib tətbiq edilməsi;

**7.4.** dünya azərbaycanlıları arasında milli-mənəvi dəyərlərin öyrənilməsi və təbliği işinin aparılması, xaricdəki Azərbaycan mədəni irsi nümunələrinin aşkarlanması, Azərbaycan mədəni irsinin mənimsənilməsinə qarşı qabaqlayıcı və sonrakı fəaliyyətin həyata keçirilməsi.

## 4. Konsepsiyanın hədəf göstəriciləri

**4.1.** Konsepsiyanın icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

**4.1.1.**Azərbaycanın mədəniyyət dəyərlərinin qorunması və Azərbaycan mədəniyyətinin mütərəqqi modelinin formalaşdırılması;

**4.1.2.**Azərbaycan dilinin dünya dilləri arasında mövqeyinin möhkəmləndirilməsi, regional ünsiyyət vasitəsi kimi rolunun artırılması, beynəlxalq səviyyədə təbliğinin və təşviqinin genişləndirilməsi;

**4.1.3.**yeni kommunikasiya modellərinin və alətlərinin tətbiqi vasitəsilə, həmçinin mədəniyyətin həyat tərzinin tərkib hissəsinə çevrilməsini təmin etməklə cəmiyyətdə ünsiyyətin və sosial əlaqələrin keyfiyyətinin artırılması;

**4.1.4.**mədəni irsin müəyyən edilməsi, araşdırılması, bərpası, qorunması və təbliği sahəsində mütərəqqi sistemin yaradılması;

**4.1.5.**mədəni turizmin inkişafı;

**4.1.6.**MYS-nin inkişafı, MYS məhsullarının ixracının artırılması;

**4.1.7.**mədəniyyətə investisiyaların cəlb edilməsi, infrastrukturun təkmilləşdirilməsi, mədəniyyətin rəqəmsallaşdırılması və rəqəmsal mədəniyyətin inkişafı;

**4.1.8.**mədəniyyət diplomatiyasının inkişafı.

## 5. Konsepsiyanın məqsədləri

**5.1.** Konsepsiya aşağıdakı məqsədlərə nail olunmasına xidmət edir:

**5.1.1.** mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi;

**5.1.2.** Azərbaycanın mədəniyyət dəyərlərinin qorunmasının və təbliğinin, beynəlxalq miqyasda tanıdılmasının siyasi, iqtisadi və sosial təsirlərinin genişləndirilməsi;

**5.1.3.** Azərbaycan dilinin, incəsənətin və ədəbiyyatın mədəniyyətdə payının, funksionallığının, cəmiyyətin tərəqqisində, fərdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün, estetik zövqünün, dünyagörüşünün, həyat fəlsəfəsinin formalaşmasında rolunun artırılması;

**5.1.4**. davranış mədəniyyətinin, bilgi mədəniyyətinin fərdin və cəmiyyətin həyatında rolunun, sosial və siyasi təsirinin artırılmasını təmin edən sistemin formalaşdırılması;

**5.1.5.** MYS-nin inkişafı və iqtisadiyyata inteqrasiyası, o cümlədən MYS sahəsində iqtisadi fəaliyyət və peşə növlərinin sayının, məşğulluq səviyyəsinin, ixrac edilən mal və xidmətlərin sayının, həcminin və rəqabətədavamlılığının artırılması;

**5.1.6.** mədəniyyətin ÜDM-də payının artırılması;

**5.1.7.** mədəni irsin qorunmasının və mədəni irslə əlaqəli infrastrukturun müasir tələblərə uyğun təkmilləşdirilməsi;

**5.1.8.** mədəni turizmdə müasir dəyər zəncirinin formalaşdırılması;

**5.1.9.** mədəniyyət sahəsində əqli mülkiyyət hüquqlarının qorunması və təminatı ilə bağlı mexanizmlərin təkmilləşdirilməsi;

**5.1.10.** mədəniyyət sahəsində vahid informasiya və kommunikasiya siyasətinin formalaşdırılması;

**5.1.11.** mədəniyyətin rəqəmsallaşma səviyyəsinin artırılması və mədəniyyət sahəsində rəqəmsal ekosistemin formalaşdırılması;

**5.1.12.** Azərbaycan mədəniyyətinin beynəlxalq mədəni mübadilədə səmərəli iştirakı, Azərbaycanın mədəniyyət dəyərlərinin geniş təbliği, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi;

**5.1.13.** Azərbaycan mədəniyyəti nümunələrinin beynəlxalq siyahılara daxil edilməsinin və mədəniyyət sahəsində beynəlxalq öhdəliklərin icrasının əlaqələndirilmiş şəkildə həyata keçirilməsi;

**5.1.14.** mədəniyyətə cəlb edilən investisiyaların artırılması və diversifikasiyası;

**5.1.15.** işğaldan azad edilmiş ərazilərdə mədəniyyət institutlarının bərpası, yeni infrastrukturun yaradılması, mədəni həyatın canlandırılması və mədəni irsin qorunması.

## 6. Konsepsiyanın prioritet istiqamətləri

**6.1.** Konsepsiya çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlər həyata keçiriləcəkdir:

**6.1.1. Mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi:**

**6.1.1.1. Əsaslandırma:** Azərbaycan Respublikasında mədəniyyətin hər bir fərdin və bütövlükdə cəmiyyətin inkişafında rolunun artırılması məqsədilə, ilk növbədə, mədəniyyət sahəsində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi zəruridir;

**6.1.1.2. Görüləcək tədbirlər:**

**6.1.1.2.1.** mədəniyyət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi;

**6.1.1.2.2.** mədəniyyət sahəsində institusional islahatlar aparılması;

**6.1.1.2.3.** mədəniyyətə əlçatanlığın və inklüzivliyin təmin edilməsi;

**6.1.1.2.4.** mədəniyyət sahəsində maliyyələşdirmənin optimallaşdırılması və investisiyaların təşviqi;

**6.1.1.2.5.** mədəniyyət sahəsində insan kapitalının inkişafı və kadr hazırlığının artırılması;

**6.1.1.2.6.** mədəniyyət infrastrukturunun təkmilləşdirilməsi;

**6.1.1.2.7.** mədəniyyət sahəsində rəqəmsal inkişaf və rəqəmsal mədəniyyətin formalaşdırılması;

**6.1.1.2.8.** müasir mədəniyyət kommunikasiyası modellərinin tətbiqi;

**6.1.1.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.1.3.1.** normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi akt layihələri hazırlanacaqdır;

**6.1.1.3.2.** mədəniyyət sahəsində institusional islahatlar aparılacaq, ixtisaslı kadrların sayı artırılacaqdır;

**6.1.1.3.3.** mədəniyyət sahəsində davamlı sosial əlaqələr, əməkdaşlıq və dialoq genişləndiriləcək, yeni və keyfiyyətli məzmun yaradılacaqdır;

**6.1.1.3.4.** mədəniyyət sahəsinin maliyyələşdirilməsi mexanizmləri təkmilləşdiriləcək, dövlət–özəl tərəfdaşlığı modellərindən istifadə olunacaqdır;

**6.1.1.3.5.** mədəniyyət sahəsində kadr hazırlığı sistemi təkmilləşdiriləcəkdir;

**6.1.1.3.6.** mədəniyyət əmlakı inventarlaşdırılacaq və siyahılar tərtib ediləcəkdir;

**6.1.1.3.7.** mədəniyyət sahəsində göstərilən xidmətlər rəqəmsallaşdırılacaqdır;

**6.1.1.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.1.4.1.** inventarlaşdırılma və rəqəmsallaşdırılma üçün maliyyə vəsaitinin qarşılanması məqsədilə sahibkarlarla sıx əməkdaşlıq qurulması, eləcə də dövlət–özəl tərəfdaşlığından istifadə edilərək maliyyələşdirilmənin təmin edilməsi ilə bağlı tədbirlər görülə bilər;

**6.1.2. Azərbaycan dilinin inkişafı:**

**6.1.2.1. Əsaslandırma:** Azərbaycan dilinin mədəniyyətdəki rolunun gücləndirilməsinə, onun mahiyyətcə inkişafına, həmçinin beynəlxalq səviyyədə təbliğinə və təşviqinə ehtiyac vardır;

**6.1.2.2. Görüləcək tədbirlər:**

**6.1.2.2.1.** Azərbaycan dilinin rolunun artırılması məqsədilə sistemli fəaliyyətin həyata keçirilməsi;

**6.1.2.2.2.** Azərbaycan dilinin inkişafı, təbliği və təşviqi ilə bağlı fəaliyyətin gücləndirilməsi;

**6.1.2.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.2.3.1.** Azərbaycan ədəbi dili inkişaf edəcəkdir;

**6.1.2.3.2.** Azərbaycan dilində yeni əsərlər yaradılacaqdır;

**6.1.2.3.3.** Azərbaycan ədəbi dilindən istifadə artacaqdır;

**6.1.2.3.4.** Azərbaycan dilindən rəqəmsal platformalarda daha geniş istifadə olunacaqdır;

**6.1.2.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.2.4.1.** araşdırma və elmi tədqiqatlar üçün maliyyə vəsaitinin təmin edilməsi məqsədilə sahibkarlarla sıx əməkdaşlıq qurulması, eləcə də qrant proqramları və dövlət-özəl tərəfdaşlığından istifadə edilərək maliyyələşdirilmənin aparılması ilə bağlı tədbirlər görülə bilər;

**6.1.3. Davranış mədəniyyəti və bilgi mədəniyyəti:**

**6.1.3.1. Əsaslandırma:** Davranış mədəniyyəti və bilgi mədəniyyəti sağlam və inkişaf etmiş cəmiyyətin formalaşmasında əsas amillərdən biridir. Davranış mədəniyyəti fərdin milli-mənəvi dəyərlərə əsaslanaraq digər fərdlərlə, qruplarla əlaqə və ünsiyyət qurmaqda, ətraf dünya ilə rəftarda ifadə olunan davranış formalarının məcmusudur. Bilgi mədəniyyəti isə elmin, təhsilin və maarifləndirmənin Azərbaycanın mədəniyyət dəyərlərinə əsaslanmaqla həyata keçirilməsini, fərdlərin və cəmiyyətin gündəlik həyatında informasiya daxil olmaqla bilgidən istifadəni istiqamətləndirən yanaşma, baxış və ifadə formalarının məcmusunu nəzərdə tutur. Azərbaycan Respublikasında bu sahələrin inkişaf etdirilməsi və funksionallığının təmin olunması məqsədilə müasir alətlərin və modellərin hazırlanması, effektiv tədbirlərin görülməsi şərtdir;

**6.1.3.2. Görüləcək tədbirlər:**

**6.1.3.2.1.** Azərbaycanda davranış mədəniyyətinin rolunun artırılması istiqamətində qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi;

**6.1.3.2.2.** Azərbaycan cəmiyyətinin elmi əsaslı çoxmeyarlı (ünsiyyət, qiymətləndirmə, rəhbərlik etmə, qərar vermə, etibar etmə, razılaşmama/fikir ayrılığı, vaxta/planlaşdırmaya münasibət, inandırma) davranış mədəniyyəti modelinin və onun əsasında cəmiyyətdaxili və dünya mədəniyyətləri ilə səmərəli kommunikasiya alətlərinin hazırlanması və təbliği;

**6.1.3.2.3.** milli-mənəvi dəyərlərin əsas daşıyıcısı kimi ailə

institutunun nüfuzunun gücləndirilməsi istiqamətində qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi;

**6.1.3.2.4.** ictimai iştirakçılıq təmin edilməklə, Azərbaycanda inkulturasiya, akkulturasiya və assimilyasiya imkanlarının araşdırılması;

**6.1.3.2.5.** Azərbaycanda bilgi mədəniyyətinin funksionallığının artırılması istiqamətində qurumlararası əlaqələndirilmiş tədbirlər həyata keçirilməsi;

**6.1.3.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.3.3.1.** ictimai yerlərdə davranış, cəmiyyətdə dialoq, məişət davranışı, nitq, etiket, gigiyena, estetik zövqlər və davranış mədəniyyətinin digər formaları inkişaf edəcəkdir;

**6.1.3.3.2.** bilgi mədəniyyətinin funksionallığı artacaqdır;

**6.1.3.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.3.4.1.** prosesə cəlb edilə biləcək mütəxəssislərin və araşdırmaların məhdudluğu nəzərə alınaraq, xarici mütəxəssislərin prosesə cəlb edilməsi və araşdırmaların genişləndirilməsi ilə bağlı tədbirlər görülə bilər;

**6.1.4. Ədəbiyyatın inkişafı:**

**6.1.4.1. Əsaslandırma:** Azərbaycan ədəbiyyatı mədəniyyətin inkişafında, eləcə də fərdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün formalaşmasında mühüm rol oynamaq potensialına malikdir. Ədəbiyyatın rolunun artırılması, təbliğinin, o cümlədən nəşriyyat işinin inkişafı sistemli fəaliyyət şəklində həyata keçirilməlidir;

**6.1.4.2. Görüləcək tədbirlər:**

**6.1.4.2.1.** mədəniyyətin inkişafında, eləcə də məntiqi, tənqidi və yaradıcı təfəkkürün formalaşmasında ədəbiyyatın rolunun artırılması;

**6.1.4.2.2.** ədəbiyyatın təbliğinin, o cümlədən nəşriyyat işinin inkişafı;

**6.1.4.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.4.3.1.** elmi və ədəbi yaradıcılıq inkişaf edəcəkdir;

**6.1.4.3.2.** kitabxanaların fəaliyyəti təkmilləşdiriləcək, o cümlədən fiziki və rəqəmsal kitabxana resursları zənginləşdiriləcəkdir;

**6.1.4.3.3.** ədəbiyyata və nəşriyyat işinə dair sənət növləri inkişaf edəcəkdir;

**6.1.4.3.4.** nəşriyyat işi dəyər zənciri müasirləşdiriləcəkdir;

**6.1.4.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.4.5.** tədbirlərin həyata keçirilməsi ilə bağlı mexanizmlərin nəticəyönlü metod və metodologiyadan istifadə edilməklə hazırlanmasına, xarici mütəxəssislər daxil olmaqla, mütəxəssislər cəlb edilə bilər;

**6.1.4.5.1.** tədbirlərin həyata keçirilməsi sahibkarların və digər maraqlı tərəflərin maliyyə vəsaiti hesabına təmin edilə bilər. Sahibkarların və digər maraqlı tərəflərin vəsaiti tədbirlərin tam həcmdə həyata keçirilməsi üçün kifayət etmədikdə, maliyyələşmənin bu Konsepsiyanın 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulur;

**6.1.5. İncəsənətin inkişafı:**

**6.1.5.1. Əsaslandırma:** Azərbaycan incəsənətinin mədəniyyətdə rolu kifayət qədər genişdir. Bu rolun effektivliyinin artırılması, incəsənətin inkişafının təmin edilməsi, ölkədə peşəkar sənət mühitinin zənginləşdirilməsi üçün tədbirlər görülməsi zəruridir;

**6.1.5.2. Görüləcək tədbirlər:**

**6.1.5.2.1.** mədəniyyətin, cəmiyyətin və fərdlərin inkişafında incəsənətin rolunun artırılması;

**6.1.5.2.2.** incəsənətin sahələr üzrə inkişafı;

**6.1.5.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.5.3.1.** incəsənət inkişaf edəcəkdir;

**6.1.5.3.2.** unudulmuş və ya unudulmaqda olan sənət növləri bərpa olunacaqdır;

**6.1.5.3.3.** teatrların fəaliyyəti, infrastrukturu və repertuarları təkmilləşdiriləcəkdir;

**6.1.5.3.4.** Azərbaycanın musiqi irsinin qorunması təmin olunacaqdır;

**6.1.5.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.4.1. tədbirlərin həyata keçirilməsi sahibkarların və digər maraqlı tərəflərin maliyyə vəsaiti hesabına təmin edilə bilər. Sahibkarların və digər maraqlı tərəflərin vəsaiti tədbirlərin tam həcmdə həyata keçirilməsi üçün kifayət etmədikdə, maliyyələşmənin bu Konsepsiyanın 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulur;

**6.1.5.4.2.** yaradılan incəsənət məzmununun yayılması üçün müasir mexanizmlər və mühit müvafiq dövlət və yerli özünüidarəetmə orqanları, eləcə də ictimaiyyət nümayəndələri arasında əməkdaşlığın gücləndirilməsi yolu ilə təmin edilə bilər.

**6.1.6. Mədəni irsin qorunması və inkişafı:**

**6.1.6.1. Əsaslandırma:** Azərbaycan mədəni irsi Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Mədəni irs cəmiyyətin keçmişinə aid dəyərləri özündə ehtiva etməklə yanaşı, onları gələcək nəsillərə ötürmək üçün əsas vasitə rolunu oynayır. Mədəni irsin qorunmasının təkmilləşdirilməsi məqsədilə davamlı və sistemli fəaliyyətin həyata keçirilməsi, həmçinin beynəlxalq mədəni mübadilədə iştirakın genişləndirilməsi istiqamətində tədbirlər görülməsi zəruridir;

**6.1.6.2. Görüləcək tədbirlər:**

**6.1.6.2.1.** vahid yanaşma tətbiq edilməklə, mədəni irsin qorunması sahəsində nəticəəsaslı yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması, mədəni irslə əlaqəli infrastrukturun müasirləşdirilməsi və təkmilləşdirilməsi;

**6.1.6.2.2.** mədəni irsin qorunması, o cümlədən bərpası sahəsində fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə yeni təşviq və dəstək mexanizmlərinin, açıq və şəffaf idarəetmə və nəzarət sisteminin yaradılması, dövlət-özəl tərəfdaşlığının və dövlət–vətəndaş əlaqələrinin genişləndirilməsi;

**6.1.6.2.3.** mədəni irslə bağlı məlumat bazalarının təkmilləşdirilməsi, o cümlədən mədəniyyət əmlakı siyahılarının yenilənməsi, abidələrin balans mənsubiyyətinin, sərhədlərinin və mühafizə zonalarının dəqiqləşdirilməsi;

**6.1.6.2.4.** qeyri-maddi mədəni irsin araşdırılması, sistemləşdirilməsi, qeydiyyatı və qorunmasının gücləndirilməsi;

**6.1.6.2.5.** Azərbaycan xalqının yaratdığı mədəni irsin yerləşdiyi tarixi coğrafiyada Azərbaycan xalqının mədəni irsinin atribusiyası, qorunması və restitusiyası ilə bağlı fəaliyyətin həyata keçirilməsi;

**6.1.6.2.6.** işğaldan azad edilmiş ərazilərdə mədəni irsin, o cümlədən arxeoloji abidələrin qorunması ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi, mədəni irsə vurulmuş zərərlə bağlı beynəlxalq ictimaiyyətin məlumatlılığının artırılması və dəymiş zərərin əvəzinin ödənilməsi məqsədilə tədbirlər görülməsi;

**6.1.6.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.6.3.1.** mədəni irsə vahid yanaşma təmin olunacaqdır;

**6.1.6.3.2.** mədəni irslə bağlı məlumat bazaları təkmilləşdiriləcəkdir;

**6.1.6.3.3.** mədəni irsin qorunması, o cümlədən bərpası sahəsində fəaliyyət təkmilləşdiriləcəkdir;

**6.1.6.3.4.** mədəni sərvətlərin yaradılması, qeydiyyatı, dövriyyəsi, mühafizəsi işi
təkmilləşdiriləcəkdir;

**6.1.6.3.5.** muzey və qalereyaların fəaliyyəti və infrastrukturu təkmilləşdiriləcək, inklüzivlik və əlçatanlıq təmin olunacaqdır;

**6.1.6.3.6.** mədəni turizm inkişaf edəcəkdir;

**6.1.6.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.6.4.1.** mədəni irsin inventarlaşdırılması və infrastrukturun yenilənməsi üçün tələb olunacaq maliyyə vəsaitinin qarşılanması məqsədilə dövlət-özəl tərəfdaşlığı və digər əməkdaşlıq modelləri çərçivəsində tədbirlər görülə bilər. Sahibkarların və digər maraqlı tərəflərin vəsaiti tədbirlərin tam həcmdə həyata keçirilməsi üçün kifayət etmədikdə, maliyyələşmənin bu Konsepsiyanın 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulur;

**6.1.6.4.2.** mədəni irsin yeni qorunma modelinin, o cümlədən texniki normativ hüquqi aktların layihələrinin hazırlanmasına və tətbiqinə əlavə mütəxəssislər cəlb edilə, nəticəyönümlü beynəlxalq əməkdaşlıq tədbirləri həyata keçirilə bilər;

**6.1.7. Mədəni və yaradıcı sənayenin inkişafı:**

**6.1.7.1. Əsaslandırma:** MYS-nin ölkə iqtisadiyyatında rolu genişlənməkdədir. Azərbaycan Respublikasında MYS-nin inkişafı MYS-nin ÜDM-də payının artırılması və yaradıcı şəxslərin məşğulluğunun təmin edilməsi baxımından zəruridir;

**6.1.7.2. Görüləcək tədbirlər:**

**6.1.7.2.1.** MYS-nin dinamik inkişafını təmin edən qanunvericilik və institusional islahatların həyata keçirilməsi;

**6.1.7.2.2.** MYS-nin maliyyələşdirilməsi mənbələrinin diversifikasiyası, bu sahəyə investisiya qoyuluşu və təşviqi imkanlarının, habelə dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi;

**6.1.7.2.3.** MYS-nin müqayisəli üstünlüyə malik sahələri üzrə dəyər zəncirinin formalaşdırılması, milli brendlərin yaradılması;

**6.1.7.2.4.** kino sənayesində dövlət sifarişi sisteminin, dəyər zəncirinin, o cümlədən kütləvi nümayiş və yayım sisteminin təkmilləşdirilməsi;

**6.1.7.2.5.** filmlərin dublyajı ekosisteminin təkmilləşdirilməsi;

**6.1.7.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.7.3.1. MYS-yə investisiya qoyuluşları artacaqdır;

6.1.7.3.2. MYS üzrə dəyər zənciri təkmilləşdiriləcəkdir;

6.1.7.3.3. MYS üzrə ixrac potensialı gücləndiriləcəkdir;

6.1.7.3.4. MYS üzrə fəaliyyət sahələri inkişaf edəcək və məşğulluq artacaqdır;

**6.1.7.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.7.4.1.** tədbirlərin həyata keçirilməsi sahibkarların və digər maraqlı tərəflərin maliyyə vəsaiti hesabına təmin edilə bilər. Sahibkarların və digər maraqlı tərəflərin vəsaiti tədbirlərin tam həcmdə görülməsi üçün kifayət etmədikdə, maliyyələşmənin bu Konsepsiyanın 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulur;

**6.1.8. Mədəniyyət diplomatiyasının inkişafı:**

**6.1.8.1. Əsaslandırma:** Azərbaycan Respublikasının beynəlxalq aləmdə təbliği prosesində mədəniyyət diplomatiyası əsas alətlərdən biridir. Azərbaycanın "yumşaq gücü"nün artırılması məqsədilə bu sahədə həyata keçirilən dövlət siyasəti siyasi, iqtisadi və sosial təsir gücünə malik olmalıdır;

**6.1.8.2. Görüləcək tədbirlər:**

**6.1.8.2.1.** Azərbaycan mədəniyyətinin və mədəniyyət dəyərlərinin beynəlxalq aləmdə təbliği ilə bağlı fəaliyyətin, o cümlədən Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin tabeliyində olan mədəniyyət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi;

**6.1.8.2.2.** Azərbaycan dilinin yayılma coğrafiyasının genişləndirilməsi və beynəlxalq ünsiyyətdəki rolunun artırılması məqsədilə tədbirlər görülməsi;

**6.1.8.2.3.** Azərbaycanın mədəni irsinin beynəlxalq aləmdə təbliği, tanıdılması və qorunması məqsədilə qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi;

**6.1.8.2.4.** Azərbaycanın mədəni irs nümunələrinin təbliği, o cümlədən nüfuzlu onlayn platformalarda yerləşdirilməsi, sərgilənməsi, araşdırılması və digər qaydada tanıdılması üçün normativ hüquqi bazanın və prosedurların təkmilləşdirilməsi;

**6.1.8.2.5.** Azərbaycanın sənədli irsinin UNESCO-nun "Dünya Yaddaşı Reyestri"nə daxil edilməsi ilə bağlı tədbirlər görülməsi;

**6.1.8.2.6.** Azərbaycanın dünyadakı izinin dərinləşdirilməsi məqsədilə Azərbaycanda dayanıqlı beynəlxalq mədəniyyət tədbirlərinin təşkili, Azərbaycan mədəniyyətinin xarici və beynəlxalq mədəniyyət tədbirlərində təmsil edilməsinin və təbliğinin genişləndirilməsi;

**6.1.8.2.7.** Azərbaycanın dünyadakı izinin araşdırılması, o cümlədən Azərbaycan mənşəli mədəni irs nümunələrinin və mədəni sərvətlərin yerləşmə xəritəsinin hazırlanması, tədqiqi və atribusiyası, habelə mümkün olduqda restitusiyası və qaytarılması ilə bağlı məsələlərin sistemli şəkildə həll edilməsi;

**6.1.8.2.8.** dünyanın aparıcı muzeylərində Azərbaycan mədəniyyəti guşələrinin yaradılması və həmin muzeylərlə əməkdaşlığın genişləndirilməsi;

**6.1.8.2.9.** mədəniyyətin və onunla əlaqəli fəaliyyətin seçilmiş sahələrində Azərbaycanın regional və beynəlxalq qovşağa çevrilməsinin təmin olunması;

**6.1.8.2.10.** Azərbaycan vətəndaşlarının və dünya azərbaycanlılarının yaradıcılıq bacarıqlarının artırılması yolu ilə beynəlxalq layihələrdə və təşkilatlarda aparıcı mövqelərdə iştirakının genişləndirilməsi;

**6.1.8.2.11.** Azərbaycan mədəniyyətinin dünyada tanıdılması;

**6.1.8.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.8.3.1.** dövlətin "yumşaq gücü" artacaqdır;

**6.1.8.3.2.** Azərbaycan mədəniyyətinin və mədəniyyət dəyərlərinin beynəlxalq aləmdə təbliği gücləndiriləcəkdir;

**6.1.8.3.3.** Azərbaycan dövlətinin beynəlxalq imicinə, tari-

xinə və mədəniyyətinə qarşı aparılan mənfi təbliğat zəifləyəcək və əhəmiyyətsizləşdiriləcəkdir;

**6.1.8.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.8.4.1.** tədbirlərin həyata keçirilməsinə dünyada baş verən geosiyasi proseslərin təsirini neytrallaşdırmaq üçün mütəxəssislərin iştirakı ilə təhlillər, araşdırmalar və planlamalar aparıla bilər.

## 7. Maliyyələşdirmə mexanizmləri

Konsepsiya çərçivəsində həyata keçiriləcək tədbirlərin maliyyələşdirilməsi müvafiq illər üzrə Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində müvafiq icraçı təşkilatlar üçün nəzərdə tutulmuş vəsait, dövlət–özəl tərəfdaşlığı yolu ilə özəl tərəfdaşların vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

## 8. 2026–2030-cu illər üçün Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum), fəaliyyət istiqamətlərinə | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| **8.1. Mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi** | | | | | | | |
| **8.1.1. Mədəniyyət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.1.1. | Mədəniyyət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi | NK, MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026-2030 | Qanunvericiliyin təhlili, müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Normativ hüquqi akt layihələrinin müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Normativ hüquqi akt layihələrinin aidiyyəti üzrə təqdim edilməsi |
| 8.1.1.2. | Mədəniyyət sahəsinə investisiyaların və digər maliyyə vəsaitinin cəlb edilməsi üçün təşviq mexanizmləri, həmçinin mədəniyyət sahəsində imtiyaz və güzəştlərlə bağlı təkliflər verilməsi | NK, MdN | İN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Mədəniyyət sahəsinə investisiyaların və digər maliyyə vəsaitinin cəlb edilməsi üçün təşviq mexanizmləri, mədəniyyət sahəsində imtiyaz və güzəştlərlə bağlı araşdırmalar, təhlil və ilkin müzakirələr aparılması | Müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin razılaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi |
| **8.1.2. Mədəniyyət sahəsində institusional islahatlar aparılması** | | | | | | | |
| 8.1.2.1. | Mədəniyyət sahəsində institusional islahatlar | MdN | MN, İN, | 2026–2027 | Mədəniyyət sahəsində icra funksiyasının dövlət | Sahəvi idarəetmə ilə bağlı təkliflərin, o | Mədəniyyət sahələrində idarəetmənin daha çevik, |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | aparılması, o cümlədən idarəetmənin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | | digər aidiyyəti dövlət orqanları (qurumları) | | siyasəti, dövlət tənzimləməsi və dövlət nəzarəti funksiyalarından ayrılmasının institusional yolları ilə bağlı təhlil aparılması | cümlədən normativ hüquqi akt layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | dayanıqlı, müasir və səmərəli təşkili |
| 8.1.2.2. | Mədəniyyətin təhsilin tərkib hissəsinə çevrilməsi, o cümlədən mədəniyyət sahələrinə, Azərbaycanın mədəniyyət dəyərlərinə dair fənn və biliklərin tədrisinin təmin edilməsi | ETN, MdN | digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəniyyətin təhsil proqramlarına inteqrasiyası | Mədəniyyət sahəsində təhsilverənlər üçün peşəkar təlim sisteminin qurulması, məktəbdənkənar mədəniyyət təhsili sisteminin inkişafı üçün tədbirlər görülməsi | Təhsilalanlar və təhsilverənlər üçün mədəniyyət müəssisələrinə və abidələrə giriş sisteminin təkmilləşdirilməsi, tarix və mədəniyyət abidələrinə virtual turlar və dünya mədəniyyətlərini əhatə edən interaktiv təhsil platformaları kimi rəqəmsal resurs və texnologiyaların hazırlanması |
| 8.1.2.3. | Elmin və mədəniyyətin qarşılıqlı əlaqəsinin təmin edilməsi | MdN, ETN, AMEA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəniyyət sahələri ilə bağlı elmi araşdırmaların sayının artırılması | Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə mədəniyyət sahələri üzrə dərc olunmuş elmi əsərlərin sayının artırılması | Mədəniyyət sahəsində nəticəyönlü və səmərəli elmi araşdırmalar aparılması |
| 8.1.2.4. | Mədəniyyət sahəsində təhsilin təkmilləşdirilməsi | MdN, ETN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Mədəniyyət sahəsində təhsil fəaliyyətini həyata keçirən təsisatların fəaliyyətinin optimallaşdırılması ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Mədəniyyət sahəsində təhsil fəaliyyətinə ayrılan resursların səmərəli bölgüsünün təmin olunması | Mədəniyyət sahəsində kadr hazırlığının təkmilləşdirilməsi, müasir çağırışlara cavab verən yeni ixtisasların yaradılması və tədrisin yeni məzmununun təmin edilməsi |
| 8.1.2.5. | Mədəniyyət sahəsində əqli mülkiyyət hüquqlarının | NK, MdN, | aidiyyəti dövlət | 2026–2027 | Mədəniyyət sahəsində əqli mülkiyyət hüquqlarının | Mədəniyyət sahəsində müəlliflərin və əlaqəli | Əqli mülkiyyət hüquqlarının yaradıcı |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | qorunmasının və təmin edilməsinin gücləndirilməsi | ƏMA | orqanları (qurumları) | | qorunması mexanizmlərinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | hüquq sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların fəaliyyətinin təşviq edilməsi və dəstəklənməsi mexanizmlərinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | iqtisadiyyatda payının və rolunun artırılması |
| 8.1.2.6. | Regionlarda mədəni turizmin inkişafı, mədəni irs nümunələrinin və MYS-nin yayılması və yerləşməsi coğrafiyasına uyğun olaraq turizmlə əlaqəli infrastruktur işlərinin həyata keçirilməsi | MdN, DTA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Hər bir regionun mədəni irsi, tarixi və digər xüsusiyyətləri nəzərə alınmaqla, mədəni turizm və MYS məhsullarının istehsalı potensialının təhlili | Təhlillər nəticəsində əldə edilmiş göstəricilərə uyğun olaraq təkliflər hazırlanması | Təkliflərə uyğun olaraq regionlarda mədəni turizmin inkişafı və MYS məhsullarının istehsalı potensialının artırılması |
| 8.1.2.7. | Özəl investisiyalar cəlb etmək və sahibkarlığın inkişafına əlverişli mühit yaratmaq məqsədilə mədəniyyət sahəsində iqtisadi idarəetmənin və fəaliyyətin liberallaşdırılması | MdN | İN, MN | 2026–2030 | Mədəniyyət sahəsində dövlət mülkiyyətində olan müəssisə və obyektlərin (qanunvericiliklə özəlləşdirilməsi qadağan olunan mədəniyyət təsisatları və əmlaklar istisna edilməklə) özəlləşdirilməsi ilə bağlı təhlillər aparılması | Təhlillər əsasında mədəniyyət sahəsində dövlət mülkiyyətində olan müəssisə və obyektlərin özəlləşdirilməsi və ya özəl sektorla birgə istifadə mexanizmlərinin yaradılması ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim | Mədəniyyət sahəsinə cəlb edilmiş investisiyaların həcminin artırılması |
| **8.1.3. Mədəniyyətə əlçatanlığın və inklüzivliyin təmin edilməsi** | | | | | | | |
| 8.1.3.1. | Mədəniyyət sahəsində dövlət orqanları (qurumları) və cəmiyyət arasında davamlı sosial əlaqələrin, əməkdaşlığın | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Forumların təşkili | Forumların nəticələrinin təhlili, mədəniyyətlə bağlı maarifləndirmə sahəsində qrant | Mədəniyyətin sosial rolunun artırılması, dövlətlə cəmiyyət |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | və dialoqun genişləndirilməsi məqsədilə daimi fəaliyyət göstərən forumun təşkili və onun çərçivəsində regionlarda mütəmadi olaraq aktual mövzulara həsr olunmuş inklüziv forumların və digər maarifləndirmə tədbirlərinin keçirilməsi | | | | | proqramlarının hazırlanması | arasında etimadın gücləndirilməsi |
| 8.1.3.2. | Gənclər tərəfindən yeni və keyfiyyətli mədəniyyət məhsullarının və mədəni sərvətlərin yaradılması üçün dəstək proqramlarının həyata keçirilməsi | MdN | GİN, ETN, Digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Gənclərin mədəni iştirakçılığının artırılması ilə bağlı tədbirlər planının hazırlanması | Gənclərin mədəni iştirakçılığının artırılması ilə bağlı tədbirlər planının həyata keçirilməsi | Gənclər tərəfindən yeni və keyfiyyətli mədəniyyət məhsullarının və mədəni sərvətlərin yaradılması, beynəlxalq mədəni mübadilədə iştirakın genişləndirilməsi |
| 8.1.3.3. | Mədəniyyətin sahələri üzrə nəsillərarası dialoqun təmin edilməsi ilə bağlı fəaliyyətin həyata keçirilməsi | MdN | AQUPDK, GİN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Azərbaycanın mədəniyyət dəyərlərinə əsaslanan səmərəli nəsillərarası dialoqun təmin edilməsi üçün təhlillər aparılması | Təhlillərə əsasən qurumlararası tədbirlər planının hazırlanması | Tədbirlər planına uyğun olaraq nəsillərarası dialoq üçün yeni, daha səmərəli dialoq formatlarının qurulması və platformaların yaradılması |
| 8.1.3.4. | Yaradıcı şəxslərlə müasir rəqəmsal texnologiya biliciləri arasında əməkdaşlığın qurulması və yaradıcılıq nəticələrinin sınanması, eləcə də təbliği üçün xüsusi ekosistemlərin yaradılması | MdN | RİNN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Ekosistemin formatı, iştirakçıları, iştirak meyarları ilə bağlı araşdırmalar aparılması və təkliflər hazırlanması | İnnovativ yaradıcılıq məhsullarının rəqabətədavamlı-lığının artırılması məqsədilə müəyyən edilmiş müddət ərzində və real rejimdə sınaqdan keçirilməsi üçün xüsusi tənzimləmə rejiminin (“regulatory sandbox”) yaradılması | Əməkdaşlıqların qurulması yaradıcı şəxslərin və müasir rəqəmsal texnologiya bilicilərinin mədəniyyət məhsullarının istehsalında iştirak payının artırılması |
| 8.1.3.5. | Uşaqların, yaşlıların, əlilliyi olan və digər həssas sosial kateqoriyadan olan şəxslərin istedadının aşkarlanması və yaradıcılıq potensiallarını nümayiş etdirmələri üçün inklüzivliyin təmin edilməsi | MdN | ƏƏSMN, ETN, AQUPDK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planının icrası | Həssas sosial kateqoriyadan olan şəxslərin mədəniyyət məhsullarının istehsalında iştirak payının, məşğulluğunun və sosial inklüzivliyinin artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | şərtilə dayanıqlı tədbirlərin həyata keçirilməsi | | | | | | |
| 8.1.3.6. | Rəqəmsal və innovativ həllərin tətbiqi yolu ilə mədəniyyət sahəsində göstərilən xidmətlərin keyfiyyətinin artırılması, əlçatanlığının və inklüzivliyinin təmin edilməsi | MdN | RİNN, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ, digər aidiyyəti dövlət orqanları (qurum- | 2026–2030 | Mədəniyyət sahəsində xidmətlərin keyfiyyətinin, əlçatanlığının və inklüzivliyinin artırılması üçün rəqəmsal və innovativ həllərin təhlili | Tədbirlər planının hazırlanması | Tədbirlər planının həyata keçirilməsi yolu ilə mədəniyyət xidmətlərinin keyfiyyətinin, əlçatanlığının və inklüzivliyinin artırılması |
| **8.1.4. Mədəniyyət sahəsində maliyyələşdirmənin optimallaşdırılması və investisiyaların təşviqi** | | | | | | | |
| 8.1.4.1. | Mədəniyyət sahəsinin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi | MdN, MN | İN | 2026–2028 | Mövcud vəziyyətin təhlili və beynəlxalq təcrübənin öyrənilməsi | Maliyyələşdirmə mexanizmlərinin diversifikasiyasına dair təkliflər hazırlanması | Mədəniyyət sahəsi üçün yeni maliyyə mənbələrinin və alətlərinin müəyyənləşdirilməsi |
| 8.1.4.2. | Mədəniyyət sahəsində dövlət– özəl tərəfdaşlığı modellərindən istifadənin təmin edilməsi, o cümlədən mədəniyyət sahəsində xidmətlərin özəl tərəfdaşlar tərəfindən göstərilməsi ilə bağlı modellərin yaradılması | MdN, İN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəniyyət sahəsində dövlət–özəl tərəfdaşlığı modelləri ilə bağlı layihələrin hazırlanması | Dövlət–özəl tərəfdaşlığı layihələrinin ictimaiyyətə, o cümlədən investorlara təqdim edilməsi | Dövlət–özəl tərəfdaşlığı layihələri vasitəsilə özəl tərəfdaşlar tərəfindən göstərilən mədəniyyət xidmətlərinin sayının artırılması |
| **8.1.5. Mədəniyyət sahəsində insan kapitalının inkişafı və kadr hazırlığının artırılması** | | | | | | | |
| 8.1.5.1. | Xaricdə təhsil proqramları çərçivəsində mədəniyyət sahələri üzrə peşəkar kadrlar hazırlanması ilə bağlı tədbirlər görülməsi | MdN | ETN, ƏƏSMN | 2026–2030 | Mədəniyyət sahələri üzrə xaricdə təhsil proqramlarının müəyyən edilməsi | Xaricdə təhsil proqramlarının siyahısına mədəniyyət sahələri üzrə təhsil proqramlarının daxil edilməsinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Mədəniyyət sahəsində müasir əmək bazarının tələblərinə cavab verən yüksəkixtisaslı mütəxəssislərin sayının artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.5.2. | Mədəniyyət sahəsində təhsil pillələri üzrə ixtisasların (ixtisaslaşmaların) təkmilləşdirilməsi | NK, ETN | MdN, ƏƏSMN | 2026–2030 | Mədəniyyət sahəsində ixtisasların (ixtisaslaşmaların) təhlili | Mədəniyyət sahəsində ixtisasların (ixtisaslaşmaların) təkmilləşdirilməsi ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim edilməsi, təhsil proqramlarının hazırlanması | Mədəniyyət sahəsində əmək bazarının tələblərinə cavab verən, yaradıcı və innovativ düşüncəyə malik kadr ehtiyatının formalaşdırılması |
| 8.1.5.3. | Mədəniyyət sahəsinə aid peşələr haqqında peşə standartları əsasında peşə profillərinin hazırlanması | MdN | ƏƏSMN, aidiyyəti dövlət orqanları (qurumları) | 2026 | Mədəniyyət sahəsinə aid peşə standartlarının təhlili | Mədəniyyət sahəsinə aid peşə profillərinin hazırlanması | Mədəniyyət sahəsinə aid peşə profillərinin tətbiqi |
| 8.1.5.4. | Mədəniyyət sahəsində çalışan şəxslər üçün təlimlərin təşkili, həmin şəxslərin rəqəmsal bacarıqlarının artırılması | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Təlimlərin məzmununun müəyyənləşdirilməsi | Təlimlərin təşkil edilməsi Mədəniyyət sahəsi üzrə ixtisaslaşdırılmada keyfiyyətin və rəqəmsal bacarıqların artırılması | |
| 8.1.5.5. | Dövlət mədəniyyət müəssisələrinə işə qəbul qaydasının təkmilləşdirilməsi | NK, MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Normativ hüquqi bazanın təhlili, dövlət mədəniyyət müəssisələrinə işə qəbul qaydası ilə bağlı təkliflər hazırlanması | Dövlət mədəniyyət müəssisələrinə işə qəbul qaydası ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Mədəniyyət sahəsində keyfiyyətli, şəffaf və strateji kadr siyasətinin formalaşdırılması |
| **8.1.6. Mədəniyyət infrastrukturunun təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.6.1. | Mədəniyyət əmlakının inventarlaşdırılması, təsnifatlaşdırılması və siyahılarının tərtib edilməsi | NK, MdN, İN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəniyyət əmlakının təsnifatlaşdırılması üçün meyarların müəyyən olunması | Mədəniyyət siyahıların | Mədəniyyət sahəsində sahəsində infrastrukturun yenilənməsi təkmilləşdirilməsi |
| 8.1.6.2. | Dövlət–özəl tərəfdaşlığı layihələri, mədəniyyət təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi, optimallaşdırılması və digər mənbələr hesabına innovativ, əlçatan və inklüziv çoxfunksiyalı mədəniyyət məkanlarının yaradılması, | MdN, İN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq təcrübənin araşdırılması və tədbirlər planının hazırlanması | Tədbirlər planının edilməsi optimallaşdırılması, yaradıcılıq üçün innovativ, əlçatan və inklüziv ekosistemin yaradılması | Mədəniyyət sahəsində icra idarəetmənin |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | habelə dövlət mülkiyyətində olan mədəniyyət təsisatlarının fəaliyyətinin və coğrafi yerləşməsinin vahid yanaşmaya əsaslanmaqla optimallaşdırılması ilə bağlı tədbirlər görülməsi | | | | | | |
| **8.1.7. Mədəniyyət sahəsində rəqəmsal inkişaf və rəqəmsal mədəniyyətin formalaşdırılması** | | | | | | | |
| 8.1.7.1. | Rəqəmsal mədəniyyətin inkişafı üçün infrastrukturun təkmilləşdirilməsi, xidmətlərin rəqəmsallaşdırılması və digər rəqəmsal inkişafın təmin edilməsi | MdN | İN,RİNN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026-2027 | Mədəniyyət sahəsində dövlət informasiya resurslarının "Hökumət buludu"na inteqrasiyası, kibertəhlükəsizliyin, xüsusilə mədəni irsin kibermühafizəsinin təmin edilməsi | Mədəniyyət sahəsində dövlət xidmətlərinin elektronlaşdırılma-sı və hökumət portallarına inteqrasiyası, data əsaslı rəqəmsal idarəetmə modelinin formalaşdırılması və tətbiqi | Yeni texnologiyaların tətbiqi, informasiya və kommunikasiya texnologiyaları infrastrukturunun gücləndirilməsi və aktuallığının təmin edilməsi, informasiya resurslarının təkmilləşdirilməsi, bu sahədə çalışanların ixtisaslaşdırılması |
| 8.1.7.2. | Milli kino fondunun, dövlət televiziya və radio arxivlərinin tam rəqəmsallaşdırılması | MdN | AvŞ, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026-2030- | İcraçıların, metodologiyanın və fəaliyyət planının müəyyən edilməsi | Milli kino fondunun azı 60 faizinin, dövlət televiziya və radio arxivlərinin hər birinin azı 50 faizinin rəqəmsallaşdırıl-ması | Milli kino fondunun, dövlət televiziya və radio arxivlərinin tam rəqəmsallaşdırıl-ması |
| **8.1.8. Müasir mədəniyyət kommunikasiyası modellərinin tətbiqi** | | | | | | | |
| 8.1.8.1. | Mədəniyyət sahəsində dövlət informasiya resurslarının birləşdirilməsi və ya əlaqələndirilməsi, vahid kommunikasiya siyasətinin həyata keçirilməsi məqsədilə "e-culture" platformasının yaradılmasının təmin edilməsi | MdN | RİNN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | "e-culture" platformasının yaradılması | "e-culture" platformasının test edilməsi | "e-culture" platforması vasitəsilə mədəniyyətə əlçatanlığın və yaradıcılıqda geniş iştirakçılığın təmin edilməsi |
| 8.1.8.2. | Azərbaycan dövlətinin beynəlxalq imicinə, tarixinə və mədəniyyətinə qarşı | NK | MdN, XİN, | 2026–2030 | Birgə fəaliyyət planının hazırlanması | Birgə fəaliyyət planının | Birgə fəaliyyət planının həyata keçirilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | aparılan mənfi təbliğatın qarşısının alınması və neytrallaşdırılması məqsədilə qurumlararası birgə fəaliyyət planının hazırlanması və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi | | digər aidiyyəti dövlət orqanları (qurumları) | | | razılaşdırılması və təsdiq edilməsi | |
| 8.1.8.3. | Mədəni irsin iqtisadi rayonlar üzrə təbliği | MdN, DTA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | İqtisadi rayonlarda yerləşən mədəni irsin təhlili | Hər bir iqtisadi rayon üzrə mədəni irsin təbliği strategiyalarının hazırlanması | Mədəni irsin qorunmasının təşkili, müvafiq mədəniyyət təsisatlarının, turizm marşrutlarının yaradılmas yolu ilə mədəni irsin təbliği |
| 8.1.8.4. | Mədəni irsin qorunmasının və bərpasının maliyyələşdirilməsi sahəsində dövlət–özəl tərəfdaşlığı modelləri ilə bağlı səmərəli kommunikasiya fəaliyyətinin aparılması | MdN, DTA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Kommunikasiya planının hazırlanması | Kommunikasiya planının icrası | Bu sahədə beynəlxalq məlumatlandırma-nın təmin edilməsi |
| 8.1.8.5. | MYS sahəsində mövcud imkanlar barədə davamlı kommunikasiyanın aparılması | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Kommunikasiya planının hazırlanması | Kommunikasiya planının icrası | MYS sahəsində maliyyə imkanları barədə davamlı ictimai və beynəlxalq məlumatlandırma-nın təmin edilməsi |
| 8.1.8.6. | Uşaq və gənclər arasında mədəniyyətlə bağlı imkanların və kommunikasiya modellərinin təbliği | MdN | ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planının razılaşdırılması və təsdiq edilməsi | Tədbirlər planının həyata keçirilməsi |
| 8.1.8.7. | Əlilliyi olan şəxslərin mədəni tədbirlərdə iştirakı üçün əlçatanlığın təmin edilməsi | MdN | ƏƏSMN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəni tədbirlərlə bağlı əlaqələndirmə mexanizminin yaradılması | Əlilliyi olan şəxslərin mədəni tədbirlərdə iştirakı sisteminin qurulması | İnklüzivliyin təmin edilməsi |
| 8.1.8.8 | Konsepsiyanın icrası barədə səmərəli kommunikasiyanın həyata keçirilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Konsepsiyaya uyğun olaraq mərhələlər, hədəflər, məqsədlər, imkanlar, görülən işlər və onların nəticələrinin hər biri üzrə məlumatların “E-culture platformasına inteqrasiyası | Konsepsiyanın media və digər müasir vasitələrlə kommunikasiyası | Konsepsiyanın icrası barədə məlumatlılığın təmin olunması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **8.2. Azərbaycan dilinin inkişafı** | | | | | | | |
| **8.2.1. Azərbaycan dilinin rolunun artırılması məqsədilə sistemli fəaliyyətin həyata keçirilməsi** | | | | | | | |
| 8.2.1.1. | Azərbaycan ədəbi dilinin funksionallığının artırılması | MdN | AMEA, ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Azərbaycan ədəbi dilinin funksionallığının artırılması üslublarının (bədii, elmi, publisistik, rəsmi-işgüzar və ailə- məişət) araşdırılması | Azərbaycan ədəbi dilinin üslublarda funksionallığının artırılması ilə bağlı fəaliyyətin həyata keçirilməsi | Ümumi təhsil müəssisələri üçün Azərbaycan dili dərsliklərində ədəbi dilin funksionallığına dair bilik və bacarıqların şagirdlərə sistemli şəkildə aşılanması |
| 8.2.1.2. | Azərbaycan dilinin tarixinə, məzmununa, mədəniyyətin inkişafındakı roluna dair sistemli elmi araşdırmaların genişləndirilməsi, nəticələrinin “e-culture” platformasında, nüfuzlu elmi jurnallarda, nəşrlərdə və digər mediada yayılması və ictimai müzakirəsi | MdN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Müasir elmi araşdırma və tədqiqat metodlarının öyrənilməsi | Müasir elmi araşdırma və tədqiqat metodları tətbiq edilməklə Azərbaycan dilinə dair elmi araşdırmaların sayının artırılması | Elmi araşdırmaların keyfiyyətinin artırılması, Azərbaycan dilində lüğət ehtiyatının zənginləşdirilməsi, Azərbaycan dilindən istifadə arealının genişləndirilməsi |
| 8.2.1.3. | Azərbaycan dilində yeni, xüsusilə elmi və publisistik əsərlərin yaradılmasının, təbliğinin və əlçatanlığının təmin edilməsi | MdN, ETN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Yerli və xarici elm və təhsil müəssisələri ilə dayanıqlı və sistemli əlaqələr qurulması | Azərbaycan dilində keyfiyyətli elmi və publisistik əsərlər yaradılmasının təşviqi ilə bağlı tədbirlər həyata keçirilməsi | Azərbaycan dilində yaradılmış yeni əsərlərin beynəlxalq səviyyədə yayılması |
| 8.2.1.4. | İctimai yerlərdə, mediada, rəqəmsal məhsullarda və digər sahələrdə Azərbaycan dilindən istifadənin genişləndirilməsi, bu məqsədlə maarifləndirmənin təşkili | MdN, AMEA | digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Maarifləndirmə mexanizmlərinin araşdırılması | Azərbaycan dilindən istifadənin genişləndirilməsi və maarifləndirmənin təşkili tədbirlərinin müəyyən edilməsi | Azərbaycan dilindən geniş istifadənin təmin edilməsi |
| 8.2.1.5. | Azərbaycan dilinin tətbiqi, Azərbaycan dili haqqında normativ hüquqi aktlara, | MdN, AMEA | AİBNDA, ADRA, AvŞ, | 2026–2030 | Təhlillər aparılması, səmərəli nəzarət | Səmərəli nəzarət mexanizmləri ilə bağlı təkliflərin hazırlanması | Azərbaycan dilindən düzgün istifadənin təmin edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | o cümlədən Azərbaycan dilinin normalarına əməl olunması sahəsində nəzarətin effektivliyinin artırılması | | MEDİA, RİİN, digər aidiyyəti dövlət orqanları (qurumları) | | mexanizmlərinin araşdırılması | və aidiyyəti üzrə təqdim edilməsi | |
| **8.2.2. Azərbaycan dilinin inkişafı, təbliği və təşviqi ilə bağlı fəaliyyətin gücləndirilməsi** | | | | | | | |
| 8.2.2.1. | Azərbaycan dilinin lüğət ehtiyatının zənginləşdirilməsi, Azərbaycan dili normalarının təkmilləşdirilməsi, Azərbaycan dili dialektlərinin tədqiqi | NK, AMEA | MdN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Azərbaycan dilinin lüğət ehtiyatının zənginləşdirilməsi üsul və metodlarının müəyyən edilməsi, Azərbaycan dili normalarının təhlili | Azərbaycan dili normalarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması, Azərbaycan dilinin lüğət ehtiyatının zənginləşdirilməsi, dialektik sinxron və diaxron lüğətlərin təkmilləşdirilməsi | İctimai məlumatlılığın təmin edilməsi |
| 8.2.2.2. | Azərbaycan dilindən Birləşmiş MillətlərTəşkilatının əsas dillərinə, türk dillərinə və həmin dillərdən Azərbaycan dilinə tərcümə lüğətlərinin hazırlanması və yayılması | MdN, AMEA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tərcümə lüğətlərinin hazırlanması məqsədilə təşkilati işlərin həyata keçirilməsi, mütəxəssis qruplarının formalaşdırılması | Tərcümə lüğətlərinin hazırlanması | Tərcümə lüğətlərinin əlçatan şəkildə yayılması |
| **8.3. Davranış mədəniyyəti və bilgi mədəniyyəti** | | | | | | | |
| 8.3.1. | Azərbaycanda davranış mədəniyyətinin rolunun artırılması istiqamətində qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi | MdN | ETN, AQUPDK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2027-2030 | Davranış mədəniyyətinin rolunun artırılması üçün sosial (elm, təhsil, maarifləndirilmə, şəxsi, ailə, icma və bütövlükdə ictimai mədəniyyətin inkişafı) və fərdi (özünütəhsil, özünüdərk, özünütərbiyə, | Təhlilin nəticələri əsasında davranış mədəniyyətinin rolunun artırılması üçün sosial və fərdi alətlərdən istifadə modellərinin hazırlanması və təbliği | Ünsiyyət və sosial əlaqələrin keyfiyyətinin artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | özünüidarəetmə) alətlərdən və onların mənbələrindən (kitablar, müşahidə, ünsiyyət) istifadə imkanlarının təhlili | | |
| 8.3.2. | Azərbaycan cəmiyyətinin elmi əsaslı çoxmeyarlı (ünsiyyət, qiymətləndirmə, rəhbərlik etmə, qərar vermə, etibar etmə, razılaşmama/fikir ayrılığı, vaxta/planlaşdırmaya münasibət, inandırma) davranış mədəniyyəti modelinin və onun əsasında cəmiyyətdaxili və dünya mədəniyyətləri ilə səmərəli kommunikasiya alətlərinin hazırlanması və təbliği | MdN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Metodologiyanın və icra qaydasının müəyyən edilməsi, Azərbaycanın multikultural cəmiyyətini təşkil edən mədəniyyətlərin və beynəlxalq təcrübənin araşdırılması | Azərbaycan cəmiyyətinin çoxmeyarlı davranış mədəniyyəti modelinin və kommunikasiya modellərinin tərtib edilməsi | Azərbaycan cəmiyyətinin çoxmeyarlı davranış mədəniyyəti modelinin və onun əsasında hazırlanmış kommunikasiya odellərinin geniş təbliği |
| 8.3.3. | Milli-mənəvi dəyərlərin əsas daşıyıcısı kimi ailə institutunun nüfuzunun gücləndirilməsi istiqamətində qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi | AQUPDK | MdN, GİN, ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Maarifləndirici layihələrin hazırlanması | Ailə institutunun mədəniyyətin əsas dəyər daşıyıcısı olmasını təmin edən layihələrin həyata keçirilməsi | Ailə institutunun mədəniyyətin əsas dəyər daşıyıcısı olmasında müsbət dinamikaya nail olunması |
| 8.3.4. | İctimai iştirakçılıq təmin edilməklə, Azərbaycanda inkulturasiya, akkulturasiya və assimilyasiya imkanlarının araşdırılması | MdN | AMEA | 2026–2030 | Azərbaycanda inkulturasiya, akkulturasiya və assimilyasiya proseslərinin elmi araşdırılması | İnkulturasiya, akkulturasiya və assimilyasiyanın Konsepsiyanın hədəfləri və məqsədləri baxımından təhlili | İnkulturasiya, akkulturasiya və assimilyasiya prosesləri ilə bağlı təkliflər hazırlanması |
| 8.3.5. | Azərbaycanda bilgi mədəniyyətinin funksionallığının artırılması istiqamətində qurumlararası əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsi | MdN, ƏMA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Bilgi mədəniyyətinin funksionallığının artırılması imkanlarının təhlili, elmi etikanın təmin edilməsi məqsədilə təkliflər hazırlanması | Bilgi mədəniyyətinin funksionallığının artırılması ilə bağlı tədbirlər planının təsdiqi və icrası | Bilgi mədəniyyətinin funksionallığının təmin olunması, informasiya mədəniyyətinin gücləndirilməsi yolu ilə rəqəmsal cəmiyyətə inteqrasiya |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **8.4. Ədəbiyyatın inkişafı** | | | | | | | |
| **8.4.1. Mədəniyyətin inkişafında, eləcə də məntiqi, tənqidi və yaradıcı təfəkkürün formalaşmasında ədəbiyyatın rolunun artırılması** | | | | | | | |
| 8.4.1.1. | Elmi və ədəbi yaradıcılığın həvəsləndirilməsi, elmi yaradıcılığın dəyərləndirilməsində fundamentallıq prinsipi ilə yanaşı funksionallığın önə çəkilməsi | MdN, ƏMA | ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Həvəsləndirmə mexanizmlərinin, elmi araşdırmalar və ədəbi yaradıcılıq sahəsində əlverişli ekosistemin formalaşdırılması üçün beynəlxalq təcrübənin öyrənilməsi | Yerli ekosistemə və elmi yaradıcılığın funksionallığına dair meyarların və indikatorların müəyyənləşdirilməsi | Funksional elmi əsərlərin və yüksək bədii-estetik dəyərə malik ədəbi əsərlərin sayında müsbət dinamikaya nail olunması |
| 8.4.1.2. | Ədəbiyyat vasitəsilə cəmiyyətdə şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrak fəallığının və məntiqi təfəkkürün, həyat və ümumi biliklərin formalaşdırılması, ədəbiyyatın ideoloji məzmunla yanaşı müasir texnoloji məzmuna cəlb edilməsi | MdN | ETN, AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Müvafiq sahədə araşdırmaların aparılması və təkliflərin formalaşdırılması məqsədilə qurumlararası fəaliyyətin təşkili | Tədbirlər planının və metodikanın hazırlanması, hədəflərin müəyyən edilməsi | Tədbirlər planının icrası |
| 8.4.1.3. | Ümumi təhsili həyata keçirən təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin kulturoloji qiymətləndirilməsilə bağlı təkliflərin hazırlanması | MdN, AMEA | ETN | 2026–2030 | Kulturoloji qiymətləndirmə ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Kulturoloji qiymətləndirmə ilə bağlı metodologiyanın müəyyən edilməsi | Dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin Azərbaycanın mədəniyyət dəyərlərinə uyğunluğunun təmin olunması |
| 8.4.1.4. | Xarici müəlliflərin elmi əsərlərinin Azərbaycan dilinə keyfiyyətli tərcümə edilməsi, yayım hüquqları əldə olunmaqla, dövlət kitabxana resurslarında yerləşdirilməsi | MdN, ƏMA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Elmi əsərlərin siyahısının müəyyənləşdiril-məsi və dəyərləndirilməsi üçün komissiyanın yaradılması | Əqli mülkiyyət hüquqlarına riayət etməklə əsərlərin tərcümə olunması | Dövlət kitabxana resurslarının tərcümə edilmiş keyfiyyətli elmi əsərlərlə zənginləşdirilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.1.5. | Bölgələrdə elmi və ədəbi yaradıcılıq üçün əlverişli mühit yaradılması | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2030 | Müasir, innovativ infrastruktur, maliyyələşdirmə və idarəetmə həllərinin hazırlanması | Yeni həllərin ekosistem iştirakçılarına təqdim edilməsi | Yeni həllərin reallaşdırılmasının təmin edilməsi |
| **8.4.2. Ədəbiyyatın təbliğinin, o cümlədən nəşriyyat işinin inkişafı** | | | | | | | |
| 8.4.2.1. | Ədəbiyyata və nəşriyyat işinə aid sənət növlərinin (redaktorluq, hekayəçilik, tənqid və s.) inkişaf etdirilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Ədəbiyyata və nəşriyyat işinə aid peşəkar sənətlərə dair beynəlxalq təcrübənin araşdırılması | Ədəbiyyata və nəşriyyat işinə aid peşəkar sənət növlərinin və peşəkar sənətkarların inkişaf etdirilməsi ilə bağlı tədbirlərin hazırlanması və həyata keçirilməsi | Ədəbiyyata və nəşriyyat işinə aid peşəkar sənət növlərinin və peşəkar sənətkarların sayının artırılması |
| 8.4.2.2. | Nəşriyyat işi dəyər zəncirinin qiymətləndirilməsi və təşviqi | MdN | ƏMA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Mövcud vəziyyətin qiymətləndirilməsi | Mövcud vəziyyətin qiymətləndirilməsi əsasında dəstək mexanizmləri ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Nəşriyyat işi dəyər zəncirinin müasirləşdirilməsi |
| 8.4.2.3. | Azərbaycan ədəbi mühitini qlobal ədəbi mühitə uyğun inkişaf etdirmək, ədəbi əsərlərin yaradılması prosesinin nəşriyyat işi dəyər zəncirinə daxil edilməsini asanlaşdırmaq və tanınmış xarici ədiblərin təcrübəsindən yararlanmaq məqsədilə "Ədiblər Azərbaycanda" ("Writers in Residence in Azerbaijan") layihəsinin təsis edilməsi | MdN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq təcrübənin təhlili | Layihənin təsis edilməsi | Layihənin icrası |
| 8.4.2.4. | Azərbaycan ədəbiyyatının, o cümlədən Azərbaycan elmi ədəbiyyatının tanıdılması, Birləşmiş Millətlər Təşkilatının rəsmi dillərinə, türk dillərinə və digər dillərə sistemli tərcüməsi və | MdN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Layihə icraçılarının müəyyən edilməsi, beynəlxalq təcrübənin təhlili | Əqli mülkiyyət hüquqlarının qorunması təmin edilməklə layihənin təsis edilməsi və icrası | Azərbaycan ədəbiyyatının dünyadakı izinin dərinləşdirilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | yayılması məqsədilə “Azərbaycan ədəbiyyatı xaricdə” (“Azerbaijani Literature Abroad”) layihəsinin təsis edilməsi | | | | | | |
| **8.5. İncəsənətin inkişafı** | | | | | | | |
| **8.5.1. Mədəniyyətin, cəmiyyətin və fərdlərin inkişafında incəsənətin rolunun artırılması** | | | | | | | |
| 8.5.1.1. | İncəsənətlə məşğul olan şəxslərin sosial və mədəni əlaqələrinin qurulması üçün ekosistemin təkmilləşdirilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin təhlili, beynəlxalq təcrübənin öyrənilməsi | Yerli ekosistemin inkişafı üçün əlverişli mühitin formalaşdırılması | İncəsənət ekosisteminin təkmilləşdirilmə-sində müsbət dinamikaya nail olunması |
| **8.5.2. İncəsənətin sahələr üzrə inkişafı** | | | | | | | |
| 8.5.2.1. | Azərbaycan incəsənətinin elmi və praktiki araşdırılması və tədrisi işinin inkişaf etdirilməsi | MdN | ETN, AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq və xarici elmi və praktiki araşdırma təsisatları ilə əməkdaşlıq qurulması | İncəsənət sahəsində kadr hazırlığının müasir tələblərə uyğun təkmilləşdirilməsi | Mədəni irsin qorunması, incəsənət sahəsində peşəkar kadr hazırlığının təmin edilməsi |
| 8.5.2.2. | Azərbaycan incəsənətinin dünya incəsənəti ilə qarşılıqlı inkişafını təmin etmək və beynəlxalq mədəni mübadiləni genişləndirmək məqsədilə “Sənətkarlar Azərbaycanda” (“Artists in Azerbaijan”) layihəsinin təsis edilməsi | MdN | ƏMA, AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq təcrübənin öyrənilməsi | Layihənin təsis edilməsi | Layihənin icrası |
| 8.5.2.3. | Azərbaycanın mədəni irsinə aid unudulmuş və ya unudulmaqda olan sənət növlərinin tədqiqi, bərpası və təşviqi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Araşdırmaların aparılması və tədbirlər planının hazırlanması | Tədbirlər planının icrası, unudulmuş və unudulmaqda olan sənət növlərinin canlandırılması və təbliği | Canlandırılmış sənət növləri üzrə sənətkarların yetişdirilməsi |
| 8.5.2.4. | Dövlət və özəl teatr fəaliyyətinin və digər ifa sənətləri ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi | MdN | İN, ƏMA və digər aidiyyəti dövlət | 2026–2030 | Nəticəyönümlü maliyyələşdirmə və təşviq mexanizmlərinin, yeni idarəetmə | İfa sənətləri ekosisteminin təkmilləşdirilməsi, teatrlararası inteqrasiya, | İfa sənətlərinin yaradıcılıq potensialının reallaşdırılması və asudə vaxtın səmərəli təşkili |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | orqanları (qurumları) | | modellərinin müəyyən edilməsi | mədəni mübadilə və təşviq mexanizmlərinin tətbiqi | vasitəsinə çevrilməsi, bu sahəyə özəl investisiyaların cəlb edilməsi |
| 8.5.2.5. | İfa sənətləri üzrə kollektivlərin fəaliyyətinin təkmilləşdirilməsi, Azərbaycan mədəniyyətini bədii-estetik cəhətdən müasir formatda təqdim edən kollektivlərin təşkili | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | İfa sənətləri üzrə kollektivlərin brendləşdirmə strategiyasının hazırlanması | İfa sənətləri üzrə kollektivlərin fəaliyyətlərinin strategiyaya uyğun təkmilləşdirilməsi | İfa sənətləri üzrə brend kollektivlərin regional və dünya turnelərinin və xaricdə çıxışlarının təşkili, bu məqsədlə səmərəli əməkdaşlığın qurulması |
| 8.5.2.6. | Azərbaycan musiqisinin qorunması | MdN, ƏMA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Qədim, klassik və müasir Azərbaycan musiqisinin, o cümlədən unudulmuş, yaxud heç zaman ifa olunmamış əsərlərin sistemli araşdırılması | Folklor musiqisi nümunələrinin orijinal və ya yenidən işlənilmiş formada audio və ya video yazılması, fonoqram bazasının yaradılması | Folklor musiqisinin mədəni irsin tərkib hissəsi kimi təbliği, Azərbaycan musiqisinin səmərəli qorunması |
| **8.6. Mədəni irsin qorunması və inkişafı** | | | | | | | |
| 8.6.1. | Vahid yanaşma tətbiq edilməklə, mədəni irsin qorunması sahəsində nəticəəsaslı yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması, mədəni irslə əlaqəli infrastrukturun müasirləşdirilməsi və təkmilləşdirilməsi | NK, MdN, ETSN, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Təkliflər hazırlanması | Təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Mədəni irsin səmərəli qorunması |
| 8.6.2. | Mədəni irsin qorunması, o cümlədən bərpası sahəsində fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə yeni təşviq və dəstək mexanizmlərinin yaradılması, dövlət–özəl tərəfdaşlığının və dövlət– vətəndaş əlaqələrinin genişləndirilməsi | MdN, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ, AMEA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Əlaqələndirmə komissiyasının yaradılması, tədbirlər planının təsdiqi | Tədbirlər planının icrası | Mədəni irsin qorunmasının, o cümlədən bərpasının vahid yanaşma tətbiq edilməklə müasir tələblərə uyğun həyata keçirilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.6.3. | Mədəni irslə bağlı məlumat bazalarının təkmilləşdirilməsi, o cümlədən mədəniyyət əmlakı siyahılarının yenilənməsi, abidələrin balans mənsubiyyətinin, sərhədlərinin və mühafizə zonalarının dəqiqləşdirilməsi | NK, MdN, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ, AMEA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Əlaqələndirmə komissiyasının yaradılması, tədbirlər planının təsdiqi | Tədbirlər planının icrası | Mədəni irslə bağlı məlumat bazalarının dəqiqləşdirilməsi |
| 8.6.4. | Qeyri-maddi mədəni irsin araşdırılması, sistemləşdirilməsi, qeydiyyatı və qorunmasının gücləndirilməsi | MdN, ƏMA, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin araşdırılması və təhlili | Tədbirlər planının hazırlanması | Tədbirlər planının icrası |
| 8.6.5. | Azərbaycan xalqının yaratdığı mədəni irsin yerləşdiyi tarixi coğrafiyada Azərbaycan xalqının mədəni irsinin atribusiyası, qorunması və restitusiyası ilə bağlı fəaliyyətin həyata keçirilməsi | MdN | XİN, AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planının icrası | Nəticələrin "e-culture" platformasına inteqrasiyası |
| 8.6.6. | İşğaldan azad edilmiş ərazilərdə mədəni irsin, o cümlədən arxeoloji abidələrin qorunması ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi, mədəni irsə vurulmuş zərərlə bağlı beynəlxalq ictimaiyyətin məlumatlılığının artırılması və dəymiş zərərin əvəzinin ödənilməsi məqsədilə tədbirlər görülməsi | MdN | AMEA, DTA, Şuşa Şəhəri DQİ, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin təhlili, məlumatların sistemləşdirilməsi | Tədbirlər planının hazırlanması və təsdiqi | Mədəni irsin, o cümlədən arxeoloji abidələrin qorunması ilə bağlı tədbirlərin həyata keçirilməsi və nəticələrin "e-culture" platformasına inteqrasiyası |
| **8.7. Mədəni və yaradıcı sənayenin inkişafı** | | | | | | | |
| 8.7.1. | MYS-nin dinamik inkişafını təmin edən qanunvericilik və institusional islahatların həyata keçirilməsi | MdN, ƏMA | İN, RİNN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Normativ hüquqi bazanın, mövcud təcrübənin və imkanların təhlili və MYS ekosisteminin təkmilləşdirilməsi ilə | MYS sahəsində müasir "təşkilatlanma mühiti"nin (klasterlər, qovşaqlar, sənaye parkları, araşdırma, müzakirəplatformaları və s.) formalaşdırılması, | MYS-nin sənaye kimi inkişafı, o cümlədən ixrac potensialının, MYS subyektlərinin sayının və MYS-nin ÜDM-də payının artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | bağlı təkliflər hazırlanması | Infrastrukturun yaradılması | |
| 8.7.2. | MYS-nin maliyyələşdirilməsi mənbələrinin diversifikasiyası, bu sahəyə investisiya qoyuluşu və təşviqi imkanlarının, habelə dövlət– özəl tərəfdaşlığının genişləndirilməsi | MdN | İN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Dövlət–özəl tərəfdaşlığı imkanlarının araşdırılması və modellərinin hazırlanıb sərmayəçilərə təqdim edilməsi | MYS sahəsində dövlət– özəl tərəfdaşlığı layihələrinin sayının artması | MYS-nin qeyri-resurs iqtisadi göstəricilərdə payının artması |
| 8.7.3. | MYS-nin müqayisəli üstünlüyə malik sahələri üzrə müasir dəyər zəncirinin formalaşdırılması, milli brendlərin yaradılması | MdN | İN, ƏƏSMN, RİNN, ƏMA, DTA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | MYS-nin müqayisəli üstünlüyə malik sahələrinin təhlili, dəstək mexanizmlərinin hazırlanması | Rəqabətədavamlı və müasir MYS dəyər zəncirlərinin formalaşdırılması, milli brendlərin yaradılması | MYS-nin müqayisəli üstünlüyə malik sahələri üzrə formalaşdırılmış dəyər zəncirlərinin qlobal dəyər zəncirlərinə inteqrasiyası |
| 8.7.4. | Kino sənayesində dövlət sifarişi sisteminin, dəyər zəncirinin, o cümlədən kütləvi nümayiş və yayım sisteminin təkmilləşdirilməsi | MdN | ƏMA,digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin təhlili əsasında tədbirlərin, tərəfdaşların, icraçıların və əməkdaşlıq modellərinin müəyyən edilməsi | Kino sənayesində keyfiyyətə və milli- mənəvi dəyərlərə üstünlük verilməsinə əsaslanan yeni dövlət sifarişi sisteminin yaradılması | Maliyyələşdirmə mənbələrinin diversifikasiyası, rəqabətədavamlı dəyər zəncirlərinin formalaşdırılması |
| 8.7.5 | Filmlərin dublyajı ekosisteminin təkmilləşdirilməsi | MdN | ƏMA,digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Beynəlxalq təcrübənin öyrənilməsi, mövcud vəziyyətin təhlili | Filmlərin dublyajına dəstək mexanizmləri ilə bağlı təkliflər hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Dublyaj sənayesinin inkişafı |
| | | | **8.8. Mədəniyyət diplomatiyasının inkişafı** | | | | |
| 8.8.1. | Azərbaycan mədəniyyətinin və mədəniyyət dəyərlərinin beynəlxalq aləmdə təbliği ilə bağlı fəaliyyətin, o cümlədən Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin tabeliyində olan mədəniyyət | MdN | XİN,digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Qurumlararası əlaqələndirmə məqsədilə qanunvericilik və institusional çərçivənin təkmilləşdirilməsi-nə dair təkliflər hazırlanması | Mədəniyyət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə yeni konseptual əsaslara dayanan fəaliyyət planının hazırlanması | Fəaliyyət planına uyğun olaraq mədəniyyət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi | | | | | | |
| 8.8.2. | Azərbaycan dilinin yayılma coğrafiyasının genişləndirilməsi və beynəlxalq ünsiyyətdəki rolunun artırılması məqsədilə tədbirlər görülməsi | MdN | XİN, DİDK, ETN,digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin təhlili və beynəlxalq təcrübənin öyrənilməsi | Fəaliyyət planının hazırlanması | Azərbaycan dilinin beynəlxalq ünsiyyətdəki rolunun və mədəni mübadilədəki çəkisinin artırılması, xarici vətəndaşlara Azərbaycan |
| 8.8.3. | Azərbaycan mədəni irsinin beynəlxalq aləmdə təbliği, tanıdılması və qorunması məqsədilə qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi | MdN | XİN, DTA,digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Əlaqələndirilmiş fəaliyyətin təmin edilməsi məqsədilə təkliflər hazırlanması | Əlaqələndirilmiş fəaliyyət üçün institusional çərçivənin formalaşdırılması | Azərbaycan mədəni irsinin qurumlararası əlaqələndirilmiş fəaliyyət yolu ilə təbliği nəticəsində mədəni təsir vasitələrinin (“yumşaq güc”) formalaşdırılması |
| 8.8.4. | Azərbaycanın mədəni irs nümunələrinin təbliği, o cümlədən nüfuzlu onlayn platformalarda yerləşdirilməsi, sərgilənməsi, araşdırılması və digər qaydada tanıdılması üçün normativ hüquqi bazanın və prosedurların təkmilləşdirilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2029 | Normativ hüquqi bazanın və mövcud ekosistemin təhlili | Normativ hüquqi bazanın və mövcud ekosistemin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması, aidiyyəti üzrə təqdim edilməsi | Azərbaycanın mədəni irs nümunələrinin təbliği yolu ilə mədəni təsir vasitələrinin (“yumşaq güc”) formalaşdırılması, ölkənin nüfuzunun artırılması |
| 8.8.5. | Azərbaycanın sənədli irsinin UNESCO-nun “Dünya Yaddaşı Reyestri”nə daxil edilməsi ilə bağlı tədbirlər görülməsi | MdN | XİN, AMEA | 2026–2030 | Nominasiya üçün mədəni irs nümunələrinin seçilməsi | Hər il azı 1 nominasiya sənədinin hazırlanaraq təqdim olunması | Azərbaycanın mədəni irs nümunələrinin “Dünya Yaddaşı Reyestri”nə daxil edilməsinə nail olunmaqla, geniş təbliği |
| 8.8.6. | Azərbaycanın dünyadakı izinin dərinləşdirilməsi məqsədilə Azərbaycanda dayanıqlı beynəlxalq mədəniyyət tədbirlərinin təşkili, Azərbaycan mədəniyyətinin xarici və beynəlxalq mədəniyyət tədbirlərində təmsil | MdN | XİN,digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Səmərəli və dayanıqlı əlaqələr qurulması üçün tədbirlər planının hazırlanması və təsdiqi | Tədbirlər planına uyğun olaraq əməkdaşlıq qurulması | Azərbaycan mədəniyyətinin geniş təbliği vasitəsilə mədəni təsir vasitələrinin (“yumşaq güc”) formalaşdırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | edilməsinin və təbliğinin genişləndirilməsi | | | | | | |
| 8.8.7. | Azərbaycanın dünyadakı izinin araşdırılması, o cümlədən Azərbaycan mənşəli mədəni irs nümunələrinin və mədəni sərvətlərin yerləşmə xəritəsinin hazırlanması, tədqiqi və atribusiyası, habelə mümkün olduqda restitusiyası və qaytarılması ilə bağlı məsələlərin sistemli şəkildə həll edilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi üçün komissiyanın yaradılması | Azərbaycan mənşəli mədəni irs nümunələrinin və mədəni sərvətlərin yerləşmə xəritəsinin hazırlanması, tədqiqi və atribusiyası, tanıdılması istiqamətində tədbirlər görülməsi | Mədəni irs nümunələrinin restitusiyası və qaytarılmasının təmin edilməsi |
| 8.8.8. | Dünyanın aparıcı muzeylərində Azərbaycan mədəniyyəti guşələrinin yaradılması və həmin muzeylərlə əməkdaşlığın genişləndirilməsi | MdN | XİN, DİDK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planına uyğun olaraq xarici muzeylərlə əməkdaşlıq formasının müzakirəsi | Xarici muzeylərdə Azərbaycan mədəniyyəti guşələrinin yaradılması |
| 8.8.9. | Mədəniyyətin və onunla əlaqəli fəaliyyətin seçilmiş sahələrində Azərbaycanın regional və beynəlxalq qovşağa çevrilməsinin təmin olunması | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq təcrübənin və imkanların öyrənilməsi | Regional və beynəlxalq qovşağa çevrilməsi planlaşdırılan sahələrin müəyyən edilməsi | Seçilmiş sahələrdə tədbirlərin həyata keçirilməsi |
| 8.8.10. | Azərbaycan vətəndaşlarının və dünya azərbaycanlılarının yaradıcılıq bacarıqlarının artırılması yolu ilə beynəlxalq layihələrdə və təşkilatlarda aparıcı mövqelərdə iştirakının genişləndirilməsi | MdN | DİDK, XİN | 2026–2030 | Əməkdaşlıq imkanlarının araşdırılması | Əməkdaşlığın həyata keçirilməsi | İştirakın genişləndirilməsi yolu ilə Azərbaycanın mövqeyinin müdafiəsi və mədəni təsir vasitələrinin (“yumşaq güc”) formalaşdırılması |
| 8.8.11. | Azərbaycan mədəniyyətinin dünyada tanıdılması | MdN | XİN, DİDK, DTA, AQUPD, aidiyyəti dövlətorqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planının təsdiqi | Tədbirlər planının icrası |

## Akronimlər

**ADRA** – Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi

**AİBNDA** – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi

**AQUPDK** – Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

**AMEA** – Azərbaycan Milli Elmlər Akademiyası

**AvŞ** – Azərbaycan Respublikasının Audiovizual Şurası

**DİDK** – Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi

**DTA** – Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

**ETN** – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**ETSN** – Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**ƏMA** – Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi **GİN** – Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi **XİN** – Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

**İN** – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

**"İçərişəhər" DTMQİ** – "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi

**MdN** – Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi

**MEDİA** – Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**MN** – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

**NK** – Azərbaycan Respublikasının Nazirlər Kabineti

**RİNN** – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

**Şuşa Şəhəri DQİ** – Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi

## “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasında süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası” (bundan sonra – Strategiya) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Strategiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət orqanlarında (qurumlarında) süni intellektin tətbiq edildiyi sahələrdə informasiya təhlükəsizliyi risklərinin təhlilini həyata keçirsin, o cümlədən dövlət orqanlarında (qurumlarında) süni intellektlə bağlı informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

4. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 mart 2025-ci il*
*№ 530*

*Azərbaycan Respublikası Prezidentinin*
*2025-ci il 19 mart tarixli 530 nömrəli*
*Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt

# STRATEGİYASI

## 1. Qısa xülasə

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkəmizin rəqəmsal iqtisadiyyata keçidinin sürətləndirilməsi, bunun üçün əlverişli infrastrukturun yaradılması və 4-cü sənaye inqilabı texnologiyalarının tətbiqi imkanlarının tədqiq olunması tədbirləri müəyyənləşdirilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası"nda informasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyən edilməsi, eləcə də onlara qarşı görülməli tədbirlərin proqnozlaşdırılması məqsədilə süni intellekt əsaslı həllərin işlənib hazırlanması və tətbiqinin təşkil edilməsi nəzərdə tutulur.

Qeyd olunanlar baxımından süni intellekt sistemlərinin tətbiqi üzrə əlverişli infrastrukturun yaradılması, rəqəmsal xidmət sahələrinin müəyyən edilməsi və inkişafı xüsusi strateji əhəmiyyətə malikdir.

Son zamanlar dünya miqyasında süni intellekt sistemlərinin müxtəlif sahələrdə tətbiqi fiziki və hüquqi şəxslərə sosial-iqtisadi üstünlüklər qazandırmışdır. Buna görə də bir çox dövlətlər süni

intellekt sahəsi üzrə ayrıca strategiyalar qəbul etmişlər və onların icrası həyata keçirilməkdədir.

Digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da süni intellekt texnologiyaları ölkəmizin iqtisadi və sosial inkişafında və qlobal rəqabət mühitində üstünlüklər əldə etməsində mühüm rol oynaya bilər. Odur ki, bu sahədə sistemli yanaşmaya ehtiyac vardır. Süni intellektin dövlət idarəçiliyi, iqtisadi, sosial, təhsil, səhiyyə, müdafiə, təhlükəsizlik və digər sahələrə ciddi dəyişikliklər gətirəcəyi, eləcə də bununla bağlı yaranacaq çağırışlar və təhdidlər nəzərə alınaraq, süni intellekt üzrə milli strategiyanın hazırlanması zərurəti yaranmışdır.

Bu məqsədlə hazırlanmış "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" (bundan sonra – Strategiya), ilk növbədə, ölkədə süni intellekt üzrə mövcud vəziyyəti təhlil edir, daha sonra əldə olunan nəticələrə uyğun olaraq və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olmağı hədəfləyir. Strategiyada süni intellekt ekosisteminin formalaşmasını və inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir.

2025–2028-ci illər ərzində həyata keçiriləcək tədbirlər çərçivəsində ilkin mərhələdə süni intellekt üzrə idarəetmənin təkmilləşdirilməsi, süni intellekt siyasətinin formalaşdırılması, məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi və dövlət–özəl sektor əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə, süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni təmin etmək üçün normativ hüquqi baza hazırlanacaq, insan hüquqlarına və məlumatların məxfiliyinə xüsusi diqqət yetiriləcəkdir.

Süni intellektin effektiv inkişafı məqsədilə yüksəksəviyyəli hesablama infrastrukturunun qurulması və süni intellekt modellərinin sürətli işlənməsi üçün bulud əsaslı resursların artırılması planlaşdırılır. Eyni zamanda, açıq mənbəli süni intellekt kitabxa-

nalarının yaradılması və Azərbaycan dilində süni intellekt həllərinin inkişaf etdirilməsi bu sahədə mühüm irəliləyişlərə yol açacaqdır.

Kadr hazırlığı və bacarıqların inkişafı istiqamətində isə süni intellekt sahəsində ixtisaslaşmış mütəxəssislərin hazırlanması üçün təlim və elmi proqramların genişləndirilməsi, ali təhsil müəssisələrində süni intellekt üzrə yeni tədris proqramlarının hazırlanması nəzərdə tutulur. Tədqiqatçılar üçün süni intellekt üzrə xüsusi fondların yaradılması və beynəlxalq institutlarla əməkdaşlığın genişləndirilməsi də bu sahədə əsas hədəflərdən biridir. Bundan əlavə, dövlət qulluqçuları və rəhbər şəxslər üçün süni intellekt və məlumatların idarə edilməsi üzrə təlimlər keçirilməsi süni intellektin dövlət idarəçiliyində səmərəli tətbiqini təmin edəcəkdir.

Süni intellekt ekosisteminin gücləndirilməsi, süni intellektin tətbiqini genişləndirmək üçün pilot layihələrin icrası və nəticədə biznesin inkişaf etdirilməsi Strategiyanın əsas istiqamətlərindən biri olacaqdır. Bunun üçün startap və innovasiya ekosisteminin dəstəklənməsi, süni intellekt sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və maliyyə dəstəyi verilməsi planlaşdırılır. Həmçinin, yerli və beynəlxalq investorların süni intellekt texnologiyalarına yönəlməsini təşviq etmək məqsədilə yeni mexanizmlər hazırlanacaqdır.

Eyni zamanda, süni intellekt üzrə nəzəri və praktiki tədqiqatların təşviqi üçün xüsusi proqramlar həyata keçiriləcəkdir. Süni intellekt üzrə elmi tədqiqat institutlarının yaradılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və süni intellekt texnologiyalarından kibertəhlükəsizlik sahəsində istifadə nəzərdə tutulur.

Strategiya çərçivəsində maarifləndirmə, həmçinin süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadənin təmin olunması istiqamətində də tədbirlər həyata keçiriləcəkdir. İctimaiyyətin süni intellekt barədə məlumatlandırılması, o cümlədən süni intellektin potensialı və riskləri haqqında təşviqat işinin təşkili, habelə süni intellektlə bağlı etik prinsiplərin qorunması əsas prioritetlərdən biri olacaqdır. Məlumatların məxfiliyinin və fərdi məlumatların qorunması üçün normativ hüquqi bazanın

gücləndirilməsi süni intellektdən təhlükəsiz istifadəyə şərait yaradacaqdır.

Strategiyanın icrası nəticəsində ölkədə süni intellektin inkişafı və tətbiqi üzrə daha sistemli yanaşma formalaşdırılacaq, innovasiyalar və texnoloji yeniliklərin tətbiqi üçün əlverişli mühit yaradılacaqdır.

## 2. Qlobal trendlər

Kanada dünyada süni intellekt üzrə strategiyanı ilk hazırlayan dövlətlərdən biri olaraq, "Pan-Canadian AI Strategy"ni 2017-ci ildə təqdim etmişdir. Həmin strategiyanın əsas məqsədi Kanadanın mövqeyini qlobal süni intellekt lideri olaraq möhkəmləndirmək, bu sahədə innovasiyaları artırmaq və süni intellektin cəmiyyətə müsbət təsirlərini təşviq etməkdir. Eyni zamanda, strategiya süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni, müxtəlifliyi və inklüzivliyi artırmağa və texnologiyanın tətbiqinin cəmiyyət üçün faydalı olmasının təmin edilməsinə yönəlmişdir.

Amerika Birləşmiş Ştatları "American AI Initiative" strategiyası vasitəsilə müvafiq sahədə tədqiqat və innovasiyaları maliyyələşdirir.

Çin "Next Generation AI Development Plan" çərçivəsində qlobal liderliyi hədəfləyir. "AI City" kimi layihələr vasitəsilə şəhərlərin idarə olunmasında süni intellekt texnologiyalarından istifadə edilir. Ölkə süni intellekt sahəsində patent liderliyini qoruyaraq, qlobal texnologiyalar bazarında önəmli mövqedədir.

"Avropa Süni İntellekt Strategiyası"nda süni intellektin tətbiqi zamanı etik prinsiplər və sosial dəyərlər ön plana çıxarılır. Bu sahədə Avropa İttifaqı kiçik sahibkarlara maliyyə dəstəyi və tədqiqat proqramlarına ciddi investisiyalar da ayırır. Eyni zamanda, Yaponiya "Cəmiyyət 5.0" konsepsiyası çərçivəsində texnologiyanın insan rifahına xidmət etməsini prioritet hesab edir və orada sosial problemlərin həllində texnologiyadan istifadə digər ölkələrin strategiyalarından fərqlənir.

Nəzərə alınmalıdır ki, yüksək effektivliyə malik olsa da, süni intellekt üçün həm qabiliyyət, həm də funksionallıq baxımından bir sıra həlli vacib məsələlər vardır. Hazırda qlobal təcrübədə süni intellekt sistemləri barədə müşahidə olunan çağırışlar aşağıdakılardır:

**1**. məlumatların dəqiqliyi: süni intellekt sistemləri vasitəsilə həyata keçirilən qərarvermə proseslərində obyektivliyin təmin edilməsi üçün dəqiq və mötəbər məlumatların toplanılması, eləcə də məlumatların düzgün emalı və təmizlənməsi zəruridir. Amerika Birləşmiş Ştatlarında və Avropa İttifaqında etik alqoritmlərin tətbiqi və məlumat təmizliyi standartları bu istiqamətdə əhəmiyyətli addımlardandır;

**2.** kibertəhlükəsizlik riskləri: süni intellekt sistemlərinin kibertəhlükələrə qarşı dayanıqlılığını artırmaq üçün qabaqcıl beynəlxalq təcrübələrdən faydalanmaq mümkündür;

**3.** yüksək enerji xərcləri: İsveç və Danimarka kimi ölkələr enerji effektivliyi üçün yaşıl texnologiyalardan istifadə edir. Bu yanaşma həm iqtisadi, həm də ekoloji baxımdan faydalıdır;

**4**. mütəxəssis çatışmazlığı: rəqəmsal təhsil və təlim proqramlarının genişləndirilməsi, Sinqapurda və Koreya Respublikasında olduğu kimi, mütəxəssis bazasını genişləndirməyin əsas yoludur;

**5**. qərarvermə proseslərində aşkarlıq: süni intellekt sistemləri vasitəsilə həyata keçirilən qərarvermə proseslərində tətbiq edilən metodologiyaların şəffaflığı və aşkarlığı təmin edilməlidir;

**6.** məlumatların mühafizəsi: dövlət sirrinin və əldə edilməsi məhdudlaşdırılan digər məlumatların mühafizəsi təmin edilməli və konfidensiallığı qorunmalıdır;

**7.** hesabatlılıq: qurumlar yaratdıqları və istifadə etdikləri süni intellekt sistemlərinə görə cavabdeh olmalı və məsuliyyət daşımalıdırlar.

2030-cu ildə süni intellektin 326 milyon işə təsir göstərəcəyi təxmin edilir. Vaxtında lazımi tədbirlər görülməsə, işlərin 67%-nin bu sahədə təhsili olmayan şəxslər tərəfindən icra ediləcəyi qaçılmaz olacaqdır. Süni intellekt sahəsində aparılmış araşdırma-

lara görə, 2030-cu ildə süni intellektin inkişafı və tətbiqinin sürətləndirilməsi nəticəsində qlobal ÜDM 14% artacaq ki, bu da əlavə 15,7 trilyon dollar deməkdir. Süni intellektin tətbiqinin iqtisadi təsiri aşağıdakı nəticələrə səbəb olacaqdır:

**1.** biznes proseslərini avtomatlaşdırmaqla (robotlardan və avtonom nəqliyyat vasitələrindən istifadə daxil olmaqla) məhsuldarlığın artırılması;

**2.** müəssisələrdə mövcud işçi qüvvəsini süni intellekt texnologiyaları (yardımçı və genişləndirilmiş intellekt) ilə inkişaf etdirərək məhsuldarlığın artırılması;

**3.** fərdiləşdirilmiş və (və ya) daha yüksəkkeyfiyyətli süni intellekt məhsul və xidmətlərinin təqdim edilməsi yolu ilə istehlakçı tələbatının artması.

## 3. Mövcud vəziyyətin təhlili

Amerika Birləşmiş Ştatları, Çin, Türkiyə, Danimarka, Estoniya, İsrail, Koreya Respublikası, Sinqapur və digər ölkələr tərəfindən süni intellekt texnologiyasının gətirdiyi imkanları iqtisadi artıma çevirmək, hər kəsin rifahına və daha təhlükəsiz yaşamına yönəltmək üçün məqsədləri, prinsipləri və prioritetləri əks etdirən hərtərəfli milli strategiyalar və proqramlar hazırlanmışdır.

Süni intellekt idarəçiliyi və onun hüquqi tənzimlənməsi süni intellekt sistemlərinin tətbiqində mühüm vasitə rolu oynadığından, süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni təmin etmək üçün aydın qaydalar və normalarla bağlı Azərbaycanda müvafiq normativ hüquqi baza yaradılmalıdır. Süni intellekt üçün tənzimləyici normaların təsbit edilməsi, həmçinin, süni intellektin istifadəsinin və faydalarının ədalətli şəkildə bölüşdürülməsində, fərdlərin hüquqlarının qorunmasında, etik qaydaların hazırlanması və süni intellektin cəmiyyətə potensial mənfi təsirini azaltmaq üçün tədbirlərin həyata keçirilməsində vacib rol oynayır.

Məlumatların real vaxt rejimində mübadiləsi və emalı zamanı bulud hesablama resurslarından və "Əşyaların interneti"ndən

istifadə, habelə cihazlar və sistemlər arasında əlaqə qurulması, eləcə də yüksəksürətli internet süni intellekt üçün vacib əhəmiyyətə malikdir.

Eyni zamanda, süni intellekt infrastrukturunu dəstəkləyən bulud infrastrukturunun, xüsusən də AWS, Google Cloud Platform və ya Microsoft Azure kimi əsas bulud provayderlərinin Azərbaycanda olmaması süni intellektin sürətlə mənimsənilməsi üçün ciddi maneələr yaradır.

2024-cü il yanvarın 1-nə Azərbaycan Respublikasında internet istifadəçilərinin sayı 9,19 milyon olmuşdur və internetdən istifadə səviyyəsi əhalinin 88,0 %-ni təşkil etmişdir. Genişzolaqlı internet istifadəçilərinin sayı isə 2,1 milyonu keçmişdir. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının “Elektron Hökumətin İnkişafı İndeksi”nin 2024-cü il hesabatında 193 ölkə arasında 74-cü yerdə qərarlaşır ki, bununla da ölkəmiz ilk dəfə indeksin ən yüksək kateqoriyası hesab edilən “Çox Yüksək EGDI” qrupuna daxil olmuşdur.

Azərbaycan Respublikasında dövlət idarəçiliyində operativliyin və səmərəliliyin artırılması məqsədilə “Elektron hökumət”in formalaşması artıq təmin olunmuş, həmçinin dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri və ehtiyatları vasitəsilə təqdim edilən elektron xidmətlərdən geniş istifadə edilməkdədir.

Cənubi Qafqaz regionunda ilk olaraq Azərbaycan Respublikasının TIER III səviyyəli, ISO 20000, ISO 27001 və PCI DSS standartlarına uyğun Data Mərkəzi yaradılmış və fəaliyyəti təmin edilmişdir. Data Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na əsasən formalaşdırılan “bulud” infrastrukturunun təminatçısıdır.

“Elektron hökumət”in inkişafı istiqamətində qanunla əldə olunması, işlənilməsi, verilməsi və ya istifadəsi məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş məlumatlara əlçatanlığın artırılmasını, həmin məlumatlardan səmərəli istifadə məqsədilə onların vahid bazada toplanmasını təmin edən “Açıq

məlumatlar" portalı yaradılmış, dövlət orqanları (qurumları) tərəfindən formalaşdırılan açıq məlumatların insan və maşın tərəfindən oxunabilən formatda portal vasitəsilə açıqlanması imkanı təmin edilmişdir. Hazırda "Açıq məlumatlar" portalına 500-dən çox məlumat dəsti inteqrasiya edilmişdir. Portalın yaradılması nəticəsində dövlət orqanlarında (qurumlarında) idarəetmədə şəffaflığın daha da artırılması, dövlət xidmətlərinin yaxşılaşdırılması, vətəndaş iştirakçılığının genişləndirilməsi ilə yanaşı, startaplar və digər biznes subyektlərinin yeni məhsul və xidmətlər yaratmaq, o cümlədən innovativ ideya və layihələri formalaşdırmaq üçün lazım olan açıq məlumatlarla təmin edilməsi hədəflənir.

Hazırkı qlobal geosiyasi və iqtisadi mühitdə digər dövlətlər, transmilli texnoloji şirkətlər tərəfindən süni intellekt texnologiyaları vasitəsilə Azərbaycanın milli strateji prioritetlərinə təsir göstərilməsi istisna olunmur. Bununla yanaşı, terrorçu təşkilatlar və beynəlxalq kriminal qruplaşmalar tərəfindən bu texnologiyalardan istifadə meyilləri hüquq mühafizə orqanları üçün yeni çağırışlar yaradacaqdır. Süni intellektin tətbiqi ilə ölkəmizə qarşı dezinformasiya hücumlarının həyata keçirilməsi cəhdlərinin, saxta kontent, o cümlədən "deepfake" audio-video materiallardan istifadənin artması da istisna olunmur. Kiberhücum və kibercinayətlərin həyata keçirilməsi üçün süni intellektin yaratdığı yeni imkanlardan, ziyanverici proqram təminatından istifadə oluna bilər. Bundan əlavə, "Əşyaların interneti" sensorlarında, "ağıllı telefonlar"da, avtonom nəqliyyat vasitələrində, "ağıllı ev" həllərində, sosial media platformalarında fərdi məlumatların daha effektiv toplanılmasını təmin edən (fərdi məlumatların mühafizəsinə təhdid yaradan) süni intellektin tətbiqi mümkündür. Göstərilən təhdidlərin qarşısının alınması və onlara qarşı əks-tədbirlərin həyata keçirilməsi üçün süni intellekt alətlərindən istifadə genişləndirilməlidir.

Ölkənin süni intellekt sahəsində inkişafı və rəqabət qabiliyyəti üçün həmin sahə üzrə istedad və bacarıqların artırılması, eləcə də təlimçilərin hazırlanması, ixtisasının yüksəldilməsi, habelə ölkənin işçi qüvvəsinin süni intellektlə idarə olunan iqtisadiyyata

hazırlığının təmin edilməsinə nail olmaq vacibdir. Texnologiyanın sürətli inkişafı və müxtəlif sənayelərdə istifadəsinin genişlənməsi nəticəsində süni intellekt üzrə mükəmməl bilik və bacarıqlara malik mütəxəssislərə tələb artmaqdadır. Belə ki, 2016-cı ildən 2022-ci ilə qədər data elmi və maşın öyrənməsinə olan tələbat əsasında elanların sayı 60 dəfə artmışdır. "LinkedIn" sosial şəbəkə platformasındakı araşdırmalara əsasən, data elmi və maşın öyrənməsi üzrə ixtisaslaşmış təcrübəli mütəxəssislərin azlığı diqqət çəkir.

Dünyada süni intellekt hazırlığını ölçən qlobal indekslərdən "Süni İntellekt Qlobal İndeksi"ndə Azərbaycan 2024-cü ildən etibarən yer almaqdadır və 83 ölkə arasında 78-ci yerdədir. "Hökumətin Süni İntellekt Hazırlıq İndeksi"nin 2024-cü ildəki hesabatına əsasən, Azərbaycan 188 ölkə arasında 111-ci yerdədir. Süni intellektin inkişafı məqsədilə Strategiyanın formalaşdırılması ölkənin beynəlxalq indekslərdə, o cümlədən "Hökumətin Süni İntellekt Hazırlıq İndeksi"ndə irəliləməsinə töhfə verən əsas göstəricilərdən birinə çevriləcəkdir.

Ölkədə süni intellektlə bağlı mövcud çağırışlar aşağıdakı istiqamətlərdə işlər görülməsini tələb edir:

**1.** data elmi və maşın öyrənməsi üzrə təhsil proqramlarının genişləndirilməsi – universitetlərdə və digər təhsil müəssisələrində bu sahələr üzrə ixtisaslaşmış proqramların yaradılmasını və mövcud proqramların təkmilləşdirilməsini;

**2.** akademik tədqiqatçıların və mütəxəssislərin dəstəklənməsi – yüksək texnologiya sahəsində çalışan alim və tədqiqatçılar üçün rəqabətqabiliyyətli əməkhaqqı təklif edilməsini və onların fəaliyyətinin stimullaşdırılmasını;

**3.** məlumat bazalarına çıxışın təmin edilməsi – tədqiqat institutları və digər qurumlar tərəfindən toplanılan açıq məlumatlara tədqiqatçılar və mütəxəssislər üçün çıxış imkanlarının artırılmasını;

**4.** süni intellektin inkişafını dəstəkləyən qanunvericilik bazasının yaradılması – süni intellektin tədqiqi və tətbiqi üçün əlverişli hüquqi mühitin formalaşdırılması və mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsini;

**5.** məlumatların məxfiliyinin və təhlükəsizliyinin təmin edilməsi – fərdi məlumatların qorunması və kibertəhlükəsizlik sahəsində müvafiq qanunların qəbul edilməsini və tətbiqini;

**6.** süni intellektin təbliği – cəmiyyət arasında süni intellektin əhəmiyyəti və faydaları barədə məlumatlandırma kampaniyalarının keçirilməsini;

**7.** ictimaiyyətin maarifləndirilməsi – süni intellektin tətbiqi ilə bağlı potensial risklər və onların idarə edilməsi barədə ictimaiyyətin məlumatlandırılmasını;

**8.** süni intellekt sahəsində fəaliyyət göstərən şirkətlərin dəstəklənməsi – bu sahədə fəaliyyət göstərən yerli şirkətlərin sayının artırılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini;

**9.** dövlət–özəl sektor əməkdaşlığının gücləndirilməsi – süni intellektin müxtəlif sahələrdə tətbiqi üçün dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmlərinin yaradılmasını və inkişaf etdirilməsini.

Yuxarıda qeyd olunan istiqamətlərdə atılacaq addımlar Azərbaycanda süni intellektin inkişafını sürətləndirəcək və onun müxtəlif sahələrdə səmərəli tətbiqinə şərait yaradacaqdır.

## 4. Hədəf göstəriciləri

**4.1.** Strategiyanın icrası nəticəsində aşağıda qeyd olunan hədəflərə nail olunması nəzərdə tutulur:

**4.1.1.** ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması;

**4.1.2**. süni intellektin tətbiqi üçün əlverişli şərait yaradılması;

**4.1.3.** süni intellekt sənayesində işləmək üçün ixtisaslı işçi qüvvəsinin hazırlanması;

**4.1.4.** cəmiyyətin bütün üzvlərinə süni intellektin faydalarının geniş şəkildə təbliğ edilməsi.

## 5. Strategiyanın məqsədləri

**5.1.** Strategiyanın əsas məqsədləri aşağıdakılardır:

**5.1.1.** ölkədə müəyyən edilmiş prioritet sektorlar üzrə süni

intellekt sənayesinin, o cümlədən onun davamlılığının və rəqabət qabiliyyətinin təmin edilməsi;

**5.1.2**. süni intellekt sənayesində işləmək üçün lazımi bilik və bacarıqlara malik ixtisaslı işçi qüvvəsinin hazırlanması;

**5.1.3.** dəqiq qərar qəbulu ilə səmərəliliyi və şəffaflığı artırmaq, vətəndaşlara daha keyfiyyətli xidmətlər göstərmək və daxili idarəetmə proseslərini optimallaşdırmaq üçün süni intellektin dövlət idarəetməsində tətbiq edilməsi;

**5.1.4.** yerli, regional və beynəlxalq bazar ehtiyaclarına xidmət edən regional süni intellekt təlimi və istedad mərkəzlərinin yaradılması;

**5.1.5.** süni intellekt sistemlərinin yerləşdirilməsi, böyükhəcmli məlumatların emalı və analitik təhlili üçün hesablama maşınlarının və məlumat mərkəzlərinin artırılması;

**5.1.6.** mürəkkəb riyazi əməliyyatları yerinə yetirmək və sistemləri simulyasiya etmək, nümunələri yenidən yaratmaq və digər yüksək hesablama tələb edən işləri yerinə yetirmək üçün yüksəksəviyyəli hesablama infrastrukturunun inkişaf etdirilməsi;

**5.1.7.** ölkə qanunvericiliyində süni intellektin əsaslarının və normalarının işlənilməsi və süni intellektdən istifadə üçün etik prinsiplər və qaydaların formalaşdırılması;

**5.1.8**. süni intellekt sistemlərinin yaradılmasında və davamlı təkmilləşdirilməsində süni intellekt üzrə qlobal standartların tətbiq edilməsi;

**5.1.9.** süni intellektin tədqiqatını həyata keçirmək və süni intellekt sistemlərini hazırlamaq üçün sektorlar arasında əməkdaşlığın təşviq edilməsi;

**5.1.10.** süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi və vətəndaşların hüquqlarının və məlumatların məxfiliyinin qorunması;

**5.1.11.** süni intellektin məlumat qərəzi törətməməsi, ondan dövlətin, cəmiyyətin və vətəndaşların maraqlarına zidd məqsədlər üçün istifadənin qarşısının alınması;

**5.1.12.** innovasiyalı həllərin tətbiqi zamanı yaranan risklərin və dəyən ziyanın azaldılmasının təmin edilməsi;

**5.1.13**. milli təhlükəsizliyin, o cümlədən informasiya təhlükəsizliyinin, informasiyanın manipulyasiyasının, habelə dezinformasiya hücumlarının qarşısının alınması və süni intellekt sistemlərinin mühafizəsinin təmin edilməsi üçün süni intellekt üzrə rəqəmsal alətlərin etimadlılıq səviyyələrinin gücləndirilməsi və süni intellektin tətbiqinin genişləndirilməsi.

## 6. Strategiyanın prioritet istiqamətləri

**6.1.** Strategiya çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlər həyata keçiriləcəkdir:

**6.1.1.** Süni intellektin idarə edilməsinin inkişafı və təkmilləşdirilməsi:

**6.1.1.1**. **Əsaslandırma:** innovasiyaları təşviq edən, sərmayələri cəlb edən, cəmiyyətin maraqlarını və dəyərlərini qoruyan süni intellekt üzrə idarəetmə sisteminin yaradılması və dünyada süni intellektin məsuliyyətli inkişafı üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edilməsi Strategiyanın prioritet istiqamətlərindən biridir. Beləliklə, innovatorları, tədqiqatçıları və sahibkarları effektiv şəkildə dəstəkləyən, fəaliyyətləri stimullaşdıran, eyni zamanda əhalinin süni intellekt texnologiyalarına inamını təmin edən idarəetmə sistemi formalaşdırılacaqdır;

**6.1.1.2. Görüləcək tədbirlər:**

**6.1.1.2.1**. süni intellektin inkişafı üçün milli prioritet sektorların və sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi;

**6.1.1.2.2**. süni intellekt üzrə sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi;

**6.1.1.2.3.** məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi bazanın yaradılması;

**6.1.1.2.4**. süni intellekt sistemlərinin dizaynı, tətbiqi və istifadəsi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının təsdiq edilməsi;

**6.1.1.2.5.** süni intellekt üzrə standartlaşdırmanın tətbiq edilməsi;

**6.1.1.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.1.3.1.** innovasiyaları təşviq edən, investisiyaları cəlb edən və cəmiyyətin maraqlarını qoruyan süni intellekt idarəetmə sisteminin qurulması;

**6.1.1.3.2.** süni intellektin təsirini artırmaq və resurslardan daha səmərəli istifadəni təmin etmək üçün kənd təsərrüfatı, səhiyyə, nəqliyyat, təhsil və digər prioritet sektorların müəyyən edilməsi;

**6.1.1.3.3.** süni intellekt tətbiqlərində şəffaflığı, ədalətliliyi və etik prinsiplərə uyğunluğu təmin etmək üçün hüquqi çərçivənin hazırlanması və beynəlxalq standartlara uyğun milli normativ hüquqi bazanın işlənilməsi və tətbiqi;

**6.1.1.3.4.** süni intellekt ekosistemində qlobal səviyyədə Azərbaycan Respublikasının mövqeyini gücləndirmək məqsədilə regional və beynəlxalq tərəfdaşlıqların inkişaf etdirilməsi;

**6.1.1.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.1.4.1.** milli prioritet sektorların müəyyən edilməsi zamanı sektorların müəyyən edilməsində mübahisələr və ya resursların qeyri-bərabər bölgüsü baş verə bilər ki, bu da bəzi sahələrin digər sahələrə nisbətən daha az dəstək almasına və inkişafın qeyri-bərabər olmasına səbəb ola bilər.

Bu riski neytrallaşdırmaq üçün, süni intellektin tətbiqi potensialı və tələblərini nəzərə alaraq, hər bir sektorda ətraflı təhlillər aparılacaq, mütəxəssislərin və ekspertlərin fikirləri, təklifləri əsasında prioritet sektorlar müəyyənləşdiriləcək, pilot layihələr həyata keçiriləcək və resurslar balanslı şəkildə bölüşdürüləcəkdir;

**6.1.2.** Məlumat idarəetməsinin və infrastrukturunun təkmilləşdirilməsi:

**6.1.2.1. Əsaslandırma:** məlumat idarəetməsinin və infrastrukturunun təkmilləşdirilməsi rəqəmsal transformasiyanın əsasını təşkil edərək, dövlət orqanları (qurumları) və özəl sektor üçün etibarlı, səmərəli və innovativ həllərin inkişafını təmin edəcəkdir.

Məlumatların effektiv idarə olunması, açıq məlumatların genişləndirilməsi, yüksəksəviyyəli hesablama imkanlarının artırılması və Təbii Dil Emalı (bundan sonra – TDE) texnologiyalarının gücləndirilməsi süni intellektin və data əsaslı qərar qəbuletmənin inkişafına töhfə verəcəkdir;

**6.1.2.2. Görüləcək tədbirlər:**

**6.1.2.2.1.** yüksəksəviyyəli hesablama infrastrukturunun inkişafı;

**6.1.2.2.2.** TDE üzrə istiqamətlərin gücləndirilməsi;

**6.1.2.2.3**. məlumatlardan səmərəli və effektiv istifadə, onların təhlükəsizliyinin və fərdi məlumatların mühafizəsinin təmin edilməsi, məlumatyönümlü idarəetməyə keçidin təşkili;

**6.1.2.3**. **Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.2.3.1.** Azərbaycan dilində TDE texnologiyalarının inkişaf etdirilməsi və dilin qlobal rəqəmsal məkanda mövqeyinin gücləndirilməsi;

**6.1.2.3.2.** süni intellekt alqoritmlərinin öyrədilməsi, modellərinin və nümunələrinin təlimi və tətbiqi üçün yüksəksəviyyəli hesablama infrastrukturunun inkişaf etdirilməsi;

**6.1.2.3.3**. ictimaiyyətin süni intellekt mövzusunda bilik səviyyəsinin artırılması;

**6.1.2.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.2.4.1.** yüksəksəviyyəli hesablama infrastrukturu və TDE texnologiyalarının inkişafı zamanı maliyyə və texniki resurs çatışmazlığı yarana bilər. Bu resursların kifayət qədər ayrılmaması infrastrukturun təkmilləşdirilməsini məhdudlaşdıra, layihələrin gecikməsinə və ya məhdud miqyasda icrasına səbəb ola bilər.

Bu riskin qarşısını almaq üçün investisiya imkanlarının genişləndirilməsi, beynəlxalq və yerli donorlar, eləcə də innovasiya və texnologiya fondlarından maliyyə cəlb edilməsi nəzərdə tutulur;

**6.1.2.4.2.** TDE sistemləri şəxsi və həssas məlumatlarla işləyə bilər, bu isə məxfiliyin pozulmasına gətirib çıxarar.

Bu problemin aradan qaldırılması üçün məlumatların anonimləşdirilməsi, tənzimləyici qaydalara uyğun məlumat emalı, şifrələmə texnologiyalarının tətbiqi nəzərdə tutulur;

**6.1.3.** Süni intellekt üzrə istedad və bacarıqların təkmilləşdirilməsi:

**6.1.3.1**. **Əsaslandırma:** süni intellekt sahəsində ölkədə yüksəkixtisaslı kadr potensialının inkişafı və təkmilləşdirilməsi, prioritet sektorların tələblərinə uyğun şəkildə dövlət orqanlarının (qurumlarının) rəhbər heyəti və mütəxəssisləri üçün təlimlərin keçirilməsi, həmçinin süni intellekt və məlumat idarəetməsi üzrə tədqiqatların təşviq edilməsi ölkənin rəqəmsal inkişafının gücləndirilməsinə töhfə verəcəkdir. Bununla yanaşı, məsuliyyətli və etik süni intellekt tətbiqlərinin genişləndirilməsi və fərdi məlumatların qorunması ilə bağlı təlimlərin keçirilməsi ictimaiyyətin məlumatlılığını artıracaq, süni intellekt texnologiyaları ilə bağlı maariflənmə səviyyəsini möhkəmləndirəcək və müvafiq sahədə yerli bacarıqların inkişafını sürətləndirəcəkdir;

**6.1.3.2. Görüləcək tədbirlər:**

**6.1.3.2.1**. ölkədə müəyyən edilmiş prioritet sektorlar üzrə dövlət orqanlarının (qurumlarının) rəhbər heyəti üçün süni intellekt və data təliminin təşkil edilməsi;

**6.1.3.2.2**. süni intellekt və məlumat idarəetməsi üzrə kadr potensialının gücləndirilməsi;

**6.1.3.2.3.** süni intellekt və məlumat idarəetməsi üzrə təlimlərin təşkili və keçirilməsi üçün müvafiq təlimçilərin hazırlanması, eləcə də cəlb edilməsi;

**6.1.3.2.4**. süni intellekt, xüsusilə məsuliyyətli və etik süni intellekt, süni intellekt sistemlərinin tətbiqi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması;

**6.1.3.2.5.** süni intellekt üzrə tədqiqatların təşviq edilməsi;

**6.1.3.3**. **Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.3.3.1**. akademik və praktiki səviyyədə süni intellekt və data elminə dair biliklərin artırılması və müvafiq təhsil proqramlarının genişləndirilməsi;

**6.1.3.3.2.** süni intellekt sahəsində mütəxəssislər hazırlanması və qeyri-texniki rollar üçün səriştə standartlarının müəyyən edilməsi;

**6.1.3.3.3.** süni intellekt texnologiyalarının imkanları, riskləri və faydaları barədə əhalinin məlumatlandırılması və texnologiyaya inamın artırılması;

**6.1.3.4**. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.3.4.1**. süni intellekt və məlumat idarəetməsi sahəsində mütəxəssislərin hazırlanması, həmçinin dövlət orqanlarının (qurumlarının) rəhbər heyətinin bu sahədə biliklərinin təkmilləşdirilməsi üçün təşkil olunan təlim və inkişaf proqramlarında təlimçilərin məhdud sayda olması və ya kifayət qədər hazırlıqlı olmaması yerli kadrların bilik səviyyəsinin yüksəlməsinə mane ola və sahəyə marağı azalda bilər.

Bu riskin neytrallaşdırılması və proqramların keyfiyyətinin artırılması məqsədilə Süni İntellekt Akademiyasının yaradılması və nüfuzlu xarici təhsil müəssisələri ilə əməkdaşlıq nəzərdə tutulur. Həmin tədbirlər yerli kadr potensialını gücləndirəcək, sahəyə olan marağı artıracaq və inkişafı sürətləndirəcəkdir;

**6.1.3.4.2**. sənaye ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlıq və əlaqələndirmənin zəif olması, sənaye sektorunun süni intellekt texnologiyalarına maraq göstərməməsi nəticəsində peşəkar kadrların bilik və bacarıqlarını real mühitdə tətbiq etmək imkanları məhdudlaşa bilər ki, beləliklə də kadrların formalaşması və inkişafı ləngiyər. Bundan əlavə, süni intellektdən biznesdə real istifadəyə dair praktiki nümunələrin azlığı gənc mütəxəssislərin bu sahəyə marağının azalmasına səbəb ola bilər.

Bu riskin aradan qaldırılması üçün yaradılması nəzərdə tutulan Süni İntellekt Akademiyası, sənaye və dövlət orqanları (qurumları) arasında sıx əməkdaşlığın qurulması və süni intellektin biznes üçün yaratdığı imkanlar barədə geniş məlumatlandırma aparılması planlaşdırılır;

**6.1.3.4.3**. texnoloji infrastrukturun qeyri-kafi olması və innovasiya üçün əlverişli mühitin yaradılmaması süni intellekt üzrə istedad və bacarıqların təkmilləşdirilməsi qarşısında dayanan çox ciddi risklərdən biridir. Süni intellektin effektiv tətbiqi üçün güclü və müasir texnoloji infrastruktura ehtiyac vardır. Bu infrastrukturun olmaması və ya zəif olması layihələrin uğurla icrasını çətinləşdirə bilər.

Bu riski neytrallaşdırmaq üçün süni intellektə uyğun yüksəksəviyyəli hesablama infrastrukturunun inkişaf etdirilməsi və müasirləşdirilməsi üçün əlavə sərmayələr qoyulması nəzərdə tutulur. Həmçinin, texnoloji mühitin inkişafı məqsədilə pilot layihələrin sənaye infrastrukturlarında real olaraq tətbiq edilməsi, innovasiya mərkəzlərinin, Süni İntellekt Akademiyasının və laboratoriyaların inkişaf etdirilməsi, startaplara dəstək proqramlarının təşkil olunması planlaşdırılır;

**6.1.4.** Əlverişli biznes mühitinin yaradılması:

**6.1.4.1. Əsaslandırma:** əlverişli biznes mühitinin yaradılması sahəsində süni intellekt texnologiyalarının tətbiqi üzrə yerli və xarici investisiyaların cəlb edilməsi, sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin genişləndirilməsi və texnologiya parklarında fəaliyyət göstərən rezidentlərin artırılması ölkənin rəqəmsal iqtisadiyyatını gücləndirəcəkdir. Bu tədbirlər süni intellekt sahəsində innovativ təşəbbüsləri stimullaşdıraraq iqtisadi mühitin inkişafına və işgüzar mühitin yaxşılaşdırılmasına töhfə verəcək, həm yerli, həm də xarici investorların marağını artıracaqdır. Beləliklə, ölkə üzrə süni intellekt texnologiyalarının istehsalı və tətbiqi sahəsində əhəmiyyətli irəliləyişə nail olunacaqdır;

**6.1.4.2**. **Görüləcək tədbirlər:**

**6.1.4.2.1.** ölkə üzrə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı yerli və xarici investisiyaların cəlb edilməsi üçün tədbirlər görülməsi;

**6.1.4.2.2**. ölkə üzrə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi;

**6.1.4.2.3.** ölkə üzrə texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarının istehsalı ilə bağlı fəaliyyət göstərən rezidentlərin cəlb edilməsi;

**6.1.4.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

**6.1.4.3.1.** süni intellekt texnologiyalarına əsaslanan innovativ startapların inkişaf etdirilməsi, mövcud innovasiya ekosisteminin gücləndirilməsi və yeni iş yerlərinin yaradılması;

**6.1.4.3.2.** Azərbaycanın süni intellekt sahəsində regional lider mövqeyinin möhkəmləndirilməsi və qlobal rəqəmsal ekosistemdə tanınması ilə bağlı fəaliyyətin gücləndirilməsi;

**6.1.4.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

**6.1.4.4.1.** daxili bazarın kiçik olması və bu sahədə fəaliyyət göstərən şirkətlərin yeni olması xarici investisiya marağını azaldır.

Bu riskin neytrallaşdırılması məqsədilə beynəlxalq partnyorluqların genişləndirilməsi və xarici şirkətlərlə əməkdaşlığın təşviqi nəzərdə tutulur;

**6.1.4.4.2**. texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarının istehsalı üzrə fəaliyyət göstərən rezidentlərin cəlb edilməsi zamanı uyğun biznes mühiti və infrastrukturun olmaması süni intellektin inkişafını və tətbiqini ləngidə bilər.

Bu riskin qarşısını almaq üçün texnologiya şirkətləri ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi nəzərdə tutulur.

## 7. Maliyyələşdirmə mexanizmləri

Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planında qeyd olunan tədbirlərin maliyyələşdirilməsi büdcə təşkilatları tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına, habelə dövlət–özəl tərəfdaşlığı layihələri vasitəsilə təmin olunur.

## 8. Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı qurumlar fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Süni intellektin idarə edilməsinin inkişafı və təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.1. | Süni intellektin inkişafı üçün milli prioritet sektorların və sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi | NK | RİNN, XRİTDX, DTX və aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2026 | Ölkənin strateji hədəflərinin, qlobal tendensiyaların ilkin təhlili və bazar araşdırmasının aparılması | Süni intellekt üzrə prioritet sektorların və müvafiq sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısının hazırlanması | Süni intellekt üzrə prioritet sektorların və müvafiq sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısının təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.1.2. | Süni intellekt üçün sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi | NK | RİNN, XRİTDX, DTX və aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Dövlət orqanlarının (qurumlarının) süni intellekt sahəsində potensialının və resurslarının qiymətləndirilməsi | Müəyyən edilmiş hər bir prioritet sektor üzrə dövlət orqanları (qurumları) tərəfindən fəaliyyət planlarının hazırlanması | Hazırlanmış fəaliyyət planlarının əlaqələndirilmiş şəkildə icra edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.3. | Məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi bazanın yaradılması | NK | RİNN, İN, DTX, XRİTDX | 2025–2027 | Normativ hüquqi baza yaradılması məqsədilə təhlillər aparılması | Məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi aktların layihələrinin hazırlanması və təqdim edilməsi | Məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi aktların qəbul edilməsi |
| 8.1.4. | Süni intellekt sistemlərinin dizaynı, tətbiqi və istifadəsi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının təsdiq edilməsi | NK | RİNN, aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2027 | Beynəlxalq təcrübənin araşdırılması və yerli normativ hüquqi bazanın təhlil olunması | Fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının hazırlanması və təsdiq üçün təqdim olunması | Fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının təsdiq olunması |
| 8.1.5. | Süni intellekt üzrə standartlaşdırmanın tətbiq edilməsi | RİNN | AİBNDA, DTX, XRİTDX | 2025–2028 | Standartlaşdırma üzrə beynəlxalq təşkilatın süni intellekt standartlarının araşdırılması | Süni intellekt üzrə ən azı 3 dövlət standartının hazırlanması, standartlaşdırma üzrə dövlət fonduna və dövlət reyestrinə daxil edilmək üçün təqdim olunması | Süni intellekt üzrə təsdiq olunmuş dövlət standartları haqqında geniş ictimai maarifləndirmə və məlumatlandırma tədbirlərinin görülməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **8.2. Məlumatların idarəedilməsinin və infrastrukturunun təkmilləşdirilməsi** | | | | | | | |
| 8.2.1. | Yüksəksəviyyəli hesablama infrastrukturunun inkişafı | RİNN | ETN, İN | 2026–2028 | Yüksəksəviyyəli hesablama infrastrukturu üçün tələblərin müəyyən edilməsi | Qrafik Prosessor Modullarının alınaraq Data Mərkəzlərində qurulması | İctimai istifadə üçün seqmentlərin müəyyən edilməsi və istifadəyə verilməsi |
| 8.2.2. | TDE üzrə istiqamətlərin gücləndirilməsi | RİNN | VXSİDA, aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Azərbaycan dilində böyük verilənlər bazalarının yaradılması | Yüksəkdəqiqlikli TDE modellərinin hazırlanması | Pilot 5 dövlət xidmətində TDE texnologiyalarının tətbiq edilməsi |
| **8.3. Süni intellekt sahəsində istedad və bacarıqların təkmilləşdirilməsi** | | | | | | | |
| 8.3.1. | Ölkədə müəyyən edilmiş prioritet sektorlar üzrə dövlət orqanlarının (qurumlarının) rəhbər heyəti üçün süni intellekt və data təliminin təşkil edilməsi | RİNN | ETN, İN, MN, XRİTDX, DTX | 2026–2027 | Süni İntellekt Akademiyasının fəaliyyətə başlaması<br><br>İnteraktiv tədris platformasının istifadəyə verilməsi | Süni İntellekt Akademiyasının fəaliyyəti çərçivəsində ən azı 2 nüfuzlu xarici universitetlə (dünya reytinqində ilk 10 pillədə qərarlaşan) süni intellektin tədrisi sahəsində əməkdaşlığın təmin edilməsi | Süni intellekt sahəsində 500 mühəndisin yetişdirilməsi<br><br>3000 nəfərlik süni intellekt icmasının formalaşdırılması<br><br>Müxtəlif dövlət orqanlarından (qurumlarından) 500 əməkdaşın "Menecerlər |
| 8.3.2. | Süni intellekt və məlumat idarəetməsi üzrə kadr potensialının gücləndirilməsi | RİNN, ETN | İN, ƏƏSMN, XRİTDX | 2026–2028 | Yarışma platformasının istifadəyə verilməsi | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.3.3. | Süni intellekt və məlumatların idarəedilməsi üzrə təlimlərin təşkili və keçirilməsi üçün müvafiq təlimçilərin hazırlanması, eləcə də cəlb edilməsi | RİNN, ETN | İN ƏƏSMN, XRİTDX, DTX | 2026–2028 | İctimaiyyətin süni intellekt mövzusunda bilik səviyyəsini artırmaq məqsədilə ehtiyacların müəyyən edilməsi | Süni intellektlə bağlı məlumat və resurslar üçün platformanın yaradılması | üçün süni intellekt" təlimlərindən məzun olması<br><br>İnteraktiv tədris platformasında istifadəçilərin sayının 10000-ə çatdırılması<br><br>Yarışma platformasında ümumilikdə 1000 istifadəçi ilə 10 yarışmanın keçirilməsi<br><br>Süni intellektin təsiri və faydaları (o cümlədən fərdi məlumatların işlənilməsi və mühafizəsi) ilə bağlı məlumatların yerli mediada işıqlandırılması və ictimai müzakirələrin təşviqi |
| 8.3.4. | Süni intellekt, xüsusilə məsuliyyətli və etik süni intellekt, süni intellekt sistemlərinin tətbiqi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması | RİNN | ETN, İN | 2025–2027 | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.3.5. | Süni intellekt üzrə tədqiqatların təşviq edilməsi | ETN | RİNN, İN, MN | 2025–2028 | Yerli və beynəlxalq maliyyə institutları vasitəsilə süni intellektlə bağlı tədqiqatların maliyyələşdirilməsi istiqamətində əməkdaşlığın qurulması və ən azı 10 elmi tədqiqata maliyyə vəsaitinin cəlb edilməsi | Tədqiqatçıları, təcrübəçiləri və sənaye liderlərini ideyalarını bölüşmək və yeni həllər hazırlamaq üçün bir araya gətirmək üçün ən azı 20 konfrans, seminar və hakaton kimi tədbirlərin təşkil edilməsi | Ən son tədqiqatların praktiki tətbiqlərə çevrilməsini təmin etmək üçün akademiyalar, sənaye və dövlət orqanları (qurumları) arasında ən azı 10 əməkdaşlığın qurulması |
| **8.4. Əlverişli biznes mühitinin yaradılması** | | | | | | | |
| 8.4.1. | Ölkə üzrə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı yerli və xarici investisiyaların cəlb edilməsi məqsədilə tədbirlərin görülməsi | RİNN, İN | | 2025–2028 | Yerli və xarici investisiyaların müəyyən edilmiş prioritet sektorlara cəlb olunması | | Müəyyən edilmiş prioritet sektorlar üzrə azı 3 pilot layihənin həyata keçirilməsi |
| 8.4.2. | Ölkədə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı sahibkarlıq subyektlərinə güzəştli | İN | RİNN, MN | 2025–2028 | Sahibkarlıq subyektlərinin süni intellektin tətbiqi ilə bağlı üzləşdikləri maliyyə çatışmazlı- | Sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin tətbiqi ilə bağlı normativ hüquqi | Güzəştli maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə təşviqat tədbirləri- |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi | | | | ğının tədqiq olunması | akt layihələrinin hazırlanması və təsdiq üçün təqdim olunması | nin həyata keçirilməsi<br><br>Azı 50 sahibkarlıq subyektinə güzəştli kredit verilməsi |
| 8.4.3. | Ölkənin texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarının istehsalı ilə bağlı fəaliyyət göstərən rezidentlərin cəlb edilməsi | RİNN, İN | | 2025–2028 | Süni intellekt texnologiyalarının istehsalı məqsədilə rezidentlərin cəlb edilməsi ilə bağlı araşdırmalar aparılması | Texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarını istehsal edən rezidentlərin cəlb edilməsi | Ölkə üzrə texnologiya parklarında və sənaye zonalarında süni intellekt texnologiyalarının istehsalı |

## 9. Akronimlər

**NK** – Azərbaycan Respublikasının Nazirlər Kabineti

**RİNN** – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

**İN** – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**MN** – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

**ETN** – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

**XRİTDX** – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti

**AİBNDA** – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi

**VXSİDA** – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi.

## “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müstəqil Azərbaycan Respublikasında həyatın müxtəlif sahələrində aparılan islahatlar içərisində latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi böyük tarixi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli və “Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında” 9 avqust 2001-ci il tarixli fərmanları ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olmuş və latın qrafikalı Azərbaycan əlifbasına keçidi bütövlükdə təmin etmişdir. Latın qrafikalı Azərbaycan əlifbası artıq həyatımızın bütün sahələrində tam yerini tutmuşdur. Bununla yanaşı Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır.

Dövlət müstəqilliyinin başlıca rəmzlərindən biri sayılan ana dilinə dövlət qayğısının daha da artırılmasını təmin etmək, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən gözəl nümunələrini müasir dövrdə təbliğ etmək və gələcək nəsillərə çatdırmaq məqsədilə Azərbaycan dilində əvvəllər kiril qrafikasında çap olunmuş əsərlərin latın qrafikası ilə yenidən nəşrinin kütləvi şəkildə həyata keçirilməsi zərurətini nəzərə alaraq qərara alıram:

**1.** 2004-cü ildə latın qrafikası ilə ilk mərhələdə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq olunsun (siyahı əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti 2004-cü ildə Azərbaycan Respublikasının bütün kütləvi kitabxanalarına və orta tədris müəssisələrindəki kitabxanalara latın qrafikası ilə

yenidən çap olunmuş kitabların alınması üçün zəruri vəsaitin ayrılmasını təmin etsin.

**3.** Azərbaycan Respublikası prezidentinin İcra Aparatına tapşırılsın ki,

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə 2005-2008-ci illərdə latın qrafikası ilə yenidən çapı nəzərdə tutulan əsərlərin siyahısını bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

- Azərbaycan Respublikasının Nazirlər Kabineti və respublikanın maliyyə qurumları ilə birlikdə müvafiq plan-qrafik tərtib edib latın qrafikası ilə yenidən nəşr olunması nəzərdə tutulan kitabların çapını təmin etsin;

- Azərbaycan Respublikasının aidiyyatı qurumları ilə birlikdə yenidən çapı nəzərdə tutulan kitabların mətnlərinin elektron daşıyıcıları və internet vasitələri ilə yayılmasını, latın qrafikasında Azərbaycan ədəbiyyatının virtual kitabxanasının yaradılmasını təmin etsin.

**4.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 yanvar 2004-cü il*

*Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli 56 nömrəli Sərəncamı ilə təsdiq olunmuşdur*

# Azərbaycan dilində latın qrafikası ilə ilk növbədə yenidən nəşri nəzərdə tutulan kitabların siyahısı

**Lüğət və ensiklopediyalar**

Azərbaycan dilinin izahlı lüğəti
Azərbaycan dilinin orfoqrafiya lüğəti
"Azərbaycan Xalq Cümhuriyyəti" ensiklopediyası
Azərbaycanca-ingiliscə lüğət
Azərbaycanca-rusca lüğət
"Ədəbiyyat və incəsənət" ensiklopediyası
İngiliscə-azərbaycanca lüğət
Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti
Rusca-azərbaycanca lüğət

**Azərbaycan xalq ədəbiyyatı**

Aşıq ədəbiyyatından seçmələr, 3 clddə Atalar sözü və məsəllər
Azərbaycan dastanları, 5 cilddə
Azərbaycan folkloru (məktəblilər üçün seçmələr) Azərbaycan xalq ədəbiyyatından seçmələr (qaravəllilər, xalq tamaşaları və oyunlar)
Azərbaycan xalq mahnıları (not yazıları ilə), 3 cilddə Azərbaycan nağılları, 5 cilddə
Bayatılar
Bunu əzbərləməyə dəyər (folklor poeziyasından seçmələr) "Əfsanə, əsatir və rəvayətlər"
Kitabi-Dədə Qorqud", 3 cilddə

"Koroğlu" dastanı, 2 cilddə
"Qaçaq Nəbi" dastanı
Molla Nəsrəddin lətifələri
Tapmacalar

**Klassik və müasir Azərbaycan ədəbiyyatı**
Abbas Səhhət. Əsərlər, 2 cilddə
Abdulla Şaiq. Əsərlər, 3 cilddə
Axundov Süleyman Sani. Seçilmiş əsərlər
Axundzadə Mirzə Fətəli. Əsərlər, 3 cilddə
Almas İldırım. Əsərlər
Anar. Seçilmiş əsərlər
Aşıq Ələsgər. Əsərlər, 2 cilddə
Azərbaycan şeiri antologiyası (XIX əsr)
Azərbaycan şeiri antologiyası (XX əsr)
Azərbaycan uşaq ədəbiyyatı antologiyası, 3 cilddə
Azərbaycanın qadın şairləri antologiyası
Azəroğlu Balaş. Əsərlər
Bakıxanov Abbasqulu ağa. Seçilmiş əsərlər
Cabbarzadə Zeynal. Əsərlər
Cabir Novruz. Əsərlər
Cəfər Cabbarlı. Əsərlər, 4 cilddə
Çəmənzəminli Yusif Vəzir. Əsərlər, 3 cilddə "Dastani-Əhməd Hərami"
Dilbazi Mirvarid. Əsərlər
Elçin. Seçilmiş əsərlər
Əfəndiyev İlyas. Əsərlər, 3 cilddə
Əhməd Cavad. Əsərlər
Əkrəm Əylisli. Seçilmiş əsərlər
Əlağa Vahid. Əsərlər
Əli Kərim. Əsərlər
Əlibəyli Ənvər. Əsərlər
Əvhədi Marağalı. "Cami-Cəm"

Fədai. “Bəxtiyarnamə”
Fikrət Qoca. Əsərlər
Hacıbəyov Üzeyir. Əsərlər, 2 cilddə
Hadi Məhəmməd. Əsərlər, 2 cilddə
Haqverdiyev Əbdürrəhim bəy. Əsərlər, 2 cilddə
Həbib Sahir. Əsərlər
Həmid Nitqi. Əsərlər
Həsənzadə Nəriman. Seçilmiş əsərlər
Hökumə Billuri. Əsərlər
Hüseyn Arif. Əsərlər
Hüseyn Cavid. Əsərlər, 4 cilddə
Hüseyn Mehdi. Əsərlər, 3 cilddə
Hüseynov İsa. Seçilmiş əsərlər
Xaqani Şirvani. Əsərlər
Xəlil Rza. Əsərlər, 2 cilddə
Xətai Şah İsmayıl. Əsərlər, 2 cilddə
İbrahimov Hüseyn. Seçilmiş əsərlər
İbrahimov Mirzə. Əsərlər, 3 cilddə
İmadəddin Nəsimi. Əsərlər, 2 cilddə
Kəsəmənli Nüsrət. Əsərlər
Kişvəri. Əsərlər
Klassik Azərbaycan ədəbiyyatından seçmələr, 3 cilddə
Köçərli Firidun bəy. Əsərlər, 2 cilddə
Kürçaylı Əlağa. Əsərlər
Qabil. Əsərlər
Qasımzadə Qasım. Əsərlər
Qazi Bürhanəddin. “Divan”
Qövsi Təbrizi. Əsərlər
Qul Əli. “Qisseyi-Yusif”
Qutqaşınlı İsmayıl bəy. Əsərlər
Mədinə Gülgün. Əsərlər
Məhəmməd Əmani. Əsərlər
Məhəmməd Füzuli. Əsərlər, 6 cilddə

Məhsəti Gəncəvi. Əsərlər
Məlikzadə İsi. Əsərlər
Məmməd Araz. Əsərlər, 2 cilddə
Məmmədxanlı Ənvər. Seçilmiş əsərlər
Məmmədquluzadə Cəlil. Əsərlər, 4 cilddə
Məsihi. “Vərqa və Gülşa”
Mikayıl Müşfiq. Əsərlər
Mir Cəlal. Əsərlər
Mirzə Ələkbər Sabir. “Hophopnamə”
Natəvan Xurşidbanu. Əsərlər
Nəbati Seyid Əbülqasim. Əsərlər
Nəbi Xəzri. Əsərlər, 2 cilddə
Nərimanov Nəriman. Seçilmiş əsərlər
Nəsirəddin Tusi. “Əxlaqi-Nasiri”
Nizami Gəncəvi. Əsərlər, 7 cilddə
Ordubadi Məmməd Səid. Seçilmiş əsərlər, 2 cilddə
Osman Sarıvəlli. Əsərlər
Rəfibəyli Nigar. Əsərlər
Rəfiq Zəka. Əsərlər
Rəhimov Süleyman. Seçilmiş əsərlər.
Rəsul Rza. Əsərlər, 5 cilddə
Rüstəmxanlı Sabir. Seçilmiş əsərlər
Sabit Rəhman. Əsərlər, 2 cilddə
Saib Təbrizi. Əsərlər
Səfərli İslam. Əsərlər
Səməd Vurğun. Əsərlər, 5 cilddə
Səmədoğlu Vaqif. Seçilmiş əsərlər
Səmədoğlu Yusif. Əsərlər
Söhrab Tahir. Seçilmiş əsərlər
Süleyman Rüstəm. Əsərlər, 5 cilddə
Şəhriyar Məhəmmədhüseyn. Əsərlər, 2 cilddə
Şıxlı İsmayıl. Əsərlər, 2 cilddə
Şirvani Seyid Əzim. Seçilmiş əsərlər, 3 cilddə

Tofiq Bayram. Əsərlər
Vahabzadə Bəxtiyar. Əsərlər, 2 cilddə
Vaqif Molla Pənah. Əsərlər
Vazeh Mirzə Şəfi. Əsərlər
Vəliyev Əli. Seçilmiş əsərlər
Vəzirov Nəcəf bəy. Seçilmiş əsərlər
Vidadi Molla Vəli. Əsərlər
Zakir Qasım bəy. Əsərlər
Zeynal Xəlil. Əsərlər
Zərdabi Həsən bəy. "Əkinçi"

**Dünya ədəbiyyatı**
Andersen Hans Kristian. "Nağıllar"
Aytmatov Çingiz. Əsərlər
Cami Əbdürrəhman. Seçilmiş əsərlər
Çexov Anton. Seçilmiş əsərlər
Dante Aligyeri. "İlahi komediya"
Defo Daniel. "Robinzon Kruzo"
Dostoyevski Fyodor. Seçilmiş əsərlər
Düma Aleksandr. Seçilmiş əsərlər
Dünya uşaq ədəbiyyatından seçmələr, 10 cilddə
Ellada qəhrəmanları
Əlişir Nəvai. Seçilmiş əsərlər
Firdovsi Əbülqasım. "Şahnamə"
Hafiz Şirazi. Əsərlər
Homer. "İliada", "Odisseya"
Höte İohann Volfqanq. "Faust"
Hüqo Viktor. Seçilmiş əsərlər
Jül Vern. Seçilmiş əsərlər
"Kəlilə və Dimnə"
Lermontov Mixail. Seçilmiş əsərlər
London Cek. Seçilmiş əsərlər
Mark Tven. Seçilmiş əsərlər

Ömər Xəyyam. Rübailər
Puşkin Aleksandr. Seçilmiş əsərlər
Servantes Saavedra. “Don Kixot”
Sədi Şirazi. “Bustan”, “Gülüstan”
Stivenson Robert. Seçilmiş əsərlər
Svift Conatan. “Qulliverin səyahəti”
Şekspir Uilyam. Seçilmiş əsərlər
Şiller Fridrix. Seçilmiş əsərlər
Tolstoy Lev. Seçilmiş əsərlər
Yunus İmrə. Əsərlər

## Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1976-1987-ci illərdə çap olunmuş "Azərbaycan Sovet Ensiklopediyası" Azərbaycan tarixində bilik və məlumatların bütün sahələrini əhatə edən ilk universal xarakterli fundamental əsər olmuşdur. Böyük elmi potensialın cəlb olunması ilə hazırlanan bu on cildli ensiklopediyanın nəşri Azərbaycanın elmi və mədəni həyatında mühüm hadisəyə çevrilmişdir.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə yeni dövrün tələblərinə cavab verən, xalqımızın həyatında baş vermiş mühüm ictimai-siyasi, tarixi, elmi və mədəni hadisələri obyektiv şəkildə əks etdirən yeni ensiklopediyanın hazırlanıb latın qrafikasında nəşr edilməsi zərurəti meydana çıxmışdır. Dövlət əhəmiyyətli bu mühüm işin həyata keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

**1.** 2004-2008-ci illərdə çoxcildli Azərbaycan Milli Ensiklopediyası nəşr edilsin.

**2.** "Azərbaycan Ensiklopediyası" nəşriyyat-poliqrafiya birliyi Azərbaycan Milli Elmlər Akademiyasının tabeçiliyinə verilsin.

**3.** Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimov Azərbaycan Milli Ensiklopediyasının baş redaktoru təyin edilsin.

**4.** Azərbaycan Milli Ensiklopediyasının baş redaktoru

- bir ay ərzində ensiklopediyanın redaksiya heyətinin tərkibini və əsasnaməsini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

- ensiklopediyanın hazırlanması və nəşri ilə bağlı maliyyə xərclərinin smetasını iki ay ərzində tərtib edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

- üç ay ərzində Azərbaycan Milli Ensiklopediyasının sözlük layihələrinin hazırlanıb geniş müzakirəyə çıxarılmasını təmin etsin;

- redaksiya heyəti ilə birlikdə Azərbaycan Milli Ensiklopediyasının yüksək elmi səviyyədə çapa hazırlanmasını təmin etsin;

- 2004-cü ilin sonuna qədər ensiklopediyanın "Azərbaycan Respublikası" adlanan birinci cildinin hazırlanıb latın qrafikasında nəşr olunmasını, onun mətninin elektron daşıyıcıları və internet vasitələri ilə yayılmasını təmin etsin;

- Azərbaycan Milli Ensiklopediyasının hazırlanması işlərinin gedişi haqqında Azərbaycan Respublikasının prezidentinə müntəzəm məlumat versin.

**5.** Azərbaycan Respublikasının icra hakimiyyəti orqanlarına, bütün elmi təşkilatlarına və yaradıcılıq birliklərinə Azərbaycan Milli Ensiklopediyasının çapa hazırlanmasında iştirak etmək tövsiyə olunsun.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**7.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 yanvar 2004-cü il*

## 2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"

12 yanvar 2004-cü il tarixli, 56 nömrəli sərəncamına uyğun olaraq qərara alıram:

**1.** 2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Təhsil Nazirliyi, habelə tabeçiliyində ali və orta ixtisas məktəbləri olan digər nazirliklərlə birlikdə ali və orta məktəblər üçün latın qrafikası ilə nəşri zəruri olan dərsliklərin çapını nəzərdə tutan "Dərslik" Proqramını üç ay ərzində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 dekabr 2004-cü il*

*Azərbaycan Respublikası Prezidentinin*
*27 dekabr 2004-cü il tarixli, 362*
*nömrəli sərəncamı ilə təsdiq edilmişdir*

# 2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşri nəzərdə tutulan əsərlərin siyahısı

**Lüğət və ensiklopediyalar**

Azərbaycan dilinin antonimlər lüğəti
Azərbaycan dilinin omonimlər lüğəti
Azərbaycan dilinin sinonimlər lüğəti
Azərbaycan dilinin dialektoloji lüğəti
Azərbaycan dilinin tarixi lüğəti
Azərbaycanca-almanca lüğət
Almanca-azərbaycanca lüğət
Azərbaycanca-ərəbcə lüğət
Ərəbcə-azərbaycanca lüğət
Azərbaycanca-farsca lüğət
Farsca-azərbaycanca lüğət
Azərbaycanca-fransızca lüğət
Fransızca-azərbaycanca lüğət
Məktəblər üçün azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca lüğət Azərbaycan kulinariyası ensiklopediyası
Azərbaycan toponimləri ensiklopedik lüğəti
Kütləvi tibb ensiklopediyası
"Mirzə Cəlil Məmmədquluzadə" ensiklopediyası
"Novruz" ensiklopediyası
Politologiya ensiklopediyası Uşaq ensiklopediyası, 10 cilddə
"Üzeyir Hacıbəyli" ensiklopediyası

**Azərbaycan dili və tarixi**

Azərbaycan arxeologiyası

Azərbaycan dilinin dialektoloji atlası
Azərbaycan etnoqrafiyası
Azərbaycan ədəbi dili tarixi
Azərbaycan xanlıqları
Azərbaycan incəsənəti
Azərbaycan tarixi, 7 cilddə
Azərbaycanın memarlıq abidələri
Azərbaycanın neft sənayesi tarixi
Azərbaycanın tarixi coğrafiyası
"Qarabağnamə"lər
Müasir Azərbaycan dili, 4 cilddə Axundov Ağamusa. "Ümumi dilçilik" Aşurbəyli Sara. "Bakı şəhərinin şarixi"
Aşurbəyli Sara. "Şirvanşahlar dövləti"
Balasaqunlu Yusif. "Qutadqu biliq"
Bünyadov Ziya. Əsərləri, 3 cilddə
Əfəndiyev Oqtay. "Azərbaycan Səfəvilər dövləti"
Əliyev Fuad, Əliyev Mirabdulla. "Naxçıvan xanlığı"
Əliyev Fuad, Həsənov İrfan. "İrəvan xanlığı"
Hüseynov Heydər. "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən"
Kalankatuylu Musa. "Alban tarixi"
Mahmudov Malik. "Ərəb dilində yazmış azərbaycanlı şair və ədiblər" Məmmədov Zakir. "Azərbaycan fəlsəfəsi tarixi"
Məmmədova Fəridə. "Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası"
Salman Mümtaz. "Azərbaycan ədəbiyyatının qaynaqları"
Səfərova Zemfira. "Azərbaycanın musiqi elmi"
Şirəliyev Məmmədağa. "Azərbaycan dili dialektologiyasının əsasları"
Yusifov Yusif. "Qədim Şərq tarixi"

**Klassik və müasir Azərbaycan ədəbiyyatı**

Abbaszadə Hüseyn. Seçilmiş əsərlər
Ağaoğlu Əhməd. Bədii-publisistik əsərlər
Aşıq Alı. Əsərlər

Aşıq Şəmşir. Əsərlər
Bərdəi Şeyx İbrahim Gülşəni. Divan
Cəfərzadə Əzizə. Seçilmiş əsərlər
Çobanzadə Bəkir. Seçilmiş əsərlər
Divanbəyoğlu Abdulla bəy.
Əsərlər Əfəndiyev Rəşid bəy. Əsərlər
Əmin Abid. Seçilmiş əsərlər
Əssar Təbrizi. "Mehr və Müştəri"
Heyran xanım. Əsərlər
Həbibi. Əsərlər
Həqiqi Cahan şah. Qəzəllər və rübailər
Hidayət. Əsərlər
Hüseynzadə Əli bəy. Əsərlər
İbrahimbəyov Maqsud. Seçilmiş əsərlər
İbrahimbəyov Rüstəm. Seçilmiş əsərlər
Qaracaoğlan. Şeirlər
Qəmküsar Əliqulu. Əsərlər
Qənizadə Soltan Məcid. Əsərlər
Qılman İlkin. Əsərlər
Qurban Səid. "Əli və Nino"
Qurbani. Şeirlər
Marağayi Zeynalabdin. "İbrahim bəyin səyahətnaməsi"
Məmməd Aslan. Seçilmiş əsərlər
Məmməd Rahim. Seçilmiş əsərlər
Molla Cüma. Əsərlər
Möcüz Mirzəli. Seçilmiş əsərlər
Musabəyov İbrahimbəy. "Neft və milyonlar səltənətində"
Mustafa Zərir. "Yusif və Züleyxa"
Müznib Əliabbas. Əsərlər
Nemanzadə Ömər Faiq. Əsərlər
Nəvvab Mir Möhsün. Divan
Nəzmi Əli. Seçilmiş əsərlər
"Oğuznamə"
Rzaquluzadə Mikayıl. Seçilmiş əsərlər
Sarabski Hüseynqulu. "Köhnə Bakı"

Seyid Hüseyn. Seçilmiş əsərlər
Seyidzadə Mir Mehdi. Seçilmiş əsərlər
Səhənd. Seçilmiş əsərlər
Səməd Mənsur. Əsərlər
Süleymanlı Mövlud. Seçilmiş əsərlər
"Şəhriyar" dastanı
Tağı Şahbazi (Simurğ). Əsərlər
Zəlimxan Yaqub. Əsərlər
XIX-XX əsərlər Azərbaycan dramaturgiyası (antologiya), 4 cilddə XIX-XX əsərlər Azərbaycan nəsri antologiyası, 5 cilddə
XX əsrin əvvəllərində Azərbaycan publisistikası (antologiya)

**Dünya ədəbiyyatı**
Alman ədəbiyyatı antologiyası
Antik ədəbiyyat antologiyası
Aristotel. "Poetika"
Balzak Onore. Seçilmiş əsərlər
Barto Aqniya. Əsərlər
Bayron Corc. Seçilmiş əsərlər
Blok Aleksandr. Seçilmiş əsərlər
Bualo "Poeziya sənəti"
Bulqakov Mixail. Əsərlər
Bunin İvan. Əsərlər
Covanyoli Rafaello. "Spartak"
Çapek Karel. Əsərlər
Çexov Anton. Seçilmiş əsərlər
Çukovski Korney. Əsərlər
Dəhləvi Əmir Xosrov. Seçilmiş əsərlər
Dostoyevski Fyodor. Seçilmiş əsərlər
Drayzer Teodor. Əsərlər
Dünya fantastikası antologiyası
Esxil. Əsərlər
Əziz Nesin. Seçilmiş əsərlər
Fonvizin Dmitri. Əsərlər
Fransız ədəbiyyatı antologiyası

Güntəkin Rəşad Nuri. Seçilmiş əsərlər
Heminquey Ernest. Seçilmiş əsərlər
İbsen Henrix. Seçilmiş əsərlər
İngilis ədəbiyyatı antologiyası
İrvinq Stoun. Seçilmiş əsərlər
İspan ədəbiyyatı antologiyası
Jül Vern. Seçilmiş əsərlər
Kafka Frans. Seçilmiş əsərlər
Korolenko Vladimir. Povest və hekayələr
Krılov İvan. Əsərlər
Kuper Fenimor. Seçilmiş əsərlər
Kuprin Aleksandr. Əsərlər “Qabusnamə”
Qarin-Mixaylovski Nikolay. Əsərlər
Qaşek Yaroslav. Əsərlər
Qədim Şərq ədəbiyyatı müntəxəbatı
Qoqol Nikolay. Seçilmiş əsərlər
Qonçarov İvan. Əsərlər
Qorki Maksim. Seçilmiş əsərlər
Qriboyedov Aleksandr. Əsərlər
Merime Prosper. Seçilmiş əsərlər
Mixalkov Sergey. Əsərlər
“Min bir gecə” nağılları
Mitskeviç Adam. Əsərlər
Mopassan. Novellalar
Nazim Hikmət. Seçilmiş əsərlər
Nehru Cəvahirləl. “Ümumdünya tarixinə nəzər”
Oleşa Yuri. Əsərlər
Ostrovski Aleksandr. Əsərlər
Paustovski Konstantin. Seçilmiş əsərlər
Prişvin Mixail. Əsərlər
Puşkin Aleksandr. Seçilmiş əsərlər
Rable Fransua. “Qarqantua və Pantaqruel”
Radişşev Aleksandr. “Peterburqdan Moskvaya səyahət”
Rus ədəbiyyatı antologiyası
Rustavelli Şota. “Pələng dərisi geymiş pəhləvan”

Saltıkov-Şedrin Mixail. Əsərlər
Sent-Ekzüperi Antuan. Seçilmiş əsərlər
Seton-Tompson Ernest. Seçilmiş əsərlər
Skandinav dastanları
Süleymenov Oljas. Seçilmiş əsərlər
Şoloxov Mixail. Seçilmiş əsərlər
Taqor Rabindranat. Seçilmiş əsərlər
Tofiq Fikrət. Seçilmiş əsərlər
Tolstoy Aleksey. Seçilmiş əsərlər
Tolstoy Lev. Seçilmiş əsərlər
Turgenev İvan. Seçilmiş əsərlər
Voyniç Etel. "Ovod"
Yan Vasili. Əsərlər
Yesenin Sergey. Seçilmiş əsərlər.

# Fərdi təqaüdlərin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**(Çıxarış)**

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2002-ci il tarixli 715 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №6, maddə 329, №10, maddə 587; Azərbaycan Respublikası Prezidentinin 16 mart 2005-ci il tarixli 209 nömrəli Fərmanı) uyğun olaraq qərara alıram:

**1.** Azərbaycanın mədəniyyət və incəsənət sahələrində böyük xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

- Qafurova Leyla Yusif qızı

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 aprel 2005-ci il №732*

## Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır.

Ölkəmiz qədim dövrlərdən başlayaraq, öz yüksək kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır. Azərbaycanın müxtəlif kitabxanalarında saxlanılan və xalqımızın ədəbi-estetik, elmi-mədəni fikir dünyasını əks etdirən çox sayda əlyazma XIX əsrin əvvəllərindən regionda cərəyan edən hadisələr nəticəsində ölkə xaricinə aparılmış və bu gün də dünya kitabxanalarında Şərq fondlarının əsasını təşkil edərək mühafizə olunur.

XIX əsrdə Azərbaycanda maarifçilik hərəkatının güclənməsi, neft sənayesinin görünməmiş yüksəlişi və ictimai-siyasi həyatda baş verən dəyişikliklər ölkəmizin elm-mədəniyyət mərkəzi kimi tanınan şəhərlərində kitabxanalar şəbəkəsinin yaradılması və genişləndirilməsinə gətirib çıxarmışdır.

XX əsrdə milli kitabxana mədəniyyəti tarixinin yaddaqalan hadisələri baş vermiş və respublikanın ən böyük kitab xəzinələri yaradılmış, bütün bölgələri əhatə edən geniş kitabxanalar şəbəkəsi qurulmuş və mərkəzləşdirilmiş, kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş və Kitab palatası təşkil edilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni silahlı dəstələri işğala məruz qoyduqları ərazilərimizdə vandalizm aktı törətmiş, illərlə fondlarında 4 milyondan artıq kitabın mühafizə olunduğu 1000-ə yaxın kitabxananı və

Kitabxana filiallarını birləşdirən mərkəzləşdirilmiş kitabxana sistemlərini bütünlüklə dağıtmışlar.

Bu gün geniş kitabxana-informasiya şəbəkəsinə malik Azərbaycanda 12 mindən çox müxtəlif tipli kitabxana mövcuddur. 1996-cı ildə Azərbaycan hökuməti "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir. 1999-cu ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına əsasən, son üç il ərzində ümumi sayı doqquz milyona yaxın ədəbiyyat nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir. Yeni nəşrlər kitabxana fondlarını və onlardan istifadə imkanlarını xeyli genişləndirməklə yanaşı, həmin kitabların yerləşdirilməsi baxımından çətinliklər yaratmışdır.

Müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq, müasir texnologiyaların tətbiqini zəruri edir.

Kitabxanaların fəaliyyətinin yaxşılaşdırılmasının ölkəmizin ictimai-mənəvi həyatının daha da canlanmasına təsiri baxımından böyük əhəmiyyətini və Azərbaycanın informasiya cəmiyyətinə doğru əhatəli inkişaf perspektivlərini nəzərə alaraq, elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi və eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birlikdə:

**1.1.** Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər planı hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Yerli icra hakimiyyəti orqanlarının təkliflərini nəzərə alaraq, Azərbaycanın regionlarında fəaliyyət göstərən kitabxanaların təmirinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir informasiya daşıyıcılarına ehtiyacının ödənilməsinə dair xüsusi tədbirlər planını hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.** Ölkənin iri kitabxanalarının elektron kataloqu və elektron kitabxanasının müasir standartlar səviyyəsinə qaldırılması və onun bazasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"-nın oxucuların tam istifadəsinə verilməsini təmin etsin.

**2.** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müvafiq qurumlarla birlikdə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nı hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlər planını hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**4.** Azərbaycan Milli Elmlər Akademiyası "Akademiya şəhərciyi"nin ərazisində Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Kitabxanası üçün yeni binanın tikilməsi ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**6.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 aprel 2007-ci il*

## Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla nəşr olunaraq ölkənin bütün kitabxana şəbəkəsinə hədiyyə edilmişdir. Hər iki sərəncam üzrə Azərbaycan və dünya ədəbiyyatı, eləcə də lüğət və ensiklopediyalar silsiləsindən ümumi tirajı 9 milyondan artıq kitab kitabxanalara göndərilərək oxucuların ixtiyarına verilmişdir. Proses indi də davam etməkdədir. Bu nəşrlər sayəsində gənc nəslin latın qrafikası ilə çap olunmuş bədii və elmi ədəbiyyata ehtiyacının ödənilməsi istiqamətində mühüm işlər görülmüşdür. Lakin həmin kitabların satışının nəzərdə tutulmaması və kitab həvəskarlarının öz şəxsi kitabxanalarını latın qrafikasında nəfis şəkildə çap olunmuş ədəbiyyat nümunələri ilə zənginləşdirmək tələbatı onların ayrıca olaraq nəşri zərurətini meydana çıxarmışdır.

Müasir Azərbaycan oxucularının dünya ədəbiyyatına olan mənəvi tələbatını təmin etmək məqsədilə qərara alıram:

**1.** Azərbaycan və dünya ədəbiyyatı nümayəndələrinin əsərlərindən ibarət 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası" nəfis tərtibatla nəşr edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının və Azərbaycan Yazıçılar Birliyinin tövsiyələrini nəzərə almaqla bu Sərəncamın 1-ci bəndində qeyd olunan "Dünya ədəbiyyatı kitabxanası"nın nəşri ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 avqust 2007-ci il*

## Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 24 avqust tarixli 2354 nömrəli sərəncamına uyğun olaraq qərara alıram:

**1.** Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərindən ibarət 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası"na daxil olunmuş əsərlərin siyahısı təsdiq edilsin (siyahı əlavə olunur).

**2.** Azərbaycan Milli Elmlər Akademiyası bu sərəncamın 1-ci bəndi ilə təsdiq olunmuş siyahıya daxil edilmiş əsərlərin tərcüməsi, tərtibatı və çapa hazırlanması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**4.** Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 dekabr 2007-ci il*

*Azərbaycan Respublikası Prezidentinin*
*2007-ci il 30 dekabr tarixli Sərəncamı*
*ilə təsdiq edilmişdir*

## "Dünya ədəbiyyatı kitabxanası"na daxil olmuş əsərlərin siyahısı

**I. <u>Klassik dünya ədəbiyyatı</u>**

1. Aleksandr Puşkin. Seçilmiş əsərləri
2. Anton Çexov. Seçilmiş əsərləri
3. Artur Konan Doyl. Əsərləri
4. Cek London. "Martin İden"
5. Con Milton. Seçilmiş əsərləri
6. Conatan Svift. "Qulliverin səyahəti"
7. Çarlz Dikkens. "Oliver Tvistin macəraları"
8. Daniel Defo. "Robinzon Kruzo"
9. Edqar Allan Po. Seçilmiş əsərləri
10. Emil Zolya. Seçilmiş əsərləri
11. Fenimor Kuper. Əsərləri
12. Fransua Rable. "Qarqantua və Pantaqruel"
13. Fridrix Şiller. Seçilmiş əsərləri
14. Fyodor Dostoyevski. Seçilmiş əsərləri, I cild
15. Fyodor Dostoyevski. Seçilmiş əsərləri, II cild
16. Fyodor Dostoyevski. Seçilmiş əsərləri, III cild
17. Gi de Mopassan. Seçilmiş əsərləri
18. Henrix Heyne. Seçilmiş əsərləri
19. Herman Melvil. Seçilmiş əsərləri
20. Homer. "İliada"
21. Homer. "Odisseya"
22. Jül Vern. Seçilmiş əsərləri
23. İohan Volfqanq Gete. Əsərləri
24. Qustav Flober. Əsərləri
25. Lev Tolstoy. Seçilmiş əsərləri, I cild

26. Lev Tolstoy. Seçilmiş əsərləri, II cild
27. Lev Tolstoy. Seçilmiş əsərləri, III cild
28. Mark Tven. Seçilmiş əsərləri
29. Mayn Rid. Seçilmiş əsərləri
30. Migel de Servantes. “Lamançlı Don Kixot”
31. Nikolay Qoqol. Seçilmiş əsərləri
32. O’Henri. Seçilmiş əsərləri
33. Onore de Balzak. Seçilmiş əsərləri
34. Oskar Uayld. Seçilmiş əsərləri
35. Prosper Merime. Seçilmiş əsərləri
36. Redyard Kiplinq. Seçilmiş əsərləri
37. Robert Stivenson. Seçilmiş əsərləri
38. Sədi Şirazi. “Gülüstan”, “Bustan
39. Stendal. Seçilmiş əsərləri
40. Valter Skott. Seçilmiş əsərləri
41. Viktor Hüqo. Seçilmiş əsərləri, I cild
42. Viktor Hüqo. Seçilmiş əsərləri, II cild
43. Viktor Hüqo. Seçilmiş əsərləri, III cild
44. Vilyam Şekspir. Seçilmiş əsərləri
45. Yunus Əmrə. Əsərləri

**II. Müasir dünya ədəbiyyatı**

46. Akutaqava Rünoske. Seçilmiş əsərləri
47. Aqata Kristi. Seçilmiş əsərləri
48. Andre Morua. Seçilmiş əsərləri
49. Andrey Platonov. Seçilmiş əsərləri
50. Antuan Ekzüperi. Seçilmiş əsərləri
51. Artur Miller. Seçilmiş əsərləri
52. Ayzek Azimov. Seçilmiş əsərləri
53. Bertolt Brext. Seçilmiş əsərləri
54. Cerom Selincer. Seçilmiş əsərləri
55. Con Apdayk. Seçilmiş əsərləri
56. Con Faulz. Seçilmiş əsərləri
57. Corc Oruel. Seçilmiş əsərləri
58. Çingiz Aytmatov. Seçilmiş əsərləri

59. Erix Mariya Remark. Seçilmiş əsərləri
60. Ernest Seton-Tompson. Seçilmiş əsərləri
61. Frans Kafka. Seçilmiş əsərləri
62. Fransuaza Saqan. Seçilmiş əsərləri
63. Frensis Skott Fitscerald. Seçilmiş əsərləri
64. Fridrix Dürrenmatt. Seçilmiş əsərləri
65. Henrix Mann. Seçilmiş əsərləri
66. Herbert Uells. Seçilmiş əsərləri
67. Xorxe Luis Borxes. Seçilmiş əsərləri
68. Xulio Kortasar. Seçilmiş əsərləri
69. Jorj Simenon. Seçilmiş əsərləri
70. Jorji Amadu. Seçilmiş əsərləri
71. Karlos Kastaneda. Seçilmiş əsərləri
72. Leon Feyxtvanger. Seçilmiş əsərləri
73. Marqaret Mitçell. "Küləklə sovrulanlar"
74. Marsel Prust. Seçilmiş əsərləri
75. Mixail Bulqakov. Seçilmiş əsərləri
76. Nazim Hikmət. Seçilmiş əsərləri
77. Nəcib Fazil Qısakürək. Seçilmiş əsərləri
78. Paulo Koelye. Seçilmiş əsərləri
79. Somerset Moem. Seçilmiş əsərləri
80. Stanislav Lem. Seçilmiş əsərləri
81. Stefan Sveyq. Seçilmiş əsərləri
82. Stiven Kinq. Seçilmiş əsərləri
83. Tomas Vulf. Seçilmiş əsərləri
84. Umberto Eko. "Qızılgülün adı"
85. Vladimir Nabokov. Seçilmiş əsərləri

**III Nobel mükafatına layiq görülmüş müəlliflərin əsərləri**

86. Alber Kamyu. Seçilmiş əsərləri
87. Aleksandr Soljenitsın. Seçilmiş əsərləri
88. Bernard Şou. Seçilmiş əsərləri
89. Boris Pasternak. Seçilmiş əsərləri
90. Con Qolsuorsi. Seçilmiş əsərləri
91. Con Maksvell Kutzee. Seçilmiş əsərləri

92. Con Steynbek. Seçilmiş əsərləri
93. Elfrida Yelinek. Seçilmiş əsərləri
94. Elias Kanetti. Seçilmiş əsərləri
95. Ernest Heminquey. Seçilmiş əsərləri
96. Eyvind Yonson. Seçilmiş əsərləri
97. Fransua Moriak. Seçilmiş əsərləri
98. Günter Qrass. Seçilmiş əsərləri
99. Harold Pinter. Əsərləri
100. Henrix Böll. Seçilmiş əsərləri
101. Herman Hesse. Seçilmiş əsərləri
102. Jan-Pol Sartr. Seçilmiş əsərləri
103. Joze Saramaqo. Seçilmiş əsərləri
104. İvan Bunin. Seçilmiş əsərləri
105. Kenzaburo Oe. Seçilmiş əsərləri
106. Knut Hamsun. Seçilmiş əsərləri
107. Qabriel Qarsia Markes. Seçilmiş əsərləri
108. Lüis Sinkler. Seçilmiş əsərləri
109. Migel Asturias. Seçilmiş əsərləri
110. Mixail Şoloxov. Seçilmiş əsərləri
111. Moris Meterlink. Seçilmiş əsərləri
112. Nadin Qordimer. Seçilmiş əsərləri
113. Nəcib Məhfuz. Seçilmiş əsərləri
114. Orxan Pamuk. Seçilmiş əsərləri
115. Per Lagerkvist. Seçilmiş əsərləri
116. Rabindranat Taqor. Seçilmiş əsərləri
117. Romen Rollan. Seçilmiş əsərləri
118. Samuel Bekket. Seçilmiş əsərləri
119. Sol Bellou. Seçilmiş əsərləri
120. Tomas Eliot. Seçilmiş əsərləri
121. Tomas Mann. "İosif və qardaşları"
122. Toni Morrison. Seçilmiş əsərləri
123. Uilyam Folkner. Seçilmiş əsərləri
124. Uilyam Qoldinq. Seçilmiş əsərləri
125. Yasunari Kavabata. Əsərləri

**IV. Dünya ədəbiyyatı üzrə antologiyalar**

126. Alman ədəbiyyatı antologiyası
127. Amerika ədəbiyyatı antologiyası
128. Antik ədəbiyyat antologiyası
129. Dünya dramaturgiyası (antologiya), I cild
130. Dünya dramaturgiyası (antologiya), II cild
131. Dünya elmi-fantastik ədəbiyyatı antologiyası, I cild
132. Dünya elmi-fantastik ədəbiyyatı antologiyası, II cild
133. Fransız ədəbiyyatı antologiyası
134. İngilis ədəbiyyatı antologiyası
135. İspan ədəbiyyatı antologiyası
136. İtalyan ədəbiyyatı antologiyası
137. Qədim yunan-roma əfsanələri
138. Latın Amerikası ədəbiyyatı antologiyası
139. Dünya yazıçılarının nağılları
140. Ərəb ədəbiyyatı antologiyası
141. Rus nəsri antologiyası
142. Rus şeiri antologiyası
143. Skandinav ədəbiyyatı antologiyası
144. Türk xalqları ədəbiyyatı antologiyası, I cild
145. Türk xalqları ədəbiyyatı antologiyası, II cild
146. Türk xalqları ədəbiyyatı antologiyası, III cild
147. Yapon ədəbiyyatı antologiyası
148. XX əsr dünya ədəbiyyatı antologiyası, I cild
149. XX əsr dünya ədəbiyyatı antologiyası, II cild
150. XX əsr dünya ədəbiyyatı antologiyası, III cild

## “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya təminatının artırılması, eləcə də Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədi ilə qərara alıram:

**1.** “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı” təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikası Prezidentinin*
*2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli*
*Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə DÖVLƏT PROQRAMI

## 1. Ümumi əsaslar

### 1.1. Mövcud vəziyyət

Tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, nəsildən-nəslə çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi bu sahədə əsaslı islahatların aparılmasını, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini, elektron məlumat banklarının yaradılmasını, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar mədəniyyət sahəsində dövlət siyasətinin əsas prioritetlərindəndir.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin kitabxana şəbəkəsində müxtəlif formada 40 milyon nüsxəyə yaxın informasiya daşıyıcıları və digər ənənəvi sənədlər qorunub saxlanılır. Son illər ərzində ölkədə kitabxana işinin inkişafı sahəsində bir sıra mühüm sənədlər qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli 56 nömrəli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli 562 nömrəli sərəncamları ilə təsdiq edilmiş siyahı üzrə latın qrafikası

ilə nəşr olunmuş kitablar ölkənin bütün kitabxanalarına hədiyyə edilmişdir. Hazırda bu istiqamətdə işlər davam etdirilir. “Azərbaycan

Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”, “Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı”, “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)”, “Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)” kimi mühüm sənədlərdə kitabxana-informasiya sahəsinin inkişafı və modernləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuşdur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə baş verən hadisələr kitabxanaların da fəaliyyətinə mənfi təsir göstərmiş, kitab nəşri və kitab təchizatı sistemi tamamilə iflic vəziyyətinə düşmüş, onların maddi-texniki bazasının olduqca zəifləməsinə gətirib çıxarmışdır. Bütün bunlar kitabxana sahəsinin tənəzzülünə səbəb olmuşdur. Nəticədə kitabxanalar real və potensial oxucularını itirmiş, xeyli sayda kitabxanalar bağlanılmış, əksəriyyəti oxucu tələbatını ödəyə bilməmiş, mövcud ştat vahidləri ixtisar edilmişdir. 1990-cı ildə respublika üzrə kütləvi kitabxanaların kitab fondu 45,3 milyon, 2002-ci ildə 36,9 milyon, 2003-cü ildə 36,8 milyon nüsxəyə enmişdir. 2004-cü ildə isə bu göstərici 36,5 milyon, nüsxə təşkil etmişdir. Bunun əsas səbəbi Ermənistan silahlı qüvvələri tərəfindən respublika ərazisinin 20 faizinin işğal olunması nəticəsində 9 Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, 927 kitabxananın tamamilə məhv edilməsi, kitabxanaların yeni nəşrləri almaq üçün vəsaitlə təmin edilməməsi, habelə kitabxana fondlarından məzmunca əhəmiyyətini itirmiş və mənəvi cəhətdən köhnəlmiş kitabların çıxarılması olmuşdur.

Azərbaycan Respublikasında 12 mindən çox müxtəlif tipli kitabxananın daxil olduğu geniş kitabxana-informasiya şəbəkəsi mövcuddur. Bu şəbəkəyə yalnız kütləvi kitabxanalar deyil,

həm də elmi-texniki, uşaq, gənclər, musiqi məktəblərinin, muzey və digər mədəniyyət və tədris müəssisələrinin, eləcə də müxtəlif təşkilatların tabeliyində olan kitabxanalar, o cümlədən 6 respublika əhəmiyyətli kitabxana, Bakı şəhərində 84 kitabxana və filialı, 72 şəhər və rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) daxildir. Azərbaycanın erməni işğalçıları tərəfindən zəbt olunmuş ərazilərində 927 kitabxana və kitabxana filialını özündə birləşdirən 9 rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 4 milyondan artıq kitab fondu məhv edilmişdir.

Azərbaycanşünaslığa dair qiymətli əsərlərin böyük hissəsi XIX əsrin əvvəllərindən Rusiyanın Moskva, Sankt-Peterburq, Kazan və digər şəhərlərinin kitabxanalarına aparılmışdır. Həmin əsərlərin əslinin, yaxud surətlərinin Azərbaycan kitabxanalarına qaytarılması zəruridir.

Respublikada ən mühüm sənəd və digər çap əsərlərinin sığorta fondunun yaradılmasına ehtiyac vardır. Belə fondlar sözügedən çap məhsullarının müxtəlif dövrlərdə sosial və təbii təsirlər nəticəsində tamamilə məhv olmasının qarşısının alınmasına, millətin tarixi yaddaşının qorunub saxlanılmasına xidmət edir.

Dünyanın qabaqcıl ölkələrində olduğu kimi (Fransada Pompidu, ABŞ-da Kennedi, Vaşinqton və s.), Azərbaycanda yaradılacaq Heydər Əliyev Mərkəzinin nəzdində də Heydər Əliyev Milli Kitabxana-İnformasiya Kompleksinin təşkili zəruridir.

Azərbaycan Respublikasında kitabxana-informasiya şəbəkəsinə daxil olan kitabxanaların 90 faizi müasir tələblərə cavab vermir. Bir neçə kitabxana istisna olmaqla, kitabxanaların əksəriyyəti yararsız vəziyyətdədir. Kitabxanaların bir çoxu qəza vəziyyətində olan uyğunlaşdırılmış və yardımçı binalarda fəaliyyət göstərir. Respublikanın rayonlarında kənd kitabxana filiallarının bir hissəsi şəxsi evlərdə yerləşir. Kənd və qəsəbə kitabxana filiallarının 79,2 faizinin sahəsi darısqal olduğundan, oxu zalları təşkil etmək qeyri-mümkündür. Bu səbəbdən əhalinin 66,8 faizi kitabxanalardan istifadə edə bilmir. Mingəçevir, Şəki, Naftalan, Sumqayıt, Yevlax, Şirvan şəhər, Ağcabədi, Astara, Beyləqan, Bərdə, Qazax, Qobustan, Zaqatala, Yardımlı, Lerik, Neftçala, Biləsuvar,

Samux, Xaçmaz, Cəlilabad, Ucar, Kürdəmir və digər rayon kitabxanalarının müxtəlif sahələrə aid yeni nəşrlərlə təmi-natına, fondlarının mühafizəsinə, binalarının əsaslı təmirinə, avadanlıqla təmin edilməsinə və kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına ciddi ehtiyac vardır.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin kitabxana şəbəkəsinə daxil olan cəmi 29 müəssisədə orta hesabla 1-5 ədəd kompyuter vardır, 14 kitabxana (0,19%) İnternet xidmətindən istifadə edə bilir ki, bu təchizat da daimi və sürətli deyildir. Mədəniyyət və Turizm Nazirliyinin kitabxana şəbəkəsinə daxil olan cəmi 4 kitabxanada (0.07%) kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işinə başlanılmışdır. Tabeliyindən asılı olmayaraq, digər kitabxanalarda da (səhiyyə, təhsil, həmkarlar və s.) informasiya təminatı aşağı səviyyədədir.

Kitabxana-informasiya sahəsində həll olunmamış əsas problemlərdən biri də kitabxana fondlarının mühafizəsi və bərpası məsələsidir. Respublikada kitab fondlarının bərpa mərkəzləri yaradılmadığından, xüsusi əhəmiyyətli nəşrlər sıradan çıxır və mövcud fondlarda qoruna bilmir. Latın qrafikası ilə buraxılan yeni nəşrlərin elektron daşıyıcılara köçürülməsi vacib və təxirəsalınmaz məsələlərdəndir. Fondlarda saxlanılan nadir kitabların rəqəmli daşıyıcılara köçürülməməsi səbəbindən sözügedən kitablar alim və tədqiqatçılar, geniş oxucu kütləsi tərəfindən az istifadə edilir, digər tərəfdən isə qiymətli nəşr nümunələrinin və nadir kitabların saxlanılma şəraiti müvafiq normalara uyğun gəlmədiyindən, onlar təhlükə altındadır. Belə kitablar M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında, Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında, BDU-nun Elmi Kitabxanasında, Milli Arxiv İdarəsinin kitabxanalarında və digər kitabxanalarda saxlanılır.

Kitabxanaların beynəlxalq əlaqələr sahəsindəki fəaliyyəti müasir tələblərə cavab vermir. Ölkədə milli biblioqrafiyanın, milli formatın, elektron kitabxananın, toplu kataloqun, korporativ

kitabxana şəbəkələrinin olmaması dünya informasiya məkanında layiqli təmsil edilməyə imkan vermir.

Bu gün elektron kataloqlar Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident Kitabxanası", M.F.Axundov adına Azərbaycan Milli Kitabxana, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Mərkəzi Aparatının kitabxanası, Azərbaycan Dillər Universitetinin kitabxanası, "Xəzər" Universitetinin Elmi kitabxanası, Qərb Universitetinin kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, Şamaxı rayon və Gəncə şəhər mərkəzi kitabxanaları istisna olunmaqla, digər kitabxanalarda yoxdur.

Kitabxana fondlarının tələbata uyğun, sistemli və məqsədli komplektləşdirilməməsi daim yeniləşən informasiya axınında oxucu kontingentinin itirilməsinə, bütövlükdə əhalinin mütaliəyə marağının azalmasına səbəb olur. Respublikanın ən böyük kitabxanalarında belə kitabsaxlayıcıların vəziyyəti (istilik, siqnalizasiya, ventilyasiya və s. kommunikasiyalar) mövcud normalara cavab vermir.

Kitabxanaların maddi-texniki bazasının zəifliyi, əksəriyyətinin binalarının yararsız və qəza vəziyyətində olması, xidmət və komplektləşdirmə işinin lazımi səviyyədə olmaması, kadrların peşə hazırlığının aşağı olması, kitabxana işinə dair ədəbiyyatın və dövri nəşrlərin kifayət qədər çap etdirilməməsi, beynəlxalq əlaqələrin zəifliyi bu sahənin inkişafına maneçilik törədən əsas amillərdir. Bütün bunlar ölkə əhalisinin informasiya təminatı sistemində ciddi problemlər yaradır.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsində mövcud problemləri sistemli həllinə yönəldilmişdir.

### 1.2. Dövlət Proqramının məqsəd və vəzifələri

Dövlət Proqramının əsas məqsədi "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda, habelə digər müvafiq hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq, kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etməkdən ibarətdir. Bundan başqa kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün şəraitin yaradılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı əsas vəzifələrin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir:

- informasiya cəmiyyəti quruculuğu şəraitində beynəlxalq standartlar, hüquqi qanunvericilik aktları, milli informasiyalaşdırma siyasəti əsasında ölkədə fəaliyyət göstərən kitabxanaların modernləşdirilməsi;
- köklü islahatların aparılması, kitabxana-informasiya resurslarının dünya məkanına inteqrasiyasının təmin edilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, idarələrarası koordinasiyanın təşkili;
- "İnformasiya cəmiyyəti", "Biliklər cəmiyyəti" Azərbaycan modelinin qurulması prosesinə yardım göstərilməsi;
- kitab nəşri, yayımı və fond komplektləşdirmə işini tənzimləyən, maraqlı tərəflərin mənafeyini ifadə edən "müəllif-nəşriyyat-kitabxana-oxucu" mexanizminin və infrastrukturunun təkmilləşdirilməsi;
- elektron informasiya fondlarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların istifadəsinə verilməsi;

- elektron kataloq və elektron kitabxanaların yaradılması işinin təmin edilməsi, onların müasir standartlar səviyyəsinə çatdırılması;

- kompyuterləşdirilmiş kitabxana infrastrukturunun qurulması, kitabxanaların yeni informasiya texnologiyaları ilə təchiz edilməsi;

- kitabxana fondlarının zənginləşdirilməsi, onların mühafizəsi və təhlükəsizliyinin təmin edilməsi;

- "Azərbaycanın kitab abidələri" dövlət reyestrinin hazırlanması, milli informasiya resurslarının elektron daşıyıcılara köçürülməsi;

- əhalinin bütün təbəqələrinə kitabxana-informasiya xidməti səviyyəsinin yüksəldilməsi;

- kitabxanaların kadr təminatının yaxşılaşdırılması, bu məqsədlə fasiləsiz peşə təhsilinin təşkili və ixtisasartırma sisteminin təkmilləşdirilməsi;

- kitabxana-informasiya işinin təkmilləşdirilməsi üçün müasir idarəetmə sisteminin tətbiqi;

- maliyyələşmənin təkmilləşdirilməsi, sahə üzrə ayrılan vəsaitlərdən səmərəli istifadəni təmin edən yeni iqtisadi münasibətlər sisteminin tətbiqi;

- kitabxana-informasiya sahəsində idarəetmənin müasir iqtisadi münasibətlərə və sosial iqtisadi şəraitə uyğunlaşdırılması;

- kitabxana-informasiya sahəsinə ardıcıl olaraq müxtəlif mənbələrdən əlavə maliyyə vəsaitlərinin cəlb edilməsi, yeni xidmət növlərinin inkişafı, xüsusən də onların regionlarda təşkili, kitabxanalarda təsərrüfat fəaliyyətinin həyata keçirilməsi, büdcədənkənar gəlir və xərclərin bərpa olunması, onların həcminin artırılması, kitabxanaçıların əməyində stimullaşdırıcı tədbirlərin müəyyənləşdirilməsi;

- Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyası, Avropa Milli Kitabxanaları İttifaqı, ABŞ Kitabxana Assosiasiyası, Elektron Kitabxanalar istifadəçilərinin Beynəlxalq Assosiasiyası və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi;

- kitabxana işi sahəsində elmi-tədqiqat və elmi-metodiki fəaliyyətin stimullaşdırılması, sahəyə aid ədəbiyyat nəşrinin genişləndirilməsi;

- kitabxana binalarının təmiri, müasir tipli yeni kitabxana binalarının inşası;

- respublika kitabxana-informasiya şəbəkəsinin yeni dislokasiya xəritəsinin işlənilməsi və müasir tələblərə cavab verməyən kitabxanalarla bağlı müvafiq tədbirlərin görülməsi;

- Azərbaycanda kitabxana-informasiya şəbəkəsinin modernləşdirilməsini təmin edən layihələrin işlənilməsi üçün dövlət və donor təşkilatların cəlb edilməsi;

- kitabxana-informasiya sahəsində dövlət siyasətinin prioritet istiqamətləri üzrə elmi araşdırmaların genişləndirilməsi və müvafiq nəşrlərin hazırlanması;

- kitabxanaların ictimai statusunun yüksəldilməsi, kitabxana-informasiya sahəsinə dövlət qayğısının gücləndirilməsi, habelə müxtəlif ictimai qurumlar, beynəlxalq təşkilatlar tərəfindən bu sahəyə diqqətin artırılması.

### 1.3. Dövlət Proqramının icrasının əsas istiqamətləri

Dövlət Proqramında nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi üçün aşağıdakı istiqamətlərdə işlərin aparılması nəzərdə tutulur:

- kitabxana fondlarının müasir komplektləşdirmə mexanizminin yaradılması, inkişafı və müasir informasiya daşıyıcıları ilə təmin edilməsi;

kitabxanaların kompyuter və informasiya-proqram təminatı, respublika üzrə kompyuterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması və inkişafı;

- respublikanın milli-mədəni irsinin və informasiya ehtiyatlarının qorunması və gələcək nəsillərə çatdırılması;

- kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi, onun forma və məzmunca yeniləşdirilməsi;

- kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi, şəbəkənin optimallaşdırılması və kadr islahatlarının həyata keçirilməsi;

- kitabxana işi sahəsində elmi tədqiqatların aparılması, kitabların hazırlanması və nəşri;

- yeni kitabxana binalarının tikilməsi, onların, eləcə də fəaliyyət göstərən kitabxanaların maddi-texniki bazasının müasir dövrün tələblərinə uyğun möhkəmləndirilməsi;

- kitabxanaların beynəlxalq əlaqələrinin inkişafı, genişləndirilməsi və beynəlxalq tədbirlərin təşkili;

- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi.

**1.4. Dövlət Proqramının maliyyə mənbələri**

Proqramın maliyyə mənbələri aşağıdakılardır:

dövlət büdcəsindən ayırmalar və qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

**1.5. Gözlənilən nəticələr**

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi aşağıdakı nəticələri əldə etməyə imkan verəcək:

- Azərbaycanda fəaliyyət göstərən kitabxanaların fondlarının ənənəvi və müasir informasiya daşıyıcıları ilə tam komplektləşdirilmə mexanizminin yaradılması və bu işin davamlı şəkildə inkişaf etdirilməsi;

- xüsusilə dəyərli, nadir və əhəmiyyətli kitab və sənədlərin surətlərindən respublika sığorta fondunun və Azərbaycan kitabının toxunulmaz fondunun təşkil edilməsi;

- respublikanın milli-mədəni irsinin qorunması, elektron informasiya daşıyıcılarına köçürülməsi və nəsillərdən-nəsillərə çatdırılması, qiymətli və nadir nəşrlərin dövlət reyestrinin hazırlanması;

- kitabxana fondlarında saxlanılan müxtəlif qrafikada nəşr olunmuş qiymətli əsərlərin əlifbalarının konvertizasiya olunaraq oxucuların istifadəsinə verilməsi, azərbaycanşünaslığa aid fondların zənginləşdirilməsi;

- fövqəladə hallara hazırlığın yaxşılaşdırılması;

- dünya informasiya sistemlərində Azərbaycan kitabxana resurslarının təbliği və beynəlxalq informasiya mübadiləsinin həyata keçiriliməsi;

- əhalinin bütün təbəqələrinə kitabxana xidmətinin yaxşılaşdırılması, bu xidmətin əhatə dairəsinin genişləndirilməsi, səmərəliliyinin artırılması, informasiya qıtlığının və rəqəmsal uçurumun aradan qaldırılması;

- mövcud ştat vahidləri çərçivəsində, respublika kitabxana-informasiya şəbəkəsinin təkmilləşdirilməsi, kitabxanaların birləşdirilməsi və yenidən təşkili prosesinin həyata keçirilməsi, qənaət edilmiş vəsait hesabına əhaliyə səyyar xidmətin göstərilməsi;

- kitabxana sisteminin maliyyələşdirilməsinin təkmilləşdirilməsi məqsədi ilə bu sahəyə ayrılan vəsaitin yeni iqtisadi münasibətlərə uyğun rasionallaşdırılması, subyektiv amillərin aradan qaldırılması, təminat normativinin maliyyələşdirmə prinsipi ilə müəyyən edilməsi, büdcədənkənar gəlirlərin artırılması;

- respublikada fəaliyyət göstərən kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi və kitabxanaların müasir informasiya texnologiyaları ilə təmin edilməsi.

*Azərbaycan Respublikası Prezidentinin*
*2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli*
*Sərəncamı ilə təsdiq edilmişdir*

## Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

| Sıra №-si | Tədbirlərin adı | İcra müddəti (illər üzrə) | İcraçı təşkilatlar |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **2.1. Kitabxana fondlarının müasir komplektləşdirmə mexanizminin yaradılması, inkişafı və müasir informasiya daşıyıcıları ilə təmin edilməsi** | | | |
| 2.1.1. | "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində qeyd edilən kitabxanaların məcburi nüsxələrlə təmin edilməsi mexanizminin yaradılması (ənənəvi və müasir) | 2008-2009 | NK, MdTN, AMEA, TN, VN |
| 2.1.2. | Azərbaycanşünaslığı inkişaf etdirmək məqsədi ilə fondların ölkəşünaslığa və diyarşünaslığa dair materiallarla zənginləşdirilməsi | 2008-2013 | MdTN, AMEA, AO |
| 2.1.3. | Gözdən əlil insanların informasiya tələbatını ödəmək məqsədi ilə kitabxana fondlarının xüsusi nəşrlərlə komplektləşdirilməsi | 2008-2009 | NK, MdTN, YİHO, ƏƏSMN, AO |
| 2.1.4. | İşğal altında və cəbhə bölgəsində olan rayonların kitabxana fondlarının (onların müvəqqəti məskunlaşdığı ərazilərdə) bərpası | 2009-2010 | MdTN, QMKİDK İİN, YİHO, AO |

| | | | |
|---|---|---|---|
| 2.1.5. | Bakı şəhərində mövcud kitabxanaların bazasında 9 mərkəzləşdirilmiş kitabxana sistemlərinin yaradılması, şəhər və rayonlarda isə bir çox kitabxana filiallarının birləşdirilməsi | 2009 | NK, MdTN, YİHO |
| 2.1.6. | Ölkəşünaslığa (Azərbaycanşünaslığa) dair Rusiya Dövlət Kitabxanasında, Rusiya Milli Kitabxanasında, Kazan, Tbilisi şəhər və digər milli kitabxanalarda saxlanılan ədəbiyyatın (o cümlədən dövrü mətbuatın) müəyyənləşdirilməsi və onların çatışmayan nüsxələrinin Azərbaycan Respublikasına gətirilməsi məqsədi ilə layihələrin həyata keçirilməsi | 2010-2011 | MdTN, TN, XİN, AMEA, AO |
| 2.1.7. | Oxuculara verilən ədəbiyyatın tematik – tipoloji uçotunun təşkili, fəal və qeyri-fəal istifadə edilən nəşrlərin müəyyənləşdirilməsi, oxucuların informasiya tələbatının ödənilməsinə yönəldilmiş sorğuların keçirilməsi və əldə edilmiş nəticələr əsasında fondların komplektləşdirilməsi | 2008-2009 | MdTN, AMEA, TKNDK |
| 2.1.8. | Respublikanın bütün kitabxanalarının pasportlaşdırılması, respublika üzrə statistik göstəricilərin hazırlanması və nəşri, kitabxanalarda fondların komplektləşdirilməsinə dair monitorinqlərin keçirilməsi | 2009 | MdTN, DSK, TKNDK |
| **2.2. Kitabxanaların kompyuter və informasiya-proqram təminatı, respublika üzrə kompyuterləşdirilmiş kitabxana informasiya şəbəkəsinin yaradılması və inkişafı** | | | |
| 2.2.1. | “Azərbaycan ədəbiyyatının virtual kitabxanası”nın yaradılması və oxucuların istifadəsinə verilməsi | 2009 | NK, MdTN, RİTN, TN, AMEA |

| | | | |
|---|---|---|---|
| 2.2.2. | Ulu öndər Heydər Əliyevin unikal dövlət və mədəni quruculuq təcrübəsinin, intellektual və mənəvi irsinin respublikanın və dünyanın rəqəmsal irs fondlarına daxil edilməsi | 2008-2009 | NK, MdTN, AMEA |
| 2.2.3. | Kitabxanalarda müasir informasiya texnologiyalarının tətbiqi, kompyuterləşdirilmiş kitabxana infrastrukturunun, elektron informasiya resurslarının və müxtəlif sahələr üzrə elektron kitabxanaların yaradılması | 2009-2010 | MdTN, RİTN, AMEA, TKNDK |
| 2.2.4. | "Biliklər cəmiyyətinin Azərbaycan modeli" konsepsiyasının hazırlanması | 2009 | MdTN, RİTN, AMEA, AO |
| 2.2.5. | Bakı şəhərində fəaliyyət göstərən kitabxanaların veb-saytlarının yaradılması, onların İnternetlə təchiz edilməsi, telefon xətti olmayan kitabxanalara telefon xəttinin çəkilməsi | 2008-2009 | MdTN, RİTN, YİHO, AO |
| 2.2.6. | Azərbaycan kitabxanalarının informasiya cəmiyyəti və vətəndaş cəmiyyəti institutları ilə birgə əməkdaşlığının həyata keçirilməsi | 2009-2010 | NK, MdTN, TKNDK |
| 2.2.7. | Mərkəzi kitabxanaların nəzdində əhalinin bütün təbəqələrinə pulsuz xidmət göstərən, müasir informasiya texnologiyaları ilə təmin olunmuş hüquq-informasiya mərkəzlərinin yaradılması (kitabxanaların mövcud ştat vahidləri çərçivəsində, ictimai əsaslarla) | 2008-2009 | MdTN, YİHO, AO |

| | | | |
|---|---|---|---|
| 2.2.8. | Yetkinlik yaşına çatmayan şəxslər üçün tərbiyə müəssisələrinin kitabxanalarında müasir kompyuter texnologiyaları ilə təmin olunmuş informasiya resurs mərkəzlərinin yaradılması (kitabxanaların mövcud ştat vahidləri çərçivəsində, ictimai əsaslarla) | 2009 | MdTN, ƏN, TN, AQUPDK, YİHO |
| 2.2.9. | "Azərbaycan ədəbiyyatı", "Azərbaycan tarixi", "Azərbaycan muzeyləri", "Qobustan", "Azərbaycanın turizm gözəllikləri" adlı elektron kitabxanaların yaradılması (mövcud kitabxanaların bazasında şəbəkə və ştat sayı dairəsində) | 2009-2010 | MdTN, RİTN, AMEA |
| 2.2.10. | Bir sıra rayon uşaq kitabxanalarında "Uşaq hüququ" informasiya mərkəzlərinin yaradılması (kitabxanaların mövcud ştat vahidləri çərçivəsində, ictimai əsaslarla) | 2008-2009 | MdTN, AQUPDK, YİHO |
| 2.2.11. | Azərbaycanın elektron kitabxanaları üçün Rusiyanın LİBNET Mərkəzindən rus və digər xarici dillərdə olan yeni ədəbiyyatların biblioqrafik təsvirlərinin alınması | 2009 | MdTN, XİN, AMEA, TKNDK |
| 2.2.12. | Gözdən əlil insanların intellektual səviyyəsinin yüksəldilməsi məqsədi ilə respublika əhəmiyyətli və mərkəzi kitabxanaların nəzdində fəaliyyət göstərən informasiya mərkəzlərində xüsusi proqramlı kompyuterlərin quraşdırılması | 2009-2010 | MdTN, ƏƏSMN, YİHO, AO |
| 2.2.13. | "Kitabxana fondları-regionun inkişafının əsas informasiya resursu kimi" mövzusunda dəyirmi masaların keçirilməsi | 2010-2011 | MdTN, AMEA, TKNDK |
| 2.2.14. | "Milli ədəbiyyat" müasir informasiya daşıyıcıları fondlarının yaradılması | 2008-2011 | MdTN, YİHO, AO |

| | | | |
|---|---|---|---|
| 2.2.15. | İnternetin mövcud veb-saytlarında Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti və incəsənəti haqqında informasiyaların monitorinqi | 2010 | MdTN, RİTN, AMEA, TKNDK |
| 2.2.16. | Azərbaycan kitabxanalarının dünyanın ən böyük kitabxanalarının məlumat bazalarına daxil olmasının və onların resurslarından istifadənin təmin edilməsi | 2009-2010 | MdTN, RİTN, AMEA, TKNDK |
| 2.2.17. | İşğal olunmuş rayon kitabxanalarının vəziyyəti haqqında "Dağıdılmış sərvətlər, məhv olmuş kitabxanalar" adlı 3 dildə (Azərbaycan, rus, ingilis) materialların çap və elektron nəşrinin hazırlanması, veb-saytın yaradılması və internetdə yerləşdirilməsi | 2010 | MdTN, RİTN, QMKİDK, YİHO, AO |
| 2.2.18. | Rusiya Dövlət Kitabxanasının dissertasiya mərkəzinə daxil olmaq üçün virtual oxu zalının təşkili | 2009 | MdTN, AO |
| 2.2.19. | "Azərbaycan kitabxanaları" veb-portalının yaradılması | 2009 | MdTN, RİTN, TKNDK |
| 2.2.20. | Hüquq-informasiya mərkəzlərinin veb-portallarının yaradılması və on-ların informasiya təminatının təşkili | 2010 | MdTN, RİTN, TKNDK |
| 2.2.21. | Lerik və Yardımlı rayon mərkəzi kitabxanalarında "Ətraf mühit", "Uzunömürlülər" məlumat bazalarının yaradılması və kitabxanaların veb-saytına əlavə edilməsi | 2010 | MdTN, ETSN, ƏƏSMN, AO |
| 2.2.22. | Azərbaycanın regionları üzrə "Qədim Bakı və bakılılar", "Qədim Şuşa və şuşalılar", "Qədim Bərdə və bərdəlilər", məlumat bazalarının yaradılması və internet şəbəkəsində yerləşdirilməsi | 2011 | MdTN, YİHO, AO |
| 2.2.23. | Şəki-Zaqatala regionunda əhaliyə səyyar kitabxana xidmətinin göstərilməsi məqsədi ilə pilot layihələrinin həyata keçirilməsi | 2009 | MdTN, RİTN, YİHO, AO |

| | | | |
|---|---|---|---|
| 2.2.24. | Əhalinin operativ informasiya təminatı üçün tabeliyindən asılı olmayaraq, Bakı şəhəri və respublikanın digər şəhər və rayon mərkəzi, uşaq və gənclər kitabxanalarında yeni informasiya texnologiyalarının, habelə avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin tətbiqi və Azərbaycanda ən çox yayılan İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sisteminin sərlöhvə və sərlövhəaltı məlumatlarının Azərbaycan dilinə tərcüməsi | 2009 | MdTN, TN, İİN, MN, RİTN, AMEA, TKNDK |
| 2.2.25. | Respublika kitab fondunun, elektron sənədlərin toplu kataloqunun yaradılması, sənədlərin tammətnli bazaya birbaşa keçid texnologiyasının tətbiq edilməsi | 2011 | MdTN, RİTN, AO |
| 2.2.26. | "Azərbaycan ədəbiyyatı antologiyası: XIX-XX əsrlər" elektron məlumat bazasının və elektron nəşrinin hazırlanması | 2010 | MdTN |
| 2.2.27. | Şəki şəhərinin Mərkəzi Kitabxana-sında "Azərbaycanın ipək diyarı" məlumat bazasının yaradılması | 2010 | YİHO, MdTN, AO |
| 2.2.28. | Bakı Musiqi Akademiyasının nəzdində mövcud ştat vahidləri çərçivəsində ictimai əsaslarla müasir multimedia tədris metodiki kompyuter mərkəzinin təşkili | 2009 | TN, RİTN, MdTN |
| 2.2.29. | Şəhər (rayon) mərkəzi kitabxanalarında, iri yaşayış massivlərində və qəsəbələrdə fəaliyyət göstərən kitabxanalarda elektron kitabxanaların, elektron kataloqların məlumat və təhsil portallarının yaradılması və internetdə yerləşdirilməsi | 2009-2010 | MdTN, RİTN, TN, TKNDK, AO |
| 2.2.30. | "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilin- | 2008-2009 | MdTN, AO |

| | | | |
|---|---|---|---|
| | də latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına əsasən nəşr olunan kitabların elektron kitabxanasının təşkili və İnternetdə yerləşdirilməsi | | |
| 2.2.31. | Azərbaycan-Türkiyə, AzərbaycanRusiya ilə birgə elektron kitabxanalarının yaradılması və "Sərhəddə görüş" layihəsinin həyata keçirilməsi | 2009-2010 | MdTN, XİN, AO |
| 2.2.32. | "Milli İnternet şəbəkəsinin hamisihifzedicisi (qoruyucusu)" simvolunun seçilməsi üzrə respublika müsabiqəsinin təşkili | 2009 | MdTN, RİTN, TN, AO |
| 2.2.33. | Kitabxanalarda kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması sahəsində kiçik qrantlar müsabiqəsinin təşkili | 2009-2010 | MdTN, TN, RİTN, AMEA, TKNDK |
| 2.2.34. | Regionlardakı kitabxanalar arasında "Ən yaxşı ictimai internet mərkəzi", "Ən maraqlı veb-sayt" mövzusunda respublika müsabiqəsinin keçirilməsi | 2008-2013 | MdTN, TN, RİTN, TKNDK |
| 2.2.35. | Elektron kitabxanaların Respublika müsabiqəsinin keçirilməsi | 2009-2012 | MdTN, AMEA, RİTN, TN, TKNDK |
| 2.2.36. | "Kitabxana-bələdiyyə informasiya mərkəzi kimi" layihələrinin həyata keçirilməsi | 2008-2013 | NK, MdTN, ƏN (bələdiyyələrin iştirakının təşkilinə kömək göstərməklə) AO |

| | | | |
|---|---|---|---|
| 2.2.37. | Gözdən əlillərin informasiya təminatını yaxşılaşdırmaq məqsədi ilə xüsusi proqramların hazırlanması | 2008-2009 | MdTN, RİTN, ƏƏSMN, YİHO, AO |
| 2.2.38. | Azərbaycan kitabının milli biblioqrafiyasının hazırlanması və nəşri, dövlət kitabxanalarında mühafizə edilən XIX əsrin 20-ci illərində nəşr olunmuş ədəbiyyatın (kitab, qəzet və jurnalların) əlifbasının kiril qrafikasından latın qrafikasına çevrilməsinin həyata keçirilməsi və informasiya daşıyıcılarına köçürülməsi | 2009-2010 | MdTN, AO |
| 2.2.39. | Kitabxana fondlarında saxlanılan qrammofon vallarının "Azərbaycanın səs irsi" adı ilə informasiya daşıyıcılarına köçürülməsi | 2011 | MdTN, AMEA |
| 2.2.40. | Azərbaycan Xalq Cümhuriyyətinin 90 illiyi ilə əlaqədar 1918-1920-ci il | | MdTN, |
| | lərdə nəşr edilən "Azərbaycan" qəzetinin mikrofilmləşdirilməsi və əlifbasının kiril qrafikasından latın qrafikasına çevrilməsinin həyata keçirilməsi | 2008-2009 | AMEA, MAİ, AO |
| 2.2.41. | Azərbaycan Milli Avtomatlaşdırılmış Kataloqlaşdırma Formatının (AZMARC) yaradılması və ölkə kitabxanalarında tətbiqi | 2010 | MdTN, RİTN, TKNDK |
| 2.2.42. | UNİMARC formatının Azərbaycan dilinə tərcüməsi və nəşri | 2009-2010 | MdTN, TN, SMPDA, AMEA, AO |
| 2.2.43. | Azərbaycan Respublikasının kitab abidələrinin müəyyən edilməsi, informasiya daşıyıcılarına köçürülməsi və "Azərbaycanın kitab abidələri" adlı məlumat bazasının yaradılması | 2010 | MdTN, TN, AMEA, YİHO, TKNDK |

| | | | |
|---|---|---|---|
| 2.2.44. | Regionlarda kiçik və orta biznesin informasiyaya olan tələbatını ödəmək üçün mərkəzləşdirilmiş kitabxana sistemlərinin bazasında kitabxanaların mövcud ştat vahidləri çərçivəsində və ictimai əsaslarla informasiya mərkəzlərinin yaradılması | 2010-2011 | MdTN, RİTN, MN, İİN, YİHO, AO |
| 2.2.45. | Yaradılan milli elektron resurslarının qeydiyyatı üçün AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda “İnformasiya registri” bölməsinin yaradılması (kitabxanaların mövcud ştat vahidləri çərçivəsində, ictimai əsaslarla) | 2009 | AMEA, MdTN, RİTN, AO |
| 2.2.46. | “Heydər Əliyev Mərkəzi”ndə təşkil olunacaq kitabxanaya “Milli Kitabxana-İnformasiya Kompleksi” statusunun verilməsi | 2009 | NK, MdTN |
| 2.2.47. | Dünyanın böyük kitabxana mərkəzlərində saxlanılan diyarşünaslıq (ölkəşünaslıq) xarakterli qiymətli və nadir kitabların (əsli, yaxud surəti və elektron variantı) “Heydər Əliyev Mərkəzi”ndə toplanması ilə bağlı zəruri tədbirlərin təşkili | 2009 | NK, MdTN, XİN |
| 2.2.48. | 2009-cu ili kitabxanaların avtomatlaşdırılması ili elan edilməsi | 2008-2009 | MdTN |
| | **2.3. Azərbaycan Respublikasının milli–mədəni irsinin və informasiya ehtiyatlarının qorunması və gələcək nəsillərə çatdırılması** | | |
| 2.3.1. | Xüsusi əhəmiyyətli çap sənədlərini, nadir kitabları, diyarşünaslığa aid nəşrləri qoruyub saxlamaq və nəsillərdən-nəsillərə ötürmək məqsədi ilə onların informasiya daşıyıcılarına köçürülməsi | 2011-2012 | NK, MdTN, RİTN, AMEA, TKNDK |

| | | | |
|---|---|---|---|
| 2.3.2. | “Ədəbiyyat” qəzetinin bütün nömrələrinin informasiya daşıyıcılarına köçürülməsi və qəzetin 1934-1950-ci illər üzrə çatışmayan nömrələrinin bərpası | 2008-2010 | MdTN, AMEA, AYB-nin, “Ədəbiyyat qəzeti” redaksiyasının tövsiyələri nəzərə alınmaqla |
| 2.3.3. | Azərbaycanın kitab mədəniyyətinin qorunması və dünyaya tanıdılması məqsədi ilə layihələrin həyata keçirilməsi | 2009-2012 | MdTN, TN, AMEA, XİN, AO |
| 2.3.4. | Nazirlik, komitə və idarələrin kitabxanalarında saxlanılan Azərbaycan kitab abidələrinin inventarizasiyasının aparılması və uçotunun təşkili | 2009-2010 | MdTN, MAİ, AO |
| 2.3.5. | Tarixi əhəmiyyət kəsb edən milli nəşrlərin mühafizəsini təmin etmək məqsədi ilə böyük kitabxanalarda depozitar fondların yaradılması | 2010-2012 | MdTN, TKNDK |
| 2.3.6. | “Kitab irsi Azərbaycanın milli sərvətidir” adlı layihənin həyata keçirilməsi, Sankt-Peterburq, Moskva, Kazan, Tbilisi, Paris, London, Drezden kitabxanalarının arxivlərində mühafizə olunan Azərbaycanla bağlı diyarşünaslıq nəşrlərinin müəyyən edilməsi və surətlərinin Azərbaycana gətirilməsinin təşkili | 2009-2012 | MdTN, XİN, AO |
| 2.3.7. | Naxçıvan Muxtar Respublikasının kitab fondunun elmi ekspertizası və monitorinqi | 2008-2009 | MdTN, AO |
| 2.3.8. | Respublikanın regionlarında nəşr edilən yerli qəzetlərdə diyarşünaslığa dair materialların toplanması, qorunması məqsədi ilə onların biblioqrafik uçotunun aparılması, Əlifbanın kiril qrafikasından latın qrafikasına çevrilməsi, informasiya daşıyıcılarına köçürülməsi və zəruri materialların istifadəsinin təmin edilməsi | 2008-2013 | MdTN, RİTN, YİHO, AO |

| | | | |
|---|---|---|---|
| 2.3.9. | "Kitab xəzinəsi: qədim kitablar əlyazmaların uçotu və bərpası" adlı layihənin həyata keçirilməsi | 2008-2009 | MdTN, TN, AMEA, MAİ, AO |
| 2.3.10. | "Azərbaycanın kitab yaddaşı" adlı layihənin həyata keçirilməsi və müvafiq məlumat bazasının yaradılması | 2009-2011 | NK, MdTN, AMEA, TKNDK, AO |
| 2.3.11. | Nadir, qiymətli və aktual nəşrlərin informasiya daşıyıcılarına köçürülmə proqramının işlənib hazırlanması | 2009 | MdTN, TN, MAİ, AMEA, RİTN, AO |
| 2.3.12. | "Dirçələn fondlar" şüarı ilə milli kitab irsimizin mühüm tərkib hissəsi olan fondların aktivləşdirilməsi, kiril qrafikasından latın qrafikasına çevrilməsinin həyata keçirilməsi və in-formasiya daşıyıcılarına köçürülməsi | 2008-2012 | MdTN, AMEA, TN, RİTN, YİHO, AO |
| | **2. 4. Kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi, onun forma və məzmunca yeniləşdirilməsi** | | |
| 2.4.1. | Respublikanın uşaq kitabxanalarında uşaqların informasiya tələbatı probleminin həlli məqsədi ilə monitorinqlərin keçirilməsi | 2008-2010 | MdTN, RİTN, TN, YİHO |
| 2.4.2. | İslam Konfransı Təşkilatı dövlətlərinin kitabxanaları ilə informasiya mübadiləsinin həyata keçirilməsi | 2008-2012 | MdTN, XİN, AO |
| | **2.5. Kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi, şəbəkənin optimallaşdırılması və kadr islahatlarının həyata keçirilməsi** | | |
| 2.5.1. | Kitabxana işini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi | 2008-2009 | NK, MdTN, AMEA, AO |

| | | | |
|---|---|---|---|
| 2.5.2. | F.Köçərli adına Respublika Uşaq Kitabxanasına Milli Uşaq Kitabxanası statusunun verilməsi | 2009 | NK, MdTN |
| 2.5.3. | Kitabxanaçıların təhsili, o cümlədən ixtisaslarının artırılması ilə bağlı zəruri tədbirlərin təşkili | 2009-2013 | MdTN, TN, YİHO, AO |
| 2.5.4. | “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində xarici ölkələrin ali məktəblərinin magistratura şöbələrində milli kitabxanaçı kadrların hazırlığının təşkili məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi | 2008-2013 | NK, MdTN, TN, XİN |
| 2.5.5. | “Kitabxanalar milli mədəniyyətin dirçəliş resursudur” mövzusunda respublika müşavirəsinin keçirilməsi | 2009 | MdTN, TN, AMEA, TKNDK |
| 2.5.6. | Bakı şəhərində ilk kitabxana-qiraətxananın 115 illiyinə həsr edilmiş “İlk kütləvi kitabxanalar-tarixdən müasirliyə qədər” mövzusunda tədbirin keçirilməsi | 2008 | MdTN, YİHO, TKNDK |
| 2.5.7. | Naxçıvan MR-da “Gənc peşəkarlar cəmiyyətə xidmət edir” mövzusunda gənc kitabxanaçıların forumunun keçirilməsi | 2011 | MdTN, AO |
| 2.5.8. | Tabeliyindən asılı olmayaraq kitabxanalar arasında müxtəlif nominasiyalar üzrə müsabiqələrin keçirilməsi (“İlin nümunəvi Mərkəzləşdirilmiş Kitabxana Sistemi”, “Ən yaxşı kitabxanaçı”, “Yaradıcı təkamül müəssisəsi”, “İçərişəhər Azərbaycan mədəniyyətinin incisidir”, “İlin ən yaxşı kitabxanası” və s.) | 2008-2013 | MdTN, YİHO, AO |
| 2.5.9. | Azərbaycan Respublikasının kitabxana mütəxəssisləri haqqında məlumat bazasının yaradılması və internetdə yerləşdirilməsi | 2008-2013 | MdTN, TKNDK |

| | | | |
|---|---|---|---|
| 2.5.10. | Azərbaycan Respublikasında kitabxanaçı kadrlara tələbatın öyrənilməsi və məzunların yerləşdirilməsi sisteminin yaradılması | 2008-2013 | MdTN, TN, YİHO, AO |
| | **2.6. Kitabxana işi sahəsində elmi tədqiqatların aparılması, kitabların hazırlanması və nəşri** | | |
| 2.6.1. | Respublika kitabxana şəbəkəsinin pasportlaşdırılması ilə əlaqədar illik statistik məlumat toplularının hazırlanması və nəşr edilməsi | 2008-2013 | MdTN, TN, YİHO TKNDK, AMEA |
| 2.6.2. | Dünya kitabxana standartlarının tərcüməsi və onların əsasında Milli Kitabxana standartlarının hazırlanması | 2008-2013 | MdTN, SMPDA, TNAMEA, TKNDK |
| 2.6.3. | Avropa Şurasının sənədləri əsasında "Mədəniyyət siyasəti bu gün: strategiyanın seçilməsi və Avropa Birliyinin istiqamətləri" adlı materialların nəşr edilməsi | 2009 | MdTN, XİN AO |
| 2.6.4. | Kitabxana-informasiya sahəsinə və kitabxanaşünaslığa dair elmi araşdırmaların aparılması və sosioloji sorğuların keçirilməsi | 2008-2013 | MdTN, TN, AMEA |
| 2.6.5. | Milli kataloqlaşdırma qaydalarının, təlimatlarının tərtibi və nəşr edilməsi | 2008-2009 | MdTN, TN, SMPDA, AMEA, AO |
| 2.6.6. | "Ədəbiyyat qəzeti"nin biblioqrafik göstəricisinin tərtib edilməsi (qəzetin 75 illik yubileyi ilə əlaqədar) | 2008-2009 | AMEA, AYB-nin, "Ədəbiyyat qəzeti" redaksiyasının tövsiyələrini nəzərə alaraq |
| 2.6.7. | Kütləvi kitabxanalar üçün Universal Onluq Təsnifatının uyğunlaşdırılmış variantının hazırlanması | 2010 | MdTN, TN, SMPDA, AMEA |

| | | | |
|---|---|---|---|
| 2.6.8. | Respublika əhəmiyyətli kitabxanaların veb-saytlarında Azərbaycanın turizm gözəlliklərinin təbliği və bu sahədə dünya kitabxanaları ilə informasiya mübadiləsinin həyata keçirilməsi | 2008-2013 | MdTN, TKNDK |
| 2.6.9. | Ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildli kitabının biblioqrafik göstəricisinin və elektron nəşrinin hazırlanması | 2008-2010 | MdTN, TN, AMEA, AO |
| 2.6.10. | "Azərbaycan kitabxanaları XXI əsrin əvvəllərində" adlı sənədli filmin hazırlanması | 2009 | MdTN, TKNDK, AO |
| 2.6.11. | Azərbaycanın mədəniyyəti, incəsənəti, ədəbiyyatı haqqında ən çox istifadə edilən kitabların elektron nəşrinin hazırlanması və internetdə yerləşdirilməsi | 2009-2010 | MdTN, TN, RİTN, TKNDK |
| 2.6.12. | Ümummilli lider Heydər Əliyev haqqında ən çox soruşulan kitabların informasiya daşıyıcılarına köçürülməsi | 2008-2009 | MdTN, RİTN, TKNDK, AO |
| 2.6.13. | Azərbaycanın klassik musiqi əsərləri yazılmış qrammofon vallarının informasiya daşıyıcılarına köçürülməsi | 2009-2011 | MdTN, AO |
| 2.6.14. | İşğal olunmuş ərazilərdə məhv edilmiş kitabxanalar haqqında ətraflı məlumatların hazırlanması və onların beynəlxalq təşkilatlara göndərilməsi | 2008-2009 | MdTN, TN, QMKİD, AO |
| 2.6.15. | Kitabxana-informasiya terminlərinin izahlı lüğətinin nəşr edilməsi | 2009 | MdTN, RİTN, TKNDK |
| 2.6.16. | Kitabxana Ensiklopediyasının Azərbaycan dilinə tərcümə edilməsi | 2008-2009 | MdTN |

| | | | |
|---|---|---|---|
| 2.6.17. | Kitabxana fəaliyyətinin monitorinq sisteminin təşkili | 2008-2013 | MdTN, YİHO, TKNDK, AO |
| | **2.7. Yeni kitabxana binalarının tikilməsi, yeni və fəaliyyət göstərən kitabxanaların maddi-texniki bazasının müasir tələblərə uyğun möhkəmləndirilməsi** | | |
| | **Respublika əhəmiyyətli kitabxanalar üzrə** | | |
| 2.7.1. | C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əsaslı təmiri, modernləşdirilməsi, avadanlıqla və avtomatlaşmış kitabxana-informasiya sistemi (AKİS) ilə təchiz edilməsi | 2008-2010 | MdTN |
| 2.7.2. | Gözdən Əlillər üçün Respublika Kitabxanasının müasir avadanlıqla təchiz edilməsi | 010 | NK, MdTN |
| | **Respublikanın şəhər və rayonları, Naxçıvan MR üzrə** | | |
| 2.7.3. | Qəza vəziyyətində olan və şəxsi evlərdə yerləşən kitabxanalar üçün yeni binaların tikilməsi | 2010-2013 | NK, MdTN, YİHO |
| 2.7.4. | Təmiri zəruri hesab edilən kitabxanaların əsaslı təmiri, modernləşdirilməsi, inventar və avadanlıqla təchiz edilməsi | 2008-2013 | NK, MdTN, YİHO |
| 2.7.5. | Mərkəzi kitabxanaların avtomatlaşmış kitabxana-informasiya sistemi (AKİS) ilə təchiz edilməsi | 2008-2013 | NK, MdTN, YİHO |
| 2.7.6. | Yeni dislokasiya xəritəsi əsasında (kitabxanası olmayan yeni salınmış qəsəbə, kənd və digər yaşayış massivlərində) kitabxanalar üçün binaların tikilməsi | 2010-2013 | NK, MdTN, YİHO |
| | **2.8. Kitabxanaların beynəlxalq əlaqələrinin inkişafı və beynəlxalq tədbirlərin təşkili** | | |
| 2.8.1. | YUNESKO-nun "İnformasiya hamı üçün" Proqramının Azərbaycan komitəsinin təşkili | 2008-2009 | NK, MdTN, XİN, TKNDK |

| | | | |
|---|---|---|---|
| 2.8.2. | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar "Heydər Əliyev Mərkəzi-Milli yaddaşımızın Mərkəzidir" mövzusunda Bakıda kitabxanaçıların beynəlxalq simpoziumunun təşkili | 2013 | NK, MdTN, AMEA |
| 2.8.3. | Dünyanın böyük kitabxanalarında və informasiya mərkəzlərində Azərbaycan guşələrinin yaradılması, kitab sərgilərinin və təqdimatlarının keçirilməsi | 2008-2013 | MdTN, XİN, XÖYAİDK |
| 2.8.4. | Rusiya Federasiyasının Moskva şəhərindəki "Puşkin Kitabxanası" meqalayihəsinin iş təcrübəsinin öyrənilməsi və Azərbaycanda kitabxanaların zəruri ədəbiyyat və elektron informasiya daşıyıcıları ilə təmin etmək məqsədi ilə "Nizami" layihəsinin təşkili | 2008-2009 | MdTN, TKNDK |
| 2.8.5. | Kitabxana sahəsinin zəruri istiqamətləri üzrə keçirilən konfranslarda Azərbaycan kitabxanaçılarının iştirakının təmin edilməsi (Krım, İFLA-nın illik, LİBKOM, Anapa, Soçi və s. konfransları) | 2008-2013 | MdTN, XİN, TN, AMEA, TKNDK |
| 2.8.6. | ABŞ, Avropa və MDB ölkələri kitabxanalarının avtomatlaşdırma, fondların bərpası və mühafizəsi, habelə UNİMARC formatının tətbiqi sahəsində təcrübələrin öyrənilməsi | 2013 | MdTN, XİN, TN, AMEA TKNDK |
| 2.8.7. | Azərbaycan və Rusiya kitabxanaçılarının qarşılıqlı təcrübə mübadiləsinin təşkili. Azərbaycan kitabxanaçılarının Buryatiya Respublikasına və digər regionlara ezam olunması | 2008-2013 | MdTN, XİN, AO |
| 2.8.8. | Ölkədə Kitabxanalararası Abonement Sisteminin optimallaşdırılması | 2008-2012 | MdTN, AO |

| | | | |
|---|---|---|---|
| | **2.9 . M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi** | | |
| 2.9.1. | Modernləşdirilmə məqsədi ilə maddi-texniki bazanın möhkəmləndirilməsi və müasir (yeni) informasiya texnologiyaları ilə təchizat | 2008-2010 | MdTN |
| 2.9.2. | Mövcud electron kataloq və electron kitabxana sistemlərinin təkmilləşdirilməsi | 2008-2009 | MdTN |
| 2.9.3. | Kitabxana fondunun, oxu zallarının, xidmət bölmələrinin və mətbəənin müasir tipli inventar və avadanlıqlarla təchizatı | 2008-2009 | MdTN |
| 2.9.4. | Zəruri nəqliyyatm vasitələri ilə təchizat | 2009-2010 | MdTN |
| 2.9.5. | Kitabxana binasının müasir standartlar səviyyəsində yenidən qurulması | 2008-2010 | MdTN |
| 2.9.6. | Kitab fondlarının bərpası və konservasiyasının həyata keçirilməsi | 2008-2010 | MdTN |

# Akronimlər

| | |
|---|---|
| Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | AQUPDK |
| Azərbaycan Milli Elmlər Akademiyası | AMEA |
| Aidiyyəti orqanlar | AO |
| Azərbaycan Yazıçılar Birliyi | AYB |
| Dövlət Statistika Komitəsi | DSK |
| Ekologiya və Təbii Sərvətlər Nazirliyi | ETSN |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | ƏƏSMN |
| Ədliyyə Nazirliyi | ƏN |
| Xarici İşlər Nazirliyi | XİN |
| Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi | XÖYAİDK |
| Beynəlxalq Kitabxana Assosiasiyası | İFLA |
| İqtisadi İnkişaf Nazirliyi | İİN |
| Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | QMKİDK |
| Azərbaycan Respublikasının Nazirlər Kabineti | NK |
| Mədəniyyət və Turizm Nazirliyi | MdTN |
| Milli Arxiv İdarəsi | MAİ |
| Maliyyə Nazirliyi | MN |
| Nəqliyyat Nazirliyi | NN |
| Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | RİTN |
| Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi | SMPDA |
| Tabeliyində kitabxanalar olan nazirlik və dövlət komitələri | TKNDK |
| Təhsil Nazirliyi | TN |
| Beynəlxalq Avtomatlaşdırılmış Kataloqlaşma Formatı | UNİMARC |
| Vergilər Nazirliyi | VN |
| Yerli icra hakimiyyəti orqanları | YİHO |

## Azərbaycan qadınlarının bir qrupuna fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış)

Azərbaycan qadınlarının ölkənin inkişafında rolunu nəzərə alaraq mədəniyyət, təhsil və səhiyyə sahələrində xidmətlərinə görə aşağıdakı qadınlara Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi"**

Əliyeva Elmira Hümmət qızı
İbrahimova Sara Hökmulla qızı
İsmayılova Xuraman İsbi qızı
Salayeva Natella Sirac qızı

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 sentyabr 2008-ci il*

## Türkdilli ölkələrin milli kitabxana direktorlarının konfransı və “Avrasiya Kitabxanalar Assambleyası” əməkdaşlıq təşkilatının ümumi iclasının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi – türkdilli ölkələrin milli kitabxana direktorlarının konfransı və “Avrasiya Kitabxanalar Assambleyası” əməkdaşlıq təşkilatının ümumi iclasının iştirakçılarını səmimi qəlbdən salamlayır, hər birinizə uğurlar, cansağlığı və firavanlıq arzulayıram.

Müstəqil Azərbaycan dövlətinin dünya mədəni məkanına inteqrasiyasında türkdilli dövlətlərlə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Son illər ərzində respublikamızda müxtəlif sahələrdə artıq ənənəvi şəkil almış irimiqyaslı forum və konfransların təşkili də məhz bu məqsədə xidmət göstərməkdədir.

Sizin tədbiriniz Azərbaycan Milli Kitabxanasının yaradılmasının 85 illik yubileyi ilə eyni vaxta təsadüf edir. Hər bir kitabsevərə qürur hissi bəxş edən bu tarix ölkələrimizin mədəni həyatında nəzərəçarpan hadisədir. Tarixən özünün yüksək kitab mədəniyyəti ilə tanınan və zəngin kitabxanaları ilə şöhrət tapan Azərbaycanda bu gün də kitabxanalar şəbəkəsinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi sayəsində son üç ildə dünya və Azərbaycan ədəbiyyatı nümunələrindən ibarət, ümumi tirajı 10 milyon nüsxəyə çatan 500-dən artıq kitabın çap olunub ölkə kitabxanalarına hədiyyə edilməsi ilə kitabxana fondları mütəmadi zənginləşmiş, onlardan faydalanma imkanları xeyli genişlənmişdir.

Qloballaşan dünyada informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasirləşən milli kitabxanalar ölkələrin davamlı inteqrasiyası və xalqların qarşılıqlı mədəni əlaqələrinin zəngin-

ləşməsi proseslərinə öz layiqli töhfələrini verməkdədir. Ümidvaram ki, konfransınızda müzakirəyə çıxarılan məsələlər və qəbul edilən qərarlar milli kitabxanaların xalqlarımızın mədəni sərvətlərinin yaşadılması və intellektual potensialının artırılmasında rolu baxımından faydalı olacaqdır.

Konfrans iştirakçısı olan dost və qardaş ölkələrin milli kitabxanalarının rəhbərlərinə, Azərbaycan Milli Kitabxanasının kollektivinə mənəvi dəyərlərimizin, bəşər mədəniyyəti xəzinəsi incilərinin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması naminə nəcib fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzu edirəm.

Dərin hörmətlə,

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 17 noyabr 2008-ci il*

## M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının əməkdaşlarına "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının aşağıdakı əməkdaşlarına "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Əmrahova Yaşar Mustafa qızı
Hacıyeva Mələkxanım Məmməd qızı
Məmmədov Fazil Həsənbala oğlu
Məmmədova Tamilla Rəhim qızı
Tahirov Kərim Məhəmməd oğlu

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 noyabr 2008-ci il*

## M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayeva Fatma Həsən qızı
Bayramov Dəmir Əmrah oğlu
Əsədova Bənövşə Ağamalı qızı
Həmidova Hərifət Mülki qızı

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 noyabr 2008-ci il*

## Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2013-cü ildə Azərbaycan Milli Kitabxanasının yaradılmasının 90 ili tamam olur.

Fəaliyyətə başladığı dövrdən etibarən Azərbaycan Milli Kitabxanası zəngin inkişaf yolu keçərək böyük əhəmiyyətə malik nəşrləri mühafizə edən mədəni sərvətlər xəzinəsinə çevrilmişdir. Ötən müddət ərzində o, cəmiyyətin intellektual-mənəvi potensialının artırılmasında əvəzsiz rol oynamış, elm və mədəniyyət xadimlərinin bir neçə nəslinin formalaşmasına öz töhfəsini vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə elmi-mədəni və ədəbi irsin qorunub saxlanılmasında mühüm xidmətləri olan Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 iyun 2013-cü il*

## Azərbaycan Milli Kitabxanasının əməkdaşlarına "Əməkdar Mədəniyyət İşçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda kitabxana işinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilsin:

Babayeva Təhminə Teymur qızı
Dadaşova Nəzakət Qurban qızı
Əliyeva Almaz Xəlil qızı
Əsədova Rəna Qurbanxan qızı
İsmayılova Ədibə İmaş qızı
Sevdimalıyeva Sarıgül Adıgözəl qızı
Səfərəliyeva Gülbəniz Cahangir qızı

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 sentyabr 2013-cü il*

## Azərbaycan Milli Kitabxanası əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram: Azərbaycanda kitabxana işinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Tahirov Kərim Məhəmməd oğlu

**"Tərəqqi" medalı ilə**

İbrahimova Gülarə Aydın qızı
Rüstəmova Sevda Qadir qızı
Sadıqova Dilşad Şaban qızı
Səmədova Enfira Şaban qızı
Talıbova Liliya Xəlil qızı
Vəliyeva Mədinə Əlibala qızı

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 sentyabr 2013-cü il*

## Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış)

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsi nin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar mədəniyyət işçisi"**
- Şıxəliyev Şahalı Kamil oğlu

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 may 2014-cü il*

## Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraqqərara alıram:

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının 50 illik yubileyi münasibətilə, Azərbaycanda kitabxana işinin təşkili sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə

**"Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:**

Dadaşova Zahirə Cabir qızı
Qəmbərova Şəhla Əliheydər qızı
Musazadə Rəfiqə Mirzə qızı
Tahirova Nazilə Rəhman qızı.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 dekabr 2015-ci il*

# Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının 50 illik yubileyi münasibətilə, Azərbaycanda kitabxana işinin təşkili sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağamirzəyeva Vəfa Əliağa qızı
Əhmədova Sevil Əliabas qızı
Qafarova Leyla Hacı Ağa qızı
Məmmədli Ruhiyyə Mikayıl qızı.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 dekabr 2015-ci il*

# “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 174-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 174-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1**. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və nor-

mativ xarakterli aktların "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 mart 2016-cı il*

## Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 90 illik yubileyi münasibətilə və Azərbaycanda kitabxanaçılıq işinin təkmilləşdirilməsi sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Əliyeva Mədinə Talış qızı
Həsənova Sənübər Abdulqafar qızı
Quliyev Oruc İslam oğlu
Musayeva Xalidə Məmmədəli qızı.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 dekabr 2018-ci il*

## M.H.Əhmədovun 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda kitabxana işi sahəsində səmərəli fəaliyyətinə görə Mayıl Hilal oğlu Əhmədov 3-cü dərəcəli **"Əmək"** ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 oktyabr 2019-cu il*

## K.M.Tahirovun 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda kitabxana işi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Kərim Məhəmməd oğlu Tahirov 2-ci dərəcəli **“Əmək”** ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 noyabr 2021-ci il*

## Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ildə Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Azərbaycan Milli Kitabxanası yarandığı vaxtdan etibarən şərəfli bir yol keçmiş, qarşıya qoyulan vəzifələrin öhdəsindən həmişə layiqincə gələrək ötən müddət ərzində cəmiyyətin intellektual potensialının artırılmasında baza kimi mühüm rol oynamış, ədəbiyyat sayı milyonları keçən fondlarını müntəzəm surətdə milli və dünya əhəmiyyətli nəşrlərlə, nadir kitablar, yeni-yeni çap məhsulları və qiymətli məlumat daşıyıcıları ilə zənginləşdirməklə xalqımızın mədəniyyət xəzinəsinə çevrilmişdir.

Özünəməxsus memarlıq üslubuna malik əzəmətli binada yerləşən Milli Kitabxana bu gün fəaliyyət dairəsini daha da genişləndirərək milli□mənəvi sərvətlərin etibarlı şəkildə qorunması və onun gələcək nəsillərə çatdırılması istiqamətində silsilə tədbirlər gerçəkləşdirir. İşini qabaqcıl texnologiyaların tətbiqi ilə dövrün tələbləri səviyyəsində daim təkmilləşdirən Milli Kitabxana hazırda dünya kitabxanaları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin mədəni-ictimai həyatında rolunu və kitabxana işinə töhfələrini nəzərə alaraq, Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Kitabxanasının 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsi

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 iyun 2023-cü il*

# III FƏSİL
# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

## QƏRAR № 84
**Bakı şəhəri, 21 may 1999-cu il**

## Azərbaycan Respublikası Nazirlər Sovetinin 1987-ci il 9 fevral tarixli 45 nömrəli qərarına dəyişiklik edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi barədə

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** "SSRİ Ali Soveti Rəyasət Heyətinin 1984-cü il 13 mart tarixli Fərmanı ilə əlaqədar Azərbaycan SSR Hökumətinin qərarlarının dəyişilməsi və qüvvəsini itirməsi barədə" Azərbaycan SSR Nazirlər Sovetinin 1987-ci il 9 fevral tarixli 45 nömrəli qərarının 1-ci bəndinin 2-8-ci abzasları aşağıdakı redaksiyada verilsin:

"X. Kitabxana fondlarına məxsus çap əsərlərinin və digər materialların itirilməsi və ya yararsız vəziyyətə salınmasına görə dövlət kitabxanalarının tələblərinə əsasən borcun ödənilməsi.

30. Hüquqi və fiziki şəxslərdən itirilmiş və ya yararsız və-

ziyyətə salınmış kitabxana fonduna məxsus çap əsərlərinin və digər materialların (milli mədəni sərvətlər reyestrinə daxil edilən nadir nüsxələr istisna olmaqla) yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla, qiymətinin 10 misli həcmində tutulması haqqında dövlət kitabxanalarının tələbləri.

İcra qeydinin alınması üçün aşağıdakılar təqdim edilir:

çap əsərinin və ya digər materialın kitabxanadan alındığı və onun vaxtında qaytarılmadığını müəyyən edən sənəd;

qaytarılmamış, yararsız vəziyyətə salınmış çap əsərinin və digər materialın başqa müvafiq çap əsərləri, materialları ilə əvəz edilməsi barədə, yaxud çap əsəri və digər materialın qaytarılması, dəyişdirilməsi mümkün olmadıqda, onların qiymətinin 10 misli həcmində borcun ödənilməsi barədə yazılı xəbərdarlığın surəti;

çap əsərinin və ya digər materialın qaytarılması, dəyişdirilməsi mümkün olmadıqda, borcun ödənilməsi haqqında yazılı xəbərdarlığın təqdim edilməsi barədə poçt bildirişinin surəti;

qaytarılmamış və ya yararsız vəziyyətə salınmış çap əsərinin və digər materialın qiyməti barəsində yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla, sifarişçi tərəfindən təsdiqlənmiş kitabxananın inventar kitabından çıxarış".

**2.** "Mətbuat məhsullarının nəzarət və məcburi nüsxələrinin göndərilmə qaydalarının gələcək inkişafı haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1987-ci il 4 dekabr tarixli 429 nömrəli qərarının I bölməsinin 1-4-cü bəndləri və II bölməsinin 1-7-ci bəndləri qüvvədən düşmüş hesab edilsin.

**3.** "Azərbaycan Respublikası Hökuməti qərarlarının qüvvəsini itirməsi və onlarda bəzi dəyişiliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 7 dekabr 649 nömrəli qərarının 3-cü bəndi qüvvədən düşmüş hesab edilsin.

**4.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş Naziri A.Rasizadə**

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## QƏRAR № 29

**Bakı şəhəri, 6 mart 2000-ci il**

## Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydalarının təsdiq edilməsi haqqında

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli, 115 nömrəli Fərmanının 1-ci bəndinin 3-cü abzasının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** "Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş Naziri A.Rasizadə**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli, 29 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydaları

## I. Azərbaycan Respublikasının Dövlət kitabxana fondları

**1.1.**Azərbaycan Respublikasının Dövlət Kitabxana fondları kitabxanalararası əlaqələndirilmiş komplektləşdirmə, qarşılıqlı istifadə, depozitar mühafizə və mübadilə prinsipləri əsasında təşkil edilən, məlumat-axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir.

**1.2.**Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu dövlət mülkiyyətidir.

## II. Dövlət kitabxana fondlarının uçotu

**2.1**.Kitabxana fondlarının uçotu fondun qorunub saxlanmasını, ondan istifadə edilməsini, fonda daxil olan və çıxarılan çap məhsullarını, fondun ümumi miqdarını, məzmununa görə bölgüsünü özündə əks etdirməlidir.

**2.2.** Fondun qorunmasına nəzarət, onun bir işçidən başqasına təhvil verilməsi, yoxlanması, statistik hesabatın aparılması uçot sənədləri əsasında həyata keçirilir.

**2.3.** Fondun uçotu aşağıdakı proseslərdən ibarətdir: ədəbiyyatın qəbulu, ona ştamp vurmaq, ədəbiyyatın qeydə alınması, həmçinin fonddan çıxarılması, fondun hərəkətinin nəticələrini aşkar etmək və onun yoxlanması.

**2.4.** Kitab fondlarının uçotu üzrə bütün əməliyyat kitabxananın komplektləşdirmə şöbəsi tərəfindən həyata keçirilir. Kitab fondunun dəyər uçotunu mühasibatlıq aparır.

**2.5.** Fondun mühafizə məsələlərinə sosial, fiziki-kimyəvi, bioloji amillər təsir edir. Kitabxana fondlarının mühafizəsini təmin edən müvafiq şərtlərə əməl edilməsi inzibati-rəhbər və kitabxana işçilərinin, habelə oxucuların müqəddəs vəzifəsi olmalıdır.

## III. Daxil olan ədəbiyyatın qəbulu

**3.1.** Daxil olan bütün çap məhsulları qoşma sənədlə (hesab-faktura, çekin surəti, akt və s.) kitabxananın kitabişləmə şöbəsinə göndərilir. Sənəddə göstərilən yazılarmüəllifin adı və soyadı, kitabın sərlövhəsi, qiyməti, nüsxələrin miqdarı yoxlanılır.

**3.2.** Daxil olan ədəbiyyat qoşma sənədlə düz gəlməyəndə və ya nöqsanlı nüsxələr olduqda ədəbiyyatın qəbuluna məsul şəxsin və kitabxananın ictimai təşkilatının nümayəndəsinin iştirakı ilə akt tərtib edilir. Aktın birinci nüsxəsi kitabxanada saxlanılır və daxil olan çap məhsullarının qəbulunda istifadə olunur. İkinci nüsxə ədəbiyyatı göndərən təşkilata verilir və ondan çatışmayan, səhvən verilən və yaxud nöqsanlı nüsxələrin dəyişdirilməsi tələb olunur.

**3.3.** Qoşma sənədsiz daxil olmuş çap məhsulları, o cümlədən təşkilatlar və ayrı-ayrı vətəndaşlar tərəfindən bəxşiş verilmiş, yaxud əhalidən toplanmış ədəbiyyat yoxlandıqdan sonra akt tərtib olunur. Akt komplektləşdirmə və kitabişləmə şöbəsində kitabxana direktorunun əmri ilə yaradılan 3 nəfər mütəxəssisdən ibarət komissiya tərəfindən tərtib olunur. Qoşma sənədsiz daxil olmuş çap məhsulları, kitablar əvvəllər daxil olan oxşar nəşrlərlə müqayisə edilməklə qiymətləndirilərək fonda daxil edilir.

**3.4.** Daxil olan bütün çap məhsullarına dərhal ştamp vurulur. Ştamp 10x40 mm ölçüdə, dördkünc formada olurr və üstündə kitabxananın adı yazılır.

**3.5.** Alınmış ədəbiyyat qoşma sənədlə yoxlanıldıqdan, nüsxələrin miqdarı təyin edildikdən və ştamp vurulduqdan sonra fərdi və ümumi uçot kitabına yazılır.

## IV. Kitabxana fondunun ümumi uçot kitabı

**4.1.** .Kitabxana fondunun ümumi uçot kitabı üç hissədən ibarətdir: 1-ci hissədə fonda daxil olan ədəbiyyat, 2-ci hissədə fonddan çıxarılan ədəbiyyat, 3-cü hissədə isə fondun uçotunun yekunu qeyd edilir.

**4.2.** Fonda qoşma sənədlə daxil olan və çıxarılan bütün ədəbiyyat, fondun ümumi uçot kitabının 1-ci və 2-ci hissələrinə yazılır. Daxilolma və çıxarılma haqqında hər bir qeyd xüsusi sətirdə növbəti sıra nömrəsi ardıcıllığı ilə yazılır. Bu nömrə qoşma sənədə də köçürülür.

**4.3.** Kitabxana fonduna daxil olan ədəbiyyatın çıxarılması haqqında məlumat 1-dən başlayır və çıxarılma səbəbinə baxmayaraq ildən-ilə ardıcıl olaraq davam etdirilir.

**4.4.** Kitabxana fondunun ümumi uçot kitabının 1-ci və 2-ci hissələri yazılarkən tarix, sıra nömrəsi, haradan daxil olması (və ya çıxarılması), qoşma sənədin sayı, ədəbiyyatın miqdarı, növlərə və məzmununa görə sayı göstərilir.

**4.5.** İlin sonunda kitabxananın komplektləşdirmə və kitabişləmə şöbəsi fonda daxil olan və oradan çıxarılan ədəbiyyatın miqdarını yekunlaşdırır, təzə il üçün fondda saxlanan ədəbiyyatın miqdarını müəyyənləşdirir.

## V. Kitab və kitabçaların fərdi uçotu

**5.1.** Kitab və kitabçalar nəşrlər üzrə uçot kataloqunda qeyd olunur. Hər bir nəşr üçün kataloqda 75x125 mm ölçüdə bir kartoçka (qeydiyyat vərəqi) ayrılır. Həmin kartoçkada bu nəşrdən neçə nüsxə alındığı, çıxarıldığı göstərilir.

**5.2.** Kartoçkanın üz hissəsində kitabların biblioqrafik təsviri, kitabda və qoşma sənəddə göstərilən qiyməti və kitaba verilmiş inventar nömrəsi yazılır.

**5.3.** Fonda daxil olan hər bir nüsxə üçün bir (növbəti) inventar nömrəsi verilir. Bu nömrə həm də uçot kartoçkasında, hər bir nüsxənin titul vərəqində və kitab formulyarında yazılır.

**5.4.** Çoxcildli əsərlərin bir cildinin bütün nüsxələrinə bir (növbəti) inventar nömrəsi verilir.

**5.5.** Nəşrə verilən müəyyən bir inventar nömrəsi kitabların fondda saxlandığı bütün müddət ərzində ona aid olur.

**5.6.** Kitabın müəyyən şöbə və filiallara aid olduğunu göstərmək üçün şöbənin şərti işarəsi kitabın yarlığında və formulyarında kitabın şifrəsindən sonra yazılır.

**5.7.** Filial kitabxanalar əlifba kataloqunun əsas kartoçkasının arxasında bu ədəbiyyatdan neçə nüsxə olduğunu və hansı fondlarda saxlandığını qeyd edirlər.

**5.8.** Uçot kataloqunda katrtoçkaların düzülüşü əlifba kataloqunun tərtibi qaydaları əsasında aparılır.

**5.9.** Köməkçi (əlavə, analitik-seriyalı) və qısaldılmış təsvirlər tətbiq edilmir. Hər bir yeni nəşrə xüsusi kartoçka tərtib olunur. Kartoçkaların qorunması üçün məsuliyyət kitabxananın komplekt ləşdirmə və kitabişləmə şöbəsi müdirinin üzərinə düşür.

## VI. Daxil olan jurnalların uçotu

**6.1.** Kitabxananın komplektləşdirmə və kitabişləmə şöbəsi abunəçilik məlumatları əsasında dövri mətbuatın mərkəzi (ümumi) kartotekasını tərtib edir. Qeyd kartoçkasının (qeydiyyat vərəqi) arxasında alınacaq komplektlərin miqdarı göstərilir.

**6.2.** Abunəçiliklə alınan jurnallar bilavasitə kitabxanaların bölmələrinə daxil olur. Bu bölmələrə daxil olan jurnalları qeyd kartoçkasının üz hissəsində qeyd edirlər.

**6.3.** Jurnalların qeyd kartoçkaları kitab və kitabçalardan ayrı xüsusi əlifba kartoçkasında düzülür.

**6.4.** Jurnalların mərkəzi kitabxana və filiallara daxil olan bütün nömrələri dərhal jurnalların qeyd kartoçkasının müəyyən qrafalarında qeydə alınır və onlara ştempel vurulur.

**6.5.** Jurnalların qeyd kartoçkaları müəyyən jurnalın bütün nömrələri fonddan çıxarılana qədər mərkəzi kitabxanada və filiallarda saxlanılır. Lazım olduqda kartoçkalardan məlumat məq-

sədi ilə və ya dövri məlumat fondunu yoxlamaq üçün istifadə olunur.

## VII. Digər materialların uçotu

**7.1.** Başqa növ çap məhsulları və materiallar uçot kataloqunda əks etdirilir. Bu kartoçkalar (qeydiyyat vərəqələri) "digər çap məhsulları" ayrıcı altında əlifba sırası ilə kitab və kitabçalardan sonra düzülür.

## VIII. Çıxarılan çap məhsullarının uçotu

**8.1.** Fonddan ədəbiyyat müvafiq akt əsasında çıxarılır. Hər bir aktla yalnız bir səbəb üzrə (köhnəlib, oxucular tərəfindən qaytarılmayıb, cırılıb, başqa səbəblərdən) çıxarılacaq ədəbiyyat daxil olur.

**8.2.** Ədəbiyyat çıxarılarkən akt iki nüsxədə tərtib olunur. Çıxarılan ədəbiyyat üçün qəbul olunmuş formada akt tərtib olunur və akt əlavə olaraq tərtib edilən siyahıda hər bir nüsxənin qiyməti göstərilir. Çıxarılan ədəbiyyatın qiyməti aktda göstərilən ədəbiyyatın məbləğ miqdarında olmalıdır.

**8.3.** Cırıldığına, məzmunca köhnəldiyinə görə və oxucular tərəfindən itirilmiş çap məhsullarının çıxarılması üçün tərtib olunan aktları kitabxananın direktoru təsdiq edir. Aktın hər bir nüsxəsində təsdiq olunduğu haqda qeyd və kitabxananın möhürü olmalıdır.

**8.4.** Müvafiq yaşayış məntəqəsindən köçüb getmiş oxucular tərəfindən qaytarılmayan ədəbiyyatın çıxarılması haqqında tərtib olunan akta ünvan bürosunun bu şəxslərin həqiqətən bu rayondan (şəhərdən) getdiyini təsdiq edən sənəd əlavə olunur.

**8.5.** Oxucular tərəfindən itirilmiş ədəbiyyatın əvəzinə alınan çap məhsulları kitabxananın "Oxucular tərəfindən itirilmiş ədəbiyyatın əvəzinə alınan ədəbiyyatın uçotu dəftəri"ndə qeyd olunur. Bu qeydlərin əsasında daxil olan və çıxarılan ədəbiyyat haqqındakı akt və itirilmiş kitabların formulyarları kitabxananın komplektləşdirmə və kitabişləmə şöbəsinə göndərilir.

## IX. Fondun yoxlanması

**9.1.** Kitabxananın fondu tabe olduğu yuxarı orqanın təyin etdiyi vaxtda, fond üzrə məsul şəxs dəyişdirildikdə və həmçinin təbii fəlakət zamanı yoxlanılır.

**9.2.** Fondun yoxlanılması nəzarət talonları əsasında aparılır. Yoxlama qurtardıqdan sonra akt tərtib olunur. Yoxlamanın nəticələri kitabxana şurasında müzakirə olunur və kitabxananın tabe olduğu yuxarı orqan tərəfindən təsdiq edilir.

## X. Kitabxanalardan istifadə qaydaları

**10.1.** Azərbaycan Respublikasında hər kəsin kitabxanalardan istifadə etmək hüququ vardır.

Kitabxanalardan istifadə qaydaları və göstərilən xidmətlər kitabxanaların müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

**10.2.** Oxucuların kitabxanaya yazılması pasport, yaxud şəxsiyyəti və yaşayış yerini təsdiq edən sənəd təqdim etdikdə həyata keçirilir.

**10.3.** Oxucuların kitabxanadan istifadə hüquqlarını məhdudlaşdırmaq qadağandır.

**10.4.** Oxucu yaşayış və iş yerini, soyadını dəyişdirdikdə, bu barədə kitabxanaya məlumat verməyə borcludur.

**10.5.** Oxucular kitabxanadan istifadə qaydalarına əməl etməli, kitab fonduna qayğı ilə yanaşmalı, çap məhsullarının itirilməsinə və yararsız hala salınmasına yol verməməlidirlər.

**10.6.** Kitabxanalar aşağıdakılara riayət etməlidirlər:

a) oxuculara lazım olan ədəbiyyatın seçilməsində şifahi məsləhət yolu ilə köməklik göstərir, onların kataloqlardan, tövsiyə siyahılarından və biblioqrafik materiallardan istifadə etmələri üçün imkan yaradır;

b) fonda daxil olan ədəbiyyat haqqında oxuculara müntəzəm olaraq məlumat verir (yeni kitabların sərgisi, yeni daxil olan ədəbiyyatın bülleteni və s.).

**Qeyd:**

a) kənd yerlərində yalnız müvəqqəti yaşayan şəxslər sənəd təqdim edirlər;

b) 15 yaşına çatmamış oxucular valideynlərin və yaxud tədris müəssisəsinin yazılı xahişi ilə kitabxanaya üzv yazılırlar;

c) 1-8 sinif şagirdləri uşaq kitabxanasından (böyüklər üçün kitabxananın uşaq şöbəsindən) istifadə edirlər. Yaşayış məntəqəsində uşaq kitabxanası (şöbəsi) olmadıqda, məktəblilər böyüklər üçün olan kitabxanalardan istifadə edirlər;

ç)15 yaşına çatmış şəxslər böyüklər üçün olan kitabxanalardan istifadə etmək hüququna malikdirlər.

## XI. Kitabxana fondlarının mühafizəsi

**11.1.** Kitabxana fondlarının mühafizəsi üçün aşağıdakılara riayət edilməlidir:

a) fond otaqlarında hava rejiminə düzgün əməl edilməsinə;

b) oxucuya verilən və qaytarılan ədəbiyyatın kitabxanaya daxil olmasının vaxtında uçotu və nəzarət;

c) elektrik, istilik, hava, su və digər qurğulara, yanğın təhlükəsinə nəzarət;

ç) ədəbiyyatın müxtəlif zərərvericilərdən mühafizəsinə.

**11.2.** Universal elmi kitabxanalarda fondun etibarlı mühafizəsini təşkil etmək məqsədi ilə əlyazmaları, nadir kitablar və xüsusi qiymətli nəşrlər üçün "nadir kitablar fondu", ehtiyat ədəbiyyat üçün mübadilə fondu, az istifadə olunan ədəbiyyat üçün isə depozitar fond yaradılır.

**11.3.** Kitabxanalarda olan nadir və qiymətli nəşrlər xüsusi rejimdə mühafizə olunur və qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil edilə bilər. Həmin ədəbiyyatın mühafizəsi lazımi qaydada təmin edilmədikdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən digər kitabxanaya verilə bilər.

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## QƏRAR № 30
**Bakı şəhəri, 6 mart 2000-ci il**

## Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi Əsasnamələrinin təsdiq edilməsi haqqında

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli, 115 nömrəli Fərmanının 2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** "Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi" və "Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş Naziri A.Rasizadə**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli, 30 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

## Azərbaycan Milli Kitabxanasının ƏSASNAMƏSİ

**1. Ümumi müddəalar**

a. Azərbaycan Respublikasının Milli Kitabxanası (bundan sonra – Kitabxana) Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan haqqında nəşr olunmuş çap məhsullarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli xəzinə və dövlət kitabsaxlayıcısıdır.

b. Kitabxana öz fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasını, "Mədəniyyət haqqında" və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunlarını, digər qanunvericilik aktlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Mədəniyyət Nazirliyinin əmrlərini, habelə bu Əsasnaməni rəhbər tutur.

**2. Kitabxananın statusu**

**2.1.** Milli kitabxana statusu "Mədəniyyət haqqında" Azərbay can Respublikası Qanununun 32-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən verilir.

**2.2.** Kitabxana respublikada tipindən və növündən asılı olmayaraq bütün kitabxanalar üçün metodik mərkəzdir.

**2.3.** Kitabxana ümumi istifadə üçündür. Kitabxana onun daxili qaydalarından düzgün istifadə etmək şərti ilə həm Azərbay-

can, həm də xarici ölkə vətəndaşları, habelə idarə, müəssisə və təşkilatlara xidmət edir.

**2.4.** Kitabxanadan istifadə pulsuzdur. Pullu xidmət ayrı-ayrı (surətçıxarma, bərpaetmə) xidmət növlərinə tətbiq olunur.

**2.5.** Kitabxana hüquqi şəxsdir, onun blankı, ştampı və üstündə adı qeyd olunan möhürü vardır.

### 3. Kitabxananın vəzifələri

**3.1.** Kitabxananın əsas vəzifələri aşağıdakılardır:

kitabxana fondunu milli dildə, dünya əhəmiyyətli nəşrlərlə və digər məlumat daşıyıcıları ilə maksimum komplektləşdirmək, fondun qorunmasını müəyyən olunmuş qaydalara əsasən həyata keçirmək və istifadəsinə nəzarət etmək, sanitar-gigiyena tədbirlərini, bərpa və cildləmə işlərini həyata keçirmək;

fondun elmi cəhətdən işlənməsini, kataloq və kartoteka sistemində əks olunmasını təmin etmək;

kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (internet) istifadə və milli fondların həmin sistemlərdə əks olunmasını təmin etmək;

Azərbaycanşünaslığa və elmin ayrı-ayrı sahələrinə dair elmi-köməkçi və tövsiyə biblioqrafik göstəricilərini hazırlamaq, diyarşünaslığa aid nəşr olunmuş ədəbiyyatın dövlət uçot-qeyd göstəricilərinin hazırlanmasında iştirak etmək;

mlli çap məhsulunun retrospektiv göstəricilərini və toplu kataloqunu hazırlamaq;

kitabxanaşünaslığın - biblioqrafiyaşünaslığın aktual problemlərinə dair başqa kitabxana və müəssisələrlə birlikdə, həm də müstəqil olaraq tədqiqat işləri aparmaq, ölkədə kitabxana işinin inkişafının əsas istiqamətlərinə dair proqnoz və layihələri, standartları, normativ sənədləri işləyib hazırlamaq;

çap əsərlərindən və digər informasiya daşıyıcılarından səmərəli istifadə etmək məqsədi ilə kompleks kitabxana, biblioqrafiya və informasiya xidməti göstərmək;

elmi və kitabxanalararası abonement vasitəsilə orijinal sənədlərlə, yazılı arayışlarla oxuculara differensial xidmət göstərmək;

idarələrin, müəssisələrin, təşkilatların, habelə elmi işçilərin, xalq təssərrüfatı mütəxəssislərinin, mədəniyyət və incəsənət xadimlərinin respublikanın sosial-iqtisadi və mədəni inkişafının aktual problemlərinə dair sorğularını dolğun şəkildə təmin etmək;

oxuculara və abonentlərə məlumat və məlumat biblioqrafiya xidməti göstərmək;

respublika kitabxana fondlarının depozitar mühafizəsini təşkil etmək;

respublikada mübadilə fondunun fəaliyyətini genişləndirmək, dublet və qeyri-profilli ədəbiyyatın saxlanmasını təmin etmək;

kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi-tədqiqatların nəticələrini, öz işinə və respublikanın başqa kitabxanalarının işinə tətbiq etmək, kitabxanaların qabaqcıl iş təcrübəsini öyrənmək və yaymaq;

kitabxana işinə dair respublika və beynəlxalq elmi konfranslar, seminarlar, təşkil etmək, xarici ölkə kitabxanalarının təşkil etdiyi seminar və konfranslarda iştirak etmək;

kitabxanaşünaslığa dair ədəbiyyat və biblioqrafik göstəricilər tərtib və nəşr etmək.

**3.2.**Kitabxana vaxtaşırı öz haqqında oxucular (ictimaiyyət) qarşısında hesabat verir.

**4. Milli Kitabxana dövlətin milli irsidir**

**4.1.** Milli Kitabxananın fondu və əmlakı milli sərvət hesab olunur və xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur.

Hökumətin təklifi ilə Milli Kitabxana və onun fondları YUNESKO-nun ümumdünya mədəni irsi siyahısına daxil edilə bilər.

**4.2.** Kitabxana fondunda olan qiymətli nəşrlərin üzə çıxarılması, uçotu, mühafizəsi ilə məşğul olur. Kitabxananın fondunda olan qiymətli nəşrlərin dəyəri, mühafizə dərəcəsi və respublikadan çıxarılması imkanı Mədəniyyət Nazirliyi tərəfindən ekspertiza yolu ilə müəyyən edilir.

**4.3.**Kitabxananın fondunda olan milli mədəniyyət sərvətləri Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının dövlət siyahısında və mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alınır.

**5. Milli Kitabxana və dövlət siyasəti. Kitabxananın hüquqları**

**5.1.** "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə müvafiq olaraq Milli Kitabxananı ləğv etmək, onun mülkiyyət formasını dəyişmək qadağandır.

**5.2.** Kitabxana öz fondunu kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları ilə aparılan müvafiq əməliyyatlar, abunə və bağışlama yolu ilə komplektləşdirir.

**5.3.** Kitabxana istifadəyə yararsız hala düşən ədəbiyyatı müəyyən olunmuş qaydada fonddan çıxarır.

**5.4.** Fiziki və hüquqi şəxslər tərəfindən kitabxanaya dəymiş ziyanın ödənilməsini kitabxana qanunvericilikdə müəyyən edilmiş qaydada tələb edir.

**5.5.** Kitabxanaya əvəzsiz və müddətsiz istifadə üçün qanunvericilikdə müəyyən olunmuş qaydada torpaq sahəsi verilə bilər.

**5.6.** "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə müvafiq olaraq kitabxana dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından 4 (dörd) pulsuz məcburi nüsxə, Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnallardan 2 (iki) pulsuz məcburi nüsxə ilə təmin olunur.

**5.7.** "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə müvafiq olaraq kitabxananın işçilərinin əmək haqlarına müvafiq əlavələr müəyyən edilir.

**5.8.** Kitabxana dövlət və qeyri-dövlət nəşriyyatları tərəfindən buraxılan çap məhsullarını birinci növbədə almaq hüququna malikdir.

## 6. Kitabxananın maliyyələşdirilməsi

**6.1.** Kitabxana dövlət büdcəsi hesabına maliyyələşdirilir. Bununla yanaşı, kitabxananın təsərrüfat fəaliyyətində və digər pullu xidmətlərindən daxil olan vəsaitlər hesabına budcədənkənar vəsaitlər fondu da formalaşdırılır. Kitabxanaya sponsorlardan, ayrı-ayrı hüquqi və fiziki şəxslərdən vəsait daxil ola bilər.

**6.2.** Kitabxana hüquqi və fiziki şəxslər tərəfindən verilmiş yardım üçün nəzərdə tutulmuş valyuta hesabına malik ola bilər.

**6.3.** Milli Kitabxana üçün ayrılmış vəsait kitabxananın sərəncamında qalır, onun nizamnamə fəaliyyətini həyata keçirmək üçün istifadə edilir və həmin vəsaitin silinməsinə heç bir halda icazə verilmir.

## 7. İdarəetmə

**7.1.** Kitabxana Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərir, kitabxanaya nazirin əmri ilə təyin olunan direktor rəhbərlik edir.

**7.2.** Direktorun hüquq və vəzifələrinə aşağıdakılar daxildir: qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi, kitabxana

əməkdaşlarının ixtisaslarının təkmilləşdirilməsi üçün məsuliyyət daşıyır;

nizam-intizam qaydalarına və qanunlara riayət olunmasına, dövlət mülkiyyətinin qorunmasına şərait yaradır, kollektivin sosial inkişafında və istehsalat vəzifələrinin yerinə yetirilməsində kitabxananın ehtiyatlarından səmərəli istifadə edir;

kitabxananın adından hərəkət edir, mövcud qanunvericilik əsasında kitabxananın maliyyə və digər vəsaitlərdən istifadə olunması üçün sərəncam verir;

kitabxananın adından bank və kredit müəssisələrində maliyyə əməliyyatları aparır, müvafiq xəzinə qurumlarında büdcə və digər hesabları açmaq və bağlamaq işini həyata keçirir, müqavilələr bağlayır, etibarnamələr verir;

əmək qanunvericiliyinə və mövcud qaydalara əsasən işçiləri işə qəbul və işdən azad edir;

əmək kollektivinin qərarı və mövcud qanunvericilik əsasında işçiləri mükafatlandırır və intizam məsuliyyətinə cəlb edir;

direktor müavinlərinin vəzifə bölgüsünü aparır;

kitabxananın fəaliyyəti haqqında kollektiv və oxucular qarşısında hesabat verir.

**7.3.** Kitabxananın struktur bölmələri öz işlərini kitabxana direktorunun təsdiq etdiyi əsasnaməyə uyğun qururlar.

**7.4.** Kitabxananın strukturu Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən təsdiq edilir.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli, 30 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

# Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

**1.1.** Respublika Elmi-Sahəvi Kitabxanası (bundan sonra - Kitabxana) respublikada elm, texnika, təhsil, mədəniyyət, tibb və səhiyyə, kənd təsərrüfatı sahələrində müvafiq icra hakimiyyəti strukturlarının kitabxana şəbəkəsinə məlumat-biblioqrafiya və kitabxana xidmətini həyata keçirən elmi-metodik əlaqələndirmə mərkəzidir, vahid elmi-məlumat sisteminə daxildir.

Kitabxana elm sahəsinə və oxucu qruplarına görə ixtisaslaşdırılan, milli xarici ədəbiyyat fondlarına malik olan baş kitabxana biblioqrafiya və informasiya müəssisəsidir, öz profili üzrə kitabxanalararası abonement və metodik mərkəz funksiyasını yerinə yetirir.

**1.2.** Kitabxana öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunlarını və həmin qanunlardan irəli gələn qanunvericilik aktlarını, müvafiq icra hakimiyyəti orqanlarının qərar, əmr, sərəncam və göstərişlərini və bu Əsasnaməni rəhbər tutur.

**1.3.** Kitabxana müvafiq icra hakimiyyəti orqanının tabeliyindədir.

## 2. Vəzifələri

**2.1**.Kitabxana:

xidmət etdiyi sahəyə uygun Azərbaycan Respublikası Prezidentinin Fərmanlarını, müvafiq icra hakimiyyəti orqanının qərar,

əmr, sərəncam və göstərişlərini təbliğ edir, mütəxəssislərə hərtərəfli məlumat-biblioqrafiya və kitabxana xidməti göstərir;

mütəxəssislərə məlumat xidmətinin təşkilində elmi idarə və müəssisələrlə qarşılıqlı əlaqə saxlayır, oxuculara məlumat-biblioqrafiya xidməti işinin təşkilində kompyuter texnikasını tətbiq edir;

kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığa dair respublikada aparılan elmi-tədqiqat və elmi-metodik işlərdə, beynəlxalq miqyasda sahə və sahələrarası tədqiqatlarda iştirak edir;

daxil olduğu sistemin kitabxanalarının fəaliyyətini istiqamətləndirmək məqsədi ilə məlumat banklarının hazırlanması işində iştirak edir;

"İnternet" sistemi vasitəsilə respublika və xarici ölkələrin kitabxanaları arasında məlumat-biblioqrafiya və kitabxana işini əlaqələndirir;

kitabxana fondunda olan qiymətli nəşrlərin üzə çıxarılması, uçotu və mühafizəsi ilə məşğul olur.

**3. Hüquqları**

**3.1.Kitabxana**:

müvafiq icra hakimiyyəti sisteminin kitabxanaları üzrə elmi-metodik mərkəz statusuna malikdir;

müvafiq icra hakimiyyəti sistemindəki kitabxanaların fəaliyyətini öyrənir, metodik köməklik göstərir, təklif və tövsiyələr verir, müəyyənləşdirilmiş qaydada onların işi haqqında illik hesabat və başqa məlumatlar alır;

kitabxanaların fəaliyyətini gücləndirmək məqsədi ilə onların strukturlarında dəyişikliklər haqqında təkliflər verir;

kitabxana şəbəkəsinin işçilərinin attestasiyadan keçirilməsi işində iştirak edir, onların maddi və mənəvi cəhətdən həvəsləndirmə, mükafat və fərqlənmə nişanlarına təqdim olunması üçün təkliflər verir;

bazası əsasında ixtisasartırma və yenidən hazırlama kursları təşkil edir;

başqa sistem kitabxanaları, idarələri və təşkilatları ilə müəyyənləşdirilmiş qaydada yazışmalar aparır;

müvafiq icra hakimiyyətinin tapşırığı ilə beynəlxalq miqyaslı tədbirlərdə kitabxana məlumat-biblioqrafiya məsələləri üzrə şəbəkəni təmsil edir;

kitabxana istifadəyə yaramayan hala düşmüş kitabları müəyyən olunmuş qaydada fonddan çıxarır;

fiziki və hüquqi şəxslər tərəfindən kitabxanaya dəymiş ziyanın ödənilməsini kitabxana qanunvericilikdə müəyyən edilmiş qaydada tələb edir;

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə uyğun olaraq respublikada dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından və həmçinin Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnallardan profili üzrə 2 pulsuz məcburi nüsxələrini alır.

**4. İşin təşkili**

**4.1. Kitabxana:**

fondun tərkibinin təkmilləşdirilməsini təmin edir;

fondu respublika və xarici dövlətlərdə çıxan profilinə uyğun ədəbiyyatla komplektləşdirir;

beynəlxalq kitab mübadiləsini həyata keçirir; komplektləşdirmə işinə kömək məqsədi ilə sorğu aparatı təşkil edir (komplektləşdirmənin mövzu planı, cari komplektləşdirmənin kartotekası);

çap nəşrlərinin ümumi və fərdi uçotunu aparır; ədəbiyyatı elmi və texniki cəhətdən işləyir; fondu kataloqlaşdırır;

kitab fondunun tərkibinin optimallaşması üzrə iş aparır, ədəbiyyatı seçir, mövcud qanunvericiliyə uyğun olaraq məzmunca köhnəlmiş və istifadəyə yararsız ədəbiyyatı silir, mübadilə fondu üçün ədəbiyyatı ayırır və az istifadə olunan kitabları depozitar mühafizəyə verir;

müvafiq icra hakimiyyəti müəssisələrinə kitabxana xidmətini həyata keçirir, onların elmi və tədris fəaliyyətinin və ixtisas biliklərinin artırılmasına kömək edir;

oxuculara oxu zallarında, abonementdə, səyyar məntəqələrində qiyabi və kitabxanalararası abonement (KAA) vasitəsilə xidmət edir;

oxucularla fərdi iş aparır və ədəbiyyat seçməkdə onlara yardım edir;

ədəbiyyatın təbliğində müasir forma və metodlardan istifadə edir;

respublikada görkəmli elm xadimlərinin əlyazmalarının, nadir nəşr nümunələrinin fondunu yaradır;

müvafiq icra hakimiyyətinin əməkdaşlarına, kitabxananın oxucularına informasiya-biblioqrafiya xidmətini təşkil edir;

cari biblioqrafiya kartotekası, biblioqrafik mövzu kartotekaları yaradır;

məlumat-biblioqrafiya işi aparır, oxucuların sorğusuna əsasən şifahi və yazılı arayışlar verir;

oxucular arasında kitabxana, məlumat-biblioqrafiya biliklərini təbliğ edir;

fonda daxil olan ədəbiyyatı əhatə edən biblioqrafik vəsaitləri, tövsiyə biblioqrafik göstəriciləri, cari retrospektiv və mövzu göstəriciləri hazırlayır və təbliğ edir;

elmi-metodik mərkəz kimi rəhbərlik etdiyi kitabxana şəbəkəsinin nəşriyyat fəaliyyətini əlaqələndirir və ümumi planını tərtib edir;

metodik rəhbərliyi həyata keçirmək üçün aşağıdakı funksiyaları yerinə yetirir:

müvafiq icra hakimiyyətinin kitabxana şəbəkəsinin strukturunu dəyişdirmək və təkmilləşdirmək üçün təkliflər verir;

şəbəkənin kitabxanalarının işi haqqında plan və hesabatları toplayır, təhlil edir və onların fəaliyyətinin xülasəsini hazırlayır;

sistem daxilində qabaqcıl kitabxana təcrübəsini öyrənir, ümumiləşdirir və tətbiq edir.

**5. İdarəetmə**

**5.1.** Kitabxananın bütün işlərinə direktor başçılıq edir. Direktor aşağıdakı səlahiyyətləri həyata keçirir:

kitabxananı təsisçi, dövlət orqanları, ictimai təşkilatlar, idarə və müəssisələrdə təmsil edir, mövcud qanunvericiliyə müvafiq olaraq kitabxananın mülkiyyəti və vəsaitlərinə dair sərəncam verir, müqavilə bağlayır, etibarnamə verir;

kitabxana üzrə əmrlər verir, əmək qanunvericiliyinə müvafiq qaydada işçiləri işə qəbul edir və işdən azad edir, kitabxana işçilərinə həvəsləndirmə və intizam məsuliyyəti tətbiq edir;

plan və hesabatları, kitabxana şurasının planını təsdiq edir, vaxtaşırı kitabxananın iş planını və illik hesabatını müvafiq icra hakimiyyətinə təqdim edir;

şöbə və bölmə müdirlərini işə qəbul və işdən azad edir.

**5.2.** Direktor və onun müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin və azad olunurlar.

**6. Elmi-metodik şura**

**6.1.** Şəbəkənin kitabxanalarının işinin elmi-metodik məsələlərini nəzərdən keçirmək üçün məşvərətçi orqan hüququnda elmi-metodik şura yaradılır və Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir. Şuranın tərkibinə direktor (sədr), müavinləri, şöbə müdirləri, kitabxananın xidmət etdiyi sahənin alim və mütəxəssisləri, kitabxana şəbəkəsinin nümayəndələri daxil olurlar.

Şuranın tərkibini direktorun təqdimatı ilə müvafiq icra hakimiyyəti təsdiq edir.

**6.2.** Şuranın tərkibində daimi fəaliyyət göstərən bölmələr yaradılır.

**7. Strukturu və maliyyələşdirilməsi**

**7.1.** Kitabxananın strukturu və ştat cədvəli Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

**7.2.** Kitabxana müvafiq icra hakimiyyətinin büdcəsi hesabına maliyyələşdirilir.

Kitabxananın fondunu yeni nəşrlərlə komplektləşdirmək, beynəlxalq və respublikadaxili kitab mübadiləsini həyata keçirmək məqsədi ilə mübadilə fondu üçün kitab alınmasına büdcədə əlavə vəsait nəzərdə tutulur.

Kitab fondlarının komplektləşdirilməsinə yönəldilən vəsait ayrıca maddədə göstərilir və bu vəsait müntəzəm olaraq artırılır. Ayrılmış vəsait kitabxananın fəaliyyətini həyata keçirmək üçün istifadə edilir.

**7.3.** Kitabxana hüquqi şəxsdir, onun möhürü, künc ştampı vardır və müvafiq bank hesablarına malikdir.

**7.4.** Qəbul edilmiş normativlərə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı kitabxananı bina, surətköçürmə və çoxaltma texnikası, kompyuter, nəşriyyat və cildləmə avadanlıqları ilə təmin edir.

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ

### QƏRAR № 50

Bakı şəhəri, 15 aprel 2004-cü il

### M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına Milli Kitabxana statusu verilməsi barədə

"Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. M.F. Axundov adına Azərbaycan Dövlət Kitabxanasına **Milli Kitabxana** statusu verilsin.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi *Mədəniyyət və Turizm Nazirliyi* ilə birlikdə bu qərardan irəli gələn digər məsələləri həll etsin.
3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri A.Rasizadə**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZIRLƏR KABİNETİ

## QƏRAR № 162

Bakı şəhəri, 11 oktyabr 2011-ci il

## "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR**:

1. "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər,

qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri" təsdiq edilsin (əlavə olunur).

2. Kitabxana müəssisələrində yaradılacaq yeni şöbə və ştat-

lar kitabxana-informasiya sahəsində aparılan islahatlar və struktur təkmilləşdirilməsi nəticəsində sərbəstləşən ştat vahidləri hesabına həyata keçirilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş Naziri Artur Rasi-zadə**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 oktyabr tarixli 162 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri

| Vəzifələrin adı | İldə oxucuların sayı 15-20 min nəfərədək (o cümlədən virtual istifadəçilər), kitab verilişi (elektron xidmət) 200 min nüsxəyədək | İldə oxucuların sayı 20-30 min nəfərədək (o cümlədən virtual istifadəçilər), kitab verilişi (elektron xidmət) 200-400 min nüsxəyədək | İldə oxucula rın sayı 30-45 min nəfərədək (o cümlədən virtual istifadəçilər), kitab verilişi (elektron xidmət) 400-500 min nüsxəyədək | İldə oxucuların sayı 45 min nəfərdən çox (o cümlədən virtual istifadəçilər), kitab verilişi (elektron xidmət 550 min nüsxədən çox) | QEYD<br><br>Oxucularının sayı 60 min nəfərdən, illik kitab verilişinin miqdarı 1 milyon nüsxədən artıq olan MKS-lərin ştatları fərdi qaydada Maliyyə Nazirliyi ilə razılaşdırılaraq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq olunur |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | |
| MKS-nin direktoru | 1 | 1 | 1 | 1 | MKS-nin direktoru eyni zamanda şəhər (rayon) mərkəzi kitabxanasının direktoru vəzifəsini yerinə yetirir |
| Direktor müavini | - | 1 | 1 | 1 | |
| Tərtibatçı rəssam | 1 | 1 | 1 | 1 | |
| Təsərrüfat müdiri | 1 | 1 | 1 | 1 | |
| Fəhlə | 1 | 1 | 1 | 1 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Xadimə | 1 | 1 | 1 | 1 | təmizlənən hər 150 kv.m sahə üçün 1 ştat vahidi verilir |
| Cəmi | 5 | 6 | 6 | 6 | |

## Şəhər (rayon) MKS-nin mərkəzi kitabxanasının oxuculara xidmət şöbəsi

| **1** | **2** | **3** | **4** | **5** | **Qeyd** |
|---|---|---|---|---|---|
| Şöbə müdiri | 1 | 1 | 1 | 1 | Xidmət şöbəsində il ərzində oxucuların sayı (o cümlədən, virtual istifadəçilər) 3 min nəfərdən və kitab verilişinin miqdarı 40 min nüsxədən (o cümlədən, virtual xidmət) artıq olduqda, nümunəvi ştatlarda nəzərdə tutulandan əlavə baş kitabxanaçı (biblioqraf), multimedia mütəxəssisi, informasiya texnologiyaları üzrə mütəxəssis ştatları ayrıla bilər. Bu zaman hər əlavə 500 nəfər oxucu və 10 min nüsxə kitab verilişi üçün 1 ştat vahidi verilir |
| Baş kitabxanaçı | - | 1 | 1 | 1 | |
| Abonoment bölməsinin müdiri | 1 | 1 | 1 | 1 | |
| Böyük kitabxanaçı | 1 | 1 | 1 | 1 | |
| Oxu zalının müdiri | 1 | 1 | 1 | 1 | |
| Multimedia mütəxəssisi | 1 | 1 | 1 | 1 | |
| Kitabxanaçı informasiya texnologiyaları üzrə mütəxəssis | 1 | 1 | 1 | 1 | |
| **Cəmi** | **6** | **7** | **7** | **7** | |

## Komplektləşdirmə və kitabişləmə şöbəsi

| **1** | **2** | **3** | **4** | **5** |
|---|---|---|---|---|
| Şöbə müdiri | 1 | 1 | 1 | 1 |
| Baş kitabxanaçı | - | 1 | 1 | 1 |
| Böyük kitabxanaçı | 1 | 1 | 1 | 1 |
| Biblioqraf | 1 | 1 | 1 | 1 |
| **Cəmi** | **3** | **4** | **4** | **4** |

## Metodika və biblioqrafiya şöbəsi

| 1 | 2 | 3 | 4 | 5 | Qeyd |
|---|---|---|---|---|---|
| Şöbə müdiri | 1 | 1 | 1 | 1 | Metodika və biblioqrafiya şöbələrində nümunəvi ştatlarda nəzərdə tutulandan əlavə böyük metodist, kitab-xanaçı (informasiya texnologiyaları üzrə mütəxəssis) ştatları da ayrıla bilər. Bu zaman şöbə işçilərinin ümumi sayı hər bir işçiyə MKS-nin metodik kömək göstərən 25 kitabxana filialı hesabı ilə müəyyən olunur |
| Baş biblioqraf | - | 1 | 1 | 1 | |
| Böyük metodist | 1 | 1 | 1 | 1 | |
| **Cəmi** | **2** | **3** | **3** | **3** | |

## Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi

| 1 | 2 | 3 | 4 | 5 | Qeyd |
|---|---|---|---|---|---|
| Şöbə müdiri | 1 | 1 | 1 | 1 | I-II-III qruplara aid edilən MKS-lərdə mərkəzi kitabxanaların, mərkəzi uşaq kitabxanalarının bütün şöbələrinə baş kitabxanaçı (sistem inzibatçısı) ştatları ayrılmalı və bu zaman onların ümumi sayı MKS- |
| İnformasiya texnologiyaları üzrə mütəxəssis | 1 | 1 | 2 | 2 | |
| Sistem | 1 | 1 | 1 | 1 | |
| inzibatçısı | | | | | nin kitabxana işçilərinin ümumi sayının 10 faizindən çox olmamalıdır |
| **Cəmi** | **3** | **3** | **4** | **4** | |

## İnformasiya-resurs şöbəsi

| **1** | **2** | **3** | **4** | **5** | **Qeyd** |
|---|---|---|---|---|---|
| Şöbə müdiri | 1 | 1 | 1 | 1 | İnformasiya resurs mərkəzləri I-II-III və IV qruplara aid edilən MKS-lərdə İNTERNET şəbəkəsinə qoşulmuş 3-dən artıq kompyuter dəsti, 1 komplekt printer, skaner, surət çıxarma, proyektor, noutbuk aparatı, onlayn konfransların təşkili üçün videokamera olduqda yaradılır. 3-dən az kompyuter dəsti və müvafiq avadanlıq olduqda isə mərkəz yaradılmır və müstəqil kitabxanaya və ya mərkəzi kitabxanaya 1 ştat vahidi operator ştatı verilir. |
| Proqramçı | 1 | 1 | 1 | 1 | |
| Operator | 1 | 1 | 1 | 1 | |
| **Cəmi** | **3** | **3** | **3** | **3** | |

## Şəhər (rayon) mərkəzi kitabxanasının uşaq şöbəsi

| **1** | **2** | **3** | **4** | **5** | **Qeyd** |
|---|---|---|---|---|---|
| Müdir-direktorun uşaqlara xidmət üzrə müavini | 1 | 1 | 1 | 1 | İl ərzində oxucuların sayı (o cümlə dən, virtual istifadəçilər) 2 min nəfərdən və illik kitab verilişinin miqdarı (o cümlədən, virtual xidmət) 20 min nüsxədən artıq olduqda, nümunəvi ştatlarda nəzərdə tutulandan əlavə baş kitabxanaçı (biblioqraf), multimedia mütəxəssisi, informasiya texnologiyaları üzrə ayrıla bilər. Bu zaman hər əlavə 400 nəfər oxucu və 8 min nüsxə kitab verilişi üçün 1 ştat vahidi ayrılır |
| Filial müdiri | - | - | - | - | |
| Baş kitabxanaçı | - | 1 | 1 | 1 | |
| Oxu zalının müdiri | 1 | 1 | 1 | 1 | |
| Multimedia resursları üzrə mütəxəssis | 1 | 1 | 1 | 1 | |
| Böyük biblioqraf | 1 | 1 | 1 | 1 | |
| **Cəmi** | **4** | **5** | **5** | **5** | |

## Şəhər, qəsəbə kitabxana filialları

| Vəzifələrin adı | İldə oxucuların sayı 800 nəfərədək (o cümlədən, virtual istifadəçilər), kitab verilişi (elektron xidmət) 15 min nüsxəyədək | İldə oxucuların sayı 800 nəfərdən (o cümlədən, virtual istifadəçilər), kitab verilişi (elektron xidmət) 15 min nüsxədən yuxarı olduqda |
|---|---|---|
| Filial müdiri | 1 | 1 |
| Böyük kitabxanaçı | - | |
| Multimedia resursları üzrə mütəxəssis | 1 | 1 |
| **Cəmi** | **2** | **3** |

## Kənd kitabxana filialları

| Vəzifələrin adı | İldə oxucuların sayı (o cümlədən, virtual istifadəçilər), 300 nəfərədək olduqda | İldə oxucuların sayı (o cümlədən, virtual istifadəçilər), 300 nəfərdən yuxarı olduqda | QEYD |
|---|---|---|---|
| Filial müdiri | 1 | 1 | Kənd kitabxana filialında multimedia nəşrləri varsa və 2-3 kənd kitabxana filialı birləşərkən, sərbəstləşən ştatlar hesabına multimedia resursları üzrə mütəxəssis ştatı verilə bilər |
| Kitabxanaçı | 1 | 1 | |
| Multimedia resursları üzrə mütəxəssis | - | 1 | |
| **Cəmi** | **2** | **3** | |

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ

## QƏRAR № 343

Bakı şəhəri, 18 dekabr 2013-cü il

### "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 oktyabr tarixli 162 nömrəli qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 oktyabr tarixli 162 nömrəli qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,

2011, № 10, maddə 968; 2012, № 11, maddə 1213) aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Bu qərar qüvvəyə mindiyi tarixədək Bakı şəhərində yerləşən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin filiallarında kitabxana işçiləri tərəfindən tutulmuş, lakin bu qərarla müəyyən edilmiş say həddindən artıq ştatlar gələcəkdə yarana biləcək vakansiyalar hesabına ləğv edilsin.".

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikası Baş nazirinin**
**birinci müavini Yaqub Eyyubov**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZIRLƏR KABİNETİ

## QƏRAR № 368

Bakı şəhəri, 23 sentyabr 2016-cı il

## "Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı Qaydası"nın təsdiq edilməsi barədə

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı Qaydası" təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının**
**Baş naziri Artur Rasi-zadə**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 23 sentyabr tarixli 368 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı

## QAYDASI

1. Ümumi müddəalar

1.1. Bu Qayda "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 22.3-cü maddəsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Mədəniyyət məhsullarının istehsalını və mədəniyyət xidmətlərinin göstərilməsini mədəniyyət təşkilatları həyata keçirir.

1.3. Azərbaycan Respublikasında mədəniyyət sahəsində müəlliflik hüququ və əlaqəli hüquqların həyata keçirilməsi və qorunması "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

1.4. Milli mədəni irsə aid, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə məxsus mədəni sərvətlərin hüquqi və fiziki şəxslər tərəfindən kommersi-

ya və qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi ictimai varidata aid olan nümunələrin istisna olunması şərtilə və həmin sərvətlərin hüquq sahiblərinin (müəlliflərinin və ya əsərə müəlliflik hüququnun digər sahiblərinin) müəlliflik hüquqlarının qorunması təmin olunmaqla, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin (bundan sonra - Nazirlik), tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin (bundan sonra – Agentlik), "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində - Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin (bundan sonra - İdarə) razılığı ilə həyata keçirilir. Azərbaycan Respublikasının ərazisində folklor nümunələrindən istifadə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun qaydada aparılır, Azərbaycan Respublikasının hüdudlarından kənarda digər dövlətlərin fiziki və hüquqi şəxsləri tərəfindən Azərbaycan folkloru nümunələrindən kommersiya məqsədi ilə istifadə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin razılığı ilə həyata keçirilir.[1]

**2. Qaydanın tətbiq edilməsi**

2.1. Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalını aşağıdakı şəxslər həyata keçirirlər:

2.1.1. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər;

2.1.2. mədəniyyət müəssisələri və təşkilatları, o cümlədən mədəniyyət sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları.

2.2. Bu Qayda milli mədəni irsə aid, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə məxsus mədəni sərvətlərin fiziki şəxslər tərəfindən qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsinə şamil olunmur.

2.3. Digər dövlətlərin hüquqi və fiziki şəxsləri tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan folkloru nümunələrindən kommersiya məqsədi ilə istifadə edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 20 oktyabr tarixli 172 nömrəli qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan folkloru nümunələrindən kommersiya məqsədi ilə istifadəsinə icazə verilməsi Qaydaları"na uyğun həyata keçirilir.

**3. Razılığın alınması**

3.1. Bu Qaydanın 1.4-cü bəndində göstərilən məqsədlər üçün şəxslər Nazirliyə, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Agentliyə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində isə İdarəyə ərizə ilə müraciət etməlidirlər. Ərizədə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsində nəzərdə tutulmuş məlumatlarla yanaşı, aşağıdakılar da göstərilir: [2]

3.1.1. üzü köçürülən, çoxaldılan, suvenirlərin və çap məhsullarının istehsalında əsas olan mədəni sərvətlərin adı;

3.1.2. mədəni sərvətlərin istifadəsinin forması (üzünün köçürülməsi, çoxaldılması, suvenirlərin və çap məhsullarının istehsalı);

3.1.3. istifadənin məqsədi (kommersiya və ya qeyri-kommersiya) və müddəti.

3.2. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

3.2.1. hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışın) və nizamnaməsinin surəti;

3.2.2. ərizəçi qeyri-kommersiya hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda-vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin (VÖEN-in) surəti;

3.2.3. hüquq sahiblərinə (müəlliflərə və ya əsərə müəlliflik hüququnun digər sahiblərinə) məxsus mədəni sərvətlərin istifadəsinə dair onların razılığı barədə sənəd.

3.3. Bu Qaydanın 3.1-ci bəndində göstərilən razılığın alınması ilə bağlı icraat “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.

3.4. Nazirliyin, tabeliyindəki dövlət qoruqlarının ərazilərində Agentliyin, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində isə İdarənin razılığı “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 58-ci və 59-cu maddələrinə uyğun olaraq inzibati akt formasında rəsmiləşdirilir.

3.5. “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun 22.3-cü maddəsinin tələblərinin pozulması halları aşkar olunduqda, razılığın verilməsindən imtina edilir və ya verilmiş razılıq ləğv edilir.

3.6. Razılığın verilməsindən imtina edildikdə və ya verilmiş razılıq ləğv edildikdə, inzibati akt yazılı şəkildə əsaslandırılmalıdır. Əsaslandırılma zamanı işin faktiki və hüquqi halları və bu halları təsdiq və ya rədd edən sübutlar, habelə inzibati akt qəbul edilərkən istinad olunan qanunlar və digər normativ-hüquqi aktlar göstərilməlidir.

3.7. Bu Qaydanın 3.5-ci bəndinə əsasən qəbul edilmiş inzibati aktdan şikayət inzibati qaydada və məhkəmə qaydasında verilə bilər.

## AZƏRBAYCAN RESPUBLİKASI
## NAZİRLƏR KABİNETİ

## QƏRAR
7 sentyabr 2018-ci il № 379

### Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının işçilərinin say həddinin təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının işçilərinin say həddi 100 vahid təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu qərardan irəli gələn məsələləri həll etsinlər.

**Azərbaycan Respublikasının**
**Baş naziri Novruz Məmmədov**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN

# QƏRARI

Bakı şəhəri, 12 sentyabr 2018-ci il

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiya üzvlərinin sayı *10 (on)* nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının mədəniyyət naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Aparatının rəhbəri

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi

Azərbaycan Milli Kitabxanasının direktoru:

-[Tahirov Kərim Məhəmməd oğlu]

|2. “Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 146 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 574; 2007, № 11, maddə 1180; 2008, № 7, maddə 691; 2011, № 12, maddə 1254; 2014, № 10, maddə 1327; 2015, № 4, maddə 455, № 6, maddə 798, № 10, maddə 1247; 2016, № 6, maddə 1191) 1-ci və 2-ci hissələri ləğv edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri Novruz Məmmədov**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

**QƏRAR № 418**
Bakı şəhəri, 25 sentyabr 2019-cu il

## "Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası"nın təsdiq edilməsi haqqında

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 593 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası" təsdiq edilsin (əlavə olunur)

**Azərbaycan Respublikasının**
**Baş Naziri Novruz Məmmədov**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 sentyabr tarixli 418 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı

# QAYDASI

## Ümumi müddəalar

1.1. Bu Qayda "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin dördüncü hissəsinə əsasən hazırlanmışdır.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının "Kitabxana işi haqqında", "Nəşriyyat işi haqqında" və "Kütləvi informasiya vasitələri haqqında" qanunlarında və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulmuş mənaları ifadə edir.

1.3. Bu Qaydanın tələbləri Azərbaycan Respublikasının ərazisində olan və (və ya) fəaliyyət göstərən nəşriyyatlara, qəzet və jurnal redaksiyalarına, nəşriyyat işi ilə məşğul olan poliqrafiya müəssisələrinə və digər hüquqi şəxslərə şamil olunur.

1.4. Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatına nəzarəti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi həyata keçirir.

## 2. Məcburi nüsxələr

2.1. Aşağıdakı çap məhsulları bu Qaydanın məqsədləri üçün məcburi nüsxələr hesab edilir:

2.1.1. kitab, almanax və kitabçalar;

2.1.2. dövri mətbuat materialları, qəzet və jurnallar;

2.1.3. avtoreferat, monoqrafiya və dissertasiyalar;

2.1.4. not yazıları, albom və statistik materiallar;

2.1.5. xəritə, atlas və kartoqrafik materiallar;

2.1.6. afişa, plakat və bukletlər;

2.1.7. broşür, bülleten, açıqca və poçt markaları;

2.1.8. dərsliklər, dərs vəsaitləri və proqramlar;

2.1.9. özündə elmi, ədəbi və informativ məlumatları ehtiva edən digər nəşrlər.

2.2. Reklam və təbliğat məqsədilə çap edilən bütün növ nəşr məhsulları məcburi nüsxə hesab olunmur.

**3. Kitabxanaları məcburi nüsxələrlə təmin edən subyektlər**

3.1. Kitabxanaları məcburi nüsxələrlə təmin edən subyektlər aşağıdakılardır:

3.1.1. dövlət nəşriyyatları;

3.1.2. qeyri-dövlət nəşriyyatları;

3.1.3. nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri;

3.1.4. qəzet və jurnal redaksiyaları;

3.1.5. nəşriyyat fəaliyyəti ilə məşğul olan digər hüquqi şəxslər.

**4.Məcburi nüsxələrin sayı və təqdim olunacağı kitabxanalar**

4.1. Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər (qəzet və jurnal redaksiyaları istisna olmaqla) tərəfindən buraxdıqları çap məhsullarının 3 pulsuz məcburi nüsxəsi 10 iş günü müddətində "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin birinci bəndində göstərilmiş kitabxanalara və 2 pulsuz məcburi nüsxəsi həmin Qanunun 15-ci maddəsinin birinci hissəsinin ikinci bəndində göstərilmiş kitabxanalara göndərilməlidir.

4.2. Qəzet və jurnal redaksiyalarının buraxdıqları qəzet və jurnalların 2 pulsuz məcburi nüsxəsi tirajın ilk buraxılışı hazırlanan kimi, bu Qaydanın 4.1-ci bəndində göstərilmiş kitabxanalara göndərilməlidir.

4.3. Sifarişçi ilə nəşriyyat (naşir) arasında bağlanılmış müqavilədə nəzərdə tutulduğu halda, məcburi nüsxələrin elektron variantları da bu Qaydanın 4.1-ci bəndində göstərilmiş kitabxanalara təqdim olunmalıdır.

4.4. Məcburi nüsxələr nəşrin ümumi tirajına daxildir və sifarişçinin hesabına çap olunur.

5. **Məcburi nüsxələrin kitabxanalara göndərilməsi qaydası**

5.1.Məcburi nüsxələr bu Qaydanın 4.1-ci bəndində göstərilmiş kitabxanalara bu Qaydanın 3-cü hissəsində nəzərdə tutulmuş subyektlər tərəfindən birbaşa və ya poçt rabitəsi vasitəsilə təqdim olunur.

5.2.Bu Qaydanın 4.3-cü bəndində nəzərdə tutulan halda məcburi nüsxələrin elektron variantı kitabxanaların saytlarında qeyd olunan ünvana elektron poçt və ya elektron daşıyıcılar vasitəsilə təqdim edilir.

6. Kitabxanaların məcburi nüsxələrdən istifadə qaydası

6.1. Kitabxana fondunun tərkibinə daxil olan obyektlərdən istifadə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir.

6.2. Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı ilə bağlı tələblərin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Azərbaycan Respublikasının**
**Baş Naziri Novruz Məmmədov**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ

## QƏRAR № 507

Bakı şəhəri, 28 dekabr 2019-cu il

### “Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının işçilərinin say həddinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 sentyabr tarixli 379 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının işçilərinin say həddinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 sentyabr tarixli 379 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1907) 1-ci hissəsində “126” rəqəmləri “100” rəqəmləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri Əli Əsədov**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ

## QƏRAR № 103

Bakı şəhəri, 20 mart 2020-ci il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 sentyabr tarixli 418 nömrəli Qərarı ilə təsdiq edilmiş "Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası"nda dəyişiklik edilməsi barədə

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 890 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 sentyabr tarixli 418 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1572) ilə təsdiq edilmiş "Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası"nın 4.1-ci bəndində "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin birinci bəndində göstərilmiş kitabxanalara" sözləri "Azərbaycan Milli Kitabxanasına" sözləri ilə və "həmin Qanunun 15-ci maddəsinin birinci hissəsinin ikinci bəndində göstərilmiş kitabxanalara" sözləri "Azərbaycan Respublikası Prezidenti-

nin Kitabxanasına, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına, Azərbaycan Respublikasının Dövlət Elmi-Tibbi Kitabxanasına, Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasına, Respublika Elmi-Pedaqoji Kitabxanasına, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasına və Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş Naziri Əli Əsədov**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ

## QƏRAR № 116

Bakı şəhəri, 29 mart 2020-ci il

## "Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 30 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 30 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 219; 2003, № 9, maddə 524; 2006, № 5, maddə 463; 2007, № 2, maddə 184) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi"nin 5.6-cı bəndi aşağıdakı redaksiyada verilsin:

"5.6. Kitabxananın çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təmin edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 sentyabr tarixli 418 nömrəli Qərarı ilə təsdiq edilmiş "Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası"na uyğun olaraq həyata keçirilir.".

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası

Elmi-Sahəvi Kitabxanasının Nümunəvi Əsasnaməsi"nin 3.1-ci bəndinin on birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 sentyabr tarixli 418 nömrəli Qərarı ilə təsdiq edilmiş "Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası"na uyğun olaraq çap məhsullarının pulsuz məcburi nüsxələrini alır.".

**Azərbaycan Respublikasının**
**Baş Naziri Əli Əsədov**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ

## QƏRAR № 417

Bakı şəhəri, 26 oktyabr 2020-ci il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq, gənclər kitabxanalarının və kitabxana-klubların nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında" 2011-ci il 11 oktyabr tarixli 162 nömrəli, qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 20 aprel tarixli 4 nömrəli Sərəncamının 2.5-ci bəndinin, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının 5.2-ci bəndinin, "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanının 4.2-ci bəndinin və "Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" 2019-cu il 22 oktyabr tarixli 1498 nömrəli Sərəncamının 6.6-cı bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 oktyabr tarixli 162 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 968; 2012, № 11, maddə 1213; 2013, № 12, maddə 1634; 2015, № 10, maddə 1219) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının şəhər (ra-

yon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq, gənclər kitabxanalarının və kitabxana-klubların nümunəvi strukturu və ştat vahidləri”nin “Qeyd” sütunundan və “Turizm” sözləri çıxarılsın.

**Azərbaycan Respublikasının**
**Baş Naziri Əli Əsədov**

# IV FƏSİ
# AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNİN ƏMRLƏRİ

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin Əmri**
18.06.2008-ci il

## Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sistemindəki şəhər (rayon) Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında

## Ə S A S N A M Ə

### 1. Ümumi müddəalar

**1.1.** Eyni sistemə aid olan kitabxanaları vahid strukturda özündə könüllü birləşdirən şəhər (rayon) Mərkəzləşdirilmiş Kitabxana Sistemi (bundan sonra - MKS) dövlət mədəniyyət sisteminə və dövlətin mülkiyyətinə daxil olan mədəniyyət təsisatıdır.

**1.2.** MKS öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Mədəniyyət haqqında" və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunlarını, digər qanunvericilik aktları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnaməni, Nazirliyin əmr, sərəncam və Kollegiya qərarlarını, şəhər (rayon) İcra Hakimiyyətinin əmr və sərəncamlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

**1.3.** MKS Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindədir və müstəqil balansda olan büdcə təşkilatıdır. O, qanunvericiliyə uyğun olaraq sərəncamında olan

dövlət əmlakına, yerli xəzinədarlıq orqanlarında hesablarına, üzərində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, şəhər (rayon) Mədəniyyət və Turizm İdarəsinin (Şöbəsinin) və öz adı həkk olunmuş möhürə, müxtəlif ştamplara və blanka malikdir.

**1.4.** MKS hüquqi şəxsdir. O, öz öhdəliklərinə görə sərəncamında olan pul vəsaitlərinə cavabdehdir. MKS öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, öhdəliklər daşımaq, məhkəmədə iddiaçı və cavabdeh olmaq hüququna malikdir.

**1.5.** MKS-in tərkibinə aşağıdakı struktur bölmələr daxildir:

- şəhər (rayon) Mərkəzi kitabxanası;
- şəhər (rayon) Uşaq kitabxanası;
- şəhər kitabxana filialları;
- qəsəbə kitabxana filialları;
- kənd kitabxana filialları.

**1.6.** MKS təşkilati-hüquqi və mülkiyyət formalarından asılı olmayaraq hüquqi şəxslərin, habelə təhsil səviyyəsi, ixtisas, dinə münasibətdə məhdudiyyətlər qoyulmadan vətəndaşların, habelə bütün əhalinin onun fondundan və xidmətlərindən istifadə etmələrinə imkan verir.

**1.7.** MKS-in fondlarından istifadə qaydası, istifadəçilərlə münasibətlərin hüquqi forması «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununa, bu Əsasnaməyə, MKS-in Nizamnaməsinə və MKS-in direktoru tərəfindən «Kitabxanadan istifadə qaydaları»na müvafiq olaraq müəyyən edilir.

**1.8.** Şəhər (rayon) MKS-i haqqında Əsasnamə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilir.

## 2. MKS-in fəaliyyətinin predmeti, məzmunu və məqsədi

**2.1.** MKS-in fəaliyyətinin predmeti informasiya, elm, mədəni-maarif və təhsil işidir. Bu işə ilk növbədə fondların formalaşdırılması, elmi cəhətdən işlənməsi və mühafizəsi, kitabxanalardan istifadə

edənlərə kitabxana, informasiya və sorğu-biblioqrafiya xidmətlərinin göstərilməsi, kitabxanalararası və beynəlxalq abonementin təşkili, kitabxanaların elmi və metodik təminatı daxildir.

**2.2.** MKS özünün əsas fəaliyyətinə və onun məqsədlərinə müvafiq olaraq:

- fondların komplektləşdirilməsini, sistemləşdirilməsini, elmi və texniki cəhətdən işlənməsini, qorunub saxlanmasını, fondlardan sorğu tam istifadə edilməsini həyata keçirir;
- kitabxanadan istifadə edənlərə kitabxana, informasiya, biblioqrafiya xidmətləri sistemini təşkil edir;
- fonduna daxil olan kitablardan, digər mətbuat nümunələrindən, səs yazılarından, habelə müxtəlif informasiya daşıyıcılarından əhalinin kütləvi istifadəsini təşkil edir;
- informasiya və sorğu-biblioqrafiya işləri aparır, ənənəvi, habelə elektron kataloq və kartotekaları, habelə informasiyanın əks etdirilməsi, axtarışı və istifadəsi üçün elektron vasitələri əhatə edən informasiya-axtarış sistemini yaradır və onu daim təkmilləşdirir;
- biblioqrafik göstəriciləri və informasiya nəşrlərini həm müstəqil şəkildə, həm də başqa müəssisələrlə birlikdə hazırlayır və nəşr edir;
- öz səlahiyyətləri həddində əhaliyə və kitabxanalara metodik məsləhətlər verir və s. köməklik göstərir;
- ölkədaxili və xarici ölkələrdəki kitabxanalarla əlaqələr yaradır.

**2.3.** MKS-in əsas məqsədləri aşağıdakılardır:

vətəndaşların və bütün əhalinin informasiyadan və sənədlərdən sərbəst istifadə etmək imkanını, onların bəşər fəaliyyətinin bütün sahələrində milli və dünya mədəniyyətinin nailiyyətləri ilə tanış olmasını təmin etmək;

- əhatə etdiyi şəhərin (rayonun) ərazisindəki bütün yaşayış məntəqələrində əhalinin bütün təbəqələrinə kitabxana və informasiya xidmətini həyata keçirmək;
- ümumi əlyetərlik prinsipi əsasında cəmiyyətin informasiyaya olan tələbatını təmin etmək, informasiyadan sistemli icti-

mai istifadəni təşkil etmək, bununla da şəxsiyyətin peşə, təhsil və ümumi mədəni inkişaf səviyyəsinin artırılmasına kömək göstərmək;

- əhaliyə kitabxana xidmətinin təşkilində kitabxana sahəsinin bütün mütərəqqi formalardan istifadə etmək;
- sistemdaxili kitab mübadiləsindən və Kitabxanalararası Abonementdən istifadə etməklə bütün şəhər (rayon) əhalisinin informasiyadan istifadəsini təmin etmək;
- MKS-in kitab fonduna daxil olan yeni ədəbiyyat haqqında oxuculara mütəmadi şəkildə informasiya verilməsini təşkil etmək;
- oxucu sorğularını nəzərə almaqla MKS-in kitab fondunun komplektləşdirilməsini, daxil olan ədəbiyyatın kitabxana qaydası ilə işlənməsini və onların kitabxana filialları arasında bölüşdürülməsini təşkil etmək;
- MKS-ə daxil olan kitabxana filiallarına təşkilati, metodik və biblioqrafik köməkliyin göstərilməsini təmin etmək;
- stasionar kitabxanası olmayan yaşayış məntəqələrində, idarə, müəssisə və təşkilatlarda səyyar kitabxana xidmətini təşkil etmək;
- müəyyən olunmuş qaydada MKS-in vahid kitab fondunun, oxucularının və kitab verilişinin uçotunu və hesabatını təşkil etmək;
- "İnternet" sistemi vasitəsilə respublika və xarici ölkələrin kitabxanaları arasında məlumat-biblioqrafiya və kitabxana işini əlaqələndirmək;
- müasir cəmiyyətin bütün sahələrində cərəyan edən proseslər barədə informasiya əldə etmək;
- maraqlar üzrə formalaşmış qruplarda asudə vaxtın keçirilməsini və ünsiyyəti təşkil etmək;
- oxucu sorğularını daha dolğun ödəmək üçün elektron informasiya mənbələrindən geniş şəkildə istifadə etmək;
- şəhər (rayon) uşaq kitabxanası, kitabxana filiallarının uşaq bölmələri tərəfindən uşaq və yeniyetmələrin informasiya və ümumi mədəni tələbatının ödənilməsinə, böyüməkdə olan nəslin müstəqil təhsil almasına və özünütərbiyəyə, qiraət və kitabxana fondlarından istifadə mədəniyyətinin tərbiyə edilməsinə şərait yaratmaq;

− ənənəvi və qeyri-ənənəvi informasiya daşıyıcılarındakı sənəd-informasiya resurslarının və mədəni dəyərlərinin toplanması, qorunub saxlanması və yayılmasını təmin etmək.

**2.4.** MKS özünün əsas fəaliyyəti ilə yanaşı Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan başqa fəaliyyəti də həyata keçirə bilər.

**3. MKS-in hüquq və vəzifələri**

**3.1.** MKS aşağıdakı hüquqlara malikdir:

- Əsasnamədə göstərilmiş məqsəd və vəzifələrə müvafiq olaraq öz fəaliyyətinin məzmununu və konkret formalarını müstəqil müəyyən etmək;

- "Kitabxana işi haqqında" Qanuna müvafiq olaraq fondların komplektləşdirilmə mənbələrini müstəqil müəyyən etmək;

- MKS-in fondunu oxucuların tələbatına uyğun yeni nəşrlərlə komplektləşdirmək, beynəlxalq və respublikadaxili kitab mübadiləsini həyata keçirmək məqsədi ilə mübadilə fondu üçün kitab almaq;

- MKS-in strukturu, ştatları, əməyin ödənilməsi forması, sistemi və məbləğləri, habelə mövcud vəsaitlər həddində əməkdaşların sosial təminatı ilə bağlı güzəştlər barədə təkliflər hazırlamaq;

- MKS-in struktur bölmələrinin (filiallar, şöbələr və hüquqi şəxs olmayan digər xüsusi bölmələr) yaradılması barədə təkliflər vermək;

- MKS-ə daxil olan Mərkəzi kitabxananın şöbələrinin, Uşaq kitabxanasının və kitabxana filiallarının işini yoxlayıb müzakirə etmək, fəaliyyətlərinin nəticələrini qiymətləndirmək və müvafiq qərarlar qəbul etmək, qabaqcıl iş təcrübəsini öyrənmək, ümumiləşdirmək və tətbiq etmək;

- MKS-ə daxil olan struktur bölmələrinin iş planlarını təsdiq etmək, onlardan hesabatlar yığmaq və ümumiləşdirərək yuxarı təşkilatlara təqdim etmək;

- MKS-də çalışan kitabxana işçilərinin attestasiyadan keçirilməsini təşkil etmək, onların ixtisaslarının artırılması üçün təd-

birlər görmək, əməkdaşların maddi və mənəvi cəhətdən həvəsləndirilməsi və fərqlənməsi üçün təkliflər vermək;

- MKS-in fondlarından istifadə edilməsi qaydalarını, əsas xidmətlərin siyahısını və onların istifadəçilərə təqdim olunması qaydasını müəyyən etmək, Nazirliklə razılaşdıraraq «MKS-dən istifadə qaydaları»nı təsdiq etmək;
- nadir və qiymətli nəşrlər istifadəyə təqdim edildikdə, eləcə də MKS-dən istifadə qaydalarında müəyyən edilmiş başqa hallarda girovun məbləğini müəyyən etmək;
- "Kitabxana işi haqqında" Qanuna, habelə MKS-dən istifadə qaydalarına müvafiq olaraq, MKS-in kitabxana fonduna istifadəçilər tərəfindən vurulmuş ziyanın maddi məsuliyyətini tələb etmək;
- istifadəçilərə təqdim edilən xidmətlərin siyahısının genişləndirilməsi və MKS-in inkişafı məqsədilə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq (bu cür fəaliyyət MKS-in əsas fəaliyyətinə zərər vurmamaq şərti ilə);
- Nazirliklə razılaşdırılmaqla MKS-də əlavə pullu xidmətlərin tətbiq edilməsi və reallaşdırılması mexanizmini müəyyən etmək;
- MKS-in inkişafı və ayrı-ayrı fəaliyyət növləri üçün müxtəlif fondlardan qrantlar almaq;
- müəyyən olunmuş qaydada kitabxanalarla və başqa təşkilatlarla birgə razılıq, yaxud müqavilə əsasında əməkdaşlıq etmək;
- kitabxana-informasiya sahəsinə dair konfranslar, seminarlar, dəyirmi masalar, sərgilər, müsabiqələr və s. tədbirlər təşkil etmək;
- beynəlxalq kitab mübadiləsi və beynəlxalq əməkdaşlığı həyata keçirmək, beynəlxalq təşkilatlara üzv olmaq, beynəlxalq kitabxana və s. proqramların həyata keçirilməsində iştirak etmək (Nazirliklə razılaşdırdıqdan sonra);
- Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada MKS yanında qəyyumluq, oxucu şuraları və başqa şuralar, habelə kitabxana birlikləri yaratmaq, ictimai və həmkarlar təşkilatlarının, assosiasiyaların, birliklərin üzvü olmaq;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə büdcə müəssisələrinə verilən bütün güzəştlərdən istifadə etmək;

- Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan başqa fəaliyyətlə məşğul olmaq.

MKS, onun fəaliyyətinin məqsədlərinə müvafiq olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

- MKS-in fondunda olan Azərbaycan və dünya ədəbiyyatı nümunələrinin, bütün kitab sərvətlərinin, digər informasiya vasitələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasını, onların geniş təbliğini təmin edir;
- fondlarını gələcək nəsillər üçün qoruyub saxlamaqla bəşəriyyətin məcmu mədəniyyətinə töhvə verir;
- fəaliyyətində partiyalara, ictimai hərəkatlara və dini konfessiyalara münasibətdə neytrallığa riayət edir;
- zəruri resurslardan, materiallardan və informasiyadan bərabərhüquqlu istifadə prinsiplərinə riayət etməklə MKS-in bütün istifadəçilərinə yüksək keyfiyyətli xidmətlər təqdim edir;
- sistemə daxil olan kitabxana filiallarının fondlarının komplektləşdirilməsini təmin edir;
- istifadə üçün yararsız olan kitabları müəyyən olunmuş qaydada fonddan çıxarır;
- əhaliyə və kitabxana filiallarına metodik, məsləhət və digər zəruri kömək göstərilməsini təmin edir;
- MKS-in maddi və insan resurslarından, o cümlədən operativ idarə edilmək üçün ona verilmiş əmlakdan səmərəli istifadə edir;
- fiziki və hüquqi şəxslər tərəfindən kitabxanaya dəymiş ziyanın ödənilməsini MKS qanunvericilikdə müəyyən edilmiş qaydada tələb edir;
- qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş qaydada Nazirlik və dövlət statistika orqanları qarşısında hesabat verir;
- İnternet sistemi vasitəsilə respublika və xarici ölkələrin kitabxanaları ilə işini əlaqələndirir;
- MKS-in fondunda olan qiymətli nəşrlərin üzə çıxarılması, uçotu və mühafizəsi ilə məşğul olur;
- MKS-in fəaliyyəti ilə bağlı ərizə və müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada baxılmasını təmin edir;

− kitabxana-informasiya sahəsində kadr siyasətini həyata keçirir;

− MKS-in inkişafı və modernləşdirilməsinə dair layihələr və planlar hazırlayır.

**4. MKS-in əmlakı**

**4.1.** MKS-in əmlakı müstəqil balansda uçota alınır və bu Əsasnaməyə müvafiq olaraq MKS-in məqsəd və vəzifələrinin yerinə yetirilməsi üçün zəruri olan əsas və dövriyyə vəsaitlərindən ibarətdir. MKS-in bütün əmlakı ona operativ idarəetmə hüququ ilə təhkim olunmuşdur.

**4.2.** MKS-in əmlakına aşağıdakılar aiddir:

- MKS-ə təhkim olunmuş bütün əmlak;
- MKS-in mövcud maliyyə vəsaitləri hesabına, o cümlədən Nizamnamə üzrə nəzərdə tutulan fəaliyyətdən əldə edilən gəlirlər hesabına alınan əmlak;
- hüquqi və fiziki şəxslərdən, eləcə də vəsiyyətnamə üzrə, müqavilə üzrə və ya başqa əsaslarla bağışlama, ianə formasında alınan əmlak.

**4.3.** MKS ona təhkim olunmuş əmlaka operativ idarəetmə hüquqları ilə sahiblik edir, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hədlər daxilində bu əmlakdan istifadə edir və onun barəsində sərəncam verir.

**5. MKS-in maliyyə vəsaitləri və maddi-texniki təchizatı**

**5.1.** MKS Dövlət Mədəniyyət sisteminin tərkib hissəsi kimi büdcə təşkilatıdır və şəhər (rayon) büdcə vəsaiti hesabına maliyyələşdirilir.

**5.2.** MKS-in maliyyə vəsaitləri aşağıdakı mənbələr hesabına yaranır:

- büdcə vəsaitləri və yerli büdcədən alınan başqa daxilolmalar;
- qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına;

**5.3.** MKS-in əsas fəaliyyətinin həyata keçirilməsi üçün ayrılan büdcə vəsaitlərindən onun məqsədinə aid olmayan istifadəsi,

o cümlədən büdcə ayırmalarının kredit müəssisələrinin depozit hesablarında yerləşdirilməsi və MKS tərəfindən əlavə gəlir əldə edilməsi üçün qiymətli kağızlar alınması qadağandır.

**5.4.** Müxtəlif mənbələrdən daxil olan vəsaitlər, o cümlədən MKS-in Nizamnaməsində nəzərdə tutulan fəaliyyətindən əldə edilən gəlirlər - əsaslı təmir, bərpa işləri, texniki vasitələr və avadanlıqla təchizat üçün ayırmalar, eləcə də məqsədli təyinatı olan könüllü ianələr müstəsna olmaqla, MKS-in ümumi gəlirinə daxil edilir.

**5.5.** MKS tərəfindən əhaliyə göstərilən pullu xidmətlərdən və hər hansı ödənişli fəaliyyət formalarından əldə edilən gəlir tam həcmdə MKS-in sərəncamında qalır və onun əsas Nizamnamə fəaliyyətinin inkişafına, xidmətin təkmilləşdirilməsinə sərf edilir. MKS təsərrüfat fəaliyyəti və pullu xidmət əsasında büdcədənkənar fondlar formalaşdırır.

**5.6.** Pullu xidmətlərin siyahısı müvafiq orqanların razılığı olduqdan sonra MKS-in direktorunun əmri ilə təsdiq edilir və müntəzəm qaydada yenidən nəzərdən keçirilir.

**5.7.** Qəbul edilmiş normativlərə uyğun olaraq yuxarı təşkilat kitabxananı bina, surətköçürtmə və çoxaltma texnikası, kompüter, nəşriyyat və cildləmə avadanlıqları ilə təmin edə bilər.

**6. MKS-in idarə edilməsi**

**6.1.** MKS-in idarə edilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Əsasnaməyə müvafiq olaraq Mədəniyyət və Turizm Nazirliyinin səlahiyyətləri daxilində həyata keçirilir.

**6.2.** MKS Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərir. MKS-ə nazirin əmri ilə təyin olunan direktor rəhbərlik edir.

**6.3.** Direktorun hüquq və vəzifələri:

− Azərbaycan Respublikasının qanunvericiliyi, bu Əsasnamə və MKS-in Nizmanaməsi əsasında fəaliyyət göstərir;

− MKS-in fəaliyyətinə cari rəhbərliyi həyata keçirir və Nazirlik qarşısında hesabat verir;

− MKS-i dövlət orqanlarında, digər idarə və müəssisələrdə, ictimai təşkilatlarda, hüquqi və fiziki şəxslərlə qarşılıqlı münasibətlərdə onun mənafelərini təmsil edir;

− mövcud qanunvericilik əsasında öz səlahiyyətləri həddində MKS-in adından müqavilələr bağlayır, etibarnamələr verir, MKS- in mülkiyyət və vəsaitlərinə dair sərəncam verir, qanunvericilikdə müəyyən edilmiş qaydada xəzinə hesabı açır;

− qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi, MKS əməkdaşlarının ixtisaslarının təkmilləşdirilməsi üçün məsuliyyət daşıyır;

− nizam-intizam qaydalarına və qanunlara riayət olunmasına, dövlət mülkiyyətinin qorunmasına şərait yaradır, kollektivin sosial inkişafında və istehsalat vəzifələrinin yerinə yetirilməsində MKS-in ehtiyatlarından səmərəli istifadə edir;

− direktor müavinləri və şöbə müdirləri arasında vəzifə bölgüsünü aparır;

− MKS-in və ayrı-ayrı şöbələrin, kitabxana filiallarının plan və hesabatlarını təsdiq edir;

− MKS-in maddi-texniki bazasının lazımi səviyyədə saxlanması və inkişaf etdirilməsi, oxucuların və əməkdaşların işi üçün, kitabxana fondlarının və sorğu aparatının, eləcə də binaların, avadanlığın bədii dəyər kəsb edən və digər əmlakın salamatlığının təmin edilməsi üçün tədbirlər görür;

− MKS-in ştat cədvəli və strukturu barədə təkliflər hazırlayır;

− vəzifə maaşları, maaş əlavələri və stimullaşdırıcı xarakterli digər ödənişlər barədə təklif hazırlayır;

− MKS üzrə əmr və göstərişlər verir;

− müvafiq normativ sənədlərə əsasən şəhər (rayon) Mədəniyyət və Turizm İdarəsi (Şöbəsi) ilə razılaşdırma yolu ilə Nazirliyin nomenklaturasına daxil olmayan işçiləri əmək qanunvericiliyinə və mövcud qaydalara əsasən işə qəbul və işdən azad edir, onlarla əmək müqavilələri bağlayır, həvəsləndirmə tədbirləri görür və intizam tənbehləri tətbiq edir;

− MKS-in fəaliyyətinin nəticələrinə görə fərdi məsuliyyət daşıyır.

**6.4.** MKS-in direktor müavinləri və mühasibi MKS-in direktorunun təqdimatı ilə Azərbaycan Respublikası şəhər (rayon) Mədəniyyət və Turizm İdarələri (Şöbələri) tərəfindən təyin edilir və azad olurlar.

**6.5.** MKS-in strukturuna şöbələr, sektorlar, funksional və sahəvi prinsiplər əsasında təşkil edilən digər qurumlar daxildir. MKS-in struktur bölmələrinə rəhbərlik filialların, şöbələrin (sektorların) müdirləri tərəfindən həyata keçirilir. MKS-in struktur bölmələri öz işlərini bu Əsasnaməyə, MKS-in Nizamnaməsinə, MKS-in direktoru tərəfindən təsdiq edilmiş qaydalara və iş planlarına uyğun qururlar;

**6.6.** Əməkdaşların hüquq və vəzifələri vəzifə təlimatlarında, daxili əmək intizamı qaydalarında, direktorun əmr və sərəncamlarında müəyyən edilir.

**6.7.** MKS işçisinin əmək müqaviləsi əsasında yaranmış münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir.

**6.8.** MKS idarəetmə, maliyyə-təsərrüfat sənədlərinin və şəxsi heyət barədə sənədlərin salamatlığına görə məsuliyyət daşıyır, onları müəyyən edilmiş qaydada dövlət tərəfindən saxlanmaq üçün arxivə təhvil verir.

**6.9.** MKS-in strukturu Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilir.

## 7. Digər şərtlər

**7.1.** MKS qanunvericiliklə nəzərdə tutulmuş qaydada ləğv və yenidən təşkil edilə bilər.

**7.2.** MKS-ə daxil olan Mərkəzi Kitabxananın, kitabxana filiallarının məcburiyyət qarşısında başqa yerə köçürülməsi, habelə MKS-in daxilində digər kitabxanalarla birləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada Mədəniyyət və Turizm Nazirliyinin müraciəti əsasında həyata keçirilir.

## Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əmri

**Bakı şəh.** **Əmr № 183** **09 aprel 2014-cü il**

## "Azərbaycan Milli Kitabxanasının Elmi şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında

Azərbaycanda informasiya cəmiyyəti quruculuğu şəraitində Azərbaycan Milli Kitabxanasının rolu artmaqdadır. Azərbaycan Milli Kitabxanasının Elmi şurası kitabxananın fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirən, elmi-tədqiqat və nəşriyyat fəaliyyətinin perspektivlərini müəyyən edən, kitabxananın işinin və strukturunun dövrün tələblərinə uyğun qurulmasına kömək məqsədilə yaradılır.

Yuxarıda yazılanları nəzərə alaraq

**ƏMR EDİRƏM:**

**1.** "Azərbaycan Milli Kitabxanasının Elmi şurasının Əsasnamə"si təsdiq edilsin.

**2.** Əmrin icrasına nəzarət Nazirin birinci müavini Vaqif Əliyevə həvalə edilsin.

Əsas: Azərbaycan Milli Kitabxanasının 2014-cü il 08 yanvar tarixli, 02 nömrəli məktubu, Nazirliyin Nəşriyyat, reklamın təşkili və informasiya şöbəsinin 2014-cü il 14 mart tarixli xidməti məlumatı

**Nazir** **Əbülfəs Qarayev**

*Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin 09 aprel 2014-cü il tarixli 183 nömrəli əmri ilə təsdiq olunmuşdur*

# Azərbaycan Milli Kitabxanasının Elmi şurası haqqında ƏSASNAMƏ

## 1. ÜMUMİ MÜDDƏALAR

**1.1.** Milli Kitabxananın Elmi şurası Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin __ nömrəli, ____tarixli əmrinə uyğun olaraq yaradılmışdır.

**1.2.** Elmi şura Milli Kitabxananın direktoru yanında kitabxanaşünaslıq, informatika, kitabşünaslıq, əlyazmaların və mətbu abidələrin elmi təsviri, sənədlərin konservasiyası və bərpası, kitabxanaların və arxivlərin təhlükəsizliyi sahəsində elmi fəaliyyətin əsas istiqamətlərini nəzərdən keçirən və əlaqələndirən məşvərətçi orqandır.

**1.3.** Elmi şura öz fəaliyyətində aşağıdakı sənədləri rəhbər tutur:

- qüvvədə olan normativ sənədləri;
- Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əmr və sərəncamları, habelə Kollegiyanın qərarlarını;
- Azərbaycan Milli Kitabxanasının Əsasnaməsini;
- bu Əsasnaməni.

**1.4.** Elmi şura haqqında Əsasnamə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilir.

**1.5.** Elmi şura haqqında Əsasnamənin qüvvədə olma müddəti 3 ildir. Bu müddətin bitməsinə bir ay qalmış Elmi şuranın yenidən təşkili barədə təkliflər verilməzsə, bu Əsasnamə növbəti 3 il üçün uzadılmış hesab edilir. Əsasnaməyə dəyişikliklər və əlavələr Milli Kitabxananın direktorunun təqdimatına əsasən aparılır.

**1.6.** Elmi şuranın qərarları Milli Kitabxananın direktoru tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

**1.7.** Milli Kitabxananın Elmi şurasının qərarları tövsiyə və məsləhət xarakteri daşıyır.

## 2. ELMİ ŞURANIN VƏZİFƏLƏRİ VƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

**2.1.** Milli Kitabxananın elmi araşdırmaların əsas istiqamətlərinin müəyyən edilməsi və əlaqələndirilməsi.

**2.2.** Elmi şuranın fəaliyyətinin əsas məqsədləri:

**2.3.** Milli Kitabxananın əsas informasiya bazası olan fondunun əhatəli komplektləşdirilməsinin və tamlığının təminatına dair tövsiyələr vermək;

**2.4.** Oxuculara və istifadəçilərə kitabxana və informasiya-biblioqrafik xidmətinin yaxşılaşdırılmasına, optimallaşdırılmasına və təkmilləşdirilməsinə, günün tələbləri səviyyəsində qurulmasına dair tövsiyələr vermək;

**2.5.** Milli Kitabxananın perspektiv və illik nəşriyyat planlarının və ayrı-ayrı nəşrlərin müzakirəsi.

**2.6.** Milli Kitabxananın elmi işinin başqa elmi müəssisələrin fəaliyyəti ilə əlaqələndirilməsi.

**2.7.** Milli Kitabxananın elmi kadrlarının hazırlanması, attestasiyası və onların ixtisas səviyyəsinin artırılması ilə bağlı tövsiyələrin hazırlanması.

## 3. ELMİ ŞURANIN MƏZMUNU

**3.1.** Milli Kitabxananın elmi fəaliyyətinin əsas istiqamətlərinin işlənib hazırlanması.

**3.2.** Milli Kitabxananın elmi-tədqiqat fəaliyyətinin, elmi araşdırmaların maddi-texniki və maliyyə təminatı ilə bağlı əsas məsələlərin müzakirəsi.

**3.3.** Elmi-tədqiqat, elmi-biblioqrafik və elmi-metodik işlərin proqramlarının və planlarının təsdiq edilməsi.

**3.4.** Kitabxana işinin aktual problemlərinin müzakirəsi və kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, informatika, kitabşünaslıq sahəsinin elmi işlərinin nəticələrinin qiymətləndirilməsi.

**3.5.** Direktorun və onun müavinlərinin, Elmi katibin, şöbələrin və bölmələrin, müvəqqəti tədqiqat qruplarının, ayrı-ayrı elmi işçilərin nəticələri haqqında hesabatların müzakirə və təsdiq edilməsi.

**3.6.** Kitabxana işi sahəsində ən mühüm nailiyyətlərin Milli Kitabxanada tətbiq edilməsinə dair tövsiyələr vermək.

**3.7.** Milli Kitabxananın strukturunda müvafiq dəyişikliklər aparılması barədə tövsiyələr vermək.

**3.8.** Milli Kitabxananın elmi əsərlərinin nəşri planlarının müzakirəsi.

**3.9.** Elmi əsərlərin müəlliflərinə müxtəlif mükafatlar verilməsi və başqa şəkildə fərqləndirilməsi məqsədilə təkliflərin verilməsi.

**3.10.** Milli Kitabxana tərəfindən təsis olunan nəşrlərin baş redaktorlarının seçilməsi, redaksiya heyətlərinin tərkibinin təsdiq edilməsi.

**3.11.** Milli Kitabxananın elmi əsərlərinin və əməkdaşlarının elmi işlərinin dərc olunmaq üçün tövsiyə edilməsi.

**3.12.** Azərbaycan Respublikasının başqa elmi müəssisələri, kitabxanaları, informasiya mərkəzləri və arxivləri ilə elmi əməkdaşlıq məsələlərinin müzakirəsi.

**3.13.** Milli Kitabxananın beynəlxalq əməkdaşlığı, xarici elmi müəssisələrlə birgə işlərin icrasının gedişi haqqında planların və hesabatların müzakirəsi, Milli Kitabxananın əməkdaşlarının xarici elmi ezamiyyələr haqqında hesabatlarının dinlənilməsi.

**3.14.** Milli Kitabxananın yerli və beynəlxalq assosiasiyalar, cəmiyyətlər, təşkilatlar və fondlarla qarşılıqlı fəaliyyətinə kömək.

**3.15.** Elmi kadrların hazırlanması və onların ixtisaslarının artırılması ilə bağlı məsələlərin müzakirəsi, Milli Kitabxananın mütəxəssislərinin kadrların hazırlanması üzrə işi haqqında məlumatların sistematik dinlənilməsi.

**3.16.** Namizədlik və doktorluq dissertasiyalarının mövzularının müzakirəsi və müvafiq tövsiyələr verilməsi.

## 4. ELMİ ŞURANIN HÜQUQLARI

**4.1.** BDU-nun alimlərini və aparıcı kitabxana mütəxəssislərini zəruri materialların hazırlanmasına və Şuranın iclaslarında məsələlərin müzakirəsində iştiraka cəlb etmək.

**4.2.** Konkret məsələlərin həlli üçün Şura üzvlərindən ibarət işçi qrupları yaratmaq və kitabxananın əməkdaşlarını həmin qruplarda işə cəlb etmək.

## 5. ELMİ ŞURANIN TƏRKİBİ

**5.1.** Elmi şuranın tərkibinə vəzifəyə görə yalnız Milli Kitabxananın direktoru və Elmi katib daxil olur.

**5.2.** Elmi şura yanında direktorun, onun elmi işlər üzrə müavininin və ya Elmi şuranın üzvləri olan başqa aparıcı alimlərin sədrliyi ilə seksiyalar yaradıla bilər.

**5.3.** Elmi şuranın seksiyalarının tərkibi Milli Kitabxananın direktorunun əmri ilə təsdiq edilir.

**5.4.** Elmi şuranın sədrinin dəvəti ilə Elmi şuranın iclaslarında başqa elmi müəssisələrin əməkdaşları məşvərətçi səs hüququ ilə iştirak edə bilərlər.

## 6. ELMİ ŞURA ÜZVLƏRİNİN HÜQUQLARI

**6.1.** Şuranın materialları ilə tanış olmaq və onun tapşırıqlarının icrası zamanı onlardan istifadə etmək.

**6.2.** Şuranın fəaliyyətinin istiqamətləri ilə bağlı məsələləri onun müzakirəsinə təqdim etmək.

**6.3.** Şuranın növbədənkənar iclasının çağırılması haqqında təkliflər irəli sürmək.

**6.4.** Şura üzvü üzürlü səbəbdən iclasda iştirak etmədikdə, öz səsini Şuranın sədrinə verə bilər.

## 7. ELMİ ŞURANIN İŞİNİN TƏŞKİLİ VƏ İŞ QAYDASI

**7.1.** Elmi şura iş planına uyğun olaraq ildə azı 4 dəfə iclas keçirir. Şura illik və rüblük planlar üzrə işləyir. Şuranın fəaliyyəti Milli Kitabxananın iş planına uyğunlaşdırılır.

**7.2.** Elmi şuranın iclasları zərurət yarandıqca, amma rübdə bir dəfədən gec olmayaraq keçirilir. İclaslarda bütövlükdə Milli

Kitabxananın və onun bölmələrinin iş planları və hesabatları müzakirə edilir, qarşıya qoyulmuş məsələlərin icrası üzrə aparılan cari iş haqqında məlumatlar dinlənilir, kitabxana işinin yaxşılaşdırılması və fəallaşdırılması sahəsində tədbirlər görülür.

**7.3.** Elmi şuranın iclasında onun tərkibinin ən azı yarısı iştirak etdiyi təqdirdə qərarlar qəbul etməyə səlahiyyətlidir.

**7.4.** Əgər Elmi şura gizli səsvermə keçirilməsi haqqında qərar qəbul etməsə, qərarlar açıq səsvermə ilə qəbul edilir.

**7.5.** Elmi şuranın qərarları o halda qəbul edilmiş hesab olunur ki, həmin qərara Elmi şuranın iclasda iştirak etmiş üzvlərinin ən azı 50% səs vermiş olsun.

**7.6.** Elmi şuranın fəaliyyəti haqqında hesabat Milli Kitabxananın ümumi illik hesabatına tərkib hissə kimi daxil olunur.

## 8. ELMİ ŞURANIN İDARƏ OLUNMASI

**8.1.** Elmi şuranın tərkibinə Milli Kitabxananın alimlik dərəcəsi olan, habelə elmi-tədqiqat işləri ilə məşğul olan əməkdaşları sırasından seçilir. Elmi şuranın tərkibinə həmçinin, Milli Kitabxanada işləməyən alimlər də daxil ola bilərlər.

**8.2.** Elmi şuranın sədri Milli Kitabxananın direktoru, Elmi şuranın sədr müavini - Milli Kitabxananın direktorunun elmi işlər üzrə müavini, Elmi şuranın Elmi katibi isə Milli Kitabxananın Elmi katibidir.

**8.3.** Elmi şuranın tərkibi Milli Kitabxananın direktorunun təqdimatına əsasən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirinin əmri ilə 3 il müddətinə təsdiq edilir.

**8.4.** Elmi şura Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin qərarı ilə ləğv oluna və onun tərkibində dəyişikliklər edilə bilər.

# Kitabxana fonduna vurulan ziyana görə oxucuların, hüquqi və fiziki şəxslərin məsuliyyətinin müəyyənləşdirilməsi QAYDALARI

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda kitab fondlarına vurulan ziyanın ödənilməsinin yeni qaydaları müəyyənləşdirilmişdir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən kitabxana fondlarına məxsus çap əsərlərinin və digər materialların itirilməsi və ya yararsız vəziyyətə salınmasına görə oxucular, hüquqi və fiziki şəxslər (milli mədəni sərvətlər reyestrinə daxil edilən nadir nüsxələr istisna olunmaqla) yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla, həmin çap əsərinin qiymətinin 10 misli həcmində maddi məsuliyyət daşıyırlar.

Bu proses kitabxana müdiriyyəti tərəfindən aşağıdakı qaydada həyata keçirilir:

**1.** Çap məhsullarını itirən, yararsız hala salan, yaxud qaytarmayan oxuculara həmin kitabın eyni nəşrini tapıb gətirmək təklif olunur.

**2.** Bu mümkün olmadıqda oxucuya onun kitabxana üçün vacib olan digər çap məhsulları ilə əvəz olunması təklif olunur.

**3.** Müvafiq nəticə alınmadıqda oxucuya itirilən və ya yararsız hala salınan çap məhsulunun yeni qiymətlərlə 10 misli həcmində cərimə ödəmək təklif olunur.

Əks təqdirdə məhkəməyə müraciət olunacağı barədə oxucuya yazılı xəbərdarlıq göndərilir. Yazılı xəbərdarlıq poçtla göndərilir və bu barədə poçtun müvafiq qəbzi alınır.

Yalnız bundan sonra kitabxananın müdiriyyəti məhkəməyə müraciət edə bilər.

Məhkəməyə aşağıdakı sənədlər təqdim olunur:

**1.** Çap əsərinin və digər materialların kitabxanadan alındığını və onun vaxtında qaytarılmamasını müəyyən edən sənəd (oxucu formulyarından çıxarış);

**2.** Qaytarılmamış, yararsız vəziyyətə salınmış çap əsərinin və digər materialın başqa müvafiq çap əsərləri, materialları ilə əvəz edilməsi barədə, yaxud çap əsəri və digər materialın qaytarılması, dəyişdirilməsi mümkün olmadıqda, onların qiymətinin 10 misli həcmində borcun ödənilməsi barədə yazılı xəbərdarlığın surəti;

**3.** Çap əsərinin və ya materialın qaytarılması, dəyişdirilməsi mümkün olmadıqda, borcun ödənilməsi haqqında yazılı xəbərdarlığın təqdim edilməsi barədə poçt bildirişinin surəti;

**4.** Qaytarılmamış, yararsız vəziyyətə salınmış çap əsərinin və digər materialın qiyməti barəsində yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla, sifarişçi tərəfindən təsdiqlənmiş kitabxananın inventar kitabından çıxarış.

Bütün bu sənədlər rəsmi məktubla məhkəməyə göndərilir.

Məhkəməyə edilən müraciətin nəticəsi itirilmiş kitabın oxucu tərəfindən qaytarılmasından, həmin çap əsərinin məqsədəmüvafiq ədəbiyyatla əvəz olunmasından, yaxud itirilmiş ədəbiyyatın 10 misli dəyərində cərimə ödənilməsindən ibarət olmalıdır.

Kitabxana fonduna vurulan ziyan müqabilində oxucular, hüquqi və fiziki şəxslər tərəfindən ödənilən vəsait yalnız kitabxana fondlarının komplektləşdirilməsinə yönəldilməlidir.

# MÜNDƏRİCAT

Giriş ........ 3

**1. FƏSİL.Qanunlar**

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ........ 5

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ........ 39

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunu ........ 53

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (4 mart 2016-cı il, № 174-VQD) ........ 67

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu(30 sentyabr 2016-cı il) ........ 68

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu(20 oktyabr 2017-ci il) ........ 69

Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı ilə bağlı tələblərin pozulmasına görə məsuliyyət haqqında "İnzibati Xətalar Məcəlləsi"ndən çıxarış ........ 71

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (19 fevral 2019-cu il.) ........ 72

"Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyanın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu ........ 74

Nəşrlərin beynəlxalq mübadiləsinə dair KONVENSİYA 3 dekabr 1958-ci il ........ 75

UNESCO-nun "Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyası üzrə Azərbaycan Respublikasının BƏYANATI ........ 82

**II FƏSİL. Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları**
**2.1. Fərmanlar**

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (12 mart 1999-cu il, №115) .......... 83

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (15 avqust 2000-ci il № 384) .......... 85

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı(15 fevral 2013-cü il .......... 87

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 20 may 2016-cı il, № 904 .......... 92

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 313-VQD nömrəli Qanununun tətbiqi və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (14 noyabr 2016-cı il) .......... 93

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, (16 iyun 2017-ci il №1469) .......... 95

“Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 815-VQD nömrəli Qanununun tətbiqi və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikasının 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı(6 noyabr 2017-ci il) .................... 97

“Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmani (19 mart 2019-cu il № 593) .................... 99

“Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəliFərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmani (23 dekabr 2019-cu il № 890) .................... 101

## 2.2. Sərəncamlar

“Azərbaycan Mədəniyyəti – 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .................... 103

“Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .................... 149

Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt STRATEGİYASI .................... 151

Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .................... 176

Azərbaycan dilində latın qrafikası ilə ilk növbədə yenidən nəşri nəzərdə tutulan kitabların siyahısı ... 179

Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 184

2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 186

2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşri nəzərdə tutulan əsərlərin siyahısı ... 187

Fərdi təqaüdlərin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış) ... 193

Azərbaycanda kitabxanaların fəaliyyətinin Yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 194

Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 197

Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 199

“Dünya ədəbiyyatı kitabxanası”na daxil olmuş əsərlərin siyahısı ... 200

“Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 205

Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı ... 206

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı ... 216

Azərbaycan qadınlarının bir qrupuna fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış)........ 234

Türkdilli ölkələrin milli kitabxana direktorlarının konfransı və "Avrasiya Kitabxanalar Assambleyası" əməkdaşlıq təşkilatının ümumi iclasının iştirakçılarına........ 235

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının əməkdaşlarına "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 237

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 238

Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı........ 239

Azərbaycan Milli Kitabxanasının əməkdaşlarına "Əməkdar Mədəniyyət İşçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 240

Azərbaycan Milli Kitabxanası əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı........ 241

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış)........ 242

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 243

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 244

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 174-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 245

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 247

M.H.Əhmədovun 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 248

K.M.Tahirovun 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 249

Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 250

**III FƏSİL. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları**

Azərbaycan Respublikası Nazirlər Sovetinin 1987-ci il 9 fevral tarixli 45 nömrəli qərarına dəyişiklik edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ........ 251

"Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ........ 253

Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydaları ........ 254

Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi əsasnamələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ........ 261

Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi .................................. 262

Azərbaycan Respublikası Elmi-Sahəvi
Kitabxanasının nümunəvi Əsasnaməsi .............................................. 268

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına
Milli Kitabxana statusu verilməsi barədə
Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ...................... 274

"Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş
kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər,
qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə
kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi
strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında
Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ................. 275

Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş
kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər,
qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər,
qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi
strukturu və ştat vahidləri ................................................................. 277

"Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş
kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər,
qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə
kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu
və ştat vahidləri"nin təsdiq edilməsi haqqında"
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il
11 oktyabr tarixli 162 nömrəli qərarında dəyişiklik
edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər
Kabinetinin Qərarı ............................................................................. 282

"Azərbaycan Respublikasında milli mədəni irsə,
o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana,
kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin
üzünün köçürülməsi, çoxaldılması, onların əsasında
suvenirlərin, çap məhsullarının istehsalı Qaydası"nın
təsdiq edilməsi barədə Azərbaycan Respublikası
Nazirlər Kabinetinin qərarı № 368 ................................................... 284

Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı Qaydası .............................. 285

"Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının işçilərinin say həddinin təsdiq edilməsi Haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 7 sentyabr 2018-ci il № 379 .................................................. 289

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 12 sentyabr 2018-ci il, №379 ............... 290

"Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı .................. 292

Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı QAYDASI ..................................................... 293

"Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 sentyabr tarixli 379 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ........................................................................ 296

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 sentyabr tarixli 418 nömrəli Qərarı ilə təsdiq edilmiş "Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 20 mart 2020-ci il, № 103 ........................................................................ 297

"Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli

30 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ................. 299

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq, gənclər kitabxanalarının və kitabxana-klubların nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında" 2011-ci il 11 oktyabr tarixli 162 nömrəli, qərarlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ........................................................... 301

**IV FƏSİL. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əmrləri**

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sistemindəki şəhər (rayon) Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında Əsasnamə............................................ 303

"Azərbaycan Milli Kitabxanasının Elmi şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əmri ................... 314

Azərbaycan Milli Kitabxanasının Elmi şurası haqqında Əsasnamə ..................................................................... 315

Kitabxana fonduna vurulan ziyana görə oxucuların, hüquqi və fiziki şəxslərin məsuliyyətinin müəyyənləşdirilməsi Qaydaları......... 320

M.F.Axundov adına Azərbaycan
Milli Kitabxanası
Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç. 57;
E-mail: contact@anl.az;
URL: www.millikitabxana.az
Sifariş: №04
Çapa imzalanmışdır: 16.03.2026
Tirajı: 300
Pulsuz

Mətbəənin direktoru:
***Elman Qasımov***

Dizayner:
***Mətanət Əliqızı***

Formatı: 60x90 1/16. Həcmi: 20,75 ç.v. Sifariş: №19
"Zərdabi-Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 498-79-62, mob. (050; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru